ISSN 1682-9123

AZƏRBAYCAN RESPUBLİKASI
ODLAR YURDU UNİVERSİTETİ

# ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ

# THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

# НАУЧНЫЕ И ПЕДАГОГИЧЕСКИЕ ИЗВЕСТИЯ УНИВЕРСИТЕТА ОДЛАР ЮРДУ

№ 66

Bakı ✫ 2026 ✫ Baku

**Baş redaktor: f.r.e.d., prof.Ə.A.VƏLİYEV**

**Məsul katib**: dosent F.K. Xudaverdiyev

**Humanitar elmlər üzrə baş redaktor müavini**: prof.S.Ə.Vəliyev
**Texniki və təbiət elmləri üzrə baş redaktor müavini**: prof.F.S. Məmmədov

**Redaksiya heyətinin üzvləri:** akad.A.M.Paşayev, akad.N.Q.Cəfərov, akad.Ə.M.Abbasov, AMEA müxbir üzvü, prof.Q.C.İmanov, prof.Ə.Q.Əlirzayev, prof.M.H.Əliyev, prof.M.M.Bağırov, prof.E.Y.Məmmədov, prof.R.M.Məmmədov, prof.R.V.Cabbarov, prof.M.Ə.Vəliyev, prof.M.B.Vəliyev, prof.M.İ.Əliyev, prof.N.H.Cavadov, prof.A.Ə.Əliyev, prof.B.T.Bilalov, prof.A.Avey (Türkiyə), prof.M.Cəmşidi (ABŞ), prof.H.B.Meladze (Gürcüstan), prof.Y.M.Morozov (Rusiya), prof.E.H.Hüseynov, dosent M.M.Quliyev.

**Журнал рецензируется и реферируется в ВИНИТИ (№10211-5335/54-34)**

**Editor-in-chief: Prof. A.A.VALIYEV**

**Executive Secretary:** assoc. prof.F.K.Hudaverdiyev

**Deputy Editors-in-chief:** prof.S.A.Valiyev (Humanities), prof.F.S.Mamedov (Exact Sciences)

**Editorial Board:** acad.A.M.Pashayev, acad.N.G.Jafarov, acad.A.M.Abbasov, correspondent member of the National Academy of Science of Azerbaijan prof.G.J.Imanov, prof.A.G.Alirzayev, prof.M.H.Aliyev, prof.M.M.Baghirov, prof.E.Y.Mamedov, prof.R.M.Mamedov, prof.R.V.Jabbarov, prof. M.A.Valiyev, prof. M.B.Valiyev, prof.M.I.Aliyev, prof.N.H.Javadov, prof.A.A.Aliyev, prof.B.T.Bilalov, prof.A.Avey (Turkey), prof.M.Jamshidi (USA), prof.H.B.Meladze (Georgia), prof.Y.M.Morozov (Russia), prof.E.H.Huseynov, assoc.prof.M.M.Guliyev.

**All the articles in this journal are peer-reviewed and include summaries.**

The address of editorial office:
General Department, Odlar Yurdu University, 13 Koroglu Rahimov St., Baku AZ1072, Azerbaijan
Tel.: (+994 55) 465 85 27
Fax: (+994 12) 465 67 05
http://www.journal.oyu.edu.az
e-mail: journal@oyu.edu.az

OYU-2026

Az.073 «Odlar Yurdu» nəşriyyatı, 2026-cı il

Redaksiyanın ünvanı: Bakı AZ1072, Koroğlu Rəhimov küçəsi 13
Odlar Yurdu Universiteti, Ümumi şöbə

TƏSİSÇİ:

Odlar Yurdu Universiteti

Jurnal 1998-ci ilin dekabr ayından nəşr olunur

Dövriliyi ildə ən azı iki dəfədir

Jurnal Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən rəsmi qeydiyyata alınmışdır. Qeydiyyat nömrəsi: AB022011, 27.11.1998

Jurnal Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən riyaziyyat, mexanika, iqtisad, texnika, tibb, əczaçılıq, biologiya, aqrar, hüquq, tarix, antropologiya, siyasi, psixologiya, pedaqogika və filologiya elmləri sahəsində tövsiyə edilən elmi nəşrlər siyahısına daxil edilmişdir



*Redaksiyanın ünvanı:* Bakı AZ1072, Koroğlu Rəhimov küçəsi 13, Odlar Yurdu Universiteti, Ümumi şöbə

Tel.: (055) 465 85 27
Faks: (012) 465 67 05
http:// journal.oyu.edu.az
e-mail: journal@oyu.edu.az



FOUNDED BY

Odlar Yurdu University

Published since December 1998

Issued at least twice a year

Registered by the Ministry of Justice of the Republic of Azerbaijan under reference number №022011 (AB series) on November 27, 1998

Included into the list of scientific periodicals recommended by the Presidential Higher Certifying Commission of the Republic of Azerbaijan in the fields of Mathematics, Mechanics, Economics, Technical Science, Medicine, Pharmacology, Biology, Agrarian Science, Law, History, Anthropology, Political Science, Psychology, Pedagogy and Philology.



*Editorial Address:* General Department, Odlar Yurdu University, 13 Koroglu Rahimov St., Baku AZ1072, Azerbaijan

Tel.: (055) 465 85 27
Fax: (012) 465 67 05
http:// journal.oyu.edu.az
e-mail: journal@oyu.edu.az



УЧРЕДИТЕЛЬ:

Университет Одлар Юрду

Издается с декабря 1998 года

Выходит не менее двух раз в год

Официально зарегистрирован Министерством Юстиции Азербайджанской Республики. Регистрационный номер: AB022011 от 27.11. 1998

Включен в перечень изданий, рекомендованных ВАК при Президенте Азербайджанской Республики для публикации основных результатов кандидатских и докторских диссертаций в области математики, механики, экономики, технических наук, медицины, фармакологии, биологии, аграрной науки, права, истории, антропологии, политологии, психологии, педагогики и филологии.



*Адрес редакции:* Баку AZ1072, ул. Кёроглу Рахимова 13, Университет Одлар Юрду, Общий отдел

Тел.: (055) 465 85 27
Факс: (012) 465 67 05
http:// journal.oyu.edu.az
e-mail: journal@oyu.edu.az

# RİYAZİYYAT,
# İNFORMATİKA
# VƏ TEXNİKİ ELMLƏR
# BÖLMƏSİ

# SECTION OF
# MATHEMATICS,
# INFORMATICS
# AND
# TECHNICAL SCIENCES

**ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ**
**THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY**

**2026 - № 66**

UOT № 004
https://doi.org/10.65806/1682-9123.2026.66.1

# DEVELOPMENT AND VALIDATION OF A DIGITAL TWIN FOR A WASTEWATER TREATMENT BIOREACTOR USING HYBRID INTELLIGENT MODELS

**K.N.Mamedzadeh**
Azerbaijan State Oil and Industry University
34 Azadliq Avenue, Baku, Azerbaijan
e-mail: kamalyamammadzada83@gmail.com

***Açar sözlər:*** bioreaktor, rəqəmsal əkiz, ANFIS-LSTM, çirkab su təmizlənməsi, qeyri-səlis məntiq
***Keywords:*** bioreactor, digital twin, ANFIS-LSTM, wastewater treatment, fuzzy logic
***Ключевые слова:*** биореактор, цифровой двойник, ANFIS-LSTM, очистка сточных вод, нечеткая логика

## Introduction

Modern wastewater treatment systems are nonlinear technological objects whose operation is governed by the interaction of biological, chemical and hydrodynamic processes. Bioreactors are characterized by high dynamic behavior, variability of influent conditions and sensitivity to operating regimes, which significantly complicates the tasks of monitoring, control, and process forecasting. In recent years, digital twins have gained widespread adoption in engineering and technological applications as an effective tool for modeling, analysis and optimization of complex systems. A digital twin represents a virtual model of a physical object capable of reproducing its dynamic behavior in real time based on mathematical models and data acquired from measurement and information systems. The application of digital twins in wastewater treatment enables improvements in energy efficiency, process stability and treatment performance. Traditionally, modeling of wastewater treatment bioreactors has relied on mechanistic models described by systems of ordinary differential equations. Despite their interpretability and physical soundness, such models require accurate parameter identification and often exhibit limited predictive accuracy under varying operating conditions and in the presence of input uncertainties. Consequently, increasing attention has recently been directed toward intelligent and hybrid modeling approaches based on artificial intelligence and machine learning techniques.

Fuzzy and neural models, such as the Adaptive Neuro-Fuzzy Inference System (ANFIS) and recurrent neural networks of the Long Short-Term Memory (LSTM) type, demonstrate strong capabilities in approximating nonlinear relationships and adapting to process dynamics. Their integration with conventional models makes it possible to enhance the accuracy of digital twins and extend their functional capabilities.The main objective of this study is the development and validation of a digital twin for a wastewater treatment bioreactor based on hybrid intelligent models. The study presents a comparative analysis of a classical ODE-based model, an ANFIS model and a hybrid ANFIS–LSTM architecture using the root mean square error (RMSE) as a performance metric for evalua-

ting the accuracy of reproducing key state variables. The obtained results demonstrate the advantages of the hybrid approach and confirm its suitability for process monitoring, performance analysis, and the further development of wastewater treatment bioreactor control systems.

## Theory

The classical description of the dynamics of a wastewater treatment bioreactor is based on a system of ordinary differential equations that represent the kinetics of biochemical processes. In its simplest form, the model can be expressed by the following system:

$$\frac{dS(t)}{dt} = -\frac{1}{Y}\mu(S,O)X + D(S_{in} - S),$$
$$\frac{dX(t)}{dt} = \mu(S,O)X - DX,$$
$$\frac{dO(t)}{dt} = k_L a(O_{sat} - O) - \frac{1}{Y_O}\mu(S,O)X, \quad (1)$$

where $S$ is a substrate concentration, $X$ is a biomass concentration, $O$ is a dissolved oxygen concentration, $\mu(S,O)$ is a specific growth rate of microorganisms, $D$ is a dilution rate, $Y$ is a yield coefficients, $k_La$ is an oxygen mass transfer coefficient, and $O_{sat}$ is an oxygen saturation concentration.

The microbial growth rate is commonly described using Monod kinetics:

$$\mu(S,O) = \mu_{max}\frac{S}{K_S + S}\frac{O}{K_O + O}, \quad (2)$$

where $\mu_{max}$ is a maximum specific growth rate, and $K_S$, $K_O$ are half-saturation constants.

Such models are sensitive to parameter uncertainty and exhibit limitations when modeling complex nonlinear dynamics. The Adaptive Neuro-Fuzzy Inference System (ANFIS) is a hybrid modeling approach that combines fuzzy logic and neural networks. ANFIS enables the approximation of complex nonlinear relationships based on a system of fuzzy rules of the form:

$$\text{If } x_1 \text{ is } A_i \text{ and } x_2 \text{ is } B_i, \text{ then } y_i = p_i x_1 + q_i x_2 + r_i. \quad (3)$$

where $A_i$, $B_i$ are fuzzy sets, and $p_i$, $q_i$, $r_i$ are consequent parameters of the rules.

ANFIS demonstrates a high capacity for learning from data and adapting to changing process conditions; however, it does not explicitly account for temporal dependencies.

**Table 1.** Comparative characteristics of the applied models

| Model | Type | Nonlinearity handling | Dynamic behavior | Interpretability |
|---|---|---|---|---|
| ODE | Mechanistic | Medium | High | High |
| ANFIS | Intelligent | High | Low | Medium |
| ANFIS–LSTM | Hybrid | High | High | Medium |

The comparative characteristics presented in Table 1 highlight the key differences between mechanistic, intelligent, and hybrid modeling approaches employed in the development of a digital twin for a wastewater treatment bioreactor. The analysis is conducted based on four main criteria: model type, capability to capture nonlinear behavior, consideration of system dynamics, and level of interpretability.

The mechanistic model based on ordinary differential equations (ODEs) belongs to the class of physically based models. It provides a high level of interpretability, as all parameters and variables possess clear physical and biochemical meaning. However, its ability to approximate complex nonlinear relationships is limited and strongly dependent on accurate parameter identification. The ANFIS-based intelligent model is characterized by a strong capability to represent nonlinear relationships between input and output variables through the use of fuzzy logic and neural networks, which is reflected in its high level of nonlinearity handling in Table 1. Nevertheless, it should be noted that the classical ANFIS architecture does not incorporate an explicit mechanism for modeling temporal dependencies; therefore, system dynamics are only implicitly captured through the input data. The interpretability of this model is considered moderate, as the fuzzy rule structure remains partially transparent, while the model parameters lack direct physical interpretation. The hybrid ANFIS–LSTM model combines the advantages of intelligent and dynamic modeling approaches. A high level of nonlinearity handling is achieved through the neuro-fuzzy ANFIS component, whereas the recurrent LSTM network effectively captures the temporal structure of the data and retains long-term dependencies between system states. This makes the hybrid architecture particularly suitable for modeling the complex dynamics of wastewater treatment bioreactors. The interpretability of the ANFIS–LSTM model is assessed as moderate, since the inclusion of recurrent neural networks complicates the analysis of internal decision-making mechanisms compared to classical models.

Consequently, Table 1 clearly illustrates the evolution of modeling approaches for bioreactors — from interpretable but less flexible mechanistic models to high-accuracy hybrid intelligent models. The presented comparison substantiates the selection of the ANFIS–LSTM architecture as the foundation of the digital twin, providing a balance between accuracy, robustness to nonlinearities, and the ability to adequately reproduce the dynamic behavior of the technological process.

## Methods

To develop the digital twin of the wastewater treatment bioreactor, an approach based on the training and comparison of intelligent and hybrid models with a reference mechanistic ODE-based model was employed. The key state variables considered in this study are the substrate concentration $S_s$, dissolved oxygen concentration $S_0$, and heterotrophic biomass concentration $X_H$. Model training is performed over a predefined number of epochs. At each training step, the root mean square error (RMSE) is calculated for each state variable. The obtained RMSE values are used as the primary criteria for assessing convergence and approximation accuracy.




Figure 1. Analysis of the Training Convergence Process

Figure 1 illustrates the evolution of the RMSE for substrate concentration $S_s$, dissolved oxygen concentration $S_0$, and biomass concentration $X_H$ as a function of the number of training epochs for two modeling modes (mode 1 and mode 2). The analysis of the RMSE curves shows a steady decrease in error during the training process, indicating proper parameter tuning of the models and their ability to approximate nonlinear relationships. For all state variables, a lower RMSE level is observed in the second modeling mode, which indicates improved prediction accuracy when using the enhanced architecture. A particularly pronounced reduction in error is observed for the biomass concentration $X_H$, confirming the effectiveness of the hybrid approach in modeling biomass dynamics characterized by complex nonlinear and temporal behavior.




Figure 2. Comparison of the Digital Twin with the Reference ODE Model

Figure 2 presents a comparison of the state variable dynamics obtained using the mechanistic ODE model, the intelligent ANFIS model, and the hybrid ANFIS–LSTM model. The comparison is performed over the simulation time interval *t*=0-10 days. The results indicate that the hybrid ANFIS–LSTM model most accurately reproduces the dynamics of all key state variables and exhibits the closest agreement with the reference ODE model. At the same time, the ANFIS model provides an acceptable approximation but demonstrates lower accuracy than the hybrid architecture, particularly in reproducing biomass dynamics. Thus, the time-series comparison method confirms the conclusions derived from the RMSE analysis and demonstrates the advantage of the hybrid approach in developing a digital twin of the bioreactor. To assess the modeling quality, the following criteria are employed: quantitative criterion — root mean square error (RMSE); qualitative criterion — visual comparison of the time trajectories of state variables. The combination of quantitative and visual analyses enables a comprehensive assessment of the digital twin's adequacy and its ability to reproduce the dynamics of the real technological process.

## Conclusions

This research shows the development and validation of a digital twin for a wastewater treatment bioreactor based on intelligent and hybrid modeling approaches. A mechanistic model formulated as a system of ordinary differential equations was employed as a reference framework to describe the fundamental biochemical processes governing substrate consumption, biomass growth, and dissolved oxygen dynamics. To enhance modeling accuracy and adaptability, data-driven models based on ANFIS and a hybrid ANFIS–LSTM architecture were implemented and systematically evaluated. A comparative analysis of the proposed models was conducted using the root mean square error (RMSE) as a quantitative performance metric and time-series comparisons as a qua-

litative assessment tool. The results demonstrate that the hybrid ANFIS–LSTM model consistently outperforms both the classical ODE-based model and the standalone ANFIS model in reproducing the dynamic behavior of the bioreactor. In particular, the hybrid architecture shows a significant improvement in modeling biomass dynamics, which are characterized by strong nonlinearity and temporal dependencies. The combination of neuro-fuzzy inference and recurrent neural networks enables the digital twin to capture complex nonlinear relationships while explicitly accounting for the temporal structure of the process data. This provides a balanced trade-off between modeling accuracy, robustness to parameter uncertainty, and adaptability to varying operating conditions. The developed digital twin can be effectively applied for process monitoring, performance analysis, and decision support in wastewater treatment systems. Furthermore, the proposed framework establishes a foundation for future research focused on real-time implementation, fault detection, and the development of advanced control strategies for bioreactors operating under normal and disturbed conditions.

## Future Research Directions

Future research will focus on extending the proposed digital twin framework toward real-time implementation and practical deployment in wastewater treatment plants. One important direction is the integration of real operational data from sensors and supervisory control systems to validate the robustness and generalization capability of the hybrid ANFIS–LSTM model under real-world conditions. Another promising avenue involves the development of adaptive and self-updating digital twins capable of online learning, allowing the model to adjust to changing influent characteristics, environmental conditions, and equipment aging. This would improve long-term accuracy and reliability of the digital twin during continuous operation. Further research may also address the incorporation of fault detection and diagnosis modules based on the digital twin, enabling early identification of abnormal operating conditions and process disturbances. In addition, coupling the digital twin with advanced control strategies, such as model predictive control (MPC), could support optimal process control and energy-efficient operation of bioreactors. Finally, future studies may explore the extension of the proposed approach to multi-stage and large-scale wastewater treatment systems, as well as the inclusion of additional state variables and process uncertainties, thereby enhancing the applicability and scalability of digital twin technology in complex wastewater treatment processes.

## References

1. Behera, S. K., Meena, H., Chakraborty, S., & Meikap, B. C. (2019). Application of artificial neural networks in wastewater treatment: A review. *Environmental Science and Pollution Research*, 26(9), 8149–8170. https://doi.org/10.1007/s11356-019-04228-0
2. Grieves, M., & Vickers, J. (2017). Digital twin: Mitigating unpredictable, undesirable emergent behavior in complex systems. In Transdisciplinary Perspectives on Complex Systems (pp. 85–113). *Springer*.
3. Kim, J., Park, S., & Kim, Y. (2020). Digital twin-based cyber–physical system for wastewater treatment processes. *Water*, 12(7), 1983. https://doi.org/10.3390/w12071983

4. LeCun, Y., Bengio, Y., & Hinton, G. (2015). Deep learning. *Nature*, 521(7553), 436–444. https://doi.org/10.1038/nature14539
5. Judd, S. (2011). The MBR book: Principles and applications of membrane bioreactors for water and wastewater treatment (2nd ed.). *Elsevier*.
6. Rittmann, B. E., & McCarty, P. L. (2001). Environmental biotechnology: Principles and applications. *McGraw-Hill*.
7. Wang, S., Wan, J., Zhang, D., Li, D., & Zhang, C. (2016). Towards smart factory for Industry 4.0: A self-organized multi-agent system with big data based feedback and coordination. *Computer Networks*, 101, 158–168. https://doi.org/10.1016/j.comnet.2015.12.017
8. Zhang, Y., Liu, Z., & Yang, J. (2022). Digital twin-driven intelligent modeling and control of wastewater treatment processes. *Journal of Cleaner Production*, 332, 130034. https://doi.org/10.1016/j.jclepro.2021.130034

## ÇİRKAB SULARININ TƏMİZLƏNMƏSİ BİOREAKTORUNUN RƏQƏMSAL ƏKİZİNİN HİBRİD İNTELLEKTUAL MODELLƏRDƏN İSTİFADƏ ETMƏKLƏ HAZIRLANMASI VƏ VALİDASİYASI

**K.N.Məmmədzadə**

### XÜLASƏ

Bu tədqiqatda hibrid intellektual modellər əsasında çirkab sularının təmizlənməsi bioreaktorunun rəqəmsal əkizinin hazırlanması və validasiyası təqdim olunur. Etalon kimi substratın, həll olunmuş oksigenin və biomassa konsentrasiyalarının dinamikasını əks etdirən adi diferensial tənliklər sistemi ilə təsvir olunan modeldən istifadə edilmişdir. Modelləşdirmə nəticələri göstərir ki, hibrid ANFIS–LSTM modeli klassik ODE modeli və ANFIS modeli ilə müqayisədə daha yüksək dəqiqlik və bioreaktorun dinamikasının daha yaxşı bərpasını təmin edir.

## РАЗРАБОТКА И ВАЛИДАЦИЯ ЦИФРОВОГО ДВОЙНИКА БИОРЕАКТОРА ОЧИСТКИ СТОЧНЫХ ВОД С ИСПОЛЬЗОВАНИЕМ ГИБРИДНЫХ ИНТЕЛЛЕКТУАЛЬНЫХ МОДЕЛЕЙ

**К.Н.Маммедзаде**

### РЕЗЮМЕ

В данном исследовании представлена разработка и валидация цифрового двойника биореактора очистки сточных вод на основе гибридных интеллектуальных моделей. В качестве эталона используется модель, которая описывается системой обыкновенных дифференциальных уравнений, которые отражают динамику концентраций субстрата, растворённого кислорода и биомассы. Результаты моделирования показывают, что гибридная модель ANFIS–LSTM обеспечивает более высокую точность и лучшее воспроизведение динамики биореактора по сравнению с классической ODE-моделью и моделью ANFIS.

*Məqalə redaksiyaya 19 mart 2026 tarixində daxil olmuş, 23 mart 2026 tarixində isə çapa qəbul olunmuşdur.*

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2026 - № 66

UOT № 004
https://doi.org/10.65806/1682-9123.2026.66.2

# IOT ƏSASLI AĞILLI EV SİSTEMLƏRİNİN QURULMASI VƏ ÜSTÜNLÜKLƏRİ

**N.İ.Əliyev**
Odlar Yurdu Universiteti
Bakı, K.Rəhimov küçəsi 13
e-mail: nicateliyevv03@gmail.com

***Açar sözlər:*** Əşyaların İnterneti, ağıllı ev sistemləri, IoT arxitekturası, ev avtomatlaşdırılması, enerji səmərəliliyi

***Keywords:*** Internet of Things, smart home systems, IoT architecture, home automation, energy efficiency

***Ключевые слова:*** Интернет вещей, умные системы дома, IoT архитектура, домашняя автоматизация, энергоэффективность

## Giriş

Müasir dövrdə informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı insan həyatının bütün sahələrinə ciddi təsir göstərmişdir. Xüsusilə rəqəmsallaşma və avtomatlaşdırma prosesləri gündəlik həyatın daha səmərəli və rahat təşkilinə imkan yaratmışdır. Bu proseslər arasında Əşyaların İnterneti texnologiyası xüsusi yer tutur.

IoT fiziki obyektlərin İnternet vasitəsilə bir-birilə əlaqə qurmasını və məlumat mübadiləsi aparmasını təmin edən innovativ texnologiya kimi formalaşmışdır. IoT texnologiyalarının ən geniş tətbiq sahələrindən biri ağıllı ev sistemləridir. Ağıllı ev anlayışı yaşayış məkanında yerləşən müxtəlif cihazların mərkəzləşdirilmiş şəkildə idarə olunmasını, avtomatik qərarların qəbul edilməsini və istifadəçi müdaxiləsinin minimuma endirilməsini nəzərdə tutur. Bu sistemlər təhlükəsizlik, enerji qənaəti və rahatlıq baxımından əhəmiyyətli üstünlüklər təqdim edir. Məhz bu səbəbdən ağıllı ev sistemlərinin tədqiqi aktual elmi problem kimi çıxış edir.

## IoT texnologiyasının nəzəri əsasları

Əşyaların İnterneti anlayışı ilk dəfə fiziki obyektlərin identifikasiya olunaraq şəbəkəyə qoşulması ideyasına əsaslanmışdır. IoT sistemləri sensorlar, rabitə modulları, məlumat emalı platformaları və tətbiq interfeyslərindən ibarət kompleks struktura malikdir. Bu sistemlər real mühitdən toplanan məlumatları analiz edərək, avtomatik qərarların qəbul edilməsinə imkan yaradır.

IoT texnologiyasının əsas üstünlüklərindən biri real vaxt rejimində monitorinq və nəzarət imkanlarıdır. Sensorlardan əldə olunan məlumatlar şəbəkə vasitəsilə mərkəzi serverlərə və ya bulud platformalarına ötürülür. Burada məlumatlar emal edilir və istifadəçiyə vizual şəkildə təqdim olunur. Bu yanaşma ağıllı sistemlərin çevikliyini və funksionallığını artırır.




Şəkil 1.

**IoT texnologiyasının ağıllı ev sistemlərində rolu**

IoT texnologiyası ağıllı ev sistemlərinin əsasını təşkil edir. Bu texnologiya vasitəsilə evdə yerləşən müxtəlif cihazlar real vaxt rejimində məlumat toplayır və həmin məlumatlar əsasında avtomatik qərarlar qəbul olunur. Sensorlar ətraf mühit parametrlərini ölçür, mərkəzi idarəetmə sistemi bu məlumatları emal edir və aktuatorlar vasitəsilə müvafiq əməliyyatlar icra olunur.

Ağıllı ev sistemlərində IoT texnologiyası istifadəçiyə evin istənilən nöqtəsindən və istənilən vaxt nəzarət imkanı yaradır. Mobil tətbiqlər və veb interfeyslər vasitəsilə işıqlandırma, istilik, təhlükəsizlik və məişət cihazlarının idarə olunması mümkündür. Bu isə həm vaxt qənaətinə, həm də enerji səmərəliliyinin yüksəldilməsinə şərait yaradır.

**Ağıllı ev sistemlərinin arxitekturası**

IoT əsaslı ağıllı ev sistemlərinin arxitekturası adətən üç əsas səviyyədən ibarət olur: qavrama səviyyəsi, şəbəkə səviyyəsi və tətbiq səviyyəsi. Qavrama səviyyəsində müxtəlif sensorlar və ölçmə qurğuları yerləşir. Bu qurğular temperatur, rütubət, hərəkət, işıq səviyyəsi və qaz sızması kimi parametrləri ölçür.

Şəbəkə səviyyəsi sensorlardan toplanan məlumatların ötürülməsini təmin edir. Bu mərhələdə Wi-Fi, ZigBee, Z-Wave və Bluetooth Low Energy kimi rabitə protokollarından istifadə olunur. Tətbiq səviyyəsində isə məlumatlar emal edilir, analiz olunur və istifadəçiyə vizual şəkildə təqdim edilir. Bu səviyyə ağıllı ev sisteminin idarə olunmasında əsas rol oynayır.



Şəkil 2.

## Ağıllı ev sistemlərində istifadə olunan IoT cihazları

Ağıllı evlərdə geniş çeşiddə IoT cihazlarından istifadə olunur. Bunlara ağıllı sensorlar, aktuatorlar, təhlükəsizlik kameraları, ağıllı termostatlar, ağıllı rozetkalar və məişət texnikası daxildir. Hər bir cihaz müəyyən funksiyanı yerinə yetirərək sistemin ümumi səmərəliliyini artırır.

Məsələn, ağıllı termostatlar temperaturu avtomatik tənzimləyərək enerji sərfiyyatını azaldır. Hərəkət sensorları təhlükəsizlik məqsədilə istifadə olunur və eyni zamanda avtomatik işıqlandırma sistemlərinin əsasını təşkil edir. Ağıllı kameralar və qapı kilidləri isə evin təhlükəsizliyini real vaxt rejimində təmin edir.

## IoT əsaslı ağıllı ev sistemlərində təhlükəsizlik məsələləri

Ağıllı ev sistemlərinin geniş yayılması təhlükəsizlik problemlərini də aktuallaşdırmışdır. Cihazların internetə qoşulması onları potensial kiberhücumlara açıq vəziyyətə gətirir. Zəif autentifikasiya mexanizmləri, standart parollar və proqram təminatının vaxtında yenilənməməsi təhlükəsizlik risklərini artırır.

Bu problemlərin qarşısını almaq üçün məlumatların şifrələnməsi, güclü autentifikasiya mexanizmləri və müntəzəm proqram yeniləmələri vacibdir. Eyni zamanda, şəbəkə segmentasiyası və firewall texnologiyalarından istifadə ağıllı ev sistemlərinin təhlükəsizlik səviyyəsini yüksəldir.

## Ağıllı ev sistemlərinin üstünlükləri

IoT əsaslı ağıllı ev sistemlərinin əsas üstünlükləri arasında enerji səmərəliliyi, təhlükəsizlik və istifadəçi rahatlığı xüsusi yer tutur. Avtomatlaşdırılmış idarəetmə enerji sərfiyyatını optimallaşdırır və xərcləri azaldır. Təhlükəsizlik sistemləri evin daimi nəzarətdə saxlanılmasını təmin edir.

Bundan əlavə, ağıllı ev sistemləri yaşlılar və fiziki məhdudiyyətli insanlar üçün xüsusi rahatlıq yaradır. Avtomatik idarəetmə gündəlik məişət işlərini asanlaşdıraraq həyat keyfiyyətini yüksəldir.

## Nəticə

Aparılan tədqiqat nəticəsində müəyyən edilmişdir ki, Əşyaların İnterneti (IoT) texnologiyalarına əsaslanan ağıllı ev sistemləri müasir informasiya cəmiyyətinin formalaşmasında və yaşayış mühitinin rəqəmsallaşdırılmasında mühüm rol oynayır. Bu sistemlər sensor texnologiyaları, rabitə protokolları və proqram təminatının inteqrasiyası vasitəsilə ev mühitində avtomatlaşdırılmış idarəetməni təmin edir və insan müdaxiləsini minimuma endirir. Ağıllı ev sistemlərinin tətbiqi yalnız rahatlıq baxımından deyil, həm də təhlükəsizlik, enerji səmərəliliyi və resurslardan optimal istifadə baxımından əhəmiyyətli üstünlüklər təqdim edir.

Tədqiqat zamanı müəyyən olunmuşdur ki, IoT əsaslı ağıllı ev sistemlərinin effektiv fəaliyyəti düzgün arxitekturanın seçilməsindən, istifadə olunan rabitə protokollarının xüsusiyyətlərindən və təhlükəsizlik mexanizmlərinin səviyyəsindən birbaşa asılıdır. Wi-Fi, ZigBee və Z-Wave kimi texnologiyalar ağıllı ev mühitində cihazlar arasında stabil və etibarlı əlaqənin yaradılmasına imkan verir. Eyni zamanda, mərkəzləşdirilmiş idarəetmə və bulud texnologiyalarının tətbiqi məlumatların real vaxt rejimində emalına və uzaqdan idarə olunmasına şərait yaradır.

Araşdırma göstərir ki, ağıllı ev sistemlərinin ən mühüm üstünlüklərindən biri enerji sərfiyyatının optimallaşdırılmasıdır. Ağıllı termostatlar, avtomatik işıqlandırma və enerji monitorinq sistemləri istifadəçi davranışını təhlil edərək enerji itkisini minimuma endirir. Bu isə həm iqtisadi baxımdan xərclərin azalmasına, həm də ekoloji baxımdan müsbət təsirlərin yaranmasına səbəb olur. Bununla yanaşı, ağıllı təhlükəsizlik sistemləri yaşayış məkanlarının qorunmasını gücləndirir və potensial risklərə operativ reaksiya verilməsini təmin edir.

Bununla belə, IoT əsaslı ağıllı ev sistemlərinin tətbiqi müəyyən problemlərlə də müşayiət olunur. Xüsusilə informasiya təhlükəsizliyi və məxfilik məsələləri bu sahədə aktual problemlər sırasındadır. Zəif autentifikasiya mexanizmləri və proqram təminatındakı boşluqlar kiberhücum risklərini artırır. Bu səbəbdən ağıllı ev sistemlərinin layihələndirilməsi zamanı təhlükəsizlik tədbirlərinin gücləndirilməsi və beynəlxalq standartlara uyğun həllərin tətbiqi zəruridir.

Nəticə etibarilə, IoT əsaslı ağıllı ev sistemləri müasir yaşayış mühitinin ayrılmaz hissəsinə çevrilməkdədir. Gələcəkdə süni intellekt və maşın öyrənməsi texnologiyalarının bu sistemlərə inteqrasiyası ağıllı evlərin funksionallığını daha da artıracaq və onların adaptiv, öyrənən sistemlər kimi formalaşmasına imkan yaradacaqdır. Bu baxımdan, IoT əsaslı ağıllı ev sistemlərinin inkişafı elmi-tədqiqat və praktiki tətbiqlər üçün perspektivli istiqamət kimi qiymətləndirilə bilər.

## Ədəbiyyat


1. Atzori L., Iera A., Morabito G. (2010). The Internet of Things: A survey // *Computer Networks*. – Vol. 54, No. 15. – pp. 2787–2805.
2. Bahga A., Madisetti V. (2014) Internet of Things: A Hands-On Approach. – Texas: *VPT Press*.
3. Cisco Systems. (2018). IoT Reference Model: Enabling the Internet of Things. – *Cisco White Paper*.
4. Greengard S. (2015). The Internet of Things. – *Cambridge: MIT Press*.
5. Lee I., Lee K. (2015). The Internet of Things (IoT): Applications, investments, and

challenges for enterprises // Business Horizons. – Vol. 58, No. 4. – pp. 431–440.
6. Madakam S., Ramaswamy R., Tripathi S. (2015). Internet of Things (IoT): A Literature Review // *Journal of Computer and Communications*. – Vol. 3, No. 5. – pp. 164–173.
7. Minerva R., Biru A., Rotondi D. (2015). Towards a Definition of the Internet of Things (IoT). – *IEEE Internet Initiative*.
8. Ray P.P. (2018). A survey on Internet of Things architectures // *Journal of King Saud University – Computer and Information Sciences*.
9. Бахга А., Мадисетти В. (2016). Интернет вещей: архитектура и приложения. – М.: *Техносфера*.
10. Григорьев В.А. (2019). Интернет вещей и умный дом. – СПб.: *Питер*.

## CONSTRUCTION OF IOT-BASED SMART HOME SYSTEMS AND THEIR BENEFITS

**N.I.Aliyev**

### SUMMARY

This work deals with the principles of constructing IoT- based smart home systems, their architecture and functions. The analysis of the main components of smart home systems, the communication protocols and security mechanisms is presented.

## СОЗДАНИЕ УМНЫХ СИСТЕМ ДОМА НА ОСНОВЕ IOT И ИХ ПРЕИМУЩЕСТВА

**Н.И.Алиев**

### РЕЗЮМЕ

Статья посвящена принципам построения умных систем дома на основе IoT, их архитектуре и функциям. Представлен анализ основных компонентов умных систем дома, использованных протоколов связи и механизмов безопасности.

*Məqalə redaksiyaya 19 mart 2026 tarixində daxil olmuş, 26 mart 2026 tarixində isə çapa qəbul olunmuşdur.*

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

**2026 - № 66**

UOT № 372.0:002
https://doi.org/10.65806/1682-9123.2026.66.3

# ENERJİ SİSTEMLƏRİNDƏ ZAMAN SIRALARINDA STATİSTİK VƏ KONTEKSTUAL ANOMALİYALARIN ÇOXSƏVİYYƏLİ TƏSNİFATI

**T.T.Sufanzadə**
Odlar Yurdu Universiteti
Bakı, K.Rəhimov küçəsi 13
e-mail: sufanzade@gmail.com

***Açar sözlər:*** enerji sistemləri, zaman sıraları, statistik anomaliyalar, hibrid modellər, maşın öyrənməsi
***Keywords:*** energy systems, time series, statistical anomalies, hybrid models, machine learning
***Ключевые слова:*** энергетические системы, временные ряды, статистические аномалии, гибридные модели, машинное обучение

## Giriş

Müasir dövrdə enerji sistemləri yalnız texniki infrastruktur deyil, eyni zamanda iqtisadi təhlükəsizliyin, sənaye davamlılığının və sosial sabitliyin əsas təminatçılarından biri kimi çıxış edir. Qloballaşma, urbanizasiya, sənayeləşmə və rəqəmsallaşma proseslərinin sürətlənməsi enerji istehlakının strukturunu və dinamikasını əhəmiyyətli dərəcədə dəyişmişdir. Xüsusilə smart grid texnologiyalarının tətbiqi enerji sistemlərini klassik passiv şəbəkələrdən interaktiv, özünü tənzimləyə bilən və real vaxt rejimində idarə olunan kompleks kiber-fiziki sistemlərə çevirmişdir.

Bu transformasiya nəticəsində enerji sistemlərində böyük həcmdə zaman sıralı (time-series) verilənlər formalaşır. Elektrik yükü, gərginlik, tezlik, aktiv və reaktiv güc, temperatur və digər parametrlər fasiləsiz şəkildə ölçülərək məlumat bazalarına ötürülür. Enerji zaman sırası aşağıdakı formal şəkildə ifadə oluna bilər:

$$X=\{x_1,x_2,\dots,x_t,\dots,x_n\},$$

burada $x_t$ – $t$-ci zaman anında ölçülmüş enerji göstəricisi, $n$ isə müşahidələrin ümumi sayıdır.

Enerji zaman sıralarının struktur xüsusiyyətləri onların mürəkkəbliyini müəyyən edir. Bu sıralar adətən aşağıdakı komponentlərdən ibarətdir:

$$X_t=T_t+S_t+C_t+R_t,$$

burada
$T_t$ – uzunmüddətli trend,
$S_t$ – mövsümi komponent,
$C_t$ – siklik dəyişmələr,
$R_t$ – təsadüfi (rezidual) komponentdir.

Enerji sistemlərində qeyri-xətti dinamika, çoxölçülü asılılıqlar və xarici faktorların təsiri nəticəsində zaman sıralarında normadan kənar davranışlar müşahidə oluna bilər. Bu davranışlar anomaliyalar adlanır və onların vaxtında aşkarlanması enerji təhlükəsizliyi baxımından xüsusi əhəmiyyət daşıyır.

Statistik baxımdan anomaliya aşağıdakı kimi müəyyən edilə bilər:

$$|xt-\mu|>k\sigma,$$

burada
$\mu$ – orta qiymət,
$\sigma$ – standart kənarlaşma,
$k$ – hədd əmsalıdır.

Lakin enerji sistemləri kontekst-asılı sistemlərdir. Eyni enerji yükü müxtəlif zaman intervallarında fərqli semantik məna daşıya bilər. Məsələn, yay mövsümündə yüksək elektrik istehlakı kondisioner istifadəsi ilə bağlı normal hal hesab olunduğu halda, eyni göstərici qış aylarında anomal ola bilər. Bu isə yalnız statistik yanaşmanın kifayət etmədiyini göstərir.

Kontekstual model aşağıdakı funksional asılılıqla ifadə edilə bilər:

$$x_t=f(t,S,W,D,C),$$

burada
$t$ – zaman faktoru,
$S$ – mövsüm,
$W$ – hava şəraiti,
$D$ – həftənin günü və ya iş rejimi,
$C$ – istehlakçı davranışı parametrləridir.

Enerji sistemlərində anomaliyalar müxtəlif səbəblərdən yarana bilər:

- Texniki avadanlığın nasazlığı;
- Sensor və ölçmə xətaları;
- Enerji oğurluğu və qeyri-qanuni qoşulmalar;
- Kiberhücumlar;
- Yük balansının pozulması;
- Proqnoz modellərinin səhvləri.

Smart grid mühitində milyonlarla IoT cihazı və sensor tərəfindən toplanan məlumatların əl ilə təhlili mümkün olmadığından avtomatlaşdırılmış aşkarlama mexanizmlərinə ehtiyac yaranmışdır. Bu məqsədlə statistik modellər, maşın öyrənməsi alqoritmləri, dərin neyron şəbəkələri və soft computing yanaşmaları geniş tətbiq olunur.

Verilmiş enerji zaman sırası üçün əsas məqsəd hər bir zaman anında müşahidə olunan qiymətin anomaliya olub-olmadığını müəyyən edən funksiyanı təyin etməkdir. Bunun üçün anomaliya indikator funksiyası aşağıdakı şəkildə formalaşdırılır: əgər $x_t$ müşahidəsi anomaliyadırsa, onda $A(x_t)=1,$ əks halda isə $A(x_t)=0$. Bu funksiya zaman sırasının hər bir elementi üçün ikili qərar mexanizmini təmin edir və sonrakı analiz mərhələlərinin əsasını təşkil edir.

Anomaliyaların daha sistemli və dəqiq müəyyən edilməsi məqsədilə çoxsəviyyəli təsnifat strukturu tətbiq olunur. Bu struktur üç əsas səviyyədən ibarətdir: struktur səviyyəsi, statistik səviyyə və kontekstual səviyyə.

Birinci səviyyə struktur səviyyəsidir. Burada zaman sırasının ümumi quruluşuna baxılır və anomaliyalar əsasən iki tipdə qiymətləndirilir: nöqtəvi və seqmental. Nöqtəvi anomaliya bir anda baş verən qəfil və kəskin sapmadır. Məsələn, enerji yükü sabit gedərkən bir anda çox yüksəlirsə və ya kəskin düşürsə, bu nöqtəvi anomaliya hesab oluna bilər. Seqmental anomaliya isə tək bir nöqtə deyil, ardıcıl bir zaman intervalı boyunca qeyri-adi davranışın müşahidə olunmasıdır. Bu halda ayrı-ayrı nöqtələr normal görünə bilər, amma bütövlükdə həmin hissə sistemin tipik dinamikasına uyğun gəlmir.

İkinci səviyyə statistik səviyyədir. Burada müşahidələr ümumi statistik göstəricilərlə müqayisə olunur. Yəni sıra üzrə orta qiymət və dəyişkənlik nəzərə alınır və hər bir müşahidənin bu "orta davranışdan" nə qədər uzaqlaşdığı qiymətləndirilir. Əgər müşahidə orta səviyyədən çox ciddi kənarlaşırsa və bu kənarlaşma əvvəlcədən seçilmiş həddi aşırsa, həmin nöqtə statistik anomaliya kimi qəbul edilir. Bu yanaşma xüsusilə çox böyük sıçrayışları, qeyri-real pikləri və kəskin enmələri tez aşkar etmək üçün uyğundur.

Üçüncü səviyyə kontekstual səviyyədir. Enerji sistemlərində eyni göstərici müxtəlif şəraitdə fərqli məna daşıya bilər. Məsələn, yayda yüksək istehlak normal sayıla bilər, amma eyni səviyyə qışda anomaliya kimi qiymətləndirilə bilər. Buna görə də burada "kontekst" anlayışı əsas rol oynayır. Kontekstual qiymətləndirmədə sistem əvvəlki müşahidələrə əsaslanaraq cari anda normalda hansı qiymətin gözlənildiyini proqnozlaşdırır. Sonra real ölçülən qiymətlə həmin gözlənilən (proqnozlaşdırılan) qiymət müqayisə edilir. Əgər fərq müəyyən həddi aşırsa, bu hal kontekstual anomaliya kimi qiymətləndirilir. Yəni problem təkcə "statistik kənarlaşma" deyil, "şəraitə uyğun olmama" kimi izah olunur.

Nəticə etibarilə, bu çoxsəviyyəli təsnifat yanaşması enerji zaman sıralarında anomaliyaların yalnız "var/yox" kimi işarələnməsini deyil, eyni zamanda onların hansı tipə aid olduğunu da müəyyən etməyə imkan verir. Struktur səviyyəsi anomaliyanın forması barədə məlumat verir, statistik səviyyə kənarlaşmanın ölçüsünü qiymətləndirir, kontekstual səviyyə isə həmin kənarlaşmanın şəraitə görə nə dərəcədə məntiqli olduğunu izah edir. Bu səbəbdən, çoxsəviyyəli yanaşma sadə üsullara nisbətən daha etibarlı və daha izah edilə bilən nəticələr verir.

Təklif olunan anomaliya aşkarlama mexanizmi dörd əsas mərhələdən ibarətdir və enerji zaman sıralarının həm statistik, həm də kontekstual xüsusiyyətlərini nəzərə alan inteqrativ yanaşmaya əsaslanır.

### 1. Məlumatın normallaşdırılması

Birinci mərhələdə zaman sırası verilənləri normallaşdırılır. Enerji sistemlərində müxtəlif parametrlər fərqli ölçü vahidlərində və fərqli diapazonlarda dəyişdiyinə görə, onların birbaşa müqayisəsi düzgün nəticə verməyə bilər. Bu səbəbdən hər bir müşahidə minimal və maksimal qiymətlər nəzərə alınmaqla vahid intervala gətirilir.

Normallaşdırma nəticəsində bütün qiymətlər 0 ilə 1 aralığında yerləşdirilir və modelin stabilliyi artır. Bu addım xüsusilə maşın öyrənməsi və hibrid modellərdə hesablama prosesinin daha sürətli və dəqiq həyata keçirilməsinə şərait yaradır.

### 2. Trend və mövsümi komponentlərin ayrılması

İkinci mərhələdə zaman sırasının struktur analizi aparılır. Enerji zaman sırası adətən üç əsas komponentdən ibarət olur: trend, mövsümi dəyişmələr və qalıq (rezidual) hissə.

Trend komponenti uzunmüddətli ümumi istiqaməti göstərir; məsələn, enerji istehlakının illər üzrə artması və ya azalması. Mövsümi komponent isə gün, həftə və ya mövsüm üzrə təkrarlanan periodik dəyişmələri əks etdirir. Qalıq hissə isə trend və mövsümi təsirlər çıxarıldıqdan sonra qalan təsadüfi və ya qeyri-adi dəyişmələri əhatə edir.

Anomaliyalar əsasən qalıq komponentdə axtarılır. Çünki trend və mövsümi təsirlər çıxarıldıqdan sonra qalan kəskin sapmalar sistemin real qeyri-normal davranışını daha aydın şəkildə göstərir.

### 3. Hibrid aşkarlama funksiyası

Üçüncü mərhələdə statistik və kontekstual yanaşmalar inteqrasiya olunur. Burada hər bir zaman anı üçün ümumi "anomaliya balı" (score) hesablanır.

Statistik komponent müşahidənin ümumi paylanmadan nə qədər uzaqlaşdığını göstərir. Kontekstual komponent isə cari müşahidənin əvvəlki dəyərlərə əsasən proqnozlaşdırılmış qiymətdən nə qədər fərqləndiyini ölçür.

Bu iki göstərici xüsusi çəkilər vasitəsilə birləşdirilir. Çəkilər modelin hansı komponentə daha çox üstünlük verəcəyini müəyyən edir. Məsələn, yüksək dəyişkənlik olan sistemlərdə kontekstual komponentə daha böyük çəki verilə bilər.

Əldə edilən yekun bal əvvəlcədən müəyyən edilmiş hədd ilə müqayisə olunur. Əgər bu bal həddi aşarsa, müşahidə çoxsəviyyəli anomaliya kimi qiymətləndirilir. Beləliklə, qərar yalnız bir meyara deyil, iki fərqli analitik mexanizmin birgə nəticəsinə əsaslanır.

### 4. Risk səviyyəsinin hesablanması

Son mərhələdə aşkarlanmış anomaliyanın risk səviyyəsi qiymətləndirilir. Burada bulanıq məntiq (fuzzy logic) yanaşması tətbiq olunur.

Anomaliya balı ilə yanaşı, modelin həmin qərara olan etibarlılıq dərəcəsi də nəzərə alınır. Məsələn, bəzi hallarda sapma yüksək olsa da, sistem qeyri-sabit ola bilər və nəticənin etibarlılığı aşağı ola bilər. Bu səbəbdən risk səviyyəsi yalnız kəskinliklə deyil, həm də etibarlılıq göstəricisi ilə birlikdə hesablanır.

Bulanıq məntiq mexanizmi nəticəni "aşağı risk", "orta risk" və "yüksək risk" kimi interpretasiya edilə bilən kateqoriyalara bölməyə imkan verir. Bu isə enerji sistemlərinin real vaxt rejimində idarə olunmasında operativ və əsaslandırılmış qərar qəbulunu təmin edir.

## NƏTİCƏ

Aparılmış tədqiqat göstərir ki, enerji sistemlərində zaman sıralarında statistik və kontekstual anomaliyaların çoxsəviyyəli təsnifatı ənənəvi, təkölçülü yanaşmalarla müqayisədə daha yüksək effektivlik və etibarlılıq təmin edir. Enerji sistemləri dinamik, qeyri-xətti və kontekst-asılı xarakter daşıdığı üçün anomaliyaların yalnız statistik meyarlarla müəyyən edilməsi kifayət etmir. Bu baxımdan struktur, statistik və kontekstual səviyyələrin inteqrasiyası daha obyektiv və əsaslandırılmış nəticələrin əldə olunmasına imkan verir.

Təklif olunan model yalnız ayrı-ayrı nöqtələrdəki kəskin sapmaları deyil, həm də zaman üzrə formalaşan davranış dəyişikliklərini aşkar etməyə imkan yaradır. Bu isə xüsusilə enerji istehlakının mövsümi və siklik xüsusiyyətlərə malik olduğu mühitlərdə daha real və sabit qiymətləndirmə mexanizmi formalaşdırır.

Kontekst faktorunun nəzərə alınması modelin dəqiqliyini artırır və yalnış pozitiv nəticələrin azalmasına səbəb olur. Müxtəlif zaman intervalları, hava şəraiti, istehlakçı davranışı və digər xarici amillər qiymətləndirməyə daxil edildikdə sistem daha adaptiv və elastik şəkildə fəaliyyət göstərir.

Bundan əlavə, hibrid yanaşma real vaxt rejimində tətbiq üçün əlverişli mexanizm təqdim edir. Statistik və proqnoz əsaslı komponentlərin birgə istifadəsi smart grid mühitində operativ qərar qəbulunu dəstəkləyir və enerji təhlükəsizliyinin təmin olunmasına xidmət edir.

Nəticə etibarilə, statistik və kontekstual komponentlərin inteqrasiyasına əsaslanan çoxsəviyyəli model daha stabil, dayanıqlı və interpretasiya edilə bilən anomaliya aşkarlama sistemi formalaşdırır. Bu yanaşma enerji sistemlərində risklərin erkən müəyyənləşdirilməsi, itkilərin azaldılması və şəbəkə dayanıqlığının artırılması baxımından mühüm elmi və praktik əhəmiyyət daşıyır.

## Ədəbiyyat

1. Chandola, V., Banerjee, A., & Kumar, V. (2012). Outlier Detection: Methods and Applications. *Springer*.
2. Ahmed, M., Mahmood, A. N., & Hu, J. (2016). Network Anomaly Detection Techniques. *Journal of Network and Computer Applications*.
3. Hyndman, R. J., & Athanasopoulos, G. (2018). Forecasting: Principles and Practice.
4. Mirzəcanzadə, A.X. Qeyri-xətti proseslərin modelləşdirilməsi. (2005). Bakı.
5. İsmayılov, Ş. Z. və b. Enerji sistemlərinin analizi və idarə edilməsi. (2019). Bakı.
6. Zadeh, L.A. (1997). Fuzzy Information Granulation. *Fuzzy Sets and Systems*.
8. Bontempi, G. et al. (2013). Machine Learning Strategies for Time Series Forecasting.
9. Laptev, N. et al. (2015). Time-Series Anomaly Detection Framework. *ACM SIGKDD*.
10. Ahmedov, Z.M. & Qurbanov, R.S. (2017). Enerji istehlakı proseslərində statistik təhlil üsulları. Bakı.
11. Bishop, C.M. (2006). Pattern Recognition and Machine Learning. *Springer*.
12. Zhou, C., & Paffenroth, R.C. (2017). Robust Deep Autoencoders. *ACM SIGKDD*.

# MULTI-LEVEL CLASSIFICATION OF STATISTICAL AND CONTEXTUAL ANOMALIES IN ENERGY SYSTEM TIME SERIES

**T.T.Sufanzadeh**

## SUMMARY

This paper investigates the multi-level classification of statistical and contextual anomalies in time series of energy systems and proposes a corresponding detection mechanism. An integrative classification model is proposed, incorporating structural, statistical, and contextual levels of analysis. The proposed four-stage solution includes data normalization, time-series decomposition, hybrid detection function and fuzzy-based

risk assessment. The integration of statistical and contextual components results in a more stable, adaptive, and interpretable anomaly detection system.

## МНОГОУРОВНЕВАЯ КЛАССИФИКАЦИЯ СТАТИСТИЧЕСКИХ И КОНТЕКСТУАЛЬНЫХ АНОМАЛИЙ ВО ВРЕМЕННЫХ РЯДАХ ЭНЕРГЕТИЧЕСКИХ СИСТЕМ

**Т.Т.Суфанзаде**

### РЕЗЮМЕ

В статье рассматривается многоуровневая классификация статистических и контекстуальных аномалий во временных рядах энергетических систем, а также механизм их обнаружения. В рамках исследования предлагается интегративная модель классификации аномалий, включающая структурный, статистический и контекстуальный уровни анализа. Предложенный четырехэтапный механизм решения включает нормализацию данных, декомпозицию временного ряда, гибридную функцию обнаружения и оценку риска на основе нечеткой логики.

*Məqalə redaksiyaya 19 mart 2026 tarixində daxil olmuş, 1 aprel 2026 tarixində isə çapa qəbul olunmuşdur.*

# İQTİSADİYYAT, TURİZM VƏ AQRAR ELMLƏR BÖLMƏSİ

# SECTION OF ECONOMICS, TOURISM AND AGRARIAN SCIENCES

**ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ**
**THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY**

**2026 - № 66**

UOT № 332.1

# ECONOMIC INNOVATION AND DEVELOPMENT IN MIDDLE EAST COUNTRIES

**J.A.Aliyev**
Institute of Economics of the Ministry of Science and Education of the Republic of Azerbaijan
116 H.Javid Avenue, Bakı, Azerbaijan
e-mail: javadaliyev74@gmail.com

***Açar sözlər:*** iqtisadi innovasiya, iqtisadi inkişaf, Yaxın Şərq ölkələri, rəqəmsal iqtisadiyyat
***Keywords:*** economic innovation, economic development, Middle East countries, digital economy
***Ключевые слова:*** экономические инновации, экономическое развитие, страны Ближнего Востока, цифровая экономика

## INTRODUCTION

Economic development in Middle East countries has historically been shaped by a combination of natural resource endowments, state-led growth models, and strategic integration into global markets. While several economies in the region have achieved relatively high income levels — largely driven by hydrocarbon revenues — many continue to face persistent structural challenges, including limited economic diversification, high unemployment rates, especially among youth, productivity constraints, and vulnerability to external shocks. These challenges have intensified the need for new development paradigms that extend beyond traditional growth drivers.

In recent decades, economic innovation has emerged as a central component of modern development strategies. Innovation, understood broadly, encompasses not only technological advancement but also institutional reform, organizational change, financial innovation, and the adoption of new business models. For Middle East countries, innovation has increasingly been viewed as a strategic tool to enhance productivity, stimulate private sector development, and reduce dependence on extractive industries. The transition toward knowledge-based and innovation-driven economies has therefore become a key policy objective across the region.

The growing importance of economic innovation in the Middle East is closely linked to structural transformations in the global economy. Rapid technological change, digitalization, and increased global competition have reduced the long-term sustainability of resource-dependent growth models. At the same time, demographic pressures, particularly a young and growing labor force, have heightened the urgency of creating productive employment opportunities. In this context, innovation-driven development is seen as a mechanism for fostering entrepreneurship, expanding high-value-added sectors, and supporting inclusive growth.

Despite increasing policy attention, innovation outcomes across Middle East countries remain uneven. Differences in institutional quality, governance effectiveness, human capital development, and research and development capacity have resulted in divergent innovation performance and development trajectories. While some countries

have made significant progress in areas such as digital infrastructure, fintech, and startup ecosystems, others continue to struggle with weak institutional frameworks and limited absorptive capacity for new technologies.

The purpose of this article is to analyze the role of economic innovation in promoting development in Middle East countries and to assess how innovation-oriented policies influence growth, diversification, and economic resilience. By examining regional trends and cross-country differences, the study seeks to identify key factors that enable or constrain innovation-led development. The analysis contributes to the broader literature on development economics by providing a region-specific perspective on the interaction between innovation, institutions, and economic development in the Middle East.

## 1. LITERATURE REVIEW

The relationship between economic innovation and economic development occupies a central position in both classical and contemporary economic thought. Early growth theories emphasized capital accumulation and labor expansion as the primary engines of economic growth (Solow, 1956). Subsequent theoretical advances, particularly endogenous growth theory, shifted attention toward technological progress, human capital accumulation, and knowledge creation as fundamental drivers of long-term development (Romer, 1990; Aghion and Howitt, 1992). Within this framework, innovation is regarded as a core mechanism through which economies enhance productivity and sustain growth over time.

Empirical research provides strong evidence of a positive association between innovation capacity and economic performance. Studies demonstrate that innovation contributes to productivity growth, industrial upgrading, and export diversification, particularly in developing and emerging economies (Fagerberg, 1994; Acemoglu et al., 2014). Economies that successfully promote innovation tend to experience faster structural transformation, characterized by the reallocation of resources from low-productivity sectors toward higher value-added activities. However, the literature also emphasizes that innovation outcomes are contingent upon institutional quality, governance effectiveness, and the broader policy environment (North, 1990; Rodrik, 2004).

In the context of Middle East countries, the literature highlights several structural constraints that have historically limited innovation-led development. A dominant theme concerns the role of natural resource dependence, particularly hydrocarbons, in shaping economic structures and incentives. Scholars argue that rent-based growth models can weaken institutional development, reduce private sector dynamism, and discourage technological upgrading (Auty, 2001; Sachs and Warner, 2001). As a result, many Middle Eastern economies have exhibited relatively low levels of innovation and limited diversification despite substantial financial resources.

At the same time, recent studies document notable progress in selected Middle East countries, especially in areas related to digital transformation, financial technology, and entrepreneurship. Government-led reform programs and national development visions increasingly emphasize innovation as a strategic pillar of economic diversification and competitiveness (World Bank, 2020; OECD, 2021). Research suggests that investments in digital infrastructure, education, and startup ecosystems can enhance innovation capacity and mitigate some of the structural constraints associated with resource dependence (UNDP, 2022).

Institutional quality emerges as a critical determinant of innovation performance in the region. Effective governance, regulatory quality, protection of property rights, and transparent public administration are consistently identified as key enablers of innovation and private sector development (Acemoglu and Robinson, 2012; Kaufmann et al., 2010). Empirical evidence indicates that Middle East countries with stronger institutions and more coherent reform agendas tend to achieve better innovation outcomes and more diversified economic structures, while weak institutional frameworks constrain the development impact of innovation policies.

Overall, the literature suggests that economic innovation holds significant potential for promoting development in Middle East countries, but its effectiveness depends on complementary reforms in institutions, human capital, and governance. Innovation alone is insufficient to ensure sustainable growth; rather, it must be embedded within a broader development strategy that supports structural transformation and economic resilience. This study contributes to the existing literature by offering a comparative assessment of innovation-driven development across Middle East countries, with particular emphasis on the interaction between innovation, institutions, and economic outcomes.

## 2. MATERIALS AND METHODS

This study employs a qualitative and comparative research design to analyze the role of economic innovation in promoting economic development in Middle East countries. The methodological framework is grounded in development economics and innovation theory, emphasizing the interaction between innovation capacity, institutional quality, and economic performance. The comparative approach allows for the examination of heterogeneity across the region, particularly differences between resource-rich and resource-poor economies, as well as variations in income levels and development strategies.

The analysis is based on secondary data obtained from internationally recognized economic and innovation-related sources. Innovation is assessed using composite indicators that capture technological readiness, research and development activity, digital adoption, and entrepreneurship dynamics. Economic development is evaluated through macroeconomic indicators such as GDP per capita, employment structure, and levels of economic diversification. Institutional quality is incorporated as a complementary dimension, reflecting governance effectiveness, regulatory quality, and public sector capacity.

Table 1: Core Indicators for Assessing Innovation-Driven Development in Middle East Countries

| **Indicator** | **Description** | **Role in Analysis** |
|---|---|---|
| GDP per capita | Income level at constant prices | Measure of economic development |
| Innovation capacity index | Composite innovation indicator | Proxy for innovation performance |
| R&D expenditure (% of GDP) | Investment in knowledge creation | Indicator of technological effort |
| Digital adoption level | ICT penetration and usage | Reflects digital transformation |

| | | |
|---|---|---|
| Economic diversification level | Sectoral composition of output | Measures dependence on extractive sectors |
| Institutional quality index | Governance and regulatory effectiveness | Moderating factor in innovation outcomes |

The analysis proceeds in three stages. First, descriptive assessment is used to identify general patterns in innovation and development across Middle East countries. Second, a comparative evaluation examines differences between country groups based on resource dependence and income level. Third, qualitative interpretation is applied to assess how institutional frameworks and policy environments shape the effectiveness of innovation-driven development strategies.

The study relies on secondary data, which may involve limitations related to data availability and cross-country comparability. In addition, the qualitative nature of the analysis does not permit causal inference but allows for a nuanced understanding of structural relationships and policy implications. These limitations are mitigated through the use of multiple indicators and comparative analysis.

## 3. DISCUSSION

The findings of this study indicate that economic innovation has become an increasingly important determinant of development outcomes in Middle East countries, although its impact varies considerably across the region. Countries that have adopted innovation-oriented development strategies tend to exhibit stronger economic diversification, higher productivity growth, and greater resilience to external shocks. In contrast, economies that rely predominantly on traditional growth drivers, particularly natural resource rents, continue to face structural constraints that limit long-term development prospects.

One of the key observations is that innovation contributes to development not only through technological advancement but also through institutional and organizational change. Digital transformation initiatives, financial innovation, and the expansion of entrepreneurship ecosystems have supported private sector development and facilitated the emergence of new economic activities in several Middle Eastern economies. These dynamics are consistent with the broader development literature, which emphasizes innovation as a mechanism for enhancing total factor productivity and enabling structural transformation (Romer, 1990; Aghion and Howitt, 1992).

The role of institutions emerges as a critical mediating factor in the relationship between innovation and development. Empirical evidence suggests that innovation policies yield stronger economic outcomes in countries with higher levels of institutional quality, regulatory effectiveness, and governance capacity. Where institutions are weak or policy implementation is inconsistent, innovation initiatives often fail to generate sustained development impacts. This finding aligns with institutional economics literature, which highlights the importance of credible rules, effective public administration, and policy coherence in supporting innovation-led growth (North, 1990; Acemoglu and Robinson, 2012).

Resource dependence remains a significant challenge for innovation-driven development in the Middle East. While hydrocarbon revenues have enabled substantial public investment in infrastructure and human capital, they have also reduced incentives

for private sector innovation and economic diversification in some countries. The literature on the resource curse suggests that without complementary institutional reforms, resource wealth can undermine innovation incentives and constrain long-term development (Sachs and Warner, 2001). However, recent reform efforts in several Middle Eastern economies indicate that targeted innovation policies, combined with diversification strategies, can partially offset these structural constraints.

Human capital development plays a central role in determining the effectiveness of innovation-driven growth. Investments in education, skills development, and research capacity enhance the absorptive capacity of economies and facilitate the adoption of new technologies. Studies focusing on developing regions emphasize that innovation outcomes are closely linked to the quality of education systems and labor market institutions (World Bank, 2020). In the Middle East context, persistent skills mismatches and labor market rigidities continue to limit the development impact of innovation in some countries.

Overall, the analysis suggests that economic innovation can serve as a powerful driver of development in Middle East countries when supported by strong institutions, effective governance, and sustained investment in human capital. Innovation-led growth strategies are most effective when they are embedded within comprehensive development frameworks that address structural constraints and promote private sector dynamism. These findings underscore the importance of policy coherence and institutional reform in translating innovation potential into tangible economic development outcomes.

## CONCLUSION

This article has examined the role of economic innovation in shaping development trajectories across Middle East countries, with particular emphasis on the interaction between innovation capacity, institutional quality, and economic performance. The analysis demonstrates that economic innovation has emerged as an increasingly important driver of growth, diversification, and resilience in the region, although its impact remains uneven across countries.

The findings suggest that innovation contributes to economic development not only through technological progress but also through institutional reform, organizational change, and the expansion of entrepreneurship and digital ecosystems. Middle East countries that have successfully integrated innovation into their national development strategies tend to exhibit stronger structural transformation and reduced dependence on traditional growth drivers, particularly extractive industries. Conversely, economies with weak institutional frameworks and limited human capital development continue to experience constrained innovation outcomes and slower progress toward sustainable development.

A central conclusion of the study is that innovation-led development in the Middle East is highly contingent upon the quality of institutions and governance. Effective regulatory frameworks, transparent public administration, and consistent policy implementation significantly enhance the development impact of innovation-oriented policies. In the absence of such conditions, innovation initiatives are unlikely to translate into lasting economic gains.

The article also highlights the importance of human capital as a foundational element of innovation-driven growth. Investment in education, skills development, and research capacity strengthens the ability of economies to absorb new technologies and adapt to

global economic change. Addressing labor market rigidities and skills mismatches remains critical for ensuring that innovation contributes to inclusive growth and employment creation.

## References


1. Acemoglu, D., Johnson, S., & Robinson, J. A. (2014). Institutions as the fundamental cause of long-run growth. In *Handbook of Economic Growth*, Vol. 1A, pp. 385–472. Elsevier.
2. Acemoglu, D., & Robinson, J. A. (2012). Why Nations Fail: The Origins of Power, Prosperity, and Poverty. New York: *Crown Business*.
3. Aghion, P., & Howitt, P. (1992). A model of growth through creative destruction. *Econometrica*, 60(2), 323–351.
4. Auty, R. M. (2001). Resource Abundance and Economic Development. Oxford: *Oxford University Press*.
5. Fagerberg, J. (1994). Technology and international differences in growth rates. *Journal of Economic Literature*, 32(3), 1147–1175.
6. Kaufmann, D., Kraay, A., & Mastruzzi, M. (2010). The worldwide governance indicators: Methodology and analytical issues. *World Bank Policy Research Working Paper*, No. 5430.
7. North, D. C. (1990). Institutions, Institutional Change and Economic Performance. Cmbridge. *Cambridge University Press*.
8. OECD. (2021). Innovation in the Middle East and North Africa: Policies and Performance. Paris: *OECD Publishing*.
9. Rodrik, D. (2004). Institutions rule: The primacy of institutions over geography and integration in economic development. *Journal of Economic Growth*, 9(2), 131–165.
10. Romer, P. M. (1990). Endogenous technological change. *Journal of Political Economy*, 98(5), S71–S102.
11. Sachs, J. D., & Warner, A. M. (2001). The curse of natural resources. *European Economic Review*, 45(4–6), 827–838.
12. Solow, R. M. (1956). A contribution to the theory of economic growth. *Quarterly Journal of Economics*, 70(1), 65–94.
13. UNDP. (2022). Arab Human Development Report. New York: *United Nations Development Programme*.
14. World Bank. (2020). Middle East and North Africa Economic Update. Washington, DC: *World Bank*.


## YAXIN ŞƏRQ ÖLKƏLƏRİNDƏ İQTİSADİ İNNOVASİYA VƏ İNKİŞAF

**C.Ə.Əliyev**

### XÜLASƏ

Məqalədə Yaxın Şərq ölkələrində iqtisadi innovasiyanın iqtisadi inkişaf trayektoriyalarının formalaşmasındakı rolu araşdırılır. Texnoloji innovasiya, institusional islahatlar, insan kapitalının inkişafı və iqtisadi şaxələndirmə strategiyalarının dayanıqlı iqtisadi artım və struktur transformasiyasına təsiri təhlil olunur. Keyfiyyət yönümlü anali-

tik yanaşma və beynəlxalq iqtisadi və innovasiya göstəricilərinə əsaslanan müqayisəli məlumatlardan istifadə etməklə, resurs baxımından zəngin və resurs baxımından məhdud olan Yaxın Şərq ölkələrində innovasiya əsaslı inkişaf modelləri araşdırılır. Nəticələr göstərir ki, innovasiyanı milli inkişaf çərçivələrinə uğurla inteqrasiya edən ölkələr daha yüksək iqtisadi dayanıqlılığa, rəqabətqabiliyyətliliyə və uzunmüddətli iqtisadi artım perspektivlərinə malikdirlər.

## ЭКОНОМИЧЕСКИЕ ИННОВАЦИИ И РАЗВИТИЕ В СТРАНАХ БЛИЖНЕГО ВОСТОКА

**Дж.А.Алиев**

## РЕЗЮМЕ

В статье исследуется роль экономических инноваций в формировании траекторий экономического развития стран Ближнего Востока. Анализируется влияние технологических инноваций, институциональных реформ, развития человеческого капитала и стратегий экономической диверсификации на устойчивый экономический рост и структурную трансформацию региона. На основе качественного аналитического подхода и сравнительных данных международных экономических и инновационных индикаторов рассматриваются модели инновационно ориентированного развития как в ресурсно обеспеченных, так и в ресурсно ограниченных странах Ближнего Востока. Результаты исследования показывают, что страны, успешно интегрирующие инновации в национальные стратегии развития, характеризуются более высокой экономической устойчивостью, конкурентоспособностью и благоприятными долгосрочными перспективами экономического роста.

*Məqalə redaksiyaya 25 fevral 2026 tarixində daxil olmuş, 26 fevral 2026 tarixində isə çapa qəbul olunmuşdur.*

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2026 - № 66

UOT № 336
https://doi.org/10.65806/1682-9123.2026.66.5

# DÖVLƏT İDARƏÇİLİYİNİN EFFEKTİVLİYİNİN ARTIRILMASINDA MALİYYƏ NƏZARƏTİNİN ROLU VƏ İNKİŞAF METODLARI

**N.F.Əliyev**
Odlar Yurdu Universiteti
Bakı, K.Rəhimov küçəsi 13
e-mail: nihadaliyev.specialist@gmail.com

***Açar sözlər:*** dövlət idarəçiliyi, maliyyə nəzarəti, büdcə intizamı
***Keywords:*** public administration, financial control, budget discipline
***Ключевые слова:*** государственное управление, финансовый контроль, бюджетная дисциплина

## GİRİŞ

Müasir dövrdə dövlət idarəçiliyinin effektivliyinin artırılması iqtisadi və sosial inkişafın prioritet istiqamətlərindən biridir. Bu məqsədə nail olunması dövlətin strateji hədəflərinin reallaşması üçün vacibdir. Dövlət idarəçiliyində resursların optimal istifadəsi və qərarların düzgün verilməsi iqtisadi dayanıqlığı təmin edir. Maliyyə nəzarəti bu prosesdə mühüm institusional mexanizm kimi çıxış edir. Maliyyə nəzarəti yalnız resursların yoxlanması ilə məhdudlaşmır, həm də onların səmərəli idarə olunmasına şərait yaradır. Dövlət resurslarının məqsədyönlü və qənaətli istifadəsi büdcə intizamının qorunmasına birbaşa təsir göstərir. Maliyyə nəzarəti eyni zamanda dövlət siyasətinin uğurlu həyata keçirilməsini dəstəkləyir. Bu institut dövlət orqanlarının fəaliyyətində şəffaflıq və hesabatlılığı təmin edir. Dövlət maliyyə sisteminin səmərəli fəaliyyəti yalnız maliyyə resurslarının mövcudluğu ilə deyil, həm də onların düzgün idarə olunması ilə ölçülür. Maliyyə nəzarətinin effektivliyi dövlət proqramlarının və sosial layihələrin uğurlu icrasını təmin edir. Maliyyə resurslarının düzgün bölüşdürülməsi iqtisadi prioritetlərin həyata keçirilməsini asanlaşdırır. Dövlətin iqtisadi siyasətinin strateji məqsədlərinə çatmasında maliyyə nəzarətinin rolu əvəzsizdir. Bu mexanizm həm mərkəzi, həm də yerli səviyyədə tətbiq olunur və hər iki səviyyədə resursların optimallaşdırılmasını təmin edir. Maliyyə nəzarətinin nəzəri və metodoloji əsaslarının öyrənilməsi elmi cəhətdən aktualdır. Bu sahədə aparılan tədqiqatlar dövlət idarəçiliyində səmərəliliyin artırılmasına töhfə verir. Maliyyə nəzarətinin müxtəlif mərhələləri dövlət resurslarının planlı istifadəsini təmin edir. Həmçinin, bu nəzarət formaları dövlət büdcəsinin şəffaflığını və hesabatlılığını artırır. Maliyyə nəzarəti strateji qərarların qəbulunda elmi əsaslar yaradır. Onun tətbiqi nəticəsində maliyyə riskləri azalır və büdcə disbalansının qarşısı alınır. Nəticədə dövlət idarəçiliyində qərarların keyfiyyəti yüksəlir və sosial-iqtisadi inkişaf daha dayanıqlı olur.

## PROBLEMİN QOYULUŞU

Dövlət idarəçiliyinin effektivliyi iqtisadi və sosial siyasətin prioritet istiqamətlərindən biridir. Bu baxımdan dövlət maliyyə resurslarının səmərəli idarə olunması və istifadəsi dövlətin strateji məqsədlərinə çatması üçün mühüm şərtdir. Maliyyə

nəzarəti dövlət idarəçiliyində strateji mexanizm kimi çıxış edir və dövlət resurslarının planlı, məqsədyönlü və qənaətli istifadəsini təmin edir.

Maliyyə nəzarətinin məqsədi yalnız xərclərin yoxlanılması və maliyyə pozuntularının aşkarlanması ilə məhdudlaşmır, həm də dövlət proqramlarının və layihələrinin uğurlu həyata keçirilməsinə elmi əsaslar yaradır. Bu institut, həm mərkəzi, həm də yerli səviyyədə fəaliyyət göstərən dövlət orqanları arasında koordinasiyanı gücləndirir və maliyyə resurslarının rasionallığını təmin edir.

Dövlət idarəçiliyində maliyyə nəzarətinin əsas problemlərindən biri onun metodoloji və institusional təməllərinin müasir tələblərə cavab verməməsidir. Müasir iqtisadi və sosial şəraitdə maliyyə nəzarətinin effektivliyini artırmaq üçün yeni metodların və texnoloji vasitələrin tətbiqi tələb olunur. Eyni zamanda, büdcə planlaşdırması, investisiya layihələrinin qiymətləndirilməsi və sosial proqramların maliyyələşdirilməsi sahələrində maliyyə nəzarətinin inteqrasiya olunmuş metodlarının işlənməsi zəruridir.

Dövlət idarəçiliyində maliyyə nəzarətinin digər mühüm problemi onun strateji planlaşdırma və risklərin idarə olunması sahələrində məhdud tətbiqi ilə bağlıdır. Müasir şəraitdə yalnız cari əməliyyatlara nəzarət kifayət deyil; uzunmüddətli proqnozlaşdırma, ssenari modelləşdirmə və risk qiymətləndirilməsi dövlət resurslarının optimal istifadəsi üçün zəruridir.

Buna görə də, maliyyə nəzarətinin dövlət idarəçiliyində rolunu və effektivliyini artırmaq məqsədilə onun nəzəri-metodoloji əsaslarının araşdırılması və müasir təkmilləşdirmə istiqamətlərinin müəyyənləşdirilməsi xüsusi aktuallıq kəsb edir. Bu problem, dövlətin iqtisadi dayanıqlılığı və sosial rifahın yüksəldilməsi üçün mühüm elmi və praktik əhəmiyyət daşıyır.

## ƏDƏBİYYAT İCMALI

Maliyyə nəzarəti dövlət maliyyə siyasətinin əsas elementlərindən biri olaraq, dövlət resurslarının idarə olunmasında mühüm rol oynayır. Elmi ədəbiyyatda maliyyə nəzarəti iqtisadi sabitliyin və büdcə intizamının qorunmasının əsas vasitələrindən biri kimi qiymətləndirilir (Musgrave, 1959; Stiglitz, 2000).

Fərqli iqtisadi məktəblər maliyyə nəzarətinə müxtəlif yanaşmalar təqdim edir. Klassik iqtisadçılar bu institutu yalnız dövlət xərclərinin düzgün və qənaətli istifadəsi kimi görürlər, liberal iqtisadiyyat nəzəriyyəsi isə onun strateji və planlaşdırıcı funksiyasını vurğulayır. Müasir tədqiqatçılar isə maliyyə nəzarətinin yalnız büdcə əməliyyatlarının yoxlanılması ilə kifayətlənmədiyini, həm də dövlət proqramlarının monitorinqi, investisiya layihələrinin səmərəli qiymətləndirilməsi və sosial siyasətin həyata keçirilməsi üçün əhəmiyyətli olduğunu göstərirlər (Allen & Tommasi, 2001).

Elmi tədqiqatlarda maliyyə nəzarətinin əsas funksiyaları aşağıdakı kimi təsnif edilir:

- Büdcə gəlirlərinin formalaşdırılmasına nəzarət;
- Dövlət xərclərinin effektivliyinin təmin edilməsi;
- Maliyyə pozuntularının qarşısının alınması;
- Dövlət proqramlarının və layihələrinin icrasının monitorinqi.

Həmçinin, aparılmış tədqiqatlar göstərir ki, maliyyə nəzarətinin mərhələli tətbiqi (ilkin, cari və sonrakı nəzarət) dövlət idarəçiliyinin effektivliyini artırmaq üçün əhəmiyyətlidir (Azərbaycan Respublikasının Büdcə Sistemi haqqında Qanun, 2021).

Son dövrlər aparılmış tədqiqatlarda, həmçinin informasiya texnologiyalarının və elektron maliyyə sistemlərinin maliyyə nəzarətində tətbiqi xüsusi vurğulanır. Bu yanaşma maliyyə məlumatlarının real vaxt rejimində monitorinqini, risklərin qiymətləndirilməsini və strateji qərarqəbuletməni mümkün edir.

Ədəbiyyat icmalı göstərir ki, maliyyə nəzarətinin inkişafı həm institusional, həm də metodoloji əsaslara söykənməlidir. Dövlət idarəçiliyində maliyyə nəzarətinin effektivliyi yalnız müvafiq hüquqi bazanın mövcudluğu ilə deyil, həm də elmi əsaslı metodların tətbiqi və dövlət orqanları arasında koordinasiyanın təmin olunması ilə ölçülür.

Beləliklə, mövcud ədəbiyyat maliyyə nəzarətinin dövlət idarəçiliyində funksional və strateji rolunu təsdiqləyir, lakin müasir iqtisadi və sosial şəraitdə onun metodoloji təkmilləşdirilməsinə ehtiyac olduğunu göstərir. Bu isə cari tədqiqatın elmi əsasını təşkil edir.

## TƏDQİQATIN METODOLOGİYASI

Tədqiqat zamanı aşağıdakı metodlardan istifadə edilmişdir:

- iqtisadi təhlil metodu
- müqayisəli təhlil metodu
- sistemli yanaşma metodu
- statistik təhlil metodu
- proqnozlaşdırma metodu

Bu metodlar maliyyə nəzarətinin formalaşması və inkişaf xüsusiyyətlərini kompleks şəkildə öyrənməyə imkan verir.

## MALİYYƏ NƏZARƏTİNİN NƏZƏRİ ƏSASLARI

Maliyyə nəzarəti dövlət idarəçiliyinin əsas elementlərindən biri olmaqla dövlət maliyyə resurslarının səmərəli idarə olunmasını təmin edən mühüm mexanizmdir. Bu institut dövlət maliyyə siyasətinin həyata keçirilməsində, büdcə intizamının qorunmasında və maliyyə resurslarının məqsədyönlü istifadəsinin təmin olunmasında əsas rol oynayır. Maliyyə nəzarəti dövlətin iqtisadi strategiyasının reallaşdırılmasında mühüm funksional alət kimi çıxış edir. O, maliyyə resurslarının formalaşdırılması, bölüşdürülməsi və istifadəsi proseslərini əhatə edir. Maliyyə nəzarətinin əsas məqsədi maliyyə resurslarının qanunvericiliyə uyğun, səmərəli və şəffaf şəkildə istifadəsini təmin etməkdir.

Maliyyə nəzarəti dövlət idarəçiliyində sistemli və mərhələli şəkildə həyata keçirilir. Bu mərhələlər maliyyə resurslarının planlaşdırılması, istifadəsi və nəticələrinin qiymətləndirilməsini əhatə edir. Maliyyə nəzarətinin mərhələli tətbiqi dövlət resurslarının daha səmərəli idarə olunmasına imkan verir. Bu mərhələlər bir-biri ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir və vahid nəzarət sistemini formalaşdırır. Maliyyə nəzarətinin əsas mərhələləri ilkin, cari və sonrakı maliyyə nəzarətindən ibarətdir (Allen & Tommasi, 2001).

İlkin maliyyə nəzarəti maliyyə nəzarətinin ən vacib mərhələlərindən biridir. Bu mərhələ maliyyə əməliyyatlarının həyata keçirilməsindən əvvəl tətbiq olunur. İlkin maliyyə nəzarətinin əsas məqsədi maliyyə resurslarının düzgün planlaşdırılmasını təmin etməkdir. Bu mərhələdə büdcə layihələri və maliyyə planları təhlil edilir. Maliyyə planlarının əsaslandırılmış şəkildə hazırlanması qiymətləndirilir. Büdcə vəsaitlərinin hansı sahələrə yönəldiləcəyi müəyyən edilir. Dövlət proqramlarının maliyyələşdirilməsi imkanları qiymətləndirilir. Resursların optimal bölgüsü təmin olunur.

İlkin maliyyə nəzarəti dövlət vəsaitlərinin qeyri-səmərəli istifadəsinin qarşısını almağa kömək edir. Bu mərhələdə maliyyə riskləri əvvəlcədən müəyyən edilir. Risklərin qarşısının alınması üçün tədbirlər hazırlanır. Dövlət xərclərinin məqsədəuyğunluğu qiymətləndirilir. Maliyyə qərarlarının iqtisadi əsaslandırılması aparılır. Layihələrin maliyyə səmərəliliyi təhlil edilir. Maliyyə planlarının dövlət strategiyasına uyğunluğu yoxlanılır. Büdcə proqnozlarının reallığı qiymətləndirilir (Premchand, 1999).

İlkin maliyyə nəzarəti maliyyə intizamının gücləndirilməsinə xidmət edir. Bu mərhələ dövlət resurslarının israfının qarşısını alır. Büdcə vəsaitlərinin düzgün istiqamətləndirilməsi təmin olunur. Dövlət proqramlarının maliyyə təminatı əvvəlcədən müəyyən edilir. Maliyyə resurslarının prioritet sahələrə yönəldilməsi təmin olunur. Bu mərhələ dövlət idarəçiliyində planlaşdırma funksiyasının effektivliyini artırır. Maliyyə qərarlarının daha əsaslandırılmış şəkildə qəbul edilməsinə şərait yaradır.

Bu mərhələdə həmçinin maliyyə sənədləri yoxlanılır. Büdcə layihələrinin qanunvericiliyə uyğunluğu müəyyən edilir. Maliyyə planlarının iqtisadi səmərəliliyi qiymətləndirilir. Maliyyə nəzarətinin bu mərhələsi gələcək maliyyə problemlərinin qarşısını almağa imkan verir. İlkin maliyyə nəzarəti dövlət idarəçiliyində maliyyə sabitliyinin təmin olunmasına mühüm töhfə verir.

Cari maliyyə nəzarəti maliyyə əməliyyatlarının həyata keçirilməsi prosesində tətbiq olunan nəzarət formasıdır. Bu mərhələdə maliyyə resurslarının faktiki istifadəsi izlənilir. Cari maliyyə nəzarətinin əsas məqsədi maliyyə əməliyyatlarının qanunvericiliyə uyğun həyata keçirilməsini təmin etməkdir. Bu nəzarət maliyyə vəsaitlərinin düzgün istifadəsinə imkan yaradır. Dövlət xərclərinin məqsədyönlü istifadəsi təmin olunur. Maliyyə əməliyyatlarının şəffaflığı artırılır.

Cari maliyyə nəzarəti dövlət maliyyə sistemində operativ nəzarət mexanizmi kimi çıxış edir. Bu mərhələdə maliyyə sənədləri mütəmadi olaraq yoxlanılır. Maliyyə əməliyyatlarının düzgün aparılması təmin edilir. Maliyyə pozuntuları operativ şəkildə aşkar edilir. Pozuntuların aradan qaldırılması üçün tədbirlər görülür. Dövlət resurslarının istifadəsi davamlı şəkildə monitorinq edilir.

Cari maliyyə nəzarəti dövlət büdcəsinin icrasına nəzarət edir. Dövlət xərclərinin planlaşdırılmış göstəricilərə uyğunluğu qiymətləndirilir. Dövlət gəlirlərinin düzgün toplanması yoxlanılır. Vergi və digər ödənişlərin düzgün hesablanması təmin edilir. Dövlət təşkilatlarının maliyyə fəaliyyəti izlənilir. Maliyyə hesabatlarının düzgünlüyü yoxlanılır.

Bu mərhələ maliyyə intizamının qorunmasına kömək edir. Dövlət maliyyə resurslarının səmərəli istifadəsini təmin edir. Maliyyə sistemində şəffaflığı artırır. Dövlət idarəçiliyində maliyyə risklərini azaldır. Büdcə vəsaitlərinin təyinatı üzrə istifadə olunmasını təmin edir (Diamond & Schiller, 2002).

Cari maliyyə nəzarəti maliyyə idarəçiliyinin effektivliyini artırır. Bu mərhələ dövlət idarəçiliyində operativ qərarların qəbuluna kömək edir. Maliyyə resurslarının istifadəsinə real vaxt rejimində nəzarət etməyə imkan verir. Bu isə dövlət idarəçiliyində səmərəliliyin yüksəldilməsinə xidmət edir.

Sonrakı maliyyə nəzarəti maliyyə əməliyyatları başa çatdıqdan sonra həyata keçirilən nəzarət formasıdır. Bu mərhələdə maliyyə əməliyyatlarının nəticələri təhlil edilir. Dövlət vəsaitlərinin istifadəsinin effektivliyi qiymətləndirilir. Maliyyə fəaliyyətinin nəticələri araşdırılır. Maliyyə hesabatları təhlil edilir. Dövlət təşkilatlarının maliyyə fəaliyyəti qiymətləndirilir.

Sonrakı maliyyə nəzarətinin əsas məqsədi maliyyə əməliyyatlarının nəticələrinin obyektiv qiymətləndirilməsidir. Bu mərhələ maliyyə pozuntularının aşkar edilməsinə imkan verir. Maliyyə sistemində mövcud problemlər müəyyən edilir. Bu problemlərin aradan qaldırılması üçün tədbirlər hazırlanır. Maliyyə idarəçiliyinin təkmilləşdirilməsi istiqamətləri müəyyən edilir.

Sonrakı maliyyə nəzarəti dövlət idarəçiliyində hesabatlılığı təmin edir. Dövlət maliyyə resurslarının istifadəsinin nəticələri qiymətləndirilir. Dövlət proqramlarının maliyyə effektivliyi müəyyən edilir. Dövlət xərclərinin nəticəliliyi təhlil edilir. Maliyyə planlarının icra səviyyəsi qiymətləndirilir.

Bu mərhələ gələcək maliyyə planlaşdırması üçün mühüm məlumat bazası yaradır. Maliyyə idarəçiliyinin təkmilləşdirilməsinə kömək edir. Dövlət maliyyə sistemində şəffaflığı artırır. Maliyyə resurslarının istifadəsinin effektivliyini artırır. Dövlət idarəçiliyində maliyyə nəzarətinin ümumi effektivliyini yüksəldir.

Sonrakı maliyyə nəzarəti dövlət maliyyə siyasətinin effektiv həyata keçirilməsini təmin edir. Bu mərhələ dövlət maliyyə sisteminin inkişafına mühüm töhfə verir. Maliyyə idarəçiliyində strateji qərarların qəbuluna kömək edir. Dövlət maliyyə resurslarının daha səmərəli istifadəsinə imkan yaradır.

**Cədvəl 1. Maliyyə nəzarətinin əsas mərhələləri və onların xüsusiyyətləri**

| **Maliyyə nəzarətinin mərhələsi** | **Məqsədi** | **Əsas funksiyaları** | **Tətbiq mərhələsi** | **Dövlət idarəçiliyinə təsiri** |
|---|---|---|---|---|
| İlkin maliyyə nəzarəti | Maliyyə resurslarının düzgün planlaşdırılmasını təmin etmək | Büdcə layihələrinin təhlili, maliyyə planlarının qiymətləndirilməsi, risklərin əvvəlcədən müəyyən edilməsi | Maliyyə əməliyyatlarından əvvəl | Resursların səmərəli bölgüsünü təmin edir, maliyyə risklərini azaldır |
| Cari maliyyə nəzarəti | Maliyyə resurslarının düzgün istifadəsini təmin etmək | Maliyyə əməliyyatlarının monitorinqi, sənədlərin yoxlanılması, pozuntuların aşkar edilməsi | Maliyyə əməliyyatları zamanı | Maliyyə intizamını gücləndirir, resursların təyinatı üzrə istifadəsini təmin edir |
| Sonrakı maliyyə nəzarəti | Maliyyə əməliyyatlarının nəticələrini qiymətləndirmək | Maliyyə hesabatlarının təhlili, effektivliyin qiymətləndirilməsi, pozuntuların müəyyən edilməsi | Maliyyə əməliyyatlarından sonra | Maliyyə idarəçiliyinin təkmilləşdirilməsinə və gələcək planlaşdırmaya imkan yaradır |

Dövlət idarəçiliyində maliyyə nəzarətinin əsas metodlarına aşağıdakılar daxildir:

- yoxlama;
- təftiş;
- maliyyə təhlili;
- monitorinq;
- audit.

Bu metodlar maliyyə resurslarının istifadəsinin effektivliyinin artırılmasına xidmət edir.

Müasir dövrdə maliyyə nəzarətinin inkişafında informasiya texnologiyalarının tətbiqi xüsusi əhəmiyyət kəsb edir. Elektron maliyyə sistemləri vasitəsilə maliyyə məlumatlarının operativ təhlili və monitorinqi mümkündür.

Effektiv maliyyə nəzarəti aşağıdakı nəticələrə gətirib çıxarır:

- dövlət resurslarının səmərəli istifadəsi
- büdcə intizamının gücləndirilməsi
- maliyyə pozuntularının azalması
- dövlət proqramlarının effektiv icrası
- iqtisadi sabitliyin təmin edilməsi (Azərbaycan Respublikası, 2018).

Bu amillər dövlət idarəçiliyinin ümumi effektivliyinin yüksəldilməsinə xidmət edir.

## NƏTİCƏ

Aparılan tədqiqat göstərir ki, maliyyə nəzarəti dövlət idarəçiliyinin effektivliyinin artırılmasında mühüm rol oynayır. Maliyyə nəzarətinin effektiv təşkili dövlət resurslarının səmərəli istifadəsinə, büdcə intizamının gücləndirilməsinə və dövlət siyasətinin uğurla həyata keçirilməsinə imkan verir.

Müasir şəraitdə maliyyə nəzarətinin inkişafı üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur:

- maliyyə nəzarəti sisteminin təkmilləşdirilməsi
- informasiya texnologiyalarının tətbiqi
- risk əsaslı nəzarət mexanizmlərinin tətbiqi
- institusional koordinasiyanın gücləndirilməsi

### Ədəbiyyat

1. Allen, R., & Tommasi, D. (2001). Managing public expenditure: A reference book for transition countries. *Paris: OECD Publishing.*
2. Musgrave, R. A., & Musgrave, P. B. (1989). Public finance in theory and practice (5th ed.). *New York: McGraw-Hill.*
3. Stiglitz, J. E., & Rosengard, J. K. (2015). Economics of the public sector (4th ed.). *New York: W.W. Norton & Company.*
4. Azərbaycan Respublikası. (2018). Büdcə sistemi haqqında Azərbaycan Respublikasının Qanunu. *Bakı: Hüquq ədəbiyyatı nəşriyyatı.*
5. Diamond, J., & Schiller, C. (2002). Government financial management theory and practice. *Washington, DC: International Monetary Fund.*
6. Premchand, A. (1999). Public financial management. *Washington, DC: International Monetary Fund.*

# THE ROLE OF FINANCIAL CONTROL IN INCREASED EFFICIENCY OF PUBLIC ADMINISTRATION AND THE METHODS OF ITS DEVELOPMENT

**N.F.Aliyev**

**SUMMARY**

This article studies the role of financial control in increasing the effectiveness of public administration, its theoretical and methodological foundations and development directions. It is stated that financial control plays an important role in the efficient use of state resources, ensuring budget discipline and implementing state policy.

# РОЛЬ ФИНАНСОВОГО КОНТРОЛЯ В ПОВЫШЕНИИ ЭФФЕКТИВНОСТИ ГОСУДАРСТВЕННОГО УПРАВЛЕНИЯ И МЕТОДЫ ЕГО РАЗВИТИЯ

**Н.Ф.Алиев**

**РЕЗЮМЕ**

В статье исследуется роль финансового контроля в повышении эффективности государственного управления, его теоретические и методологические основы и направления развития. Обосновывается важность финансового контроля в эффективном использовании государственных ресурсов, обеспечении бюджетной дисциплины и реализации государственной политики.

*Məqalə redaksiyaya 27 fevral 2026 tarixində daxil olmuş, 19 mart 2026 tarixində isə çapa qəbul olunmuşdur.*

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2026 - № 66

UOT № 336.71:339.138
https://doi.org/10.65806/1682-9123.2026.66.6

# GƏLƏCƏYİN BANKÇILIQ STRATEGİYALARI: MARKETİNQİN İNNOVATİV TƏSİRİ İLƏ YENİ İQTİSADİ PERSPEKTİVLƏR

**E.Y.Məmmədov, S.B.Cəlilova**
Odlar Yurdu Universiteti
Bakı, K.Rəhimov küçəsi 13
e-mail: elshad.mammadov@oyu.edu.az

***Açar sözlər:*** bankçılıq, marketinq, süni intellekt, fintex, iqtisadi perspektivlər
***Keywords:*** banking, marketing, artificial intelligence, fintech, economic prospects
***Ключевые слова:*** банковское дело, маркетинг, искусственный интеллект, финтех, экономические перспективы

## GİRİŞ

XXI əsrdə bankçılıq sahəsində innovasiyaların artması və informasiya texnologiyalarının aktiv tətbiqi rəqəmsallaşma prosesinin sürətləndiyini nümayiş etdirir. Rəqəmsallaşma prosesi bank xidmətlərinin təqdim edilmə üsullarını, müştəri münasibətlərinin idarə olunmasını və bazar rəqabətinin xarakterini köklü şəkildə dəyişdirmişdir. Mövcud şəraitdə bankların əməliyyat effektivliyinin yüksəldilməsi, müştəri məmnuniyyətinin təmin olunması və rəqabət üstünlüyünün əldə edilməsi üçün innovativ marketinq strategiyalarının tətbiqi mühüm əhəmiyyət kəsb edir [Rose & Hudgins, 2013]. Son on ildə aparılan tədqiqatlar rəqəmsallaşmanın artıq xidmət sektorunun da mərkəzi olduğu və bankçılığın empirik sınaq meydançaları arasında geniş yer tutduğu fikrini də gündəmə gətirmişdir.

Son illərdə fintex texnologiyalarının inkişafı, rəqəmsal bankçılıq xidmətlərinin genişlənməsi, süni intellekt və böyük verilənlərin istifadəsi bank sektorunda yeni yanaşmaların formalaşmasına səbəb olmuşdur. Bu yeniliklər bankların yalnız maliyyə vasitəçisi kimi deyil, həm də innovativ xidmətlər təqdim edən texnoloji təşkilatlar kimi fəaliyyət göstərməsinə şərait yaradır. Belə şəraitdə marketinq strategiyalarının yenilənməsi və müasir texnologiyalarla inteqrasiyası bankların inkişafında əsas amillərdən biri kimi çıxış edir.

Tədqiqatın əsas məqsədi gələcəyin bankçılıq strategiyalarının formalaşmasında innovativ marketinq alətlərinin rolunu araşdırmaq və onların yeni iqtisadi perspektivlərin yaranmasına təsirini təhlil etməkdir. Bu məqsədə nail olmaq üçün bank marketinqinin nəzəri əsasları, rəqəmsal transformasiya meylləri və innovativ texnologiyaların bank xidmətlərinin inkişafına təsiri öyrənilmişdir

## 1. TƏDQİQATIN MƏQSƏDİ

Bu tədqiqatın əsas məqsədi müasir bankçılıq sistemində baş verən dəyişiklikləri və gələcəyin bankçılıq strategiyalarının formalaşmasında innovativ marketinq yanaşmalarının rolunu geniş şəkildə araşdırmaqdır. Qlobal iqtisadi mühitdə rəqəmsallaşma, texnoloji inkişaf və maliyyə xidmətlərinin transformasiyası bank sektorunda yeni yanaş-

maların tətbiqini zəruri edir [Kotler & Keller, 2016]. Bu baxımdan tədqiqat çərçivəsində innovativ marketinq strategiyalarının bank xidmətlərinin təşviqində, müştəri münasibətlərinin idarə olunmasında və bankların bazarda rəqabət üstünlüyü əldə etməsində oynadığı rol təhlil edilir. Eyni zamanda, müasir marketinq alətləri, rəqəmsal platformalar və məlumat texnologiyalarının bank fəaliyyətinə inteqrasiyasının bankların inkişafına və effektiv idarəetmə strategiyalarının qurulmasına təsiri araşdırılır.

Bununla yanaşı, tədqiqatın məqsədi innovativ marketinq yanaşmalarının bank sektorunda yeni iqtisadi perspektivlərin formalaşmasına necə təsir etdiyini müəyyən etməkdir. Araşdırma zamanı müştəri yönümlü strategiyaların tətbiqi, bank xidmətlərinin keyfiyyətinin artırılması, müasir maliyyə məhsullarının yaradılması və rəqəmsal bankçılığın inkişafı kimi məsələlərə xüsusi diqqət yetirilir [Mishkin, 2018]. Həmçinin bankların dəyişən bazar şəraitinə uyğunlaşması, innovasiyaların tətbiqi ilə yeni imkanların yaranması və uzunmüddətli dayanıqlı inkişaf strategiyalarının formalaşdırılması istiqamətində təhlillər aparılır. Tədqiqatın nəticələri bank sektorunda innovativ marketinq strategiyalarının daha səmərəli tətbiqinə və gələcək iqtisadi inkişaf perspektivlərinin müəyyənləşdirilməsinə töhfə verməyi hədəfləyir [Azərbaycan Respublikasının Mərkəzi Bankı, 2023].

Bundan əlavə, məqsəd bank sektorunda gələcəyin strategiyalarının formalaşmasında innovativ marketinq yanaşmalarının rolunu araşdırmaq və onların yeni iqtisadi perspektivlərin yaranmasına təsirini müəyyən etməkdir. Tədqiqat çərçivəsində rəqəmsallaşma, müştəri yönümlü strategiyalar və texnoloji yeniliklərin bank xidmətlərinin inkişafına necə təsir göstərdiyi təhlil edilir.

Eyni zamanda, araşdırmanın məqsədlərindən biri də bankların rəqabət qabiliyyətini artırmaq üçün istifadə etdikləri innovativ marketinq alətlərini və strategiyalarını müəyyən etmək, bu yanaşmaların müştəri məmnuniyyəti və bazar payına təsirini qiymətləndirməkdir [Deloitte, 2022]. Bununla yanaşı, tədqiqat bank sektorunda davamlı inkişafın təmin olunması üçün yeni marketinq strategiyalarının tətbiqi imkanlarını və onların iqtisadi səmərəliliyini müəyyən etməyə yönəlmişdir.

Tədqiqatın nəticələri bankların gələcək fəaliyyət strategiyalarının hazırlanmasında, marketinq fəaliyyətlərinin daha effektiv təşkilində və maliyyə sektorunda innovasiyaların tətbiqinin genişləndirilməsində praktiki tövsiyələrin formalaşdırılmasına xidmət edir.

## 2. METODOLOGİYA

Tədqiqat çərçivəsində müxtəlif elmi yanaşma və metodlardan sistemli şəkildə istifadə edilmişdir. Tədqiqat prosesində bank sektoru və innovativ marketinq strategiyaları ilə bağlı mövcud elmi ədəbiyyatın, məqalələrin, statistik məlumatların və rəsmi hesabatların təhlili həyata keçirilmişdir. Eyni zamanda, bankçılıq sahəsində tətbiq olunan müasir marketinq yanaşmalarının öyrənilməsi üçün analiz və sintez metodlarından istifadə edilmiş, müxtəlif nəzəri baxışlar müqayisəli şəkildə araşdırılmışdır. Bu metodlar vasitəsilə bank sektorunda innovativ marketinq strategiyalarının mahiyyəti və onların iqtisadi inkişaf prosesində rolu müəyyən edilmişdir [Quliyev, 2018].
Bununla yanaşı, tədqiqat çərçivəsində müqayisəli təhlil, ümumiləşdirmə və sistemləşdirmə metodlarından da istifadə edilmişdir. Müxtəlif ölkələrin bank sektorunda tətbiq olunan innovativ marketinq strategiyaları müqayisə olunaraq onların effektivliyi araşdırılmışdır.

Statistik məlumatların təhlili və mövcud praktiki nümunələrin öyrənilməsi əsasında bankların müasir iqtisadi mühitə uyğunlaşma imkanları və innovativ yanaşmaların tətbiqi nəticəsində yaranan yeni perspektivlər qiymətləndirilmişdir [Azərbaycan Banklar Assosiasiyası, 2022].

Bundan əlavə, tədqiqat zamanı keyfiyyət və kəmiyyət tədqiqat metodlarının inteqrasiyasına üstünlük verilmişdir. Bank sektorunda innovativ marketinq alətlərinin tətbiqi səviyyəsini müəyyən etmək məqsədilə seçilmiş maliyyə institutlarının fəaliyyət göstəriciləri təhlil edilmiş, müştəri davranışları və bazar tendensiyaları nəzərə alınmışdır. Eyni zamanda, müasir informasiya texnologiyalarının, xüsusilə rəqəmsal platformaların və sosial medianın bank xidmətlərinin təşviqində rolu ayrıca qiymətləndirilmişdir.

Tədqiqat çərçivəsində həmçinin risklərin qiymətləndirilməsi və strateji qərarların qəbuluna təsir edən amillər də nəzərdən keçirilmişdir. Bu istiqamətdə aparılan araşdırmalar innovativ marketinq strategiyalarının yalnız müştəri cəlb etməklə kifayətlənmədiyini, eyni zamanda bankların uzunmüddətli dayanıqlılığının təmin edilməsində mühüm rol oynadığını göstərmişdir.

Beləliklə, istifadə olunan metodların kompleks yanaşması bank sektorunda innovativ marketinq strategiyalarının tətbiq mexanizmlərini daha dərindən anlamağa və onların praktik əhəmiyyətini əsaslandırmağa imkan vermişdir.

## 3. NƏTİCƏLƏR VƏ TÖVSİYƏLƏR

Aparılan tədqiqat nəticəsində müəyyən edilmişdir ki, müasir bank sektorunda innovativ marketinq strategiyalarının tətbiqi bankların rəqabət qabiliyyətinin artırılmasında mühüm rol oynayır. Rəqəmsal texnologiyaların və müasir marketinq alətlərinin istifadəsi bank xidmətlərinin daha effektiv təqdim olunmasına, müştəri məmnuniyyətinin yüksəldilməsinə və yeni bazar imkanlarının yaranmasına şərait yaradır. Araşdırma göstərir ki, banklar müştəri yönümlü yanaşmalar tətbiq etməklə bazarda daha güclü mövqe əldə edə bilirlər [Kotler & Armstrong, 2017].

Tədqiqat nəticələrinə əsasən bank sektorunda innovativ marketinq strategiyalarının daha geniş tətbiq edilməsi tövsiyə olunur. Bankların rəqəmsal platformaların inkişafına daha çox investisiya yönəltməsi, müştəri ehtiyaclarını daha dəqiq müəyyən etmək üçün analitik vasitələrdən istifadə etməli və yeni maliyyə məhsullarının yaradılmasına önəm verməlidirlər [Digital Banking Report, 2021]. Bununla yanaşı, müasir texnologiyaların tətbiqi və marketinq fəaliyyətinin təkmilləşdirilməsi bankların uzunmüddətli və dayanıqlı inkişafına müsbət təsir göstərə bilər.

Aparılan tədqiqat göstərir ki, bank sektorunda rəqabət mühitinin güclənməsi və rəqəmsal texnologiyaların sürətli inkişafı bankların marketinq strategiyalarında innovativ yanaşmaların tətbiqini zəruri edir. Müasir dövrdə müştəri yönümlü xidmət modelləri, rəqəmsal platformalar və fərdiləşdirilmiş marketinq alətləri bankların bazarda mövqeyinin möhkəmləndirilməsində mühüm rol oynayır. Bu amillər bank xidmətlərinin daha əlçatan və effektiv şəkildə təqdim olunmasına şərait yaradır.

Tədqiqatın nəticələrinə əsasən tövsiyə olunur ki, banklar rəqəmsal marketinq strategiyalarını genişləndirməli, müştəri məlumatlarının analizi əsasında fərdiləşdirilmiş xidmət modelləri tətbiq etməli və innovativ texnologiyalardan daha səmərəli istifadə etməlidirlər [Əliyev, 2019]. Eyni zamanda, banklar müştəri təcrübəsini yaxşılaşdırmaq üçün onlayn xidmətlərin keyfiyyətini artırmalı və innovasiya yönümlü idarəetmə strategiyalarına üstünlük verməlidirlər.

Bundan əlavə, bank sektorunda davamlı inkişafın təmin edilməsi üçün texnoloji tərəfdaşlıqların genişləndirilməsi, startap ekosistemləri ilə əməkdaşlıq və yeni maliyyə texnologiyalarının tətbiqi də vacib hesab olunur. Bu yanaşmalar bankların gələcəkdə daha çevik, rəqabətqabiliyyətli və innovativ maliyyə institutları kimi fəaliyyət göstərməsinə imkan yaradacaqdır.

## Ədəbiyyat


1. Kotler, F., Keller, K. L. (2016). Marketinqin idarə edilməsi. *Pearson Education.*
2. Mishkin, F. S. (2018). Pul, bank işi və maliyyə bazarları iqtisadiyyatı. *Pearson Education.*
3. Rose, P. S., Hudgins, S. C. (2013). Bank idarəçiliyi və maliyyə xidmətləri. *McGraw-Hill Education.*
4. Azərbaycan Respublikasının Mərkəzi Bankı. (2023). Bank sistemi və maliyyə sabitliyi haqqında hesabat.
5. Əliyev, E. (2019). Bank işi və bankçılıq fəaliyyətinin əsasları. *Bakı: İqtisad Universiteti nəşriyyatı.*
6. Quliyev, T. (2018). Marketinq əsasları. *Bakı: Elm və Təhsil nəşriyyatı.*
7. Azərbaycan Banklar Assosiasiyası. (2022). Azərbaycan bank sektorunun inkişaf perspektivləri.
8. Kotler, F., Armstrong, G. (2017). Marketinq prinsipləri. *Pearson Education.*
9. Digital Banking Report. (2021). The Future of Digital Banking and Marketing Strategies.
10. Deloitte. (2022). Global Banking Outlook and Innovation in Financial Services.


## FUTURE BANKING STRATEGIES: NEW ECONOMIC PERSPECTIVES UNDER THE INFLUENCE OF INNOVATIVE MARKETING

**E.Y.Mamedov, S.B.Jalilova**

## SUMMARY

This article examines the role of innovative marketing tools in shaping future banking strategies and their impact on the emergence of new economic perspectives. The theoretical foundations of bank marketing, key trends of digital transformation in modern banking systems, and the impact of innovative technologies on the development of banking services are analyzed. Based on the findings, the authors conclude that the integration of innovative marketing strategies, the adoption of digital technologies, and the strengthening of customer-oriented approaches are essential for ensuring the long-term and sustainable development of banks.

# СТРАТЕГИИ БАНКОВСКОГО ДЕЛА БУДУЩЕГО: НОВЫЕ ЭКОНОМИЧЕСКИЕ ПЕРСПЕКТИВЫ ПОД ВЛИЯНИЕМ ИННОВАЦИОННОГО МАРКЕТИНГА

**Э.Я.Мамедов, С.Б.Джалилова**

**РЕЗЮМЕ**

В статье исследуется роль инновационных маркетинговых инструментов в формировании стратегий банковского дела будущего, а также их влияние на появление новых экономических перспектив. Проанализированы теоретические основы банковского маркетинга, тенденции цифровой трансформации в современной банковской системе, а также влияние инновационных технологий на развитие банковских услуг. Авторы отмечают, что для обеспечения устойчивого развития банков большое значение имеет внедрение инновационных маркетинговых стратегий, интеграция цифровых технологий и усиление клиентоориентированного подхода.

*Məqalə redaksiyaya 19 mart 2026 tarixində daxil olmuş, 3 aprel 2026 tarixində isə çapa qəbul olunmuşdur.*

**ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ**
**THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY**

**2026 - № 66**

UOT № 338.43:004.9
https://doi.org/10.65806/1682-9123.2026.66.7

# AQRAR SAHƏDƏ RƏQƏMSAL İQTİSADİYYATIN FORMALAŞMASI VƏ İNKİŞAF PRİORİTETLƏRİ

**A.E.Həsənova, T.V.Baloğlanova, M.M.Mehdiyev**
Odlar Yurdu Universiteti
Bakı, K.Rəhimov küçəsi 13
e-mail: baloglanovaterane695@gmail.com

***Açar sözlər:*** rəqəmsal iqtisadiyyat, aqrar sektor, kənd təsərrüfatında rəqəmsallaşma, aqrar innovasiyalar, ağıllı kənd təsərrüfatı

***Keywords:*** digital economy, agricultural sector, digitalization in agriculture, agricultural innovations, smart agriculture

***Ключевые слова:*** цифровая экономика, аграрный сектор, цифровизация в сельском хозяйстве, сельскохозяйственные инновации, интеллектуальное сельское хозяйство

## Giriş

Rəqəmsal iqtisadiyyatın aqrar sektorda tətbiqi kənd təsərrüfatının məhsuldarlığının artırılması, əməliyyat xərclərinin optimallaşdırılması, ərzaq təhlükəsizliyinin təmin olunması və kənd yerlərində gəlir mənbələrinin diversifikasiyası üçün əsas vasitələrdən biri hesab edilir. Son illərdə Azərbaycan hökuməti və beynəlxalq təşkilatlar kənd təsərrüfatında verilənlərə əsaslanan idarəetmə, elektron xidmətlərin tətbiqi və kənd yerlərində rəqəmsal bacarıqların artırılması istiqamətində təşəbbüslər həyata keçirirlər. Bu dəyişikliklərin effektli idarə olunması üçün dəqiq statistik məlumatların toplanması, regional fərqliliklərin nəzərə alınması və infrastruktur investisiyalarının prioritetləşdirilməsi vacibdir [Food and Agriculture Organization of the United Nations].

## Aqrar sahədə rəqəmsal transformasiyanın cari vəziyyətinin təhlili

Azərbaycan iqtisadiyyatında kənd təsərrüfatı ənənəvi olaraq əhəmiyyətli yer tutur, aqrar sahə məşğulluqda yüksək paya malik olmaqla yanaşı, ümumi daxili məhsulda (ÜDM) nisbətən kiçik, lakin strateji rol oynayır. Beynəlxalq təşkilatların və yerli statistik mənbələrin son göstəricilərinə görə, kənd təsərrüfatı işçi qüvvəsinin həcmi və onun ÜDM-də payı arasında kəsişmələr mövcuddur: işçi qüvvəsinin böyük hissəsi kənd təsərrüfatına bağlı olsa da, sektorun ÜDM-yə töhfəsi neftdən asılı olmayan iqtisadiyyat kontekstində nisbətən məhduddur [Food and Agriculture Organization of the United Nations].

Aqrar sahənin rəqəmsal transformasiyasının qarşısında duran maneələr kompleks xarakter daşıyır və tək bir həll yolu ilə aradan qaldırıla bilməz. Belə ki, infrastruktur çatışmazlığı rəqəmsal alətlərdən istifadəni məhdudlaşdırır, bu da öz növbəsində kadr hazırlığını çətinləşdirir və fermer motivasiyasını aşağı salır. Buna görə də uğur ancaq bu sahələr üzrə sinxron və ardıcıl tədbirlərin həyata keçirilməsindən asılıdır.

Yuxarıda sadalanan problemlərin aradan qaldırılması üçün əsas strategiya aşağıdakı addımları əhatə etməlidir:

– Pilot zonaların yaradılması - texnoloji və institusional həllərin sınaqdan keçirildiyi və tətbiqinin qiymətləndirildiyi model regionlar seçilməlidir.

– Mərhələli investisiya - ilkin olaraq əsas infrastrukturun (internet, enerji) qurulmasına, daha sonra platforma və təlim layihələrinə sərmayə qoyulmalıdır.

– Monitorinq və adaptasiya - hər bir tədbirin təsiri daim monitorinq edilməli və strategiya real nəticələr əsasında dinamik şəkildə yenilənməlidir.

Rəqəmsal transformasiya üçün əsas göstəricilərə informasiya və kommunikasiya texnologiyalarının (İKT) əlçatanlığı, internet infrastrukturunun kənd ərazilərinə çatdırılması, elektron dövlət və aqrar xidmətlərin inkişaf səviyyəsi, eləcə də aqrar göstəricilərin – torpaq resursları, əkin sahələrinin strukturu, məhsuldarlıq göstəriciləri və heyvandarlıq üzrə statistik məlumatların rəqəmsallaşdırılması daxildir. Bu göstəricilər aqrar sahədə rəqəmsal iqtisadiyyatın institusional və texnoloji əsaslarını formalaşdıran mühüm indikatorlar kimi çıxış edir. Xüsusilə, kənd ərazilərində sabit və genişzolaqlı internetə çıxışın təmin edilməsi fermer təsərrüfatlarının elektron xidmətlərdən istifadə imkanlarını genişləndirir, aqrar istehsal proseslərində məlumatların operativ ötürülməsini və emalını mümkün edir.

Dövlət Statistika Komitəsinin 2024-cü il nəşrlərində və müvafiq rəsmi hesabatlarda aqrar sektor üzrə əsas statistik göstəricilərin elektron illik hesabatlar formatında təqdim edilməsinin genişləndirildiyi, eyni zamanda elektron kənd təsərrüfatı siyahılarının hazırlanması istiqamətində ilkin institusional və texniki işlərin başladığı qeyd olunur [Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, 2024]. Bu yanaşma kənd təsərrüfatı subyektləri barədə məlumatların daha sistemli, müqayisəolunan və dinamik formada toplanmasına şərait yaradır. Elektron aqrar siyahıların tətbiqi torpaqdan istifadə səviyyəsinin, məhsuldarlıq fərqlərinin və regional istehsal potensialının daha dəqiq qiymətləndirilməsinə imkan verir. Eyni zamanda, aqrar indikatorların rəqəmsallaşdırılması dövlət siyasətinin elmi əsaslandırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Elektron statistik bazalar əsasında formalaşdırılan analitik hesabatlar dövlət proqramlarının monitorinqini, subsidiya və dəstək mexanizmlərinin effektivliyinin qiymətləndirilməsini, eləcə də resursların regionlar üzrə daha rasional bölgüsünü təmin edir. Beləliklə, rəqəmsallaşdırılmış aqrar statistika yalnız informasiya toplama aləti kimi deyil, həm də strateji planlama və qərar qəbuletmə proseslərini dəstəkləyən funksional mexanizm kimi çıxış edir. Bu isə aqrar sahədə rəqəmsal iqtisadiyyatın dayanıqlı inkişafı üçün etibarlı institusional baza formalaşdırır.

Beynəlxalq dəstək və ekspertizanın rolu mühüm əhəmiyyət kəsb edir. BMT Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) və Dünya Bankı kimi təşkilatlar Azərbaycanda rəqəmsal kənd təsərrüfatın inkişafı, "rəqəmsal kənd" və aqro-məlumat platformalarının qurulması ilə bağlı proqramlar və qiymətləndirmələr həyata keçirir. Məsələn, FAO regionda "Digital Villages" təşəbbüsünün bir hissəsi kimi Azərbaycanın kənd yerlərində rəqəmsal həllərin tətbiqi və digital aqrar siyahı hazırlığı üzrə dəstək göstərdiyini bildirir [Food and Agriculture Organization of the United Nations].

Analitik qiymətləndirmə göstərir ki, kənd yerlərində internetə çıxışın genişləndirilməsi və mobil əlaqənin keyfiyyətinin yüksəldilməsi ilə yanaşı, məlumatların məxfiliyi, statistik mənbələrin harmonizasiyası və yerli istifadəçilərin rəqəmsal bacarıqlarının artırılması — rəqəmsal texnologiyaların tətbiqini sürətləndirə biləcək əsas tıxaclardır [Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, 2023–2025]. Bu sahədə həyata keçirilmiş sorğular və qiymətləndirmələr kənd təsərrüfatı subyektlərinin texnoloji adaptasiya

səviyyəsinin regiondan-regiona fərqləndiyini göstərir.

## Aqrar sahədə inkişaf prioritetləri: siyasət, infrastruktur və insan kapitalı

Rəqəmsal iqtisadiyyatın dinamik inkişafı və möhkəm formalaşması, strateji perspektivdə qarşılıqlı əlaqədə olan prioritet istiqamətlərin ardıcıl həyata keçirilməsini tələb edir. Bu proses, üç fundamental təməlin sinxron təkmilləşdirilməsi ətrafında qurula bilər. İlkin mərhələ olaraq texnoloji infrastrukturun və verilənlər bazalarının möhkəmləndirilməsi, bütün sonrakı inkişafın əsasını təşkil edir. Kənd yerlərində 4G/5G və sabit internet infrastrukturu, kənd təsərrüfatı üçün meteoroloji və torpaq məlumatlarının toplanması platformaları, həmçinin elektron torpaq kadastrlarının gücləndirilməsi prioritet olmalıdır. Dövlət Statistika Komitəsinin və Dünya Bankının qiymətləndirmələri göstərir ki, kənd təsərrüfatı üzrə vahid, açıq və etibarlı məlumat platformasının yaradılması siyasətçilərə və fermerlərə daha dəqiq qərarlar qəbul etməyə imkan verəcəkdir [Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, 2024]. İkinci mərhələ, effektiv idarəetmə və şəffaflıq üçün institusional çərçivənin yaradılması və elektron dövlət xidmətlərinin genişləndirilməsini əhatə edir. İnstitusional islahatlar və elektron xidmətlər. Elektron xidmətlərin (torpaq qeydiyyatı, subsidiyaların və güzəştlərin elektron vaxtında ödənişi, fitosanitar sertifikatlaşma və s.) genişləndirilməsi, eləcə də dövlət-dəyişikliklərə çevik adaptasiya üçün vahid "aqro-məlumat" platformasının qurulması əsas məqsəd olmalıdır. Yerli təcrübə göstərir ki, nazirlik səviyyəsində rəqəmsal təşəbbüslərin koordinasiyası, dövlətin və özəl sektorun rol bölgüsünün aydınlaşdırılması uğurlu tətbiq üçün vacibdir [Aqrar Kredit və İnkişaf Agentliyi]. Nəhayət, üçüncü mərhələ ixtisaslı insan kapitalının formalaşdırılmasına və strateji tərəfdaşlıq modellərinin qurulmasına yönəlir. Kənd ictimaiyyətinin rəqəmsal bacarıqlarının artırılması, məsləhət xidmətlərinin (extension services) rəqəmsal formaya keçirilməsi və özəl sektorla (startuplar, agtech şirkətləri) əməkdaşlıqların genişləndirilməsi prioritet olmalıdır. Dünya Bankın və FAO-nun tövsiyələri göstərir ki, yerli təlim proqramları və pilot layihələr vasitəsilə texnologiyaların konkret fermer qrupları üçün uyğunlaşdırılması tətbiq sürətini xeyli artırır [World Bank, 2024]. Bu üçbucaqlı yanaşma, rəqəmsal transformasiyanın davamlı və tarazlı şəkildə irəliləməsi üçün zəruri olan texniki, təşkilati və sosial-kommunikasiya amillərini birləşdirir.

## Nəticə

Azərbaycan aqrar sektorunun rəqəmsal transformasiyası uzunmüddətli və fasiləsiz proses olaraq, davamlı monitorinq, qiymətləndirmə və tənzimləmə tələb edir. Aqrar sahənin rəqəmsal transformasiyasının qarşısında duran maneələr kompleks xarakter daşıyır və tək bir həll yolu ilə aradan qaldırıla bilməz. Aqrar rəqəmsal iqtisadiyyatının inkişafı texnoloji innovasiyaların tətbiqindən daha çox, onları dəstəkləyən institusional və kadr islahatlarını tələb edir. Rəqəmsal aqrar investisiyaların maliyyələşdirilməsi üçün dövlət qrantları, subsidiyalar, subsidiyalı kreditlər və ictimai-özəl tərəfdaşlıqlar (İÖT) xüsusi rol oynaya bilər. Eyni zamanda, beynəlxalq donorların texniki dəstəyi (FAO, Dünya Bank və s.) və regional layihələr vasitəsilə pilot zonaların yaradılması, yaxşı təcrübələrin şaxələndirilməsi üçün əlverişli mexanizmdir. Bu mexanizmlər xüsusilə kiçik və orta fermer təsərrüfatları üçün rəqəmsal xidmətlərə girişin təmin edilməsində kritik əhəmiyyətə malikdir [Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, 2023–2025]. Bu prioritet-

lərin ardıcıl şəkildə həyata keçirilməsi Azərbaycanın aqrar sektorunun rəqabət qabiliyyətini və davamlılığını əhəmiyyətli dərəcədə artıra bilər, eyni zamanda da bu nəinki aqrar sahənin səmərəliliyinin yüksəldilməsinə, həm də ölkənin ümumi iqtisadi inkişafına və ərzaq təhlükəsizliyinin təmin edilməsinə əhəmiyyətli töhfə verəcəkdir.

## Ədəbiyyat

1. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. (2024). Azərbaycan rəqəmlərdə / Azerbaijan in figures: Statistik illik məcmuə.
2. Aqrar Kredit və İnkişaf Agentliyi (AKİA). Aqrar subsidiya qaydaları və "Subsidy" informasiya sistemi.
3. Balayev, Ə. R. (2020). Aqrar sahədə rəqəmsal mühitin formalaşmasının əsas amilləri və təcrübi aspektləri. *Aqrar İqtisadiyyat.*
4. Food and Agriculture Organization of the United Nations (FAO). *Digital Villages Initiative* — Digital villages in action: Focus on Azerbaijan.
5. World Bank. (2024). Azerbaijan rural digital needs assessment.
6. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi. (2016). Aqrar sahənin problemləri müzakirə olundu. *Teleqraf.*
7. Mikayılova, N. (2025). Aqrar sahənin rəqəmsallaşmasının inkişaf meyilləri. *Aqrar İqtisadiyyat*, (47).
8. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi. (2023–2025). "Online Azerbaijan" layihəsi: Rəsmi press-relizlər və layihə materialları.

## FORMATION OF DIGITAL ECONOMY IN AGRICULTURAL SECTOR AND DEVELOPMENT PRIORITIES

**A.E.Hasanova, T.V.Baloghlanova, M.M.Mehdiyev**

## SUMMARY

The formation of a digital economy in the agricultural sector is a priority for Azerbaijan in terms of productivity growth, food security and socio-economic development in rural areas. To ensure success, an accurate statistical base, infrastructure investments, a unified state digital strategy and the development of local human capital must be implemented together. Pilot projects, open data platforms and Public–Private Partnership (PPP) models will allow to increase the scale of innovations in the sector and measure the real impact of technologies. In this work, an attempt is made to highlight these problems and to formulate appropriate solutions to them.

# ФОРМИРОВАНИЕ ЦИФРОВОЙ ЭКОНОМИКИ В АГРАРНОЙ ОТРАСЛИ И ПРИОРИТЕТЫ РАЗВИТИЯ

**А.Э.Гасанова, Т.В.Балогланова, М.М.Мехдиев**

## РЕЗЮМЕ

Формирование цифровой экономики в аграрной отрасли является приоритетной задачей для Азербайджана с точки зрения роста производительности, продовольственной безопасности и социально-экономического развития сельских районов. Для обеспечения успеха необходимо одновременно внедрять точную статистическую базу, инвестиции в инфраструктуру, единую государственную цифровую стратегию и развивать местный человеческий капитал. Пилотные проекты, платформы открытых данных и модели государственно-частного партнёрства (ГЧП) позволят увеличить масштабы инноваций в отрасли и оценить реальное воздействие технологий. В статье предпринята попытка высветить эти проблемы и подготовить для них надлежащие решения.

*Məqalə redaksiyaya 14 aprel 2026 tarixində daxil olmuş, 15 aprel 2026 tarixində isə çapa qəbul olunmuşdur.*

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2026 - № 66

UOT № 631.1:330.322
https://doi.org/10.65806/1682-9123.2026.66.8

# AQRAR SAHƏDƏ "AĞILLI" TEXNOLOGİYALAR VƏ İNVESTİSİYA CƏLBEDİCİLİYİNİN YÜKSƏLDİLMƏSİ

**A.İ.Yusifov, E.H.Mahmudov, H.S.İsmayılov**
Odlar Yurdu Universiteti
Bakı, K.Rəhimov küçəsi 13
e-mail: mahmudovelnur2003@gmail.com

***Açar sözlər:*** ağıllı kənd təsərrüfatı, süni intellekt (Sİ), əşyaların interneti (IoT), investisiya cəlbediciliyi, aqrar-sənaye kompleksi

***Keywords:*** smart farming, artificial intelligence (AI), Internet of Things (IoT), investment attractiveness, agro-industrial complex

***Ключевые слова:*** умное сельское хозяйство, искусственный интеллект (ИИ), интернет вещей (IoT), инвестиционная привлекательность, агропромышленный комплекс

## Giriş

Süni İntellekt (Sİ) müasir aqrar-sənaye kompleksində qlobal ərzaq təhlükəsizliyinin təmin edilməsində strateji vasitəyə çevrilmişdir və resurslardan səmərəli istifadəyə imkan yaradır. Ənənəvi kənd təsərrüfatı metodlarını "ağıllı" alqoritmlərlə əvəz edən bu texnologiyalar, insan amilindən qaynaqlanan səhvləri minimuma endirərək, resurslardan maksimum səmərəli istifadəyə imkan yaradır.

## Sİ-nin aqrar sahədə əsas tətbiq istiqamətləri və əhəmiyyəti

Sİ-nin tətbiqi aşağıdakı istiqamətlərdə inqilabi dəyişikliklər yaradır.

*Məhsuldarlığın proqnozlaşdırılması.* Bu sahədə Sİ-nin tətbiqi tarixi məlumatlar və cari hava şəraiti əsasında dəqiq proqnozların verilməsini nəzərdə tutur. Məhsuldarlığın proqnozlaşdırılması tarixi meteoroloji məlumatların, torpaq analizinin və peyk görüntülərinin emalı əsasında həyata keçirilir ki, bu da fermerlərin bazar strategiyalarını optimallaşdırmasına şərait yaradır. Bu isə öz növbəsində fermerlərə satış strategiyalarını öncədən planlaşdırmağa, bazar qiymətlərindəki dalğalanmalara hazır olmağa və əkin dövriyyəsini ən uyğun vaxtda həyata keçirməyə kömək edir.

*Zərərvericilərlə mübarizə* - maşın öyrənməsi vasitəsilə bitki xəstəliklərinin erkən mərhələdə müəyyən edilməsini nəzərdə tutur. Bitki xəstəliklərinin erkən diaqnostikası kompüter görməsi və maşın öyrənməsi texnologiyaları vasitəsilə mümkün olur və kimyəvi müdaxilənin həcmini azaldır. Kompüter Görməsi (Computer Vision) texnologiyası ilə təchiz edilmiş dronlar və sensorlar bitkilərdəki ən kiçik rəng dəyişikliklərini və ya ləkələri belə qeydə ala bilir. Maşın öyrənməsi modelləri bu görüntüləri minlərlə xəstəlik nümunəsi ilə müqayisə edərək, xəstəliyi hələ vizual olaraq fərq edilməyən erkən mərhələdə müəyyənləşdirir. Bu, kimyəvi preparatların bütün sahəyə deyil, yalnız yoluxmuş ocaqlara tətbiq edilməsinə şərait yaradır.

*Resursların optimizasiyası* isə su və gübrə sərfiyyatının hər bitkinin ehtiyacına uyğun tənzimlənməsini həyata keçirir. Sİ-yə əsaslanan suvarma və gübrələmə sistemləri hər bir bitkinin ehtiyacını fərdi şəkildə analiz edir. Dəqiq suvarma və gübrələmə sistemləri

su və aqrokimyəvi resurslara qənaət etməklə ekoloji dayanıqlılığı artırır.

**Aqrar sahədə investisiya cəlbediciliyini artıran amillər**

Aqrar sahə həm yüksək potensiala, həm də spesifik risklərə malik bir sektordur. Aqrar iqtisadiyyatın innovasiyalı inkişafında investisiya resurslarının cəlb edilməsinin ən səmərəli yolu dövlət və aqrar subyektlər tərəfindən elmi-tədqiqat işlərinin birgə maliyyələşdirilməsidir. Bunun üçün aqrar sahədə elmi-texniki inkişafa investisiyaların cəlbediciliyinin təmin edilməsinə yönəlmiş institusional dəyişikliklərin həyata keçirilməsi tələb olunur. Bununla yanaşı, maraqlı tərəflər üçün innovativ inkişafın vahid məlumat bazasının yaradılması məqsədəuyğun hesab edilir [Süleymanzadə, 2025]. Aqrar sahədə yüksək risk, gəlirliliyin gecikməsi və likvidlik problemləri investisiya axınını məhdudlaşdıran əsas amillər kimi qiymətləndirilir. İnvestisiya axınının gözləniləndən az olması həm iqtisadi, həm də təbii amillərlə bağlıdır. Bu sahədə investisiya cəlbediciliyinin digər sahələrə nisbətən aşağı olmasının və investorların kənd təsərrüfatına ehtiyatla yanaşmasının bir sıra fundamental obyektiv və subyektiv səbəbi var:

*Yüksək risk faktoru* - iqlim dəyişikliyi, quraqlıq, dolu və ya qəfil donvurma kimi təbii fəlakətlər bir gecədə bütün investisiyanı məhv edə bilər;

*Gəlirliliyin gecikməsi* - texnoloji sahələrdən fərqli olaraq, aqrar sahədə (xüsusilə meyvəçilikdə) qoyulan vəsaitin geri qayıtması illər tələb edir;

*Likvidlik problemi* - kənd təsərrüfatı aktivləri (torpaq, texnika) asanlıqla nağd pula çevrilmir, bu da investor üçün "çıxış strategiyasını" çətinləşdirir.

Müasir iqtisadi mühitdə aqrar sektorun rəqabət qabiliyyətini artırmaq üçün yalnız ənənəvi metodlara güvənmək kifayət deyil. İnvestisiya cəlbediciliyini təmin etmək, mövcud riskləri idarəolunan səviyyəyə endirmək və sahənin maliyyə dayanıqlığını bərpa etmək üçün texnoloji transformasiya qaçılmazdır. Texnoloji transformasiya və rəqəmsallaşma isə bu risklərin idarəolunan səviyyəyə endirilməsinə və sektorun maliyyə dayanıqlığının güclənməsinə imkan verir. Ağıllı həllər kənd təsərrüfatını təsadüflərdən asılı olan bir sahədən, məlumatlara əsaslanan dəqiq bir biznes modelinə çevirir. Eyni zamanda, Sİ-nin aqrar-sənaye sahələrində tətbiq dairəsinin genişləndirilməsində, onun yeni imkanlarının reallaşdırılmasında bir sıra məhdudiyyətlər qarşıya çıxır:

- verilənlər bazasının formalaşmasındakı ləngimələr;
- insan amili, daha doğrusu aqrar-sənaye fəaliyyəti göstərən kadrların sayı və səviyyəsi;
- formalaşmış fəaliyyət sistemlərinin mövcud ahəngdarlığını pozmaq istəməyən subyektlərin qeyri aşkar müqaviməti;
- Sİ-yə qoyuluşlardan əldə edilən nəticələrin qiymətləndirilməsində çətinliklər və Sİ-yə haqsız inamsızlıq [Balayev və digərləri, 2022].

Yuxarıda göstərilənlərlə yanaşı mövcud problemlər və sektorun inkişafını ləngidən əsas maneələr kimi su çatışmazlığını və idarəetmənin zəif olmasını, pay torpaqlarının kiçik olmasını, müasir texnologiyalara çıxışın məhdudluğunu, logistika və saxlama problemlərini göstərə bilərik. Su çatızmazlığı problem ondan irəli gəlir ki, köhnəlmiş suvarma sistemləri suyun böyük hissəsinin itkisinə səbəb olur. Süni intellektdən istifadə edən dəqiq kənd təsərrüfatı texnologiyaları əsas resurslara, xüsusən də suya olan təzyiqin azaldılmasında mühüm rol oynaya bilər. Torpağın rütubəti kimi şərtlərə nəzarət etməklə fermerlər çirkab su istehlakını 30 faizə qədər azalda bilərlər. Gübrədən çox istifadə etməmək üçün dəqiq əkinçilik eyni dərəcədə vacib olacaqdır. Bu, xüsusi olaraq torpaqdakı qida səviyyəsini izləməklə, yeni növ gübrələri məlumat elmi ilə idarə olunan buraxılış

dövrləri ilə birləşdirməklə əldə edilə bilər [Abbasova-Zeynalova & Hüsüyev, 2022].

Müasir iqtisadi şəraitdə "Ağıllı kənd" konsepsiyasının genişləndirilməsi və subsidiyaların birbaşa texnoloji yenilənməyə yönəldilməsi artıq bir zərurətə çevrilmişdir. Kənd təsərrüfatında istehsalın rəqəmsallaşdırılması və bu istiqamətə yönələn investisiyalar bütün dünyada ərzaq təhlükəsizliyini gücləndirə, qidalanmanı yaxşılaşdıra bilər. “Ağıllı kənd təsərrüfatı” adlanan üsul fermerlərə kəmiyyət məlumatlarına əsaslanaraq əvvəllər mümkün olduğundan daha yüksək dəqiqlik səviyyəsində məlumatlı idarəetmə qərarları qəbul etməyə imkan verir [Qasımlı və digərləri, 2023]. Suvarma sistemlərində şırımla suvarma üsulundan tamamilə imtina edilərək, damcı və yağışyağdırma sistemlərinə keçid özünü doğrultdu. Kooperasiyaya gəldikdə isə kiçik təsərrüfatların birləşərək kooperativlər yaratması mühüm əhəmiyyət kəsb edir, çünki bu, resursların ortaq istifadəsini asanlaşdırır.

Bunlarla yanaşı, investorlar üçün aqrar sahədə ən böyük maneə qeyri-müəyyənlikdir. Ağıllı texnologiyalar bu problemi aşağıdakı yollarla həll edir:

*Şəffaflıq (Blokçeyn və IoT tətbiqi).* Bu investor və istehlakçı üçün məhsulun tarladan süfrəyə qədər olan yolunu izləmək etibarın əsas şərtidir. Blokçeyn və IoT texnologiyalarının tətbiqi məhsulun izlənəbilənliyini artıraraq investor etibarını gücləndirir, avtomatlaşdırma isə əməliyyat xərclərini əhəmiyyətli dərəcədə azaldır. Blokçeyn texnologiyası məlumatların dəyişdirilməsinin qarşısını alır, IoT (Əşyaların İnterneti) sensorları isə məhsulun saxlama temperaturu və daşınma şəraiti barədə real vaxt rejimində məlumat ötürür. Bu, saxtakarlıq riskini aradan qaldırır və keyfiyyətə zəmanət verir.

*Xərclərin Azaldılması (Avtomatlaşdırma).* Kənd təsərrüfatında ən böyük xərc maddələri əl əməyi, yanacaq və gübrədir. Avtonom traktorlar və dronlar insan amilini minimuma endirərək 24/7 işləyə bilir. Bu, həm işçi qüvvəsi çatışmazlığını həll edir, həm də texnikanın ən optimal marşrutla hərəkətini təmin edərək yanacaq sərfiyyatını kəskin azaldır.

*Davamlılıq (ESG Standartları).* Müasir qlobal investorlar yalnız mənfəətə deyil, həm də layihənin ətraf mühitə təsirinə (ESG) önəm verirlər. Sİ vasitəsilə suyun və pestisidlərin dəqiq tətbiqi torpağın deqradasiyasını dayandırır. Bu, müəssisənin beynəlxalq bazarlarda "yaşıl maliyyə" resurslarına çıxışını asanlaşdırır və məhsulun ekoloji təmiz brend kimi dəyərini artırır. ESG prinsiplərinə uyğun istehsal modelləri aqrar müəssisələrin beynəlxalq maliyyə resurslarına çıxışını genişləndirir.

Rəqəmsal kənd təsərrüfatinda innovativ alətlər: texnoloji transformasiya və strateji perspektivlər. Müasir dövrdə qlobal aqrar sektor, dördüncü sənaye inqilabının gətirdiyi rəqəmsal transformasiya prosesinin mərkəzində dayanır. Rəqəmsal kənd təsərrüfatı məlumatların toplanması və analizi əsasında qərar qəbuletməni təmin edən multidissiplinar yanaşma kimi xarakterizə olunur. Ənənəvi intuitiv əkinçilik metodlarından fərqli olaraq, rəqəmsal kənd təsərrüfatı məlumatların toplanması, analizi və tətbiqi zəncirinə əsaslanan yüksək texnoloji bir ekosistemdir. Bu keçid, təkcə məhsuldarlığın artırılmasını deyil, həm də təbii resursların tükənmə təhlükəsinə qarşı dayanıqlı idarəetmə modellərinin qurulmasını hədəfləyir. Innovasiyaların inkişafı kənd təsərrüfatı sahələrində əməliyyatların daha tez tətbiqi ilə bərabər, həm də xeyli ucuz başa gəlməsinə səbəb olan amillərdəndir. Ornək olaraq, taxıl və üzüm zərərvericilərinə qarşı insanlara zərər vermədən pestisidlərin, peyk təsərrüfatçılığının tətbiqi, sensorlar vasitəsilə torpağın nəmliyinin monitorinq edilməsi və ya blokçeyn texnologiyalarının tətbiqi vasitəsilə idarə edilməsi innovasiyaların aqrar sahənin inkişafına gətirdiyi yeniliklərdəndir.

Bu baxımdan, kənd təsərrüfatı xidmətlərinə çıxışın yaxşılaşdırılması və paralel olaraq, innovativ texnologiyaların tətbiqi məsələləri aktuallıq kəsb edir [Qasımlı və digərləri, 2023].

Rəqəmsal kənd təsərrüfatı, texnoloji konvergensiyanın aqrar sahəyə tətbiqi nəticəsində yaranan və məlumat yönümlü qərarların qəbulunu prioritetləşdirən multidissiplinar bir yanaşmadır. Bu transformasiya, kənd təsərrüfatını təbii ekosistemin qeyri-müəyyənliyindən çıxararaq, onu yüksək dəqiqlikli və proqnozlaşdırıla bilən bir sənaye modelinə çevirir. Sahədə tətbiq edilən innovasiyalar təkcə mexaniki prosesləri sürətləndirmir, həm də bioloji və iqtisadi məlumatların inteqrasiyası vasitəsilə resurs idarəetməsində yeni bir elmi paradiqma yaradır. Əmək tutumlu sahələrdə insan amilini azaltmaq üçün avtonom traktorlar, robotik yığım sistemləri və avtomatik suvarma aqreqatları tətbiq edilir. Bu sistemlər GPS və RTK (Real-Time Kinematic) naviqasiya texnologiyalarından istifadə edərək santimetr dəqiqliyi ilə işləyir, yanacaq sərfiyyatını və texniki itkiləri minimuma endirir.

## Nəticə

Aqrar sahədə "Ağıllı Texnologiyalar" sadəcə bir texniki yenilik deyil, sektorun institusional və iqtisadi arxitekturasının yenidən qurulması, həm də iqtisadi təhlükəsizlik və investisiya cəlbediciliyinin artırılması vasitəsidir. Bu transformasiya aqrar sahəni riskli ibtidai istehsaldan, yüksək gəlirli və proqnozlaşdırıla bilən "Biomühəndislik Sənayesinə" çevirir. İnvestorlar üçün əsas cəlbedici amil torpağın həcmi deyil, o torpaqdan alınan informasiyanın emal sürəti və keyfiyyətidir. Dövlət dəstəyi və güzəştli kreditlər vasitəsilə bu texnologiyaların tətbiqi genişləndirilməli, kiçik fermer təsərrüfatlarının da bu ekosistemə daxil olması təmin edilməlidir.

## Ədəbiyyat


1. Abbasova-Zeynalova, N., & Hüsüyev, B. (2022). Aqrar sektorun inkişafına innovativ yanaşma. *“Aqrar sektorda innovativ texnologiyaların inkişaf perspektivləri” mövzusunda beynəlxalq elmi konfransın materialları*, s.80–82, Lənkəran.
2. Balayev, R., İbrahimov, F., & Ağakişiyeva, U. (2022). Aqrar-sənaye sahələrində süni intellektin tətbiq dairəsinin genişləndirilməsinin konseptual məsələləri. *Kənd təsərrüfatı iqtisadiyyatı*, 3(41), 58.
3. Qasımlı, V. və digərləri. (2023). Rəqəmsal iqtisadiyyat. Bakı.
4. Süleymanzadə, K.B. (2025). Aqrar iqtisadiyyatın inkişafında innovasiyaların rolu. *ADAU Elmi Əsərləri*, 126–131.


## "SMART" TECHNOLOGIES AND ENHANCING INVESTMENT ATTRACTIVENESS IN THE AGRARIAN SECTOR

**A.I.Yusifov, E.H.Mahmudov, H.S.Ismayilov**

## SUMMARY

This article analyzes the application possibilities of Artificial Intelligence (AI), the Internet of Things (IoT), and drone technologies within the modern agro-industrial complex. As a result of the research it is possible to draw a conclusion that technological transformation not only ensures the efficient use of resources but also makes agriculture a more transparent, predictable, and attractive field for investors.

# «УМНЫЕ» ТЕХНОЛОГИИ И ПОВЫШЕНИЕ ИНВЕСТИЦИОННОЙ ПРИВЛЕКАТЕЛЬНОСТИ В АГРАРНОМ СЕКТОРЕ

**А.И.Юсифов, Э.Х.Махмудов, Г.С.Исмаилов**

## РЕЗЮМЕ

В статье анализируются возможности применения искусственного интеллекта (ИИ), Интернета вещей (IoT) и технологий дронов в современном агропромышленном комплексе. В результате исследования можно сделать вывод, что технологическая трансформация не только обеспечивает эффективное использование ресурсов, но и превращает сельское хозяйство в более прозрачную, предсказуемую и привлекательную сферу для инвесторов.

*Məqalə redaksiyaya 15 aprel 2026 tarixində daxil olmuş, 16 aprel 2026 tarixində isə çapa qəbul olunmuşdur.*

# TİBB, PSİXOLOGİYA VƏ TƏBİƏT ELMLƏRİ BÖLMƏSİ

# SECTION OF MEDICINE, PSYCHOLOGY AND NATURAL SCIENCES

**ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ**
**THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY**

**2026 - № 66**

UOT № 634.3:633/635
https://doi.org/10.65806/1682-9123.2026.66.9

# ПРЕЖДЕВРЕМЕННОЕ УСЫХАНИЕ СУБТРОПИЧЕСКИХ ПЛОДОВЫХ КУЛЬТУР

**М.А.Агаева**
Ленкоранский Государственный Университет
Ленкорань, ул. Ази Асланова, 50
e-mail: zooloq.60@mail.ru

***Açar sözlər:*** törədici, budaq quruması, qummoz, subtropik meyvə bitkiləri, piknospor, sirayətlənmə
***Keywords:*** pathogenic, branch dieback, gummoz, subtropical fruit crops, pycnospores, offect
***Ключевые слова:*** возбудитель, усыхание ветвей, гуммоз, субтропические плодовые культуры, пикноспор, поражаемость

## Введение

Во влажной субтропической зоне Каспийского побережья, в частности, в агроклиматической зоне Талыша, благодаря благоприятным природно-климатическим условиям, видовой состав интродукцированной субтропической растительности весьма богат и имеет многообразное народнохозяйственное значение. Однако, как известно, в этой зоне обилие атмосферных осадков, повышенная влажность воздуха и почти непрекращающаяся в течении года вегетация большинства видов вечнозеленных субтропических растений создают чрезвычайно благоприятные условия для интенсивного развития грибных патогенов, вызывающих преждевременное усыхание разновозрастных ветвей и штамбов множества видов субтропических культур. В связи с тем, что имеется высокий спрос на субтропические сельскохозяйственные продукты, а также их экспортная ориентация обусловливают развитие этой отрасли. Именно с этой целью в Азербайджане приняты государственные программы по развитию цитрусовых и других субтропических культур. Теперь, когда перед субтропическим сельским хозяйством поставлена задача о резком увеличении площадей под цитрусовые и субтропические плодовые культуры, а также поднятии их урожайности, особое внимание надо уделять проведению комплекса специальных мероприятий по защите их от болезней. В этот комплекс должнывходить агротехнические, санитарно-профилактические и химические мероприятия. Выбор этих мероприятий и сроки их проведения должны основываться на базе знаний почвенно-климатических условий и биологических особенностей возбудителей болезней.

Основная цель принятых программ — стимулировать развитие субтропического растениеводства в стране для более полного удовлетворения спроса на соответствующую продукцию, увеличения экспорта произведенной продукции, а также повышения уровня занятости и материального благосостояния сельского населения (Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 14 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında sitrus meyvəçiliyinin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı", 2018).

В данной статье приводятся некоторые результаты наших исследований, проводимых в агроклиматической зоне Талыша с 2006 года по настоящее время и касающихся выявления и изучения некоторых биологических особенностей пикнидиальных грибов-возбудителей преждевременного усыхания субтропических плодовых культур. Из болезней субтропических плодовых культур в наших условиях особенно распространены грибные организмы из родов Macrophoma, Phomopsis, Diplodia и другие, которые наносят большой ущерб насаждениям этих культур, вызывая преждевременное усыхание их ветвей и штамбов.

**Макрофомоз хурмы-Macrophoma kaki Hara**

- возбудитель этой болезни вызывает усыхание разновозрастных ветвей хурмы субтропической и кавказской. По литературным данным (Хазарадзе, 1957) макрофомозом заражаются только плоды хурмы, а также очень редко чашечки и плодоножки. Нашими исследованиями установлено, что макрофомозом заражаются листья и побеги. В период начала сокодвижения при высокой влажности почвы и воздуха ткань коры инфекцированных ветвей хурмы набухает и приобретает темный оттенок. Заражение деревьев начинается ранней весной и продолжается до поздней осени. Проникновение инфекции происходит через механические повреждения коры, наносимые во время обрезки и вырезки ветвей, а также через кору, пораженную серой гнилью. В период образования пикнидиального плодоношения гриба кора на пораженных участках становится мелкобугристой и приобретает различные оттенки в зависимости от сорта и возраста дерева. Пикниды немногочисленные, шаровидные, темно-коричневые, почти черные, 190-250 μ в диаметре, из крупноклеточной паренхиматической ткани, на вершине они открываются округлым порусом. Споры веретеновидные, большей частью с заостренными концами, бесцветные, мелкозернистые, размером 18,6-26 x 6,8-8 μ.

Пикнидиальное плодоношение возбудителя макрофомоза хурмы отмечено также на усохших чашелистиках и плодоножках, частью оставшихся на дереве, частью опавших на землю после сбора плодов. Это плодоношение, по всей вероятности, является постоянным источником новой инфекции.

**Макрофомоз граната-Macrophoma granati Berl. et Vogl.)**

– несовершенный гриб из порядка Sphaeropsidales. Макрофомоз обнаруживается kak на молодых tak и на взрослых растениях граната. В условиях влажных субтропиков, что можно сказать о наших условиях болезнь вызывает массовое отмирание ветвей, плодоножек, завязей и плодов в период их созревания. На молодых побегах кора вначале буреет, слегка вдавливается, а затем на ней появляются мелкие чёрные точки (пикниды гриба). Пятна постепенно разрастаются в продольном и поперечном направлениях и растрескиваются. Образование трещин может сопровождаться выделением камеди. Возбудитель макрофомоза проникает в растение в основном через трещины покровных тканей. На плодоножках, завязях и плодах макрофомоз проявляется сначала в виде светло-коричневых, а затем тёмно-бурых пятен различный формы и величины. Вредоносность болезни заключается в том, что постепенно она способствует развитию рака.Патоген образует на поражённых частях растений немногочисленные неправильно-шаровидные, с приоткрытым устьицем, пикниды тёмно-бурого цвета размером 90–180 мкм в диа-

метре. Пикноспоры веретеновидные, малозернистые, бесцветные, размером 18–24 × 5,5–7,0 мкм [Гулиев & Гусейнова, 2022).

**Макрофомоз фейхоа-Macrophoma nuptialis Bubak**

За последние годы в агроклиматической зоне Талыша, в частности Ленкорано-Астаринской зоне отмечено усыхание разновозрастных ветвей и штамба преимущественно плодоносящих деревьев культуры фейхоа.Ранней весной на деревьях фейхоа, здоровых на вид, наблюдается массовое опадение листьев с отдельных ветвей, а позже растрескование и разрушение коры, обнажение механических елементов и проводящих пучков. Вокруг зоны наибольшего разрушения на пораженной ткани заметны черные точки, выступающие на поверхности эпидермиса. Пикниды немногочисленные, разбросанные, темно-бурые, почти шаровидные, размером 180-200 μ в диаметре.Споры веретеновидные, с закругленными концами, бесцветные, размер 20-24,5 x 6,5-8 μ.

По Бубаку и Саккардо пикниды 180-250 μ, споры 18-24 x 5,5-6,5 μ.Этот вид гриба M.nuptialis Бубаком описан еще в 1906 году на отмерших листьях мирта обыкновенного Myrtus communis L.

По данным, на Черноморском побережье России болезни ветвей и стволов вызывают 4 возбудителя. Наиболее вредоносен фомоз заметное усыхание ветвей фейхоа от этой болезни происходит с февраля по июнь (Омаров и др., 2013).

По морфолого-анатомическим признакам наши образцы, взятые из ветвей фейхоа и мирта обыкновенного вполне совпадают с признаками Бубаковского и Саккардовского диагноза. Небольшие различия в размерах пикнид и спор могут быть вызваны различием экологических условий и субстрата растения-хозяина.

Для установления сравнительной патогенности и специализации M. nuptialis нами в 2022-2023 гг. в полевых условиях была поставлена серия опытов как прямого, так и перекрестного заражения разновозрастных ветвей фейхоа, мирта обыкновенного, мандарина, хурмы, мушмулы и эвкалипта путем внесения в ткани инфекции пикнид с пикнидоспорами и мицелия данного вида гриба. Результаты опытов показали, что характерные симптомы поражения макрофомозом в сильной степени с коротким инкубационным периодом отмечались лишь только на подопытных ветвях фейхоа, мирта обыкновенного и эвкалипта. Другие виды подопытных растений в отношении искуственной инокуляции ветвей возбудителем макрофомоза фейхоа получены отрицательные результаты. Исходя из вышеуказанного можно заключить, что гриб M. nuptialis является узкоспециализированным видом в отношении растения-хозяина семейства миртовых.

**Макрофомоз японской мушмулы-Macrophoma eriobotryae Pegl**

Этот гриб вызывает поражение в основном приростов предыдущего года и молодых ветвей мушмулы японской. С апреля месяца часто можно наблюдать также поражение плодов. Внешние признаки болезни на коре у разных сортов могут быть несколько различными.Чаще появляются небольшие вдавленные пятна с незначительными продольными трещинами.

Проведенные нами исследования показали, что наиболее опасным фактором, способствующим интенсивному развитию макрофомоза мушмулы является периодическое подмерзание приростов предыдущего года, которое обуславливает ослаб-

ление деревьев, подвергавшихся в зимнее время воздействию мороза.

Следовательно, подмерзание и ожоги ветвей мушмулы японской, активизируя развитие возбудителей инфекционного усыхания становятся основной причиной их высокой вредоносности, а эти микроорганизмы еще более ослабляя дерево в свою очередь, отрицательно влияют на плодоношение и зимостойкость всего дерева.

Пикнидиальное плодоношение гриба Macrophoma eriobotryae образуется поздно осенью на пораженных ветвях мушмулы. Пикнида, расположенная под эпидермисом, слегка приподнимает его, а при созревании выступает сквозь разрывы кожицы, образуя небольшой, с булавочную головку, темный бугорок. Форма пикниды чаще всего шаровидная, размером 150-240 μ в диаметре. Споры веретеновидные, с притупленными концами, крупнозернистые,, 15,7-21,0 х5,5-7,0 μ. По Саккардо и Аллешеру пикниды 230-300 μ, споры 20,0-22,0 х 6,0-8,0 μ. Мицелий гриба, захватывая все новые и новые участки ветвей и вызывая их засыхание, при благоприятных условиях может продвинуться на 20-30 см за один сезон. Если пораженная ветвь или засохшая ее часть не будут удалены, на следующий год гриб будет продолжать продвигаться вниз, к основанию ветви. Инфекция в виде пикнидиального спороношения и мицелия сохраняется в пораженных ветвях, плодовых веточках и сухих мумифицированных плодах, оставшихся на дереве или опавших на землю. Перезимовавший гриб ранней весной образует обильное конидиальное спороношение, которое служит источником дальнейших заражений.

**Макрофомоз цитрусовых культур- Macrophoma mantegazziana (Penz) Perl et Vogl**

За последние годы во многих хозяйствах Ленкорано-Астаринской зоне отмечено усыхание разновозрастных ветвей и штамба плодоносящих деревьев мандарина, лимона и апельсина. Нами в процессе исследований установлено, что одной из основных причин преждевременного усыхания цитрусовых являются патогенные виды пикнидиальных грибов (Агаева, 2025) Возбудитель макрофомоза цитрусовых как конидиальной так и сумчатой стадии вызывает усыхание ветвей и штамба мандарина, лимона и апельсина с весны, которое продолжается до поздней осени.Проникновение инфекции происходит через механические повреждения коры, наносимые во время обрезки в период укрытия деревьев лимона и апельсина на зиму, зачистки, вырезки усохших ветвей, а также возникших в результате неблагоприятных температурных условий. Проникая в деревесину, инфекция нередко вызывает выделение из последней желтоватой жидкости.В цитрусовых садах, расположенных на пониженных участках рельефа, тяжелых глинистых почвах с близким залеганием грунтовых вод, степень поражения их макрофомозом значительно больше. Поздней осенью на усыхающих пораженных участках растений наблюдается образование пикнидиального плодоношение этого гриба в виде мелких темных точек.Пикниды разбросанные, погруженные в ткани, почти шаровидные, с выступающим округлым устьицем размером 160-380 μ в диаметре. Споры веретеновидные с притупленными концами, бесцветные, мелкозернистые 15-24 х 5,6-9 μ. По морфологическим признакам, формам и величинам пикнид и спор наши образцы почти идентичны с описанием (Berlese & Voglino, 1886).

Главное место в системе мероприятий по борьбе с преждевременным усыханием субтропических плодовых культур должны иметь место агротехнические, санитарно-профилактические и химические методы борьбы, которые должны применяться диференцированно в соответствии с состоянием насаждений данных культур. В связи с тем, что возбудители преждевременного усыхания ветвей и штамба субтропических культур являются патогенами ослабленных деревьев, агротехника, направленная на поддержание растений в высокожизнедеятельном состоянии является основой защиты садов данных культур от этих заболеваний.В этом направлений рещающее значение имеет соблюдение оптимальных сроков проведения агротехнических мероприятий: правильная обработка почвы как приствольных кругов так и в междурядьях, своевременное внесение минеральных и органических удобрений.Осенью после съема плодов или ранней весной до начала вегетации необходимо проводить побелку штамбов известковым молоком.

Удаление из кроны, пораженных ветвей следует проводить с захватом 20-30 см ниже места поражения. Все источники инфекции: пораженные ветви и счищенная с штамбов кора, опавшие плоды и листья должны быть закопаны глубоко в землю или вывезены из сада и уничтожены. Деревья зараженные в сильной степени и не подающиеся лечению, или отдельные скелетные ветви необходимо спилить и уничтожить.

Согласно агроправилам, в период вегетации растений необходимо трехкратное опрыскивание садов субтропических культур однопроцентным раствором бордосской жидкости или ее заменителей в следующие сроки: 1 - до вегетации, в марте, апреле; 2 - после завязывания плодов и 3 - после сбора плодов.

## Заключение

Таким образом, на усыхающих ветвях субтропических плодовых культур: хурмы, граната, фейхоа, мушмулы, цитрусовых культур обнаружены 5 видов грибов из рода Macrophoma (Macrophoma kaki Hara- Macrophoma granati Berl. et Vogl., Macrophoma nuptialis Bubak., Macrophoma eriobotryae Pegl., Macrophoma mantegazziana (Penz) Perl et Vogl.

Важной частью инновационных технологий в области субтропического растениеводства является применение высокопродуктивных плодовых саженцев, а также специализация на разработке систем ухода за саженцами и фруктовыми деревьями и интенсивных технологий, обеспечивающих дополнительную продуктивность их производства.

## Литература

1. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 14 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında sitrus meyvəçiliyinin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı". (2018). https://www.stat.gov.az/menu/2/state_programs/ 2018_2025/source/az/ 2018-2025_DP.pdf
2. "Azərbaycan Respublikasında sitrus meyvələri, çay və çəltik istehsalının inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 12 sentyabr tarixli 3227 nömrəli Sərəncamı. (2017). president.az/az/articles/view/27039

3. Агаева, М.А. (2025). Видовой состав возбудителей болезней граната в агроклиматической зоне Талыша. *International agricultural journal*, (8) 5, 57-74 https://iacj.ru/ru/nauka/article/105424/view
4. Berlese A.N, Voglino P. (1886). Macrophoma candollei. *Atti della Società Veneto-Trentino di Scienze Naturali in Padova*, 10, 178. https://biotanz.landcareresearch.co.nz/references/1cb0e52f-36b9-11d5-9548-00d0592d548c
5. Гулиев, Ф.А., Гусейнова Л.А. (2022). Макрофомоз гранатовых кустов в условиях западной части Азербайджана. *Мелиорация*, (101) 3, 57-63. https://niimel.by/melioratsiya-2022-3-101/388-forage-prod-2022-101/1015-2022-3-101-st7
6. Омаров М.Д., Карпун Н.Н., Омарова З.М., Осташева Н.А. (2013). Болезни фейхоа на Черноморском побережье России и пути снижения их вредоносности. *Вестник защиты растений*, 2, 56-59
7. Хазарадзе Е.П. (1957). Фомопсис хурмы, рак хурмы в Грузии. *Труды института защиты растений Гр. ССР*. т. XII, 112-118


## SUBTROPİK MEYVƏ BİTKİLƏRİNİN VAXTINDAN ƏVVƏL QURUMASI

**M.Ə.Ağayeva**

### XÜLASƏ

Məqalədə 2006-cı ildən bu günə qədər Talışın aqroklimatik zonasındakı tədqiqatlarımızın bəzi nəticələri təqdim olunur və bunlar subtropik meyvə bitkilərinin vaxtından əvvəl qurumasına səbəb olan piknidial göbələklərin bəzi bioloji xüsusiyyətlərinin aşkar edilməsi və öyrənilməsi ilə bağlıdır. Subtropik meyvə bitkilərinin vaxtından əvvəl qurumasının qarşısının alınması tədbirləri sistemində əsas yer aqrotexniki, sanitar-profilaktik və kimyəvi mübarizə üsullarına verilməlidir və bu üsullar həmin bitkilərin vəziyyətinə uyğun fərqləndirilmiş şəkildə tətbiq edilməlidir.

## PREMATURE DRYING OF SUBTROPICAL FRUIT CROPS

**M.A.Agayeva**

### SUMMARY

This article presents some of the results of our research in the agroclimatic zone of Talysh from 2006 to the present, which are related to the identification and study of some biological characteristics of pycnidial fungi that cause the premature withering of subtropical fruit plants. The main role in the system of measures to combat premature drying of subtropical fruit crops should be given to agrotechnical, sanitary-preventive, and chemical control methods, which should be applied selectively depending on the condition of the plantations of these crops.

*Məqalə redaksiyaya 16 dekabr 2025 tarixində daxil olmuş, 10 fevral 2026 tarixində isə çapa qəbul olunmuşdur.*

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

**2026 - № 66**

UOT № 593.192.6
https://doi.org/10.65806/1682-9123.2026.66.10

# QAN PARAZİTLƏRİNİN SAHİBİN ERİTROSİTLƏRİNƏ GÖSTƏRDİYİ MORFOLOJİ TƏSİR (MÜXTƏLİF REPTİLİLƏRİN MİSALINDA)

**T.F.Qurbanova**
ARETN Zoologiya İnstitutu
Bakı, A.Abbaszadə küç., 115
e-mail: turkan.qurbanova@gmail.com

***Açar sözlər:*** reptililər, qan parazitləri, eritrosit, Serpentoplasma sp., Lankesterella sp., Haemogregarina sp., Hemolovia sp.
***Keywords:*** reptilians, blood parasites, erythrocyte, Serpentoplasma sp., Lankesterella sp., Haemogregarina sp., Hemolovia sp.
***Ключевые слова:*** рептилии, кровяные паразиты, эритроцит, Serpentoplasma sp., Lankesterella sp., Haemogregarina sp., Hemolovia sp.

## Giriş

İbtidai qan parazitləri - sistematik mövqelərinə görə müxtəlif olan, prokariotlar aləminə aid parazitar orqanizmlərin bioloji qrupudur. Bu qrup onları birləşdirən yaşayış mühitinin ümumiliyi (heyvanların və insanın qan-damar sistemi) və heyvanlarda və insanda törətdikləri klinik xəstəlik əlamətlərinin oxşarlığı (qızdırma, anemiya və s.) ilə xarakterizə olunur (Pang, 2026). Ənənəvi təsəvvürlərə görə, parazitin bir sahibdən digərinə keçməsi yalnız həşəratın onurğalı sahibi dişləməsi zamanı baş verir: onurğalılar ikiqanadlı həşəratın tüpürcəyinin qan dövranına daxil olması nəticəsində, həşəratlar isə tərkibində parazitlər olan qanı udmaqla yoluxur (Алимов, 2007). Mövcud ehtimallara görə, bəzi sürünənlər fərqli yolla — həşəratları yeməklə də yoluxa bilərlər (Алимов, 2007). İbtidai qan parazitlərinin öyrənilməsi parazitologiya və hematologiyanın mühüm kəsişmə nöqtəsini təşkil edir. Parazitlər qan dövranından həm yaşayış mühiti, həm də ötürülmə yolu kimi istifadə edərək, qida maddələrinə və müxtəlif orqanlara çıxış əldə edirlər. Bu uyğunlaşma onlara tez-tez hematoloji baxımdan ciddi nəticələrə səbəb olan əhəmiyyətli xəstəliklər törətməyə imkan verir (Laidoudi, 2020). Qan parazitləri sahibin qan-damar sisteminə müxtəlif yollarla təsir göstərir. Məsələn, malyariyanın törədiciləri olan *Plasmodium* növləri eritrositlərə daxil olur və onları məhv edərək hemolizə və anemiyaya (Tadesse, 2018), bunun əksinə olaraq, *Leishmania* növləri sümük iliyinə nüfuz edərək sümük iliyinin supressiyasına səbəb ola bilir (Dong, 2019). Bu təsir zamanı qan hüceyrələrinin morfoloji quruluşunda əsaslı dəyişikliklər qeyd edilir. Bu tədqiqat işində Azərbaycan faunasına aid reptililərin müxtəlif nümayəndələrinin misalında ibtidai qan parazitlərinin sahibin eritrositlərinə göstərdiyi morfoloji təsir araşdırılır.

## Material və metodika

Tədqiqat işinin materialı reptililərin müxtəlif nümayəndələrinin - su ilanı (*Natrix tesellata*), Qafqaz aqaması (*Paralaudakia caucasica*), bataqlıq tısbağası (*Emys orbicularis*), Xəzər dənizi tısbağası (*Mauremys caspica*) və Aralıq dənizi tısbağasının

(*Testudo graeca*) eritrositlərində aşkar edilmiş qan parazitləridir. Su ilanı Pirallahı adasından, Qafqaz aqaması Qobustan qayalıqlarından, bataqlıq tısbağası və Xəzər dənizi tısbağası Ağzıbirçala gölündən və Aralıq dənizi tısbağası Abşeron ərazisində yeləşən müxtəlif bağlardan toplanmışdır. Heyvanlardan qan nümunəsi götürüldükdən sonra onlar yenidən tutulduğu əraziyə buraxılmışdır. Su ilanlarından qan götürmək üçün quyruq venasında insulin şprisi vasitəsilə qan damlası çəkilmişdir. Qafqaz aqamasından barmaq falanqalarının kəsilməsi üsulu ilə qan götürülmüşdür. Tısbağalardan qan götürmək üçün onların üzərinə tibb zəlisi yerləşdirilməsi üsulu ilə qan nümunəsi əldə edilmişdir (Gurbanova, 2023). Qan nümunələrindən əşya şüşəsi üzərində nazik qan yaxmaları hazırlanmış, yaxmalar 96%-li metanolda fiksə olunduqdan sonra Gimza Romanovski üsulu ilə Azur-eozinlə boyanmışdır. Bu zaman eritrositlərin sitoplazması bənövşəyi çalarda çəhrayı, parazitin nüvəsi qırmızı, sitoplazması göyümtül rəngə boyanır. Preparatlar havada qurudulduqdan sonra Leica DM 1000 işıq mikroskopunun x40 və x100 (immersiya yağı ilə) böyütməsi ilə tədqiq edilmişdir. Qan parazitlərinin aşkar edilmiş mərhələləri və sağlam eritrositlərin hər birindən minimum 25 olmaqla Leica DFC 425 rəqəmsal kamerası ilə çəkilmiş və onların biometrik ölçüləri ImageScope kompüter proqramı vasitəsi ilə götürülmüşdür.

## Nəticə

Tədqiqat işi nəticəsində ümumilikdə 67 su ilanı, 27 Qafqaz aqaması, 6 bataqlıq tısbağası, 8 Xəzər dənizi tısbağası və 28 Aralıq dənizi tısbağası tədqiq edilmişdir. Heyvanların qan nümunələrinin tədiqiqi nəticəsində oların eritrositlərində qan parazitlərinin həyat tsiklinin müxtəlif mərhələləri aşkar edilimişdir.

Tədqiq edilmiş 67 su ilanın 23-nün (15,4%) eritrositlərində *Serpentoplasma* sp. merozoitləri aşkar dilmişdir. Eritrosit daxili parazitlər dairəvi və ya oval anaplazmoidə oxşar cisimlərdən, kənarlarda bir-iki xromatin nöqtəsindən və ya xromotin nöqtəsiz vakuollardan ibarətdir. Ölçüləri 3-3,8 x 2,5-3,3 mkm olub hər eritrositdə bir ədəddir. (Şəkil 1. A)

27 Qafqaz aqamasının 9-nun (3.3%) eritrositlərində *Lankesterella* sp. sporozoitləri aşkar edilmişdir. Sporozoitlər bananvari formada, rəngsiz olub iki paranukleal cisimciyə və qranullara malikdir. Ölçüləri 12.83 ±0.14 x 3.14 ±0.06 mkm, Fİ (parazitin uzunluğunun eninə olan nisbəti) 4.12 ±0.1 mkm olmuşdur (Şəkil 1. B)

6 bataqlıq tısbağasının 3-də (50.0%) və 8 Xəzər dənizi tısbağasının 2-də (25.0%) *Haemogregarina* sp. qamontları aşkar edilmişdir (Şəkil 1. C, D). Qamontlar eritrositlərin içərisində lobya formalı kapsulun içərisində yerləşir. Onlar dairəvi, bir qədər əyilmiş sonluqlara malik uzunsov formadadır. Nüvə qamontun əyriliyinin mərkəzində və ya yaxınlığında yerləşir. Bataqlıq tısbağasının eritrositlərində qamontların ölçüləri 16,75±0,32×6,41±0,19 mkm, nüvənin ölçüləri – 5,25±1,05×4,67±0,89 mkm, Xəzər dənizi tısbağasının eritrositlərində qamontların ölçüləri isə 16,01±0,93×6,81±0,21 mkm, nüvənin ölçülri isə — 6,71±0,21×4,89±0,67 mkm olmuşdur.

Aralıq dənizi tısbağasının eritrositlərində *Hemolovia* sp. qamontları aşkar edilmişdir (Şəkil 1. E). Qamontlar rənglənməyə qarşı davamlı olan vakuol və polyar vəziyyətdə yerləşən nüvədən ibarətdir. Onların "əlləri" çarpazlaşaraq aydın görünən nazik "X" şəkilli forma əmələ gətirir. Yetkin qamontların ölçüləri 14.14±0.18×6.64±0.11 mkm, Fİ 2.14 ±0.04 mkm, nüvələrinin ölçüləri isə - 1,5±0,6 × 3,3±0,27 mkm-dir.




**Şəkil 1. Reptililərin müxtəlif nümayəndələrinin eritrositlərində aşkar edilmiş qan parazitlərinin həyat tsiklinin müxtəlif mərhələləri**
A - su ilanının (*N.tesellata*) eritrositlərində *Serpentoplasma* sp. merozoitləri; B - Qafqaz aqamasının (*P.caucasica*) eritrositlərində *Lankesterella* sp. sporozoiti; C - bataqlıq tısbağasının (*E.orbicularis*) və Xəzər dənizi tısbağasının (*M.caspica*) eritrositlərində *Haemogregarina* sp. qamontları; E,F - Aralıq dənizi tısbağasının (*T.graeca*) eritrositlərində *Hemolovia* sp. qamontları.

Tədqiq edilən heyvanların müxtəlif qan parazitləri ilə yoluxmuş eritrositlərinin morfoloji quruluşunda dəyişikliklər qeyd olunmuşdur. Əksər hallarda yoluxmuş eritrositin ölçüsü böyümüş, nüvə mərkəzdən hüceyrənin hər hansı bir kənarına doğru itələnmiş, sitoplasma bir qədər tündləşmişdir.

Qafqaz aqamasının *Lankesterella* sp. ilə yoluxmuş eritrositlərində aşkar edilən sporozoitlərin hamısı hüceyrənin uzununa istiqamətində yerləşmişdir. Sağlam eritrosit ilə müqayisədə yoluxmuş eritrositin və onun nüvəsinin ölçüləri bir qədər böyümüş, nüvə mərkəzdən nisbətən kənarlaşmışdır. Yoluxmamış eritrositin ölçüsü 15,50±0,19 x 10,08

±0,13 (Fİ=1,59±0,03) mkm olduğu halda yoluxmuş eritrositin ölçüsü 18,23±0,33 x 10,86±0,26 (Fİ=1,69±0,04) mkm olmuşdur. Yoluxmamış eritrositin nüvəsinin ölçüsü 7,99±0,01 x 4,86±0,11 (Fİ=1,65±0,19) mkm, yoluxmuş eritrositin nüvəsinin ölçüsü isə 8,11±0,61 x 5,48±0,41 (Fİ=1,49±0,18) mkm-dir.

Bataqlıq tısbağasının və Xəzər dənizi tısbağasının *Haemogregarina* sp. ilə yoluxmuş eritrositlərində aşkar edilən qamontlar əksər hallarda hüceyrənin uzununa, bəzən isə eninə istiqamətində yerləşmişdir. Sağlam eritrosit ilə müqayisədə yoluxmuş eritrositin və onun nüvəsinin quruluşunda böyük fərqlər müşahidə olunmuşdur. İçərisində qamont olan eritrositin ölçüsü nəzərə çarpacaq dərəcədə böyümüş, sitoplazması nisbətən tündləşmişdir. Qamont hüceyrənin uzununa istiqamətində yerləşdikdə eritrositin nüvəsi dartılmış və mərkəzdən periferiyaya doğru yerdəyişmişdir. Qamont hüceyrənin eninə istiqamətində yerləşdikdə nüvənin ölçüsü nisbətən dəyişilmiş və mərkəzdən bir qədər kənarlaşmışdır. Yoluxmamış eritrositin ölçüsü 21,17±0,25 x 13,02±0,23 (Fİ=1,64±0,03) mkm olduğu halda yoluxmuş eritrositin ölçüsü 24,53±0,32 x 10,79±0,17 mkm olmuşdur. Yoluxmamış eritrositin nüvəsinin ölçüsü 7,64±0,11 x 5,87±0,08 (Fİ=1,31±002) mkm, yoluxmuş eritrositin nüvəsinin ölçüsü isə 8,68±0,2 x 3,61±0,13 (Fİ=2,46±0,11) mkm-dir.

Aralıq dənizi tısbağasının *Hemolovia* sp. ilə yoluxmuş eritrositlərində aşkar edilən qamontları əsasən hüceyrənin uzununa istiqamətində, nadir hallarda isə eninə istiqamətində yerləşmişdir. Sağlam eritrosit ilə müqayisədə yoluxmuş eritrositin öçüləri nisbətən böyümüş, nüvə mərkəzdən periferiyaya doğru kənarlaşmışdır. Sahib hüceyrənin rənglənməsində hec bir fərq müşahidə edilməmişdir. Yoluxmamış eritrositin ölçüsü 15,98±0,28 x 10,12±0,17 mkm olduğu halda yoluxmuş eritrositin ölçüsü 16,08±0,29 x 10,6±0,24 (Fİ=1,56±0,05) mkm olmuşdur. Yoluxmamış eritrositin nüvəsinin ölçüsü 7,24±0,19 x 5,28±0,21 (Fİ=1,41±0,06) mkm, yoluxmuş eritrositin nüvəsinin ölçüsü isə 7,3±0,23 x 3,99±0,15 mkm-dir.

Su ilanının *Serpentoplasma* sp. ilə yoluxmuş eritrositlərində hec bir morfoloji dəyişikliklər qeyd edilməmişdir.

## Müzakirə

Qan parazitləri tərəfindən törədilən infeksiyalar bütün dünyada reptililər arasında geniş yayılmışdır (Cook et al., 2010). Bu parazitlər üçün ümumi xüsusiyyət ondan ibarətdir ki, onların inkişafı və ötürülməsi üçün keçirici tələb olunur. Reptililərin qan parazitlərinə onurğalı heyvanlarda parazitlik edən bütün taksonomik qrupların nümayəndələri aid edilir: qamçılı tripanosomatidlər, hemoqreqarinlər, hemosporidilər və filyarid nematodlar, o cümlədən heterogen orqanizm birlikləri və s. (Telford, 2009)

Lankesterella Labbe, 1899 cinsinin həyat tsikli homoksen olsa da, mexaniki ötürücünün iştrakı vacibdir. Parazitin endogen inkişafı qan damarlarının endoteli hüceyrələrində, o cümlədən amfibi və reptililərin makrofaq və eritrositlərində baş verir. Müxtəlif növlərin oosistalarında 8-dən 16-32-ə qədər sərbəst sporozoitlər formalaşır. Oosista divarının dağılmasından sonra sporozoitlər qan axınına düşür və ağ və qırmızı qan hüceyrələrinə daxil olur (Алимов, 2007).

Haemogregarina Danilewsky, 1885 cinsinin oosistaları xırdadır, 8 sporozoit oosistada sərbəst şəkildə yerləşir. Meroqoniya daxili orqanlarda və onurğalı heyvanarın qan hüceyrələrində baş verir; qamontlar ancaq qan hüceyrələrində olur.

Hemolivia Petit et al., 1990 cinsinin oositaları ulduz formasındadır, içərisində çox sayda sporozitlər var. Sporozoitlər əsas sahibdə oosistadan çıxan kimi ilkin meroqoniyaya

başlanğıc verir. Yetkin meroiztlər əsas sahibin müxtəlif toxumalarında sistalaşır. Aralıq sahib sistalaşmış meroitlərə malik əsas sahibi yedikdə yoluxur (Алимов, 2007).

Serpentoplasma cinsinə aid olan ilanların qan parazitləri əvvəlcə trombositləri yoluxdurur, daha sonra eritrositlərə keçir. Parazitin keçiriciləri dəqiq olaraq müəyyən edilməmişdir. Lakin onlar piroplazmidlər kimi təsnifləşdirildiyindən hesab edilir ki, gənə və ya digər qan soran tərəfindən ötürülür (Telford, 2009).

Reptililərin pereferik qan hüceyrələrinə eritrosit, leykosit və trombositlər aid edilir (Şəkil 2). Qranulositar leykositlər heterofillərə, eozinofillərə və bazofillərə, aqranulositlər isə limfosit və monositlərə ayrılır. Heterofillər kimi, eozinofillər də sitoplazmada asidofil qranullara, lakin bazofillər bazofil sitoplazmatik qranullara malikdir (Arıkan & Çiçek, 2011). Azurofillər ancaq reptililərdə rast gəlinən leykosit tipidir. Lakin onlar ilanlar, kərtənkələlər və timsahlarda rast gəlinsə də, tısbağalarda çox nadir hallarda qeyd olunur (Montali, 1988). Trombositlər nüvəli qan hüceyrələri olub qan yaxmalarında adətən topalar əmələ gətirir ki, bu xüsusiyyətinə görə onları kiçik limfositlərdən asanlıqla ayırmaq olur.




**Şəkil 2. Reptililərin qan hüceyrələrinin sxemi**

Reptililərin eritrositləri ellipsoid formaya malikdir və hüceyrənin mərkəzində nüvə yerləşir. Sitoplazmada dairəvi bazofil və ya düzgün olmayan formada şəffaf hissəciklərə rast gəlinir (Arıkan,Çiçek, 2011).

Reptililər onurğalılar içərisində qan hüceyrələrinin morfologiyası baxımından heterogen qrup əmələ gətirir və bu sinifə daxil olan dəstələr və hətta eyni fəsiləyə aid olan nümayəndələr içərisində nəzərə çarpacaq fərqlər nümayiş etdirir (Strik et al., 2007; Sykes, Klaphake, 2008; Claver, Quaglia, 2009; Arıkan et al. 2010). Reptililərin qan hüceyrələri ilə yanaşı onların qan parazitlərinin tədqiqi bu orqanizmlərin müxtəlifliyinin təsvirinə həsr edilmiş (Apache et al., 2023) və bu sinfin müxtəlif nümayəndələrində fərqli şəkildə qeyd edilmişdir. Məsələn, Hemolivia ilə yoluxmuş tısbağalarda əksər vaxtlarda infeksiya hec bir kliniki əlamət ilə biruzə olunmur. Son iki onillikdə aparılan tədqiqatlar bu parazitin patogenliyinin aşağı olduğunu göstər (Knotkova et al., 2005; Široký et al., 2007; Rossow et al. 2013; Picelli et al., 2015; Apache et al., 2023). Hemolivia ilə yoluxmuş tısbağaların qanında polixromatofil və mitotik eritrositlər qeyd edilir (Zivcicova et al., 2025). Cavan

eritrositlərin sayının artması parazit infeksiyası ilə stimullaşdırılan qanın regenerasiyasının nəticəsi kimi qeyd edilir (González et al., 2021). Buradan belə bir nəticəyə gəlmək olar ki, Hemolivia ilə yoluxmuş tısbağalarda eritrositlərin daha çox regenerasiyası müşahidə edilir. Hemolivia ilə yoluxmanın nəticəsində əmələ gələn potogenlik az olsa da müxtəlif qan parazitləri ilə birgə yoluxma halları yoluxmuş tısbağaların sağlamlığı və həyat fəaliyyəti üçün nəzərə çarpacaq fəsadlara səbəb ola bilər (Hananeh et al., 2022).

Lankesterella cinsinə daxil olan növlərin kərtənkələlərədə kütləvi tələf və ya ciddi fizioloji dəyişikliklər (məsələn, ciddi anemiya və s.) törətdiyi haqqında məlumat olmasa da, bu parazitlərin aşkar edildiyi fərdlərin hərəkət aktivliyində fərqlər müşahidə edilmişdir. Belə ki, yoluxmuş fərdlərdə aqressiya və enerjilərinin azalması və parazitlərin erkək fərdlərin ölçü və rənginə təsir etdiyi qeyd edilmişdir (Rodrigo Megía-Palma et al., 2024).

Hemoqreqarinlərin təsirindən tısbağalarda anemiya (eritrositlərin sayının və hemoqlobinin azlaması), hərəkətin zəifləməsi, iştahın itməsi, ağır hallarda isə dərialtı qanaxma və çanağın zədələnməsi, nekroz halları qeyd edilmişdir (Aleksić-Kovačević, 2023).

Reptililərin qan parazitləri yalnız xəstəliklərin törədiciləri olmayıb, “sahib-parazit-keçirici” mürəkkəb əlaqə sisteminin bir hissəsidir. Onların öyrənilməsi parazitizmin təkamülünü, soyuqqanlı heyvanlara uyğunlaşma mexanizmini və reptililərin immun reaksiyalarını daha dərindən anlamağa imkan verir. İqlim dəyişikliyi, yaşayış yerinin dəyişilməsi və insan tərəfindən heyvanların yerdəyişdirilməsi bu parazitlərin yayılmasına və yeni epidemioloji risklərin əmələ gəlməsinə səbəb olur. Bu səbəbdən qan parazitlərinin monitorinqi ekoksistemin vəziyyətinin qiymətləndirilməsi üçün əsas göstəricilərdən biridir.

## Ədəbiyyat

1. Алимов, А.Ф. (2007). Протисты: Руководство по зоологии. *СПб.: Наука*, ч. 2, 1144 с.

2. Aleksić-Kovačević, S., Vučićević, M., Özvegy, J., Jelisić, S., Djurdjević, B., Prodanov-Radulović, J., Došenović, M., Marinković, D. (2023). Eight-year study of *Haemogregarina stepanowi* infection in poached European pond turtles (*Emys orbicularis*) held in Belgrade Zoo Quarantine. *Animals (Basel)*, 13(15), 2429.

3. Apache, J., Rodríguez-Almonacid, C.C., Moreno-Torres, C.A., Gamboa-Suárez, B.A., Matta, N.E. (2023). Hemoparasite occurrence and hematological/serum chemistry variations in Podocnemis vogli turtles: a comparative analysis between wild-residing infected specimens and captive non-infected counterparts. *Vet. Parasitol. Reg. Stud. Reports* 45: 100928

4. Arıkan, H., Çiçek, K. (2011). Morphology of peripheral blood cells from various species of Turkish Herpetofauna. *Acta Herpetologica*, 5(2), 179-198.

5. Arıkan, H., Keskin, N.A., Çevik, İ.E., Erişmiş, U.C. (2010). A Study on the Blood Cells of Anatolian and Thracian populations of the Fire-Bellied Toad, Bombina bombina L. (Anura: Bombinatoridae). *Animal Biology*, 60, 61-68.

6. Claver, J.A., Quaglia, A.I.E. (2009). Comparative morphology, development, and function of blood cells in nonmammalian vertebrates. *Journal of Exotic Pet Medicine*, 18, 87-97.

7. Cook, C.A., Smit, N.J., Davies, A.J. (2010). Hemoproteids (Apicomplexa: Haemoproteidae) from South African tortoises (Cryptodira: Testudinidae). *J Parasitol*,

96(6), 1168–1172.
8. Dong, G., Filho, A.L., Olivier, M. (2019). Modulation of host-pathogen communication by extracellular vesicles (EVs) of the protozoan parasite *Leishmania*. *Front Cell Infect Microbiol*., 9:100.
9. González, L.P., Vargas-León, C.M., Fuentes-Rodríguez, G.A., Calderón-Espinosa, M.L., Matta, N.E. (2021). Do blood parasites increase immature erythrocytes and mitosis in amphibians? *Rev. Biol. Trop*., 69, 615–625.
10. Gurbanova T.F. (2023). Gentle blood sampling from tortoises (Testudines) to detect blood parasites. *Bulletin of Science and Practice*, 9:5, 64-67.
11. Hananeh, W.M., Radhi, A., Mukbel, R.M., Ismail, Z.B. (2022). Effects of parasites coinfection with other pathogens on animal host: a literature review. *Vet. World*., 15, 2414–2424.
12. Knotkova, Z., Mazanek, S., Hovorka, M., Sloboda, M., Knotek, Z. (2005). Haematology and plasma chemistry of Bornean river turtles suffering from shell necrosis and haemogregarine parasites. *Vet. Med*., 50, 421–426.
13. Laidoudi, Y., Marie, J.L., Tahir, D., Watier-Grillot, S., Mediannikov, O., Davoust, B. (2020). Detection of canine vector-borne filariasis and their *Wolbachia* endosymbionts in french guiana. *Microorganisms*. 8(5), 770.
14. Montali, R.J. (1988). Comparative pathology of inflammation in the higher vertebrates (reptiles, birds and mammals). *Journal of Comparative Pathology,* 99, 1-20.
15. Pang, B., Raoufi, A., Taghinejad, Z., Fakhraei, M., Esfahani, M.L., Heydari, P., Sargazi Aval, O., Soleimani Samarkhazan, H. (2026). Parasites in the bloodstream: Unraveling hematological chaos and clinical implications. *Parasitol Int*. 111, 103172.
16. Picelli, A.M., de Carvalho, A.V., Viana, L.A., Malvasio, A. (2015). Prevalence and parasitemia of Haemogregarina sp. in *Podocnemis expansa* (Testudines: Podocnemididae) from the Brazilian Amazon. Rev. *Bras. Parasitol. Vet*., 24, 191–197.
17. Megía-Palma, R., Paranjpe, D., Cooper, R.D., Blaimont, P., Sinervo, B. (2024). Natural parasites in conjunction with behavioral and color traits explain male agonistic behaviors in a lizard. *Current Zoology, Volume,* 70:1, 59–69.
18. Rossow, J.A., Hernandez, S.M., Sumner, S.M., Altman, B.R., Crider, C.G., Gammage, M. B., Segal, K.M., Yabsley, M.J. (2013). Haemogregarine infections of three species of aquatic freshwater turtles from two sites in Costa Rica. *Int. J. Parasitol. Parasit. Wildlife*, 2, 131–135
19. Široký, P., Kamler, M., Frye, F.L., Fictum, P., Modrý, D. (2007). Endogenous development of *Hemolivia mauritanica* (Apicomplexa: Adeleina: Haemogregarinidae) in the marginated tortoise *Testudo marginata* (Reptilia: Testudinidae): evidence from experimental infection. *Folia Parasitol*., 54, 13–18.
20. Strik, N.I., Alleman, A.R., Harr, K.E. (2007). Circulating inflammatory cells. pp. 167-218. In: Jacobson, E.R. (ed.), Infectious diseases and pathology of reptiles color atlas and text. *CRC Press, Boca Raton, Florida*.
21. Sykes, J.M., Klaphake, E. (2008). Reptile Hematology. *Veterinary Clinics of North America: Exotic Animal Practice,* 11, 481-500.
22. Tadesse, F.G., Slater, H.C., Chali, W., Teelen, K., Lanke, K, Belachew, M., Menberu, T., Shumie, G., Shitaye, G., Okell, L.C., Graumans, W., van Gemert, G.J., Kedir, S., Tesfaye, A., Belachew, F., Abebe W., Mamo, H., Sauerwein, R., Balcha, T., Aseffa, A., Yewhalaw, D., Gadisa, E., Drakeley, C., Bousema, T. (2018). The relative contribution of

symptomatic and asymptomatic *Plasmodium vivax* and *Plasmodium falciparum* infections to the infectious reservoir in a low-endemic setting in Ethiopia. *Clin Infect Dis*., 66(12), 1883-1891.
23. Telford, S.R. (2009). Hemoparasites of the Reptilia. Color Atlas and Text. *CRC Press*. 376 pp.
24. Zivcicova, Z., Skrabal, J., Hajkova, P., Jandzik, D., Javanbakht, H., Mikulicek, P., Siroky, P. (2025). Harmless parasites? Infections with *Hemolivia mauritanica* (Apicomplexa: Adeleorina: Karyolysidae) and *Haemocystidium* spp. (Apicomplexa: Haemosporida: Haemoproteidae) have a negligible impact on white cell counts in tortoise hosts. *Folia Parasitol*., 72, 2025.031

## MORPHOLOGICAL CHANGES IN HOST ERYTHROCYTES CAUSED BY BLOOD PARASITES (A COMPARATIVE STUDY IN DIFFERENT REPTILES)

**T.F.Gurbanova**

### SUMMARY

This article analyzes the morphological effects of *Serpentoplasma* sp. merozoites detected in the erythrocytes of the dice snake (*Natrix tessellate*), *Lankesterella* sp. sporozoites identified in the erythrocytes of the Caucasian agama (*Paralaudakia caucasia*), *Haemogregarina* sp. gamonts found in the erythrocytes of the European pond turtle (*Emys orbicularis*) and the east Caspian turtle (*Mauremys capsica*), as well as *Hemolivia* sp. gamonts detected in the erythrocytes of the common tortoise (*Testudo graeca*), on the host cell.

## МОРФОЛОГИЧЕСКИЕ ИЗМЕНЕНИЯ В ЭРИТРОЦИТАХ ХОЗЯИНА, ВЫЗВАННЫЕ ПАРАЗИТАМИ КРОВИ (НА ПРИМЕРЕ РАЗНЫХ РЕПТИЛИЙ)

**Т.Ф.Гурбанова**

### РЕЗЮМЕ

В статье анализируется морфологическое воздействие мерозоитов *Serpentoplasma* sp., обнаруженных в эритроцитах водяного ужа (*Natrix tessellata*), спорозоитов *Lankesterella* sp., выявленных в эритроцитах Кавказской агамы (*Paralaudakia caucasia*), гамонтов *Haemogregarina* sp., обнаруженных в эритроцитах болотной черепахи (*Emys orbicularis*) и Каспийской черепахи (*Mauremys caspica*), а также гамонтов *Hemolivia* sp., выявленных в эритроцитах Средиземноморской черепахи (*Testudo graeca*), на клетку-хозяина.

*Məqalə redaksiyaya 19 mart 2026 tarixində daxil olmuş, 1 aprel 2026 tarixində isə çapa qəbul olunmuşdur.*

# HÜQUQ, TARİX VƏ SİYASİ ELMLƏR BÖLMƏSİ

# SECTION OF LAW, HISTORY AND POLITICAL SCIENCE

**ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ**
**THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY**

**2026 - № 66**

UOT № 347.2
https://doi.org/10.65806/1682-9123.2026.66.11

# MÜLKİ HÜQUQDA ZAMİNLİK İNSTİTUTU: HÜQUQİ TƏBİƏTİ VƏ BƏZİ ASPEKTLƏRİ

**E.X.Mansurov**
Bakı Dövlət Universiteti
Bakı, Akademik Zahid Xəlilov küçəsi 23
e-mail: mansurovvelnur@gmail.com

***Açar sözlər:*** öhdəliklərin icrasının təmin edilməsi üsulları, zaminlik, kreditor, borclu
***Keywords:*** methods of securing the performance of obligations, suretyship, creditor, debtor
***Ключевые слова:*** способы обеспечения исполнения обязательств, поручительство, кредитор, должник

## Giriş

Mülki dövriyyənin, xüsusilə də bank-kredit münasibətlərinin sürətli inkişafı öhdəliklərin icrasının təmin edilməsi üsullarının əhəmiyyətini artırmışdır. Məlum olduğu kimi, öhdəliklər həm subyektiv, həm də obyektiv səbəblərdən vaxtında və düzgün icra edilməyə bilər. Bu kimi hallarda qanunverici kreditorun maraqlarını qorumaq məqsədilə öhdəliklərin icrasının təmin edilməsi üsullarını müəyyənləşdirir. Azərbaycan Respublikasının Mülki Məcəlləsinin (*bundan sonra – AR MM*) 460-cı maddəsində həmin üsullar sadalanmışdır. Buraya girov, dəbbə pulu, borclunun əmlakının saxlanması, zaminlik, qarantiya, beh, habelə, Mülki Məcəllədə və ya müqavilədə nəzərdə tutulubsa, digər üsullar daxildir (AR MM, 2000).

Zaminlik qeyd edilən təminat üsulları arasında həm hüquqi təbiətinə, həm də mahiyyətinə görə digər təminat üsullarından fərqlənir. Bu xüsusiyyətlər qanunvericiliyin həm zaminlik münasibətlərini bilavasitə tənzimləyən xüsusi normalarda, həm də mülki qanunvericiliyin ümumi müddəalarında birbaşa və ya dolayı şəkildə öz əksini tapmışdır.

Qeyd edilməlidir ki, Azərbaycan mülki hüquq doktrinasında zaminlik institutunun ayrı-ayrı aspektləri müəyyən dərəcədə araşdırılmış olsa da, onun hüquqi xüsusiyyətlərinin sistemli şəkildə təhlili kifayət qədər geniş tədqiq olunmamışdır. Bu baxımdan zaminlik institutunun hüquqi mahiyyətinin, əsas cəhətlərinin və onun tətbiqi zamanı ortaya çıxan bəzi məsələlərin elmi baxımdan araşdırılması aktual əhəmiyyət kəsb edir.

## I. Zaminliyin tarixi inkişafı və hüquqi anlayışı

Tarixi-hüquqi mənbələrin təhlili göstərir ki, zaminlik institutu yaranma və formalaşma baxımından tarixi-hüquqi inkişafın məhsuludur. Bugünkü zaminlik institutunun kökləri qədim Roma hüququna gedib çıxır. Belə ki, Roma hüququnda *"adpromissio"* adlanan zaminliyə əsasən, zamin əsas borcluya cavabdeh şəxs kimi onun öz öhdəliklərini yerinə yetirmədiyi halda məsuliyyət daşıyırdı. Qədim Romada zaminlik institutuna olan tələbin əsas səbəbi kasıb təbəqənin maddi-əmlak vəziyyətinin girov üçün kifayət etməməsi idi. Buna görə də onlar öhdəliyə təminat verilməsi üçün yuxarı təbəqədən olan şəxslərə (varlı quldarlara) müraciət edirdilər, onlar isə bundan siyasi məq-

sədlərlə (seçkilərdə həmin şəxsləri öz tərəflərinə çəkmək məqsədilə) istifadə edirdilər (Novitski, 2012).

Roma hüququnda zaminlik müqaviləsi stipulyasiya *(“stipulatio”)* qaydasında, yəni, tərəflər arasında sual-cavab şəklində bağlanılırdı. Müqaviləyə daxil olmaq istəyən tərəflər *“verbis contrahitur”* qaydası ilə, yəni müəyyən sözlərdən təşkil olunmuş suala həmin sözlərlə cavab verdikdə müqavilə bağlanılırdı (Akıncı, 2017). Bu halda kreditor ilk növbədə borcluya sual verirdi və borclu cavabladıqdan sonra zaminə həmin sualla müraciət edirdi: *“Eyni şeyi verməyi vəd edirsən?”*, zamin isə *“vəd edirəm”* deyə cavab versə idi, zaminlik müqaviləsi bağlanmış hesab edilirdi (Novitski, 2012).

Roma hüququndan qaynaqlanan bu institut sonrakı dövrlərdə daha da inkişaf etmiş və ayrı-ayrı dövlətlərin qanunvericiliklərində təsbit edilmişdir. Məhz hazırda ölkəmizin qüvvədə olan 1999-cu il 28 dekabr tarixində qəbul edilmiş və 1 sentyabr 2000-ci ildə qüvvəyə minmiş Mülki Məcəlləsinin 470-477-ci maddələri zaminlik institutuna həsr edilmişdir.

AR MM-nin “zaminlik müqaviləsi” adlanan 470.1-ci maddəsində zaminlik müqaviləsinin leqal anlayışı aşağıdakı kimi ifadə edilir: *“Zaminlik müqaviləsi üzrə zamin başqa şəxsin kreditoru qarşısında həmin şəxsin öz öhdəliyini tamamilə və ya hissə-hissə icra etməsi üçün məsuliyyəti öz üzərinə götürür”* (AR MM, 2000).

Həmçinin, oxşar məzmunlu anlayışlara digər ölkələrin mülki qanunvericiliklərində də rast gəlmək mümkündür. Məsələn, Türkiyə Respublikasının Borclar Qanununun (TBQ, 2011) 581-ci maddəsində zaminlik müqaviləsinə aşağıdakı kimi leqal anlayış verilmişdir: *“Zaminlik müqaviləsi, zaminin kreditor qarşısında borclunun borcunu icra etməməsinin nəticələrinə görə şəxsən məsuliyyət daşımağı üzərinə götürdüyü müqavilədir”*.

İsveçrə Borclar Qanununun (*Obligationenrecht* – OR, 1911) 492-ci maddəsində isə zaminlik müqaviləsinə bir qədər dar anlayış verilir. Belə ki, *“zaminlik müqaviləsinə əsasən, zamin əsas borclunun kreditoru qarşısında öhdəliyin icrasına təminat verməyi öz üzərinə götürür”*.

Alman Mülki Qanunnaməsinin (*Bürgerliches Gesetzbuch* – BGB, 1896) 765-ci paraqrafına əsasən, *“zaminlik müqaviləsinə görə zamin, üçüncü şəxsin kreditoru qarşısında həmin üçüncü şəxsin öhdəliyinin icrasına görə məsuliyyət daşımaq barədə öhdəlik götürür”*.

Yuxarıda istinad olunan müxtəlif ölkələrin qanunvericiliklərində zaminlik müqaviləsinə verilmiş anlayışlar məzmun etibarilə bir-birinə oxşardır. AR MM-in 470-ci maddəsində təsbit edilmiş anlayış da yuxarıda qeyd etdiyimiz ölkələrin mülki qanunvericiliyində təsbit edilmiş anlayışlarla demək olar ki, cüzi fərqlər nəzərə alınmaqla eyniyyət təşkil edir.

Zaminlik funksional olaraq öhdəliklərin icrasının təmin edilməsini nəzərdə tutan təminat üsuludur. Belə ki, zaminlik müqaviləsi ilə mülki dövriyyədə təminat funksiyası icra edilir, bununla da əgər, borclu öz öhdəliyini tam və ya lazımınca icra etmirsə, kreditor zaminə müraciət etmək hüququ əldə edir və zamin əlavə borclu qismində öhdəliyi icra edir (Eren, 2014).

Zaminlik müqaviləsinin subyektləri (tərəfləri) zamin və əsas öhdəlik münasibəti üzrə kreditordur. Belə ki, AR MM-nin 470-ci maddəsində təsbit edilmiş anlayışda zaminlik üzrə hüquq münasibətlərinin subyektlərinin kreditor və zamin olması açıqca görünür.

Qeyd edək ki, mülki hüquqda zaminlik üzrə hüquq münasibətlərində borclu şəxsin iştirakının tələb olunub-olunmaması həmişə mübahisəli məsələlərdən biri olmuşdur. Bu məsələ üzrə Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi Plenumu (bundan sonra – AR KMP) "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 470.1, 470.2 və 471-ci maddələrinin şərh edilməsinə dair" 4 sentyabr 2012-ci il tarixli Qərarında qeyd edir ki, zaminlik münasibətlərində zaminin, kreditorun və borclunun iştirakı nəzərdə tutulsa da, zaminlik müqaviləsinin bağlanılmasında borclunun razılığının alınmasına ehtiyac yoxdur. Buna baxmayaraq, borclu şəxs bu barədə məlumatlandırılmalıdır (AR KMP, 2012).

Göründüyü kimi AR KMP-nin sözügedən qərarına əsasən, borclunun zaminlik müqaviləsinin imzalanmasında iştirakı məcburi tələb deyildir. Amma onun hər bir halda məlumatlandırılması artıq bir öhdəlikdir.

## II. Zaminlik müqaviləsi və zaminlik öhdəliyinin əsas cəhətləri

İlk növbədə qeyd edək ki, zaminlik öhdəliyi və zaminlik müqaviləsi fərqli anlayışlardır və onların hər birinin spesifik hüquqi təbiəti vardır. Belə ki, mülki hüquq doktrinasında zaminlik öhdəliyi özünəməxsus cəhətlərlə, zaminlik müqaviləsi isə digər mülki-hüquqi müqavilələrdən fərqlənən cəhətləri ilə ayrı-ayrılıqda xarakterizə edilir.

Mülki hüquq doktrinasında zaminlik müqaviləsinin müxtəlif əlamətləri qeyd edilir Lakin ən əsas əlamətlər qismində 1) zaminlik müqaviləsinin yalnız bir tərəf üçün öhdəlik əmələ gətirən müqavilə olması; 2) zaminlik müqaviləsinin əvəzsiz müqavilə olması çıxış edir (Günsay, 2017).

Zaminlik müqaviləsi birtərəfli, yəni yalnız bir tərəf üçün öhdəlik müəyyən edən müqavilədir. Ona görə ki, zaminlik müqaviləsi üzrə öhdəlik daşıyan tərəf yalnız zamindir. Kreditor yalnız öhdəliyin icrasını ondan tələb edə bilər. Bu münasibətlərdə kreditor heç bir vəzifə daşımır. Beləliklə, zamin və kreditor arasında münasibətlər qarşılıqlı deyil, yalnız bir istiqamətli olduğundan zaminlik müqaviləsi birtərəfli müqavilə hesab olunur (Yavuz, Acar, Özen, 2014). AR MM-nin 470-ci maddəsinə nəzər yetirsək, zaminlik müqaviləsinin bu xüsusiyyəti ilə tanış ola bilərik.

Lakin bir məsələni qeyd etməyi zəruri hesab edirik. Belə ki, AR MM-nin 475.2-ci maddəsində göstərilən öhdəliyi icra etmiş zaminə kreditorun bütün hüquqlarını və tələb hüququnu təsdiq edən sənədləri vermək vəzifəsi müqavilənin ikitərəfli müqavilə olmasını şərtləndirmir. Çünki bu halda zaminlik müqaviləsi üzrə nəzərdə tutulan zaminin öhdəliyi icra olunmuş hesab olunur və zaminlik hüquq münasibətlərinə xitam verilir. Kreditorun bu vəzifəsi isə həmin andan etibarən formalaşdığı üçün bu müqavilənin ikitərəfli olması anlamına gələ bilməz.

Zaminlik müqaviləsi hüquqi təbiətinə görə həm də əvəzsiz müqavilədir. Çünki müqavilə üzrə tərəflər, yəni kreditor və zamin göstərilən xidmətə görə heç bir ödəniş əldə etmir. Buna baxmayaraq, müqavilədə kreditorun belə bir öhdəlik götürməsi şərtləşdirilə bilər (Tandoğan, 1989, s. 694). Bu fikirlə razılaşaraq qeyd edə bilərik ki, müqavilə azadlığı prinsipi belə bir halın müqavilə ilə müəyyən edilməsini istisna etmir. Dolayısı ilə, kreditor və zamin mülki qanunvericiliyin prinsiplərinə zidd olmayan şərtləri müqavilədə müəyyənləşdirə bilərlər. Lakin praktikada kreditorun zaminə onun borcluya göstərdiyi xidmət müqabilində hansısa ödəniş etməsi hallarına rast gəlinmir.

Buna baxmayaraq, zaminlik müqaviləsi üzrə zamin borcludan göstərdiyi xidmətlərə görə muzd almaq hüququna malikdir. Qeyd edək ki, qüvvədə olan AR MM-nin 473-cü maddəsində qeyd edilir ki, *"əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, zaminin*

*borcluya göstərdiyi xidmətlər üçün muzd almaq hüququ vardır"* (AR MM, 2000)

Qanunvericiliyimiz göründüyü kimi zaminin borclu şəxsə göstərdiyi xidmət üçün, yəni borclu şəxsə təminat verməsi ilə ifadə olunan hərəkətləri üçün muzd (ödəniş) almaq kimi subyektiv hüququnu müəyyənləşdirir. Qeyd etmək istərdik ki, bu məsələ ilə bağlı istər praktikada, istərsə də, doktrinada fərqli mövqelər formalaşmışdır.

Belə ki, zamin çox vaxt borclu ilə mövcud olan müxtəlif əlaqələr (şəxsi və ya əmlaki, ailə və qohumluq münasibətləri, kommersiya və ya korporativ əlaqələr) səbəbindən zamin olmaq məsuliyyətini öz üzərinə götürür. Borclu tərəfindən haqq ödənilməsi şərti ilə zaminliyin verilməsi hüquqi baxımdan mümkün sayılsa da, real praktikada bu nadir hallarda tətbiq olunur (Sarbaş, 2016).

Nəzərə alınmalıdır ki, zamin tərəfindən borcluya göstərilən xidmətlərin müqabilində borcludan hər hansı ödəniş alınması müqavilənin əvəzsiz xarakterə malik olmasını aradan qaldırmır (Tandoğan, 1989).

AR-nin mülki hüquq təcrübəsinə baxsaq, zaminlər göstərdikləri xidmətə görə haqq almırlar. Çünki, onların fəaliyyəti ödənişli bir fəaliyyət növü (məsələn, sahibkarlıq fəaliyyəti kimi) deyil və yuxarıda da qeyd edildiyi kimi, zaminlər borclu şəxslərin yaxın münasibətdə olduğu şəxslər olduğundan bu kimi hallara, demək olar ki, rast gəlinmir. Digər tərəfdən, belə bir imkan AR MM-nin 470-ci maddəsində göstərilən anlayışda mütləq vəzifə kimi şərtləşdirilməmişdir. Yəni, əgər qanunda borclu şəxsin zaminə mütləq qaydada göstərdiyi xidmətə görə muzd vermək vəzifəsi müəyyən edilsə idi, bu halda zaminlik müqaviləsinin əvəzli müqavilə olmasını qeyd edə bilərdik.

Bununla yanaşı, zaminlik müqaviləsi hüquqi təbiətinə görə, konsensual müqavilə hesab olunur. Müqavilənin konsensual xarakterə malik olması onun mühüm şərtləri barəsində tərəflərin razılığa gəldikləri andan müqavilənin bağlanılmış hesab edilməsi anlamına gəlir (Suxanov, 2011). Buradan da aydın olur ki, kreditor və zamin zaminlik müqaviləsinin əsas şərtləri barədə razılığa gəldikləri andan zaminlik müqaviləsi bağlanmış hesab ediləcəkdir.

Zaminlik müqaviləsindən fərqli olaraq, zaminlik öhdəliyi də özünəməxsus xüsusiyyətləri ilə xarakterizə olunur. Zaminlik öhdəliyinin ən əsas əlaməti kimi onun aksessor xarakterə malik olması çıxış edir. AR KMP-nin "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 470.1, 470.2 və 471-ci maddələrinin şərh edilməsinə dair" 4 sentyabr 2012-ci il tarixli Qərarında zaminliyin aksessor xarakteri barədə qeyd edilir ki, aksessor xarakterli öhdəlik dedikdə, əsas öhdəliyə (borclunun öhdəliyinə) əlavə öhdəlik başa düşülür. Zaminlik öhdəliyi də aksessor öhdəlikdir və əsas öhdəliyə əlavə öhdəlikdir (Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin Plenumu, 2012).

Zaminliyin aksessor xarakteri ilə bağlı AR KMP-nin növbəti bir qərarında da bu məsələyə münasibət bildirilmişdir. Belə ki, AR KMP-nin "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 472.1 və 1306-cı maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair" 4 iyun 2018-ci il tarixli Qərarında qeyd edilir ki, zaminlik müqaviləsi aksessor xarakterə malik olmaqla əsas öhdəlikdən asılıdır və əgər əsas öhdəlik etibarsız sayılarsa və ya əsas öhdəliyə xitam verilərsə, bu halda zaminlik müqaviləsinə də xitam verilir (AR KMP, 2018).

Doktrinada da qeyd edilir ki, zaminlik öhdəliyi əsas öhdəliyin etibarlılığından bilavasitə asılı olan öhdəlikdir. Ona görə ki, əsas öhdəlik olmasa, zaminlik öhdəliyinin mövcudluğundan söhbət gedə bilməz. Məhz zaminə qarşı tələb hüququnun qanuni və əsaslı olması üçün də etibarlı olan və mövcud olan əsas öhdəliyin olması ilkin şərtdir

(Ayan, 2013). Təbii ki, burada əsas öhdəlik dedikdə, kreditor və borclu arasında olan və zaminliklə təminat verilməsi nəzərdə tutulan öhdəlik nəzərdə tutulur.

Bir məsələni də nəzərə almaq lazımdır ki, zaminlik müqaviləsi əsas öhdəliyin yaranmasından öncə bağlana bilər. Belə ki, AR MM-nin 470.2-ci maddəsinə görə, *"zaminlik müqaviləsi gələcəkdə yaranacaq əsas öhdəliyin təmin edilməsi üçün də bağlana bilər"* (AR MM, 2000). Bu halda maraq doğuran məqam zaminlik müqaviləsi üzrə öhdəliyin (yəni zaminin öhdəliyinin) hansı andan etibarən keçərli olması məsələsidir.

AR KMP yuxarıda qeyd edilən 4 sentyabr 2012-ci il tarixli qərarında bu məsələyə də aydınlıq gətirərək qeyd edir ki, bu zaman tərəflərin qarşılıqlı hüquq və vəzifələrinin yaranması müqavilənin bağlandığı andan deyil, əsas öhdəliyin yarandığı andan əmələ gəlir (AR KMP, 2012). Başqa sözlə, əsas öhdəliyin "gözlənilən" olması hələ zaminliyin mövcud olmasına əsas vermir.

Bu məsələni praktiki olaraq aşağıdakı kimi izah etmək olar. Fərz edək ki, A və B adlı şəxs 2026-cı ildə zaminlik müqaviləsi bağlayırlar və həmin müqavilə əsasında müəyyənləşdirirlər ki, A. (zamin) 2028-ci ildə B. (kreditor) və C. (borclu) arasında bağlanılacaq borc müqaviləsinə əsasən, C.-nin zamini kimi, C. öz öhdəliyini tam və ya lazımınca yerinə yetirməsə, öhdəliyi icra edəcək. Bu halda A.-nın (zaminin) öhdəliyi 2028-ci ildə B. (kreditor) və C. (zamin) arasında sözügedən müqavilənin bağlanılması anından etibarən yaranacaqdır. Qeyd edək ki, bu kimi hallara praktikada, çox az rast gəlinir. Belə ki, zaminlik müqaviləsi təcrübədə ən çox bank sferasında bağlanılan müqavilədir və o adətən ya kredit müqaviləsinin bağlanılması ilə eyni vaxtda, ya da kredit müqaviləsinin bağlanılmasından sonra bağlanılır. Buna baxmayaraq, qanunverici məhz yuxarıdakı kimi halların mövcud ola biləcəyi ehtimalını nəzərə alaraq bu qaydanı müəyyənləşdirmişdir.

Yeri gəlmişkən qeyd edək ki, təcrübədə gələcəkdə yaranacaq öhdəliyin təmin edilməsi məqsədilə öncədən bağlanılan zaminlik müqaviləsi ilkin müqavilə ilə qarışdırıla bilər. Bu baxımdan həmin müqavilə növləri arasında differensiasiya aparılması xüsusilə əhəmiyyət kəsb edir. AR KMP 4 sentyabr 2012-ci il tarixli Qərarında bu məsələyə münasibət bildirərək həmin müqavilə növlərini bir-birindən fərqləndirən aşağıdakı cəhətləri qeyd edir:

– İlkin müqavilədə gələcəkdə bağlanacaq əsas müqavilənin predmetini və onun digər mühüm şərtlərini müəyyən edən müddəalar əks olunmalıdır. Əsas müqavilənin bağlanacağı tarix isə ilkin müqavilədə müəyyən edilir. Əgər ilkin müqavilədə belə bir müddət göstərilməmişdirsə, əsas müqavilə ilkin müqavilənin bağlandığı tarixdən etibarən bir il ərzində bağlanmalıdır.

– Zaminlik müqaviləsi isə tərəflər arasında əsas öhdəliyin şərtləri barədə razılıq əldə edildiyi andan etibarən və müəyyən edilmiş formada qüvvəyə minir. AR MM-nin 477.0.4-cü maddəsinə əsasən, əgər əsas öhdəliyin icra müddəti göstərilməmiş, müəyyənləşdirilməsi mümkün olmamış və ya öhdəliyin icrası tələb irəli sürülməsi anı ilə müəyyən edilə bilirsə, bu halda müqavilənin bağlandığı gündən iki il ərzində kreditor əgər zaminə qarşı hər hansı tələb irəli sürməzsə, zaminlik müqaviləsi xitam olunacaqdır.

– Digər tərəfdən, ilkin müqavilənin tərəfləri əsas müqavilənin bağlanmasından imtina edə bilərlər, lakin bu halda onlar öhdəliklərin yerinə yetirilməməsi nəticəsində digər tərəfə dəymiş ziyanı ödəməlidirlər. Zaminlik müqaviləsində isə tərəflər əsas müqavilə ilə nəzərdə tutulmuş hərəkətləri yerinə yetirməkdən imtina etdikdə onlar öhdəliklərini yerinə yetirmədiklərinə və ya lazımi qaydada icra etmədiklərinə görə məsuliyyət

daşıyırlar (AR KMP, 2012)

Beləliklə, aydın olur ki, gələcəkdə yaranacaq öhdəliyin təminatı məqsədilə öncədən bağlanılan zaminlik müqaviləsi ilk baxışda ilkin müqaviləyə bənzəsə də, hüquqi mahiyyəti və xüsusiyyətləri baxımından ondan fərqlənir.

## Nəticə

Yekun olaraq, AR-nin mülki qanunvericiliyini, məhkəmə təcrübəsini və mülki hüquq doktrinasındakı yanaşmaları ümumiləşdirərək aşağıdakı nəticələrə gəlmək mümkündür:

1. Zaminlik öhdəliklərin icrasının təmin edilməsi üsulu kimi spesifik xarakterə və təbiətə malik institutdur. Tarixən Roma hüququndan qaynaqlanan zaminlik uzun tarixi-hüquqi dövr keçərək təminat funksiyasının icrasına xidmət edən institut kimi bir çox dövlətlərin, o cümlədən ölkəmizin mülki qanunvericiliyində öhdəliklərin icrasının təminat üsulu olaraq təsbit edilmişdir.

2. AR MM-nin "zaminlik müqaviləsi" adlanan 470-ci maddəsində təsbit edilmiş anlayış isveç, alman və türk mülki hüquq modelinə əsaslanan anlayışdır. Həmin ölkələrin qanunvericiliklərində ifadə olunan zaminlik müqaviləsinin anlayışları forma və məzmun baxımından cüzi fərqlər nəzərə alınmaqla bir-birinə ümumilikdə uyğundur.

3. AR-nin mülki qanunvericiliyinə daxil olan baza kodifikasiya olunmuş akt kimi AR MM zaminliyin hüquqi tənzimlənməsində təməl normaları müəyyənləşdirir. Həmin normaların düzgün şəkildə şərh edilməsində və tətbiqində yaranan çətinliklərin qarşısının alınmasında isə AR KMP-nin qərarları mühüm rol oynayır.

4. AR MM-in zaminliyə dair bəzi normalarında zaminlik münasibətlərində bəzi məsələlərin zaminlik müqaviləsi ilə tərəflərin şərtləşdirdiyi qaydada tənzimlənə bilməsi xüsusilə qeyd edilmişdir. Bu mülki hüququn dizpozitivlik və müqavilə azadlığı prinsiplərinə bilavasitə uyğun gəlir.

## Ədəbiyyat

1. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumu. (2012). Azərbaycan Respublikası Mülki Məcəlləsinin 470.1, 470.2 və 471-ci maddələrinin şərh edilməsinə dair qərar. https://e-qanun.az/framework/24307
2. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumu. (2018). Azərbaycan Respublikası Mülki Məcəlləsinin 472.1 və 1306-cı maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair qərar. https://e-qanun.az/framework/39349
3. Azərbaycan Respublikası. (2000). Azərbaycan Respublikasının Mülki Məcəlləsi. https://e-qanun.az/framework/46944
4. Novitski, İ. B. (2012). Roma hüququ (İ. Ə. Vəliyev, tərc.). *Biznes xəbərləri*.
5. Akıncı, Ş. (2017). Roma borçlar hukuku (818 sayılı BK ve 6098 sayılı TBK ile mukayeseli) (7. bs.). *Sayram Yayınları*.
6. Ayan, S. (2013). Kefalet sözleşmesinde kefilin sorumluluğu. *Adalet Yayınevi*.
7. Eren, F. (2014). Borçlar hukuku: Özel hükümler. *Yetkin Yayınları*.
8. Tandoğan, H. (1989). Borçlar hukuku: Özel borç ilişkileri (C. II). *Sevinç Matbaası*.
9. Töre, G. (2017). Kefalet sözleşmesinin fer'iliği ilkesi. *Dokuz Eylül Üniversitesi Hukuk Fakültesi Dergisi*, 19 (Özel Sayı), 1079–1101. https://tinyurl.com/4b82fbws
10. Türk Borçlar Kanunu (Kanun No. 6098). (2011). https://tinyurl.com/bdz8ye7n

11. Yavuz, C., Acar, F., & Özen, B. (2014). Türk borçlar hukuku: Özel hükümler (10. bs.). *Beta Yayınları*.
12. Bürgerliches Gesetzbuch (BGB). (1896). https://tinyurl.com/2htsraj7
13. Swiss Confederation. (1911). Swiss Code of Obligations (Obligationenrecht, OR). https://tinyurl.com/34uw5esu
14. Сарбаш, С. В. (2016). Элементарная догматика обязательств: Учебное пособие. *Статут*.
15. Суханов, Е. А. (2011). Российское гражданское право (Т. II: Обязательственное право). *Статут*.

## THE INSTITUTION OF SURETYSHIP IN CIVIL LAW: ITS LEGAL NATURE AND SOME ASPECTS

**E.Kh.Mansurov**

### SUMMARY

This article analyzes the legal nature and main characteristics of suretyship as one of the methods of securing the performance of obligations in civil law. The historical development of suretyship, its legal concept and its place in modern legal systems are examined.

## ИНСТИТУТ ПОРУЧИТЕЛЬСТВА В ГРАЖДАНСКОМ ПРАВЕ: ПРАВОВАЯ ПРИРОДА И НЕКОТОРЫЕ АСПЕКТЫ

**Э.Х. Мансуров**

### РЕЗЮМЕ

В статье анализируются правовая природа и основные особенности поручительства как одного из способов обеспечения исполнения обязательств в гражданском праве. Исследуются историческое развитие поручительства, его юридическое понятие и место в современных правовых системах.

*Məqalə redaksiyaya 18 mart 2026 tarixində daxil olmuş, 19 mart 2026 tarixində isə çapa qəbul olunmuşdur.*

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2026 - № 66

UOT № 341.4; 343.4
https://doi.org/10.65806/1682-9123.2026.66.12

# ADAM OĞURLUĞU CİNAYƏTİNƏ GÖRƏ MƏSULİYYƏTİN BEYNƏLXALQ VƏ MİLLİ HÜQUQİ ASPEKTLƏRİ

**T.B.Hacıbəyli**
Bakı Dövlət Universiteti
Bakı, Akademik Zahid Xəlilov küçəsi 23
e-mail: turalhjbayli@gmail.com

***Açar sözlər:*** cinayət, qanunsuz azadlıqdan məhrum etmə, zorakılıq, adam oğurluğu, təhlükəsizlik
***Keywords:*** crime, unlawful imprisonment, violence, kidnapping, security
***Ключевые слова:*** преступление, незаконное лишение свободы, насилие, похищение человека, безопасность

Birləşmiş Millətlər Təşkilatının sənədləri çərçivəsində müəyyən edilmiş beynəlxalq standartlara əsasən, müasir milli cinayət qanunvericiliyində müxtəlif beynəlxalq cinayət əməllərinə görə məsuliyyət və cəza müəyyən edilmişdir. Bunlar, sərbəst hərəkət azadlığı da daxil olmaqla, ən vacib insan azadlıqlarını və hüquqlarını pozmağa yönəlmiş qanunsuz fəaliyyətləri əhatə edir. Şəxsi azadlıq, düşüncə azadlığı ilə yanaşı, pozulması qadağan edilmiş və cəzalandırılan əməldir. Müasir cinayət qanunvericiliyində hərəkət azadlığından məhrum edilmənin bir forması da adam oğurluğu hesab olunur (Miodrag, 2025). Adam oğurluğu cinayətlərinin tarixi çox qədimlərə gedib çıxsa da, yalnız son zamanlarda fərdlərə və onların ailələrinə həm uzunmüddətli, həm də qısamüddətli təsirlərin sistemli şəkildə araşdırıldığı məlumdur (David, 2009).

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin "Şəxsiyyətin azadlığı və ləyaqəti əleyhinə olan cinayətlər" adlanan 19-cu fəslində nəzərdə tutulan cinayətlərdən biri adam oğurluğu sayılır. İlk öncə ondan başlayaq ki, bəhs edilən ictimai təhlükəli əmələ görə cinayət məsuliyyətinin müəyyən edilməsi zərurəti həm də beynəlxalq hüquq normalarının müddəalarından irəli gəlir. Belə ki, Ümumdünya insan hüquqları Bəyannaməsinin (10 dekabr 1948-ci il) 3-cü maddəsində hər bir insanın yaşamaq, azadlıq və şəxsi toxunulmazlıq hüququna malik olması təsbit olunmuşdur. BMT Baş Assambleyası tərəfindən qəbul edilmiş bu Bəyannamə tövsiyə xarakterli sənəd olsa da, Azərbaycan da daxil olmaqla dünyanın demokratik dövlətləri həmin sənəddə əksini tapmış prinsipləri öz milli qanunvericiliyinə daxil etmişdir.

1966-cı ildə BMT Baş Assambleyası tərəfindən "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" və "Mülki və siyasi hüquqlar haqqında" beynəlxalq paktlar qəbul edilmişdir. Bu paktların beynəlxalq müqavilə statusu olduğundan, həmin sənədləri imzalamış ölkələrdə insan hüquqları üzərində beynəlxalq nəzarət mexanizmi müəyyən edilməli idi. Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın (16 dekabr 1966-cı ildə qəbul edilmiş və 23 mart 1976-cı ildə qüvvəyə minmişdir) 9-cu maddəsində azadlıq və şəxsi toxunulmazlıq və özbaşınalıqla həbs edilmə və ya dustaq saxlanılmadan azad olmaq hüququ təsbit olunmuşdur. Beynəlxalq konvensiyalarda adam oğurluğunu müəy-

yən edən müddəaların mahiyyəti, spesifik, hibrid təbiəti nəzərə alınaraq, bu neqativ hadisə həm də spesifik, çoxsahəli yanaşmalar ilə təhlil olunur (Kolaković-Bojović, 2019).

Azərbaycan Respublikası Konstitusiyasının 28-ci maddəsinə əsasən, hər kəsin azadlıq hüququ vardır. Azadlıq hüququ yalnız qanunla nəzərdə tutulmuş qaydada tutulma, həbsəalma və ya azadlıqdan məhrumetmə yolu ilə məhdudlaşdırıla bilər. Qanuni surətdə Azərbaycan Respublikasının ərazisində olan hər kəs sərbəst hərəkət edə bilər, özünə yaşayış yeri seçə bilər və Azərbaycan Respublikasının ərazisindən kənara gedə bilər. Azərbaycan Respublikası vətəndaşlarının hər zaman maneəsiz öz ölkəsinə qayıtmaq hüququ vardır. Beləliklə, adam oğurluğu cinayətinə görə məsuliyyətin müəyyən edilməsinin əsasında həm beynəlxalq-hüquqi aktların müddəaları, həm də ölkə konstitusiyasının normaları dayanır.

Adam oğurluğu şəxsiyyət əleyhinə törədilən cinayətdir. Adam oğurluğu cinayətinin obyektini insanın şəxsi azadlığının mühafizəsi üzrə mövcud ictimai münasibətlər təşkil edir. Əlavə obyekt qismində həmçinin şəxsiyyətin həyatı və sağlamlığı çıxış edir (Нуркаева, 2003). "İnsan" və "şəxsiyyət" anlayışları bəzən eyniləşdirilir. Fəlsəfi mənada «şəxsiyyət»: 1) sözün geniş mənasında ictimai münasibətlərin və şüurlu fəaliyyətin daşıyıcısı olan subyekti, müəyyən şəxsi və ya fərdi insanı bildirmək üçün işlədilir; 2) bu və ya digər cəmiyyətə və ya birliyə məxsus olan üzvü, nisbi sabit sosial əhəmiyyətli cəhətləri ilə fərqlənən fərdi bildirir. Hər iki mənada bu anlayış «insanın bütövlüyünü» «bütöv insanı» (latın dilində «persona») və ya sosial-psixoloji siması olan şəxsiyyəti (latın dilində «personalitas») ifadə etmək üçün işlədilir. Cinayət hüququnda isə adətən cinayət törətmiş şəxsin şəxsiyyət kimi mahiyyəti, cinayət məsuliyyətinə cəlb etmə və ya cinayət məsuliyyətindən azad etmə, cəza təyini və ya cəzadan azad etmə zamanı onların şəxsiyyətinin əhəmiyyəti məsələləri araşdırılır.

Elmdə insanın mahiyyəti ilə bağlı birmənalı mövqe yoxdur. Dini təlimlərdə insana ruh və canın (bədənin) vəhdəti kimi baxılır. Azərbaycan Sovet Ensiklopediyasında insanın mahiyyəti barədə göstərilmişdir ki, o, fiziki və mənəvi, təbii və sosial, irsi və həyatda əldə edilənlərin vəhdətindən ibarət canlı sistemdir. İctimai varlıq olan insan ayrı-ayrı fərdlərlə konkretləşir. Başqa sözlə, hər bir insan ayrıca fərddir. Fərdlərin içərisində yalnız yetkinlik yaşına çatmış anlaqlı insan şəxsiyyət kimi formalaşa bilir. Dünyaya fərd kimi gələn insan ictimai münasibətlərin iştirakçısına çevrilməklə, sosiallaşmaqla şəxsiyyətə çevrilir. Hər bir insan şəxsiyyət sayıla bilməz, yalnız o insan şəxsiyyət sayıla bilər ki, doğulan zaman əldə etdiyi hüquq və azadlıqlara müstəqil sahiblik etmək, sərəncam vermək, habelə dövlət tərəfindən müəyyən olunmuş öhdəlikləri müstəqil icra etmək qabiliyyətinə malikdir.

İnsan şəxsiyyət kimi doğulmur, sonradan cəmiyyətlə birlikdə şəxsiyyətə çevrilir. Şəxsiyyət insanın bütövlük göstəricisidir. Beləliklə, insan doğulur, «şəxsiyyət» isə formalaşır. Ədəbiyyatda "şəxsiyyət" və "insan" anlayışları barədə qeyd edilən müddəalara cinayət hüququ təlimi nöqteyi-nəzərindən müəyyən qədər fərqli baxılmışdır. Əks halda, CM-də şəxsiyyət əleyhinə olan cinayətlərə görə məsuliyyət nəzərdə tutan 8-ci bölmənin yalnız şəxsiyyət kimi formalaşmış və hüquq və vəzifələrini müstəqil həyata keçirmək qabiliyyətində olan şəxsləri müdafiə altına alması, uşaqların, qoca və köməksiz vəziyyətdə olan, habelə psixi pozuntularından əziyyət çəkən şəxslərin isə cinayət-hüquqi müdafiədən kənarda qalması kimi yanlış fikrə gəlmək olar. Bu baxımdan cinayət hüququnda «şəxsiyyət» və «insan» anlayışları bərabər mənalı qəbul olunmalıdır.

Hüquqi nöqteyi-nəzərdən daha geniş mənada «şəxsiyyət» və «insan» anlayışları eynidir. Bu baxımdan ədəbiyyatda söylənilmiş bu mövqelər ilə razılaşırıq ki, qeyd edilən kateqoriyaların cinayət-hüquqi mühafizə obyekti qismində qarşı-qarşıya qoyulmasına ehtiyac yoxdur (Əliyev, 2016).

Yaşından, sosial statusundan, milliyyətindən, irqindən və şairədən asılı olmayaraq istənilən şəxs bu cinayətdən zərərçəkmiş ola bilər. Adam oğurluğu cinayətinin obyektiv cəhətini zərərçəkmiş şəxsin iradəsinə zidd və ya iradəsindən kənar surətdə onu daimi və ya müvəqqəti yaşadığı, yaxud faktiki olduğu yerdən qanunsuz olaraq başqa yerə aparıb saxlama təşkil edir. Zərərçəkmiş şəxsi onun iradəsinə zidd olaraq oğurlama fiziki zor tətbiq etməklə və ya belə zor tətbiq etmək hədəsi ilə edilən hərəkətləri özündə ehtiva edir. Belə hərəkətlərə zərərçəkmiş şəxsin əl-qolunu, ayaqlarını bağlama, nəfəs yollarını tutma, torbaya salma və s. daxildir. Təqsirkarın əməlinin CM-in 144.1-ci maddəsi ilə tövsif edilməsi üçün fiziki zor tətbiq etmə və ya belə zor tətbiq etmə hədəsi həyat və sağlamlıq üçün təhlükəli olmamalıdır (Azərbaycan Respublikası CM-nin Kommentariyası, 2014).

Əks halda, məsələn, adam oğurluğu cinayəti bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə, cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən və ya zərərçəkmiş şəxsin həyatı və ya sağlamlığı üçün təhlükəli olan zor tətbiq etməklə müşayiət olunduqda, yaxud digər tövsifedici əlamətlər ilə törədildikdə, əməl CM-nin 144.2 və ya 144.3 və digər müvafiq maddələri ilə tövsif olunur. Nümunə gətirək. Birinci instansiya məhkəməsinin hökmünə əsasən M. qabaqcadan əlbir olan bir qrup şəxs halında iki və daha çox şəxsi tamah məqsədi ilə oğurlamış, habelə qabaqcadan əlbir olan bir qrup şəxs halında zərərçəkmiş şəxsin şəxsiyyəti üzərində zor göstərməklə, xeyli miqdarda əmlak əldə etmək məqsədi ilə özgənin əmlakını hədə-qorxu ilə tələb etmiş və tək zərərçəkmiş şəxsin şəxsiyyəti üzərində zor göstərməklə özgənin əmlakını hədə-qorxu ilə tələb etmişdir. Belə ki, 11 yanvar 2010-cu ildə saat 23-dən 12 yanvar 2010-cu il saat 01-ə qədər K. qəsəbəsinin sakinləri X16 Şahid1 arasında pul tələb etmə üzrə münaqişə baş vermiş və nəticədə taksi sürücüsü Şahid1 K. - Y. kəndarası avtomobil yolunda Şahid1-i öldürüb, meyitini yol kənarındakı dərəyə atmış, özü isə hadisə yerindən qaçmış, sonra isə ölkəni tərk etmişdir.

12 yanvar 2010-cu ildə X1, M., X2 və digər şəxs K. qəsəbəsində yerləşən bazar ərazisində yerləşən kafedə toplaşıb, orada Şahid1-in izsiz-soraqsız itkin düşməsi hadisəsini müzakirə etmiş və Şahid1-in öldürülməsindən şübhələnmişlər. Şahid 1-in ölümündə Şahid1 şübhələnərək, M. Şahid1 axtarıb tapmaq məqsədi ilə onun ailə üzvləri zərərçəkmiş şəxs3 və zərərçəkmiş şəxs1 oğurlamaq qərarına gəlmişdir. Məhkum öz cinayətkar niyyəti barədə X17, X9 və digər şəxsə bildirdikdən sonra, onlar zərərçəkmiş şəxs3 və zərərçəkmiş şəxs1, yəni iki və daha artıq şəxsi oğurlamaq üçün qabaqcadan əlbir olaraq cinayət əlaqəsinə girmişlər. X17 və digər şəxs zərərçəkmiş şəxs3 və Zərərçəkmiş şəxs1 oğurlanmasına yönəlmiş cinayətkar niyyətlərinin həyata keçirilməsi üçün M.X9la birlikdə 14 yanvar 2010-cu il tarixədək oğurlayacaqları şəxslərin saxlanılması üçün ünvan 5-də yerləşən X məxsus yarımçıq tikilmiş evi axtarıb tapmış və evi kirayə edərkən evin əsl həqiqətdə hansı məqsədlər üçün istifadə edəcəyi barədə ev sahibinə heç bir məlumat verməmişlər. Bundan başqa onlar X. ünvanda yerləşən bir otaqlı mənzili də eyni məqsəd üçün taparaq kirayələmişlər. Zərərçəkmiş şəxs3 yerləşdiyi yeri müəyyən edərək, M. X17 və X9la birlikdə qabaqcadan əlbir olan bir qrup şəxs halında iki və daha çox şəxsin oğurlanmasına yönəlmiş cinayətkar niyyətini həyata ke-

çirmək məqsədilə M.Şahid1 xəbərsiz itkin düşməsi faktı üzrə daxili işlər orqanına müraciət etməyin vacib olduğunu bəhanə gətirmişlər.

14 yanvar 2010-cu ildə saat 07:00-da N. şəhərində M-in əsl niyyətindən şübhələnməyərək zərərçəkmiş şəxs3 M. ilə görüşə gəlməyə razılaşmış və xx.xx.2010-cu ildə, saat 07:00-da onu M., X9, digər şəxs və X17 qarşılamışlar. M. cinayətkar niyyətini həyata keçirməkdə davam edərək qabaqcadan razılaşdığı X17, X9 və digər şəxslə birlikdə polisə getməyin vacib olduğunu bəhanə gətirərək, zərərçəkmiş şəxs3 X17un istifadəsində olan T 028 UN 54 dövlət qeydiyyat nişanlı VAZ 2114 markalı avtomobilə otuzdurub onu saxlanılması üçün tapdıqları ünvana gətirmişlər. M., X9 və digər şəxsin qəsdən törətdikləri hərəkətlər nəticəsində zərərçəkmiş şəxs3 fiziki ağrılara və döyülməyə məruz qalmışdır. Zərərçəkmiş şəxsi olduğu yer haqqında kiməsə məlumat vermək və ya kömək üçün müraciət etməkdən məhrum etmək məqsədilə, X9 və M. digər şəxslə razılaşdırılmış qaydada onun paltarının ciblərini axtarmış və pasportunu, hərbi biletini, adına olan bank kartını götürmüşlər. M., X17, X9 və digər şəxs zərərçəkmiş şəxs3 qarşı qəsdən törətdikləri zorakılıq hərəkətlərini bir neçə saat ərzində davam etdirərək qanunsuz olaraq məcburi qaydada və iradəsinə zidd olaraq onu ünvan 5-də zorla saxlayaraq azadlıqdan məhrum etmişlər.

Beləliklə, CM-in 144.2.1, 144.2.3, 144.2.6, 182.1, 182.2.1 və 182.2.4-cü maddələri ilə irəli sürülmüş ittihama əsasən, M. qabaqcadan əlbir olan bir qrup şəxs halında iki və daha çox şəxsi tamah məqsədi ilə oğurlamış, zərərçəkmiş şəxsin şəxsiyyəti üzərində zor göstərməklə, xeyli miqdarda əmlak əldə etmək məqsədilə özgənin əmlakını hədə-qorxu ilə tələb etmiş və tək zərərçəkmiş şəxsin şəxsiyyəti üzərində zor göstərməklə özgənin əmlakını hədə-qorxu ilə tələb etmişdir.

Birinci instansiya məhkəməsinin hökmü ilə M. CM-nin 144.2.1, 144.2.3, 144.2.6, 182.1, 182.2.1 və 182.2.4-cü maddələrində nəzərdə tutulmuş cinayət əməllərini törətməkdə təqsirli bilinərək, CM-in 144.2.1, 144.2.3, 144.2.6-cı maddələri ilə 5 il müddətə, CM-in 182.1-ci maddəsi ilə 1 il müddətə, CM-in 182.2.1 və 182.2.4-cü maddələri ilə 1 il 6 ay müddətə, CM-in 66.3-cü maddəsinə əsasən təyin olunmuş cəzaları qismən toplamaq yolu ilə 6 il müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmişdir. Apellyasiya instansiya məhkəməsinin qərarına əsasən, apellyasiya protesti, məhkum və onun müdafiəçisi tərəfindən verilmiş apellyasiya şikayətləri təmin edilməmiş, hökm dəyişdirilmədən saxlanılmışdır (Azərbaycan Respublikası Ali Məhkəməsinin arxivi (2024). Cinayət işi № 1[102]-297/2024).

Təcrübədə bəhs etdiyimiz əməllərin tövsifi prosesində cinayətlərin elementlərinin bir-birindən fərqləndirilməsi ilə bağlı müəyyən çətinliklər mövcuddur və bu da həmin ictimai təhlükəli əməllərin törədilmə üsullarına görə bir-birinə xeyli dərəcədə oxşar olmaqları ilə bağlıdır. Adam oğurluğu cinayəti ilə qanunsuz azadlıqdan məhrumetmə (CM-in 145-ci maddəsi) və adamları girov götürmə (CM-in 215-ci maddəsi) cinayətlərini bir-birindən fərqləndirmək praktikada kifayət qədər çətinlik törədir. Adam oğurluğunda zor tətbiq etməklə şəxs olduğu yerdən götürülərək başa yerdə saxlanılır. Qanunsuz azadlıqdan məhrum etməni adam oğurluğu cinayətindən fərqləndirən əsas cəhət ondan ibarətdir ki, bu zaman zərərçəkmiş şəxs saxlandığı yerdə öz iradəsi ilə olur.

Nümunə gətirək. Məhkum A. qeyri-rəsmi olaraq birgə yaşadığı təqsirləndirilən şəxs və ögey oğlu B. ilə bir qrup şəxs halında 14 aprel 2022-ci il tarixdə, saat 02 radələrində zərərçəkmiş şəxsin yaşadığı Bakı şəhəri, Qaradağ rayonu, Ələt qəsəbəsi, Şıxlar yaşayış massivində yerləşən nömrəsiz fərdi yaşayış evində olan zaman şəxsi mü-

nasibətlərin pozulması zəminində zərərçəkmiş şəxsə xüsusi amansızlıqla sol almacıq-gicgah sümüklərinin qövsününü qapalı, yerini dəyişmiş sınığı, burunun sol yan səthinin əzilmiş yarası ilə müşayiət olunan burun sümüyün qapalı, yerini dəyişmiş sınığı, IX qabırğanın qapalı, yerini dəyişmiş sınığı, onurğanın bel şöbəsinin IV fəqərəsinin sol yan çıxıntısının qapalı sınığı, sol bazu sümüyünün başının travmatik çıxığı kimi həyatı üçün təhlükəli olmayan, lakin sağlamlığın uzun müddət pozulmasına səbəb olan sağlamlığa az ağır zərərvurmaya aid olan, sol gözün ağlı qişasına qansızma ilə müşayiət olunan sol gözətrafı nahiyənin dərialtı hematoması sağlamlığın qısa müddətə pozulmasına səbəb olan sağlamlığa yüngül zərər vurmaya aid olan, başın alın və sağ ayaqüstü nahiyələrinin sıyrıqları kimi sağlamlığa zərər vurmayan xəsarətlər yetirmişdir. Bundan başqa, o, məhkum B. ilə bir qrup şəxs halında zərərçəkmiş şəxsin əynindəki paltarları soyundurub, əl və ayaqlarını iplə bağlayaraq, yaşadığı evin qapısını da açarla kilidləyib, zərərçəkmiş şəxsin evdə olan bütün paltarlarını çantaya yığıb getməklə onun sərbəst hərəkət etmək imkanını məhdudlaşdırmaqla qanunsuz azadlıqdan məhrum etmişdir.

Bakı Şəhəri Qaradağ Rayon Məhkəməsinin 14 oktyabr 2022-ci il tarixli hökmü ilə A. Azərbaycan Respublikası CM-nin 127.2.2 və 145.2.4-cü maddələrində nəzərdə tutulan cinayət əməllərinin törədilməsində təqsirli bilinib, Azərbaycan Respublikası CM-nin 127.2.2-ci maddəsi ilə 01 (bir) il 09 (doqquz) ay müddətə azadlıqdan məhrum etmə cəzası, Azərbaycan Respublikası CM-nin 145.2.4-cü maddəsi ilə 03 (üç) il müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş, Azərbaycan Respublikası CM-nin 66.2-ci maddəsinə əsasən barəsində təyin edilmiş cəzaları qismən toplamaqla 03 (üç) il 09 (doqquz) ay müddətə azadlıqdan məhrum etmə cəzası təyin edilmişdir (Azərbaycan Respublikası Ali Məhkəməsinin arxivi. (2024). Cinayət işi № 1[102]-1249/2024).

Adamları girov götürmə cinayətinin adam oğurluğu cinayətindən əsas fərqi ondan ibarətdir ki, bu zaman təqsirkar girov götürdüyü şəxsin saxlandığı yeri, irəli sürdüyü tələbləri, zərərçəkmiş şəxsin azad edilməsi üçün ödəniləcək məbləği aşkar surətdə dövlətə, təşkilata və ya vətəndaşa bildirir. Həm də bu halda tələblər zərərçəkmiş şəxsin taleyi ilə maraqlı olan şəxslərə deyil, kənar şəxslərə ünvanlanır. Adam oğurluğunda isə irəli sürülən tələblər oğurlanan şəxsin saxlandığı yer və s. gizli saxlanılır. Təqsirkarın tələbləri isə zərərçəkmiş şəxsin özünə, onun yaxın qohumlarına və onun taleyi ilə maraqlı olan digər fiziki və ya hüquqi şəxslərə ünvanlanır.

CM-in 145-ci maddəsinin dispozisiyasındakı «adam oğurluğu ilə bağlı olmayan» ifadəsi həmin cinayət tərkibləri arasındakı fərqin sərhədini müəyyən etməyə imkan verir. CM-in 145-ci maddəsində nəzərdə tutulan cinayətin əsas obyektini hər kəsin Azərbaycan Respublikası Konstitusiyası ilə təsbit olunan (maddə 28) azadlıq hüququ təşkil edir. Əlavə obyekt qismində şəxsiyyətin həyatı və sağlamlığının təhlükəsizliyi ilə bağlı ictimai münasibətlər çıxış edir. Bu cinayətdən zərərçəkmiş şəxs qismində yaşından, psixi vəziyyətindən və s. asılı olmayaraq istənilən şəxs çıxış edə bilər. Bu cinayət obyektiv cəhətdən insanı sərbəst hərəkət etmək, özünə yaşayış yeri seçmək, Azərbaycan Respublikasının ərazisindən kənara getmək azadlığından qanunsuz olaraq məhrumetmədə ifadə olunur. Şəxsin azadlıq hüququnun məhdudlaşdırılması qanuna müvafiq surətdə tutulma, həbsəalma və digər cinayət-prosessual məcburiyyət tədbirləri və ya azadlıqdan məhrumetmə yolu ilə həyata keçirilə bilər. Qanunsuz azadlıqdan məhrumetmə cinayəti üzrə zərərçəkmiş şəxs bir halda olduğu evdə, mənzildə, bağ evində, nəqliyyat vasitəsində və s. öz arzusuna zidd olaraq saxlanılır, digər halda isə məcburi qaydada arzu etmədiyi yerə salınır. Adam oğurluğu cinayətindən fərqli olaraq,

qanunsuz azadlıqdan məhrumetmə zərərçəkmişin zorla bir yerdən götürülərək başqa yerə aparılıb saxlanması ilə əlaqədar olmur. Şəxsin öz razılığı ilə müəyyən yerdə saxlanması, yetkinlik yaşına çatmayan şəxsin iradəsi əleyhinə valideynləri (qanuni nümayəndələri) tərəfindən hər hansı yerdə saxlanılması bu maddə ilə cinayət məsuliyyətini istisna edir (Azərbaycan Respublikası CM-nin Kommentariyası, 2014).

Nəzərdən keçirdiyimiz cinayətlər qanunvericilik konstruksiyalarına görə formal tərkiblikdir. Cinayətin obyektiv cəhətini xarakterizə edən, tərkibə daxil edilən əlamətlərin quruluşuna (kombinasiyasına) görə cinayət tərkiblərinin üç növü fərqləndirilir: a) maddi tərkiblər; b) formal tərkiblər; c) kəsik tərkiblər. Maddi tərkiblər elə tərkiblərdir ki, belə tərkiblərə cinayətin obyektiv cəhətinin elementlərindən hərəkətlə (hərəkətsizliklə) yanaşı, ictimai təhlükəli nəticəni də xarakterizə edən əlamət daxil olur. Başqa sözlə, hərəkətlə (hərəkətsizliklə) bərabər ictimai təhlükəli nəticə də zəruri əlamət kimi belə tərkiblərdə nəzərdə tutulur. Bununla yanaşı cinayətin obyektiv cəhətinin digər elementlərini, məsələn, zamanı, məkanı, cinayətin edilmə üsulunu, cinayətin baş verdiyi şəraiti xarakterizə edən əlamətlər də maddi tərkiblərə daxil edilə bilər. Formal tərkiblərə isə cinayətin obyektiv cəhətinin elementlərindən ancaq hərəkəti, yaxud da hərəkətsizliyi xarakterizə edən əlamətlər daxil edilir (Səməndərov, 2013).

Lakin nəzərə almaq lazımdır ki, bəhs etdiyimiz cinayətlərin ağırlaşdırıcı hallarında onların konstruksiyası maddi tərkibli də müəyyən edilə bilər (məsələn, zərərçəkmiş şəxsin ölümünün və ya digər ağır nəticələrin baş verməsi).

## Ədəbiyyat


1. Azərbaycan Respublikası Ali Məhkəməsinin arxivi. (2024). Cinayət işi №1 [102]-297/2024
2. Azərbaycan Respublikası Ali Məhkəməsinin arxivi. (2024). Cinayət işi №1 [102]-1249/2024
3. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin Kommentariyası. (2014). / h.e.d., prof. F.Y.Səməndərovun redaktəsi ilə. Bakı: *Hüquq Yayın Evi*. 1088 s.
4. David, A.A. (2009). Kidnapping and hostage-taking: A review of effects, coping and resilience. *Journal of the Royal Society of Medicine*. 102(1):16-21
5. Kolaković-Bojović, M. (2019) The Synergy Between Criminal Law and Medicine Under the International Convention for the Protection of All Persons from Enforced Disappearance. In: *Kazneno pravo i medicina: tematski zbornik radova međunarodnog značaja, Palić, 29-30. Institut za kriminološka i sociološka istraživanja*. Beograd. pp. 387-398.
6. Miodrag, N.S. (2025). Criminal Liability for Enforced Disappearance of Pesrons – International Standards and the Law of Bosnia and Herzegovina
7. Нуркаева, Т.Н. (2004). Личные (гражданские) права и свободы человека и их охрана уголовно-правовыми средствами. Санкт-Петербург: *Юрид. центр Пресс*. - 254 с.
8. Səməndərov, F.Y. (2013). Cinayət hüququ. Ümumi hissə. Ali məktəblər üçün dərslik. Yenidən işlənmiş təkrar nəşr. Bakı, *Digesta,* 720 s.
9. Əliyev, N.K. (2016). Həyat və sağlamlıq əleyhinə iştirakçılıqla törədilən cinayətlərə görə məsuliyyətİn diferensiasiyası problemləri (qanun, nəzəriyyə, praktika). Hüquq üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün yazılmış dissertasiya işi. Bakı, 375 s.

## INTERNATIONAL AND NATIONAL LEGAL ASPECTS OF LIABILITY FOR KIDNAPPING

**T.B.Hajibeyli**

**SUMMARY**

The need to establish liability for kidnapping in the criminal legislation of the Republic of Azerbaijan is driven by both the social danger of this act and international legal norms. This article provides an example from judicial practice concerning kidnapping, while simultaneously highlighting its common and distinctive features from similar crimes.

## МЕЖДУНАРОДНЫЕ И НАЦИОНАЛЬНЫЕ ПРАВОВЫЕ АСПЕКТЫ ОТВЕТСТВЕННОСТИ ЗА ПОХИЩЕНИЕ ЧЕЛОВЕКА

**Т.Г.Гаджибейли**

**РЕЗЮМЕ**

Необходимость установления ответственности за похищение человека в уголовном законодательстве Азербайджанской Республики обусловлена как общественной опасностью этого деяния, так и международно-правовыми нормами. В статье приводится пример из судебной практики, касающийся похищения людей, и одновременно показываются его общие и отличительные от других аналогичных преступлений черты.

*Məqalə redaksiyaya 19 mart 2026 tarixində daxil olmuş, 20 mart 2026 tarixində isə çapa qəbul olunmuşdur.*

**ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ**
**THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY**

**2026 - № 66**

UOT № 94
https://doi.org/10.65806/1682-9123.2026.66.13

# 2025-Cİ İL 8 AVQUST VAŞİNQTON RAZILAŞMASI VƏ ZƏNGƏZUR DƏHLİZİNİN BEYNƏLXALQ KONTEKSTDƏ MÖVQEYİNİN ARTMASI

**S.M.Quliyev**
Bakı Dövlət Universiteti
Bakı, Akademik Zahid Xəlilov küçəsi 23
e-mail: quluyevsebuhi67@gmail.com

***Açar sözlər:*** Vaşinqton razılaşması, Zəngəzur dəhlizi, TRIPP, Cənubi Qafqaz, tranzit təhlükəsizliyi
***Keywords:*** Washington Agreement, Zangezur Corridor, TRIPP, South Caucasus, transit security
***Ключевые слова:*** Вашингтонское соглашение, Зангезурский коридор, TRIPP, Южный Кавказ, транзитная безопасность

## Giriş

Cənubi Qafqazda kommunikasiyaların açılması mövzusu 2020-ci il 9/10 noyabr üçtərəfli bəyanatından sonra regional sülh gündəliyinin "sərt nüvəsi"nə çevrildi. Həmin sənədin 9-cu bəndi Naxçıvanla Azərbaycanın qərb rayonları arasında nəqliyyat əlaqələrinin bərpasını qeyd edirdi (President.az, 2020). Sonrakı illərdə isə bu bəndin interpretasiyası və icra mexanizmi üzərində siyasi çəkişmələr "Zəngəzur dəhlizi" anlayışını həm daxili-siyasi həssaslıq, həm də regional güc balansı məsələsinə çevirdi. 2025-ci il 8 avqust Vaşinqton görüşü bu mübahisəni fərqli müstəviyə daşıdı. Birgə Bəyannamədə kommunikasiya xətlərinin açılması prinsipi yenidən vurğulanır və "maneəsiz bağlantı"nın qarşılıqlı fayda əsasında təşviqi qeyd olunur, eyni zamanda Ermənistan ərazisində TRIPP çərçivəsinin ABŞ və "qarşılıqlı müəyyənləşdirilmiş üçüncü tərəflər"lə hazırlanacağı göstərilirdi (President.az, 2025). Bu, dəhlizi sırf ikitərəfli-hərbi-sərhəd mübahisəsi formatından çıxarıb, beynəlxalq investisiya, ticarət axınları və strateji bağlantılılıq siyasətlərinin tərkib hissəsinə çevirir. Aİ-nin eyni tarixdə yaydığı bəyanat da normallaşma prosesinə dəstəyini ifadə edərək praktiki icra mərhələsində "əlavə dəstək və ekspertiza" verməyə hazır olduğunu bildirir (Council of the EU, 2025). Beləliklə, mövzu təkcə "yolun açılması" deyil, yolun hansı hüquqi rejimlə, hansı aktorlar tərəfindən, hansı təhlükəsizlik təminatları ilə və hansı qlobal marşrutların tərkibində işləyəcəyi sualına çevrilir.

Bu məqalənin məqsədi 8 avqust 2025-ci il Vaşinqton razılaşmasının mətninə əsaslanmaqla Zəngəzur dəhlizinin beynəlxalq mövqeyinin artmasını izah edən əsas mexanizmləri sistemləşdirməkdir. Yəni böyük güclərin vasitəçilik və təsir alətlərinin dəyişməsi, Middle Corridor (Orta Koridor) və Avrasiya bağlantılılığı gündəliyinin güclənməsi, enerji və rəqəmsal infrastrukturun tranzit layihələrinə "paket" kimi bağlanması və hüquqi-siyasi risklərin (suverenlik, yurisdiksiya, təhlükəsizlik, legitimlik) yenidən dizaynı. 8 avqust 2025-ci il Vaşinqton görüşü və Birgə Bəyannamə isə mövzunu yeni keyfiyyət mərhələsinə çıxarmışdır. Kommunikasiya xətlərinin açılması prinsipinin yenidən təsdiqi, "maneəsiz bağlantı"nın qarşılıqlı fayda əsasında təşviqi və TRIPP çərçivəsinin beynəlxalq tərəfdaşlarla işlənməsi layihəni sırf ikitərəfli sərhəd mübahisəsi

formatından çıxararaq çoxtərəfli investisiya, ticarət və strateji bağlantılılıq siyasətinin tərkib hissəsinə inteqrasiya etmişdir. Eyni zamanda Avropa İttifaqının normallaşma prosesinə texniki və institusional dəstək verməyə hazır olduğunu bəyan etməsi mövzunun beynəlxalq legitimlik və normativ uyğunlaşma müstəvisinə keçdiyini göstərir.

## Vaşinqton razılaşmasının mətn bazası və konseptual yeniliklər

Birgə Bəyannamə (8 avqust 2025) bir neçə strateji elementlə seçilir. Sülh sazişi mətninin ilkinləşdirilməsi və sonradan imzalanma/ratifikasiya üçün addımların davam etdirilməsi prosesin "çərçivə"dən "institusional-hüquqi müqavilə" mərhələsinə keçid niyyətini göstərir. 2022-ci ildən sonra Avrasiyada logistika marşrutlarının diversifikasiyası sürətlənib və Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (TITR) kimi tanınan "Middle Corridor" (Orta Dəhliz) daha çox diqqət çəkib. Orta Dəhliz Çin–Mərkəzi Asiya–Xəzər–Cənubi Qafqaz–Türkiyə–Avropa xətti üzrə multimodal daşımaları təşviq edir və Rusiya marşrutlarına alternativ kimi dəyərləndirilir (OECD, 2023). Bu mənada Zəngəzur bağlantısı Azərbaycan–Naxçıvan–Türkiyə xəttini qısaldaraq, Orta Dəhlizin "Cənubi Qafqaz seqmenti"ndə əlavə redundans (alternativ yol) yarada bilər. Avropa siyasət məkanında da bu tip bağlantıların strateji əhəmiyyəti vurğulanır. Aİ-nin regionlararası "Connectivity Agenda" yanaşması Türkiyə və Cənubi Qafqaz üzərindən Orta Asiyaya çıxan nəqliyyat, enerji və rəqəmsal bağlantıları koordinasiyalı investisiya və "soft connectivity" (qaydalar, standartlar, prosedurlar) tədbirləri ilə gücləndirməyi hədəfləyir (European Commission, 2025). 2022-ci ildən sonra Avrasiya məkanında logistika marşrutlarının diversifikasiyası fonunda Orta Dəhlizin artan əhəmiyyəti Azərbaycanın geoiqtisadi rolunu gücləndirir. Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (TITR) Rusiya xəttinə alternativ kimi dəyərləndirilməsi Cənubi Qafqaz seqmentində etibarlı və çoxvariantlı bağlantıların yaradılmasını zəruri edir. Bu kontekstdə Zəngəzur bağlantısı Azərbaycan–Naxçıvan–Türkiyə xəttini qısaltmaqla Orta Dəhlizin dayanıqlığını artıran əlavə redundans yaradır. Alternativ yolun mövcudluğu həm tranzit təhlükəsizliyini, həm də kommersiya cəlbediciliyini yüksəldir ki, bu da Azərbaycanın tranzit mərkəzi statusunu möhkəmləndirir. Birgə Bəyannamə və Orta Dəhliz konfiqurasiyası Azərbaycanın suverenlik əsaslı mövqeyini qorumaqla onu Avrasiya bağlantılılıq sistemində açar həlqəyə çevirə bilər. Zəngəzur xətti bu çərçivədə yalnız regional kommunikasiya layihəsi deyil, həm də Azərbaycanın geoiqtisadi şaxələnmə strategiyasını və beynəlxalq tranzit mərkəzi rolunu gücləndirən struktur komponent kimi çıxış edir. Bu imkanların reallaşması isə hüquqi aydınlıq, institusional uyğunlaşma və çoxtərəfli əməkdaşlığın davamlı şəkildə təmin olunmasından asılıdır.

Dəhliz layihələrinin beynəlxalq mövqeyini artıran başlıca mexanizmlərdən biri onların təkcə yol/relspay deyil, enerji və rəqəmsal infrastrukturla "paket" kimi qurulmasıdır. Bu, tranzitin geosiyasi qiymətini yüksəldir. Yəni ticarət axınları, enerji nəqli, fiber-optik və data bağlantıları eyni koridor üzərində cəmlənə bilər. Analitik hesabatlarda TRIPP/Zəngəzur layihəsinin ticarət-tranzitlə yanaşı regional iqtisadi böyümə, şaxələnmə və logistika səmərəliliyi üçün "strateji link" kimi təqdim edilməsi məhz bu kontekstdədir (AIR Center, 2026). Bu yanaşma beynəlxalq aktorların motivlərini də aydınlaşdırır. ABŞ üçün regionda iqtisadi-strateji iştirakı artırmaq, Aİ üçün bağlantılılıq və tədarük zəncirlərinin dayanıqlığını gücləndirmək, Türkiyə üçün Türk dünyasına çıxış və Avrasiya tranzitində rolunu dərinləşdirmək, İran və Rusiya üçün isə alternativ marşrutların artması səbəbilə nisbi təsir itkisi riskini azaltmaq kimi dəyərləndirilir. Dəhli-

zin “multimodal paket” – yəni nəqliyyat, enerji və rəqəmsal infrastrukturun inteqrasiyası – kimi qurulması Azərbaycanın geoiqtisadi çəkisini əhəmiyyətli dərəcədə artırır. Bu halda ölkə sadəcə tranzit ərazisi deyil, Avrasiya məkanında logistika, enerji paylanması və rəqəmsal bağlantının kəsişmə nöqtəsinə çevrilir. Enerji xətləri, elektrik ötürücü şəbəkələr və fiber-optik magistralların eyni marşrut üzərində cəmlənməsi Azərbaycanın regional “hub state” modelini gücləndirir və tranzitin geosiyasi dəyərini yüksəldir.TRIPP/Zəngəzur çərçivəsinin nəqliyyat, enerji və rəqəmsal infrastrukturu birləşdirən kompleks modelə çevrilməsi Azərbaycanın regional tranzit mərkəzi statusunu möhkəmləndirir, iqtisadi şaxələnməni sürətləndirir və ölkənin geosiyasi balans siyasətinə əlavə strateji alətlər qazandırır. Bu yanaşma Azərbaycanın suverenlik və yurisdiksiya prinsiplərini qorumaqla, onu Cənubi Qafqazda struktur transformasiyanın əsas təşəbbüskarlarından birinə çevirə bilər.

Vaşinqton razılaşmasının ən mühüm siyasi nəticəsi ABŞ-nin vasitəçi rolunun güclənməsidir. Reuters-in materiallarında razılaşmanın Moskvanı “sarsıda biləcəyi”, ABŞ üçün isə post-sovet məkanında nüfuz artımı mənasına gəldiyi vurğulanır (Reuters, 2025a; Reuters, 2025b). Aİ-nin 8 avqust 2025 tarixli bəyanatında normallaşma prosesinə dəstək və icra mərhələsində tərəfdaşlarla işləməyə hazırlıq açıq şəkildə ifadə edilir. Bu mövqe Aİ-nin Orta Dəhliz və regionlararası bağlantılılıq gündəliyi ilə uyğunlaşır (European Commission, 2025). Lakin Aİ-nin yanaşması daha çox “qaydalar, standartlar, dayanıqlılıq” komponentlərini önə çəkir; ABŞ-nin TRIPP modelində isə “kommersiya idarəçiliyi və geostrateji investisiya” xətti daha görünəndir. Bu fərq gələcəkdə koordinasiya və ya rəqabət suallarını gündəmə gətirə bilər. Vaşinqton razılaşmasının kommunikasiya məsələsini yeni çərçivəyə salması və TRIPP üçün ABŞ-lə işləmə niyyəti bu mexanizmlərin faktiki “aşınması” kimi dəyərləndirilir.

İranın əsas narahatlığı Syunik (Zəngəzur) bölgəsi üzərindən keçəcək hər hansı rejimin Ermənistan–İran sərhədinin funksionallığını zəiflətməsi və bölgəyə “üçüncü tərəf” təhlükəsizlik/siyasi təsirinin artmasıdır. Al Jazeera İranın razılaşmada nəzərdə tutulan tranzit koridoruna etirazını birbaşa qeyd edir (Al Jazeera, 2025). 2025-ci ilin sonu analitik hesabatlarda İranın “sərhədin dəyişməzliyi” və üçüncü tərəf iştirakına qarşı çıxışları bu kontekstdə şərh olunur. Türkiyə dəhliz ideyasını Azərbaycan–Naxçıvan–Türkiyə bağlantısının güclənməsi, həm də Türk dövlətləri arasında nəqliyyat inteqrasiyası prizmasından dəstəkləyir. Reuters Türkiyənin razılaşma fonunda strateji tranzit dəhlizini müsbət qarşılamasını xəbər verir (Reuters, 2025c). Bu mövqe Orta Dəhlizin Türkiyə seqmentini gücləndirən ümumi geoiqtisadi xəttə uyğun gəlir.

Koridorun real iqtisadi effekti yalnız fiziki infrastrukturla deyil, gömrük prosedurlarının harmonizasiyası, sığorta/risk qiymətləndirilməsi, investisiya mühitinin sabitliyi ilə ölçüləcək Bu risklərə baxmayaraq, Vaşinqton razılaşmasının siyasi mesajı aydındır. Yəni kommunikasiya açılışı regionda sülhün institusional dayaqlarından biri kimi qurulmalıdır.Bu ssenaridə TRIPP çərçivəsi aydın hüquqi rejimlə (suverenlik və yurisdiksiya saxlanılmaqla) formalaşır, Aİ texniki-standart dəstəyi verir, ABŞ investisiya və idarəetmə modelini irəli aparır, regional aktorlar (Türkiyə, Gürcüstan) Orta Dəhliz inteqrasiyasını sürətləndirir. Nəticədə Cənubi Qafqaz tranzit mərkəzi kimi mövqeyini möhkəmləndirir, sülh sazişinin ratifikasiyası üçün stimul yaranır (Council of the EU, 2025; OECD, 2023). İlk olaraq, iqtisadi nəticə ondan ibarətdir ki, koridorun effektivliyi yalnız dəmir yolu və avtomobil magistralının tikintisi ilə müəyyən olunmur. Əsas göstəricilər tranzit vaxtının azalması, gömrük xərclərinin optimallaşdırılması, sığorta risk-

lərinin aşağı düşməsi və investisiya mühitinin proqnozlaşdırıla bilənliyi ilə ölçüləcək. Əgər gömrük prosedurlarının harmonizasiyası və rəqəmsallaşma təmin olunarsa, bu, Cənubi Qafqazı Orta Dəhlizin rəqabət qabiliyyətli seqmentinə çevirə bilər. Vaşinqton razılaşmasının siyasi mesajı kommunikasiya açılışını sülhün "institusional dayağı" kimi təqdim edir. Bu o deməkdir ki, nəqliyyat layihəsi iqtisadi mexanizm olmaqla yanaşı, qarşılıqlı asılılıq yaradan təhlükəsizlik alətinə çevrilə bilər. TRIPP çərçivəsinin suverenlik və yurisdiksiya prinsipləri əsasında formalaşdırılması Azərbaycanın maraqlarına uyğun hüquqi model yaradır və ekstraterritorial yanaşmaların qarşısını alır. Bu, regionda hüquqi aydınlıq və legitimlik baxımından mühüm üstünlükdür. Vaşinqton razılaşması yalnız diplomatik sənəd deyil, düzgün institusional və hüquqi mexanizmlərlə dəstəkləndiyi təqdirdə, Cənubi Qafqazı tranzit mərkəzinə çevirə və sülh prosesini iqtisadi rasionalizm üzərində möhkəmləndirə biləcək struktur transformasiya çərçivəsidir.

## Nəticə

8 avqust 2025 Vaşinqton razılaşması Zəngəzur dəhlizi ideyasını regional mübahisə çərçivəsindən çıxararaq beynəlxalq bağlantılılıq gündəliyinin mərkəzinə yaxınlaşdırdı. Birgə Bəyannamə kommunikasiya açılışını suverenlik və yurisdiksiya prinsipləri ilə bağlayır. Bu transformasiya Cənubi Qafqazın Orta Dəhlizdə rolunu gücləndirə, ticarət və logistika axınlarını diversifikasiya edə bilər. Eyni zamanda, Rusiya və İranın etirazları, daxili legitimlik problemləri və təhlükəsizlik riskləri layihənin icrasını kövrək edir. Buna görə də dəhlizin beynəlxalq mövqeyinin artması yalnız siyasi bəyanatlarla deyil, şəffaf hüquqi rejim, mərhələli icra, regional etimad quruculuğu və "soft connectivity" islahatları ilə davamlı nəticəyə çevrilə bilər. Dəhlizin Orta Dəhliz (Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu) ilə inteqrasiyası Azərbaycanın geoiqtisadi rolunu əhəmiyyətli dərəcədə artırır. Şərq-Qərb ticarət xəttinin alternativ marşrut kimi möhkəmlənməsi ölkənin tranzit gəlirlərini artırmaqla yanaşı, onun logistika infrastrukturu – liman, dəmir yolu və quru nəqliyyat şəbəkələrinin strateji əhəmiyyətini gücləndirir. Bu proses Azərbaycanın nəqliyyat qovşağı funksiyasını möhkəmləndirərək regional iqtisadi inteqrasiyanın əsas platformalarından birinə çevrilməsinə şərait yaradır. Zəngəzur xəttinin açılması Naxçıvan Muxtar Respublikasının əsas ərazi ilə birbaşa quru əlaqəsinin bərpası baxımından strateji əhəmiyyət kəsb edir. Bu, yalnız nəqliyyat baxımından deyil, həm də sosial-iqtisadi inteqrasiyanın dərinləşdirilməsi, daxili bazarın vahidliyinin təmin edilməsi və regional inkişaf balansının möhkəmləndirilməsi baxımından əhəmiyyətlidir. Naxçıvanın logistika və sənaye potensialının artması uzunmüddətli perspektivdə Azərbaycanın ümumi iqtisadi təhlükəsizliyini gücləndirə bilər. layihənin beynəlxalq bağlantılılıq gündəliyinə daxil edilməsi Azərbaycanın çoxtərəfli diplomatik manevr imkanlarını genişləndirir. Avropa İttifaqı, Mərkəzi Asiya ölkələri və Türkiyə ilə koordinasiyanın artması Azərbaycan üçün həm siyasi, həm də iqtisadi baxımdan alternativ tərəfdaşlıq kanallarının möhkəmlənməsi deməkdir. Bu isə regional güclər arasında balans siyasətinin daha çevik və praqmatik formada həyata keçirilməsinə şərait yaradır. 8 avqust 2025-ci il razılaşmasının yaratdığı yeni çərçivə Azərbaycanın regional tranzit mərkəzi kimi mövqeyini gücləndirmək, iqtisadi diversifikasiyanı sürətləndirmək və post-münaqişə mərhələsində suverenlik əsaslı nizamı möhkəmləndirmək üçün mühüm imkanlar açır. Lakin bu imkanların reallaşması hüquqi aydınlıq, təhlükəsizlik zəmanətləri və mərhələli, institusional yanaşma ilə müşayiət olunduğu təqdirdə dayanıqlı və uzunmüddətli xarakter daşıya bilər.

## Ədəbiyyat


1. AIR Center. (2026). TRIPP/Zangezur Corridor: Strategic link for trade, transit, and regional growth (Policy paper). https://aircenter.az/uploads/l9OsqVEPJB8H.pdf (Müraciət tarixi: 02.02.2026)
2. Al Jazeera. (2025). Iran rejects planned transit corridor outlined in Armenia-Azerbaijan pact. https://www.aljazeera.com/news/2025/8/9/iran-rejects-planned-transit-corridor-outlined-in-armenia-azerbaijan-pact (Müraciət tarixi: 02.02.2026)
3. Council of the European Union. (2025). Armenia/Azerbaijan: Statement by the High Representative on behalf of the European Union on the initialling of the Armenia-Azerbaijan peace treaty. https://www.consilium.europa.eu/en/press/pressreleases/2025/08/08/armeniaazerbaijan-statement-by-the-high-representative-on-behalf-of-the-european-union-on-the initialling-of-the-armenia-azerbaijan-peace-treaty/ (Müraciət tarixi: 01.02.2026)
4. European Commission. (2025). Advancing a Cross-Regional Connectivity Agenda with Central Asia: Meta study (Report). https://enlargement.ec.europa.eu/meta-study-advancing-cross-regional-connectivity-agenda_en (Müraciət tarixi: 07.02.2026)
5. NEST Centre. (2026). The South Caucasus after the Washington meeting. https://nestcentre.org/the-south-caucasus-after-the-washington-meeting/ (Müraciət tarixi: 09.02.2026)
6. OECD. (2023). Realising the potential of the Middle Corridor (Report). https://www.oecd.org/content/dam/oecd/en/publications/reports/2023/12/realising-the-potential-of-the-middle-corridor_c458041c/635ad854-en.pdf (Müraciət tarixi: 10.02.2026)
7. President of the Republic of Azerbaijan. (2020). Statement by the President of the Republic of Azerbaijan, Prime Minister of the Republic of Armenia and President of the Russian Federation (Trilateral statement; Paragraph 9 on transport links). https://president.az/en/articles/view/45923 (Müraciət tarixi: 11.02.2026)
8. President of the Republic of Azerbaijan. (2025). Joint Declaration signed on meeting between President of Azerbaijan and Prime Minister of Armenia held in Washington (Signed August 8, 2025). https://president.az/en/articles/view/69572 (Müraciət tarixi: 13.02.2026)
9. Reuters. (2025a). U.S. secures strategic transit corridor in Armenia-Azerbaijan peace deal (S. Holland). https://www.reuters.com/world/us-secures-strategic-transit-corridor-armenia-azerbaijan-peace-deal-2025-08-07/ (Müraciət tarixi: 14.02.2026)
10. Reuters. (2025b). Trump announces peace agreement between Azerbaijan and Armenia. https://www.reuters.com/world/trump-announces-peace-agreement-between-azerbaijan-and-armenia-2025-08-08/ (Müraciət tarixi: 18.02.2026)
11. Reuters. (2025c). Türkiye welcomes strategic transit corridor after Azerbaijan-Armenia peace deal. https://www.reuters.com/world/middle-east/turkey-welcomes-strategic-transit-corridor-after-azerbaijan-armenia-peace-deal-2025-08-09/ (Müraciət tarixi: 20.02.2026)
12. Reuters. (2025d). What is the status of peace talks between Armenia and Azerbaijan?. https://www.reuters.com/world/what-is-status-peace-talks-between-armenia-azerbaijan-2025-08-06/ (Müraciət tarixi: 19.02.2026)

13. Reuters. (2025e). In Armenia, rising ceasefire violations bring fears of war with Azerbaijan. https://www.reuters.com/world/armenia-rising-ceasefire-violations-bring-fears-war-with-azerbaijan-2025-06-12/ (Müraciət tarixi: 25.02.2026)
14. SCEEUS. (2026). Peace between Armenia and Azerbaijan: What TRIPP can and cannot achieve. https://sceeus.se/en/publications/peace-between-armenia-and-azerbaijan-what-tripp-can-and-cannot-achieve/ (Müraciət tarixi: 28.01.2026)

## THE AUGUST 8, 2025 WASHINGTON AGREEMENT AND THE GROWING INTERNATIONAL SIGNIFICANCE OF THE ZANGEZUR CORRIDOR

**S.M.Guliyev**

### SUMMARY

On August 8, 2025, the Joint Declaration signed in Washington with the participation of the leaders of Azerbaijan and Armenia, along with the parallel initialing the draft agreement “On Peace and the Establishment of Interstate Relations,” marked a new phase in the geopolitical architecture of the South Caucasus. Based on the text of the Washington agreement, this article analyzes the expanded role of the corridor within the broader framework of the international Middle Corridor, the rebalancing of the interests of major powers (the United States, the European Union, Russia, Iran, and Turkey), the legal and regime-related questions and risks involved, as well as possible scenarios and policy recommendations.

## СОГЛАШЕНИЕ, ДОСТИГНУТОЕ В ВАШИНГТОНЕ 8 АВГУСТА 2025 ГОДА, И РОСТ МЕЖДУНАРОДНОГО ЗНАЧЕНИЯ ЗАНГЕЗУРСКОГО КОРИДОРА

**С.М.Гулиев**

### РЕЗЮМЕ

Подписание 8 августа 2025 года в Вашингтоне Совместной декларация при участии лидеров Азербайджана и Армении, а также парафирование проекта соглашения “О мире и установлении межгосударственных отношений” ознаменовали новый этап в формировании геополитической архитектуры Южного Кавказа. Исходя из текста Вашингтонского соглашения, в статье анализируется расширение роли коридора в контексте международного “Среднего коридора” (Middle Corridor), переуравновешивание интересов крупных держав (США, Европейского союза, России, Ирана и Турции), правовые и режимные вопросы и риски, а также возможные сценарии и рекомендации по государственной политике.

*Məqalə redaksiyaya 19 mart 2026 tarixində daxil olmuş, 23 mart 2026 tarixində isə çapa qəbul olunmuşdur.*

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2026 - № 66

UOT № 32
https://doi.org/10.65806/1682-9123.2026.66.14

# AZƏRBAYCAN VƏ TÜRKİYƏ ARASINDA HUMANİTAR ƏMƏKDAŞLIĞIN TƏŞKİLATİ MEXANİZMLƏRİ

**R.M.Məmmədov**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universteti
Bakı, İnşaatçılar prospekti 39
e-mail: ravan.mammadov@admiu.edu.az

***Açar sözlər:*** Azərbaycan, Türkiyə, əməkdaşlıq
***Keywords:*** Azerbaijan, Turkey, cooperation
***Ключевые слова:*** Азербайджан, Турция, сотрудничество

## GİRİŞ

1991–1992-ci illərdə Azərbaycanın müstəqilliyini bərpa etməsindən dərhal sonra Azərbaycan və Türkiyə arasında yeni bir diplomatik reallıq formalaşdı. Xüsusilə 1991-ci il noyabrın 9-da Türkiyənin Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən biri olması iki ölkə münasibətlərində həm siyasi, həm də mənəvi cəhətdən böyük dönüş yaratdı. Ardınca, 14 yanvar 1992-ci ildə rəsmi diplomatik əlaqələrin qurulması ilə münasibətlər institusional müstəviyə keçdi və bu addım təkcə siyasi jest deyil, eyni zamanda gələcək onilliklər üçün əməkdaşlığın çoxşaxəli çərçivəsini müəyyən edən fundamental başlanğıc oldu [Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, 2020]. Həmin dövrdən etibarən iki ölkə arasındakı əlaqələr emosional qardaşlıq amilindən çıxaraq, hüquqi sənədlərlə tənzimlənən, koordinasiya mexanizmləri ilə təmin edilən və proqramlı şəkildə həyata keçirilən sistemli əməkdaşlıq modelinə çevrildi.

Bu proses çərçivəsində dövlət başçıları səviyyəsində imzalanmış strateji sənədlər, hökumətlərarası saziş və protokollar, nazirliklərarası komissiyaların fəaliyyəti, habelə geniş mübadilə proqramları və mədəni-humanitar layihələr mühüm rol oynadı. TİKA, Yunus Emre İnstitutu, Azərbaycan və Türkiyənin diaspor qurumları, universitetlərarası əməkdaşlıq, tələbə və akademik mübadilə proqramları, mədəniyyət festivalları və birgə humanitar təşəbbüslər həm strukturlaşdırılmış əlaqələrin möhkəmlənməsinə, həm də humanitar sahədə institusional inteqrasiyanın dərinləşməsinə xidmət etdi. Artıq bu, əməkdaşlığın təkcə oxşar tarixi və mədəni köklərə dayanmadığını, əksinə rəsmi sənədlərlə təsbit olunmuş, dövlət qurumlarının koordinasiyası ilə idarə olunan və davamlılıq prinsipi üzərində qurulan bir sistemə çevrildiyini göstərirdi.

Beləliklə, Azərbaycan–Türkiyə humanitar münasibətlərinin inkişafı yalnız qardaşlıq və dostluq meyarlarının təbii təzahürü kimi deyil, həm də dövlətlərarası səviyyədə məqsədyönlü şəkildə qurulan və strateji əhəmiyyət daşıyan bir institusional proses kimi dəyərləndirilir. Bu kontekstdən çıxış edərək, məqalənin əsas məqsədi iki ölkə arasında humanitar əməkdaşlığı formalaşdıran institusional mexanizmləri elmi müstəvidə təhlil etməkdən ibarətdir. Araşdırma göstərir ki, müvafiq hüquqi baza, çoxpilləli idarəetmə strukturları, sahəvi protokollar və koordinasiyaedici dövlət qurumlarının fəaliyyəti Azərbaycan–Türkiyə münasibətlərinin davamlılığını təmin edən əsas komponentlərdir. Bu

mexanizmlərin dərinləşdirilməsi isə gələcəkdə daha sıx inteqrasiya və daha geniş regional əməkdaşlıq üçün mühüm perspektivlər açır.

## Azərbaycan-Türkiyə humanitar əlaqələrinin təşkilati bazası və formalaşma mexanizmləri

Azərbaycan–Türkiyə humanitar əlaqələrinin möhkəm və çoxşaxəli xarakteri sırf tarixi və mədəni yaxınlıqdan irəli gəlmir; onların davamlılığını və sistemli inkişafını təmin edən əsas faktor geniş təşkilati mexanizmlər şəbəkəsidir. Bu mexanizmlər müxtəlif dövlət qurumlarını, beynəlxalq əməkdaşlıq strukturlarını, parlament platformalarını, elmi-təhsil institutlarını, diaspora təşkilatlarını, habelə mədəniyyət və humanitar fəaliyyət sahəsində ixtisaslaşmış fond və agentlikləri əhatə edir. İlk baxışdan emosional və tarixi bağlılıq kimi görünən bu əməkdaşlıq əslində çoxpilləli, normativ, hüquqi və administrativ alqoritmlərə əsaslanır. Bu institusional çərçivə tərəflərin humanitar əməkdaşlıqda mövcud resurslarını koordinasiya etməsinə, yeni layihələr yaratmasına, icra mexanizmlərini optimallaşdırmasına və uzunmüddətli strateji partnyorluğu qorumasına imkan verir.

Humanitar əlaqələrin təməlində 1992-ci il 14 yanvar tarixində təsis edilən diplomatik münasibətlər dayanır [Türköne, 2018]. Bu münasibətlər iki dövlət arasında siyasi dialoqun başlanğıcı olmaqla yanaşı, təhsil, mədəniyyət, elmi tədqiqatlar, informasiya mübadiləsi, humanitar yardım və diaspor fəaliyyəti daxil olmaqla çoxsaylı sahələrdə əməkdaşlıq üçün hüquqi-institusional baza formalaşdırdı. Azərbaycan və Türkiyənin Xarici İşlər Nazirlikləri humanitar əməkdaşlıq üzrə əsas koordinasiya qurumları kimi çıxış edirlər. Diplomatik nümayəndəliklər, səfirliklər və konsulluqlar vasitəsilə hazırlanan sazişlər və protokolların icrası, tərəflər arasında danışıqların təşkili, layihələrin hüquqi rəsmiləşdirilməsi, monitorinqi və hesabatlılığı məhz bu qurumlar tərəfindən təmin olunur [Əliyev, 2019].

Diplomatik kanallar yalnız siyasi dialoq müstəvisində fəaliyyət göstərmir. Onlar eyni zamanda humanitar sahədə müxtəlif aktorlar arasında əlaqələndirmə funksiyasını yerinə yetirir: universitetlər arasında əməkdaşlıq formatının qurulması, mədəniyyət layihələri üçün hüquqi baza yaradılması, mədəniyyət xadimlərinin qarşılıqlı səfərlərinin təşkili, dövlət səviyyəsində humanitar layihələrin maliyyələşmə mexanizmlərinin tənzimlənməsi kimi sahələr bu koordinasiyanın əsasını təşkil edir. Beləliklə, diplomatik münasibətlər humanitar əməkdaşlıqda yalnız siyasi mesajların ötürüldüyü kanal deyil, həm də real icra strukturu, idarəetmə mexanizmi funksiyasını daşıyır.

Azərbaycan–Türkiyə münasibətlərində humanitar əməkdaşlığın aparıcı instrumentlərindən biri hökumətlərarası komissiyalardır. Bu komissiyalar hər iki ölkənin müvafiq nazirliklərini və ixtisaslaşmış dövlət qurumlarını bir masa ətrafında toplayaraq mədəniyyət, təhsil, gənclər siyasəti, idman, informasiya, elmi tədqiqatlar və sosial layihələr üzrə fəaliyyət planları hazırlayır. Komissiyaların iclaslarında qəbul edilən qərarlar humanitar əməkdaşlığın normativləşdirilməsi baxımından həlledici rol oynayır. Son illərdə keçirilən görüşlər çərçivəsində kino istehsalı və yayımı, muzeyşünaslıq, incəsənət festivalları, qardaş şəhər layihələri, dövlət teatrları arasında əməkdaşlıq, arxivlərin rəqəmsallaşdırılması və elmi mübadilə üzrə qarşılıqlı razılaşmalar imzalanmışdır [Dervişoğlu, 2017].

Bu komissiyalar humanitar əlaqələrdə institusional sabitlik və davamlılıq yaradır. Onların fəaliyyətinin əsas üstünlüyü proseslərin sistemləşdirilməsi, planlı şəkildə aparılması və siyasi konjonkturadan asılı olmamasıdır. Bu isə humanitar əməkdaşlığın emosio-

nal deyil, sabit dövlət siyasəti səviyyəsində həyata keçirildiyini göstərir.

Azərbaycan–Türkiyə təhsil əməkdaşlığının ən mühüm özəlliklərindən biri onun erkən mərhələdən etibarən hüquqi çərçivəyə salınmasıdır. 1992-ci ildə qəbul edilən "Xaricdə Təhsil haqqında Dövlət Proqramı" və 1994-cü ildə imzalanmış elmi, texniki, sosial, mədəni və iqtisadi sahələri əhatə edən əməkdaşlıq protokolu iki ölkə arasında təhsil əlaqələrinin çəkisini artırdı [Məmmədov, 2016]. Bu sənədlər qarşılıqlı tələbə mübadiləsi, birgə elmi tədqiqat layihələri, müəllim heyətinin səfərləri, tədris proqramlarının uyğunlaşdırılması, diplomların tanınması və universitetlərarası əməkdaşlığın genişləndirilməsi üçün rəsmi baza rolunu oynadı.

Sonrakı dövrdə YÖK və Azərbaycan Təhsil Nazirliyi arasında imzalanan müqavilələr nəticəsində ortaq proqramlar, ikili diplom layihələri, doktorantura və magistratura üzrə mübadilə mexanizmləri formalaşdırıldı. Artıq minlərlə azərbaycanlı tələbə Türkiyədə təhsil almış, yüzlərlə müəllim və tədqiqatçı mübadilə proqramları çərçivəsində hər iki ölkənin ali təhsil sistemində iştirak etmişdir [Kılıç, 2018]. Bu, humanitar əməkdaşlığın uzunmüddətli strateji dayanıqlığını təmin edən ən mühüm institusional sahələrdən biridir.

Humanitar əməkdaşlığın mədəni komponenti həm ənənəvi mədəni bağlara, həm də geniş hüquqi-institusional çərçivəyə əsaslanır. 1992–1994-cü illərdə imzalanmış sənədlər — "Dostluq, Qardaşlıq, Əməkdaşlıq və Qonşuluq haqqında Saziş", "Mədəni və İncəsənət Sahəsində Əməkdaşlıq Protokolu" — iki ölkənin mədəni münasibətlərini institusional səviyyədə rəsmiləşdirən ilk hüquqi baza oldu [Həsənov, 2017]. Bu sənədlər teatr, musiqi, kino, ədəbiyyat, folklor, muzey işi, arxivçilik, kitabxanaçılıq və mədəni irsin qorunması kimi sahələrdə sistemli əməkdaşlıq mexanizmləri yaratdı.

Bu çərçivə yalnız dövlətlərin mədəniyyət nazirlikləri üçün deyil, həm də teatr və filarmoniya idarələri, muzeylər, arxivlər, incəsənət akademiyaları, yaradıcı birliklər və professional ittifaqlar üçün praktiki əməkdaşlıq formatları formalaşdırdı. Mədəniyyət sahəsində reallaşan onlarla festival, sərgi, konfrans, musiqi gecəsi, folklor tədbiri və birgə layihələrin arxasında məhz bu institusional baza dayanır.

Humanitar əlaqələrin yalnız dövlət strukturları ilə məhdudlaşmaması onların kompleks xarakterini göstərir. Azərbaycanın Diasporla İş üzrə Dövlət Komitəsi və Türkiyənin müvafiq diaspora təşkilatları arasında bağlanmış əməkdaşlıq razılaşmaları iki ölkə diasporlarının koordinasiyalı fəaliyyətini təmin edir [Diasporla İş üzrə Dövlət Komitəsi, 2021]. Bu əməkdaşlıq mədəni tədbirlər, maarifçilik layihələri, milli-mədəni irsin təbliği, humanitar yardımlar, ictimai diplomatiya təşəbbüsləri və gənclər proqramları vasitəsilə humanitar sahəyə ciddi töhfə verir.

Həmçinin qeyri-hökumət təşkilatları, mədəniyyət fondları, təhsil assosiasiyaları, könüllü hərəkatları və humanitar yardım agentlikləri dövlət strukturunun uzantısı kimi deyil, əlavə institusional güc kimi çıxış edir. Onların fəaliyyəti humanitar əməkdaşlığı yalnız rəsmi sənədlər səviyyəsindən çıxararaq cəmiyyətlərin müxtəlif təbəqələrinə çatdırır.

## Humanitar əlaqələrin praktik icra mexanizmləri, əməkdaşlıq formaları və gələcək perspektivləri

Azərbaycan–Türkiyə humanitar əlaqələrinin inkişafında yalnız hüquqi-institusional baza deyil, həm də bu bazanın praktikada necə tətbiq olunması böyük əhəmiyyət kəsb edir. Bu fəsildə humanitar əməkdaşlığın real icra mexanizmləri, dövlət və qeyri-dövlət qurumlarının rolu, tətbiq olunan idarəetmə modelləri və gələcək inkişaf perspektivləri geniş

şəkildə təhlil olunur.

Səfirliklər institutunun humanitar əməkdaşlıqda rolu çox zaman nəzərə alınmır, halbuki bu qurumlar layihələrin başlanması, razılaşdırılması, maliyyələşməsi və monitorinqi üçün həlledici funksiyaya malikdirlər. Azərbaycan Respublikasının Ankaradakı səfirliyi və Türkiyənin Bakıda yerləşən səfirliyi mədəniyyət günləri, ədəbi mübadilə proqramları, incəsənət sərgiləri, təhsil forumları, şagird-müəllim müsabiqələri, elm festivalı və müxtəlif seminarların təşkilində birbaşa rol oynayır. Bu fəaliyyətlər yalnız tədbir xarakteri daşımır; hər bir tədbir iki ölkə arasında imzalanmış saziş və protokollara əsaslanan planlı humanitar siyasətin tərkib hissəsidir [Rəsmi səfirlik məlumatları, 2022].

Səfirliklər həm də universitetlər və elmi institutlar arasında əlaqələrin qurulmasında vasitəçi funksiyası yerinə yetirir. Mübadilə proqramları, ikili diplom layihələri, elmi konfransların təşkili, araşdırma qruplarının yaradılması və təcrübə proqramlarının həyata keçirilməsi diplomatik nümayəndəliklərin fəal dəstəyi ilə reallaşır.

Azərbaycan və Türkiyədə qəbul edilmiş müxtəlif dövlət proqramları humanitar əməkdaşlıq üçün institusional çərçivəni gücləndirir. Azərbaycanda "2007–2015 Xaricdə Təhsil Dövlət Proqramı", "2019–2023 Təhsil Strategiyası", Türkiyədə isə “YTB təqaüd proqramları” və “Türkiyə Maarif Vəqfi”nin beynəlxalq təhsil missiyası iki ölkə arasında akademik və elmi əməkdaşlığın genişlənməsinə səbəb olur.

Bu proqramlar həm tələbələr, həm tədqiqatçılar, həm də müəllim heyəti üçün uzunmüddətli perspektivlər yaradır və humanitar əlaqələri insan kapitalının inkişafı istiqamətinə yönəldir. Proqramlar vasitəsilə on minlərlə gənc bilik və bacarıqlarını Türkiyədə və Azərbaycanda təkmilləşdirir, bunun nəticəsində iki ölkə arasında akademik şəbəkə formalaşır.

Mədəniyyət mübadiləsinin institusional əsaslarının genişləndirilməsi yalnız dövlət səviyyəsində deyil, həmçinin incəsənət qurumları səviyyəsində də müşahidə olunur. Dövlət teatrları, opera və balet teatrları, filarmoniya, kino studiyaları, incəsənət akademiyaları, muzeylər arasında müntəzəm əməkdaşlıq əlaqələri formalaşıb. Birgə film istehsalı layihələri, teatr truppalarının səhnə mübadiləsi, rəssamların birgə sərgiləri, musiqi festivallarında ortaq çıxışlar və iki ölkənin ortaq mədəni irsinin dirçəldilməsi bu institusional münasibətlərin real nəticələridir.

Bu qurumlar həm də mədəni diplomatiyanın funksional aktorları kimi çıxış edir: Azərbaycanın Nəsimi, Xətai, Üzeyir Hacıbəyli irsinin Türkiyədə təqdimatı, Türkiyənin Yunus Əmrə, Mövlana, Aşıq Veysel kimi mədəni simalarının Azərbaycanda tanıdılması iki dövlətin mədəni məkanını yaxınlaşdırır.

Azərbaycan və Türkiyə diaspor təşkilatları humanitar əməkdaşlıqda xüsusi rol oynayır. Müxtəlif ölkələrdə fəaliyyət göstərən diaspor qurumları birgə tədbirlər, konfranslar, milli günlər, mədəni aksiyalar, humanitar dəstək kampaniyaları və maarifləndirici layihələr həyata keçirərək iki dövlətin beynəlxalq imicinə dəstək verirlər. Bu fəaliyyətlər həm də iki ölkənin diaspor siyasətlərinin koordinasiyası ilə gücləndirilir.

Diaspor təşkilatları yalnız milli mədəniyyətin təbliğində deyil, həm də zorakılığa məruz qalan icmalara humanitar yardım göstərmək, beynəlxalq aləmin diqqətini regional məsələlərə yönəltmək və diaspor gənclərinin potensialını inkişaf etdirmək kimi məqsədləri həyata keçirir.

# NƏTİCƏ

Azərbaycan–Türkiyə humanitar əlaqələri müasir dövrdə yalnız tarixi və mədəni yaxınlığın təbii nəticəsi kimi deyil, eyni zamanda institusional mexanizmlər üzərində qurulan strateji əməkdaşlıq sistemi kimi qiymətləndirilir. Bu münasibətlərin davamlılığını təmin edən əsas xüsusiyyət onların emosional bağlılıqdan kənara çıxaraq dövlət səviyyəsində rəsmi çərçivələrə salınması, hüquqi sənədlərlə möhkəmləndirilməsi və müxtəlif strukturlar tərəfindən koordinasiya edilməsidir. Azərbaycanın müstəqilliyinin bərpasından sonra iki ölkə arasında qurulan diplomatik əlaqələr humanitar əməkdaşlığın formalaşmasının başlanğıc nöqtəsi olmuş və bu əməkdaşlıq zamanla çoxşaxəli institusional baza üzərində inkişaf etmişdir.

Diplomatik nümayəndəliklərin fəaliyyəti humanitar əlaqələrin mərkəzi sütunlarından biridir. Səfirliklər və konsulluqlar siyasi münasibətlərlə yanaşı, mədəni tədbirlərin təşkili, təhsil proqramlarının koordinasiyası, xalqlar arasında qarşılıqlı anlayışın gücləndirilməsi və informasiya diplomatiyasının həyata keçirilməsi kimi funksiyalar yerinə yetirir. Diplomatik kanallar həm də təhsil, mədəniyyət və sosial layihələrin uğurlu icrası üçün zəruri olan rəsmi əlaqələndirmə rolunu oynayır.

Nazirliklərarası komissiyalar və hökumətlərarası birgə qurumlar humanitar əməkdaşlığın institusional çərçivəsində xüsusi əhəmiyyət daşıyır. Təhsil, mədəniyyət, gənclər, idman və sosial sahələr üzrə fəaliyyət göstərən bu komissiyalar iki ölkə arasında əməkdaşlığın strateji istiqamətlərini müəyyənləşdirir, illik fəaliyyət planlarını hazırlayır və birgə layihələrin icrasını təmin edir. Bu strukturlar sayəsində əməkdaşlıq təsadüfi təşəbbüslərdən çıxaraq planlı və koordinasiyalı fəaliyyətə çevrilmişdir.

Rəsmi protokollar və sazişlər humanitar əlaqələrin hüquqi-normativ bazasını formalaşdırır. Təhsil müəssisələri arasında əməkdaşlıq protokolları, mədəniyyət sazişləri, gənclər və idman sahəsində imzalanmış sənədlər iki ölkə arasında qarşılıqlı fəaliyyətin institusional əsaslarını möhkəmləndirir. Bu sənədlər tələbə və müəllim mübadiləsi, ortaq mədəni layihələr, elmi tədqiqatlar, incəsənət festivalları və digər humanitar proqramların davamlılığını təmin edir.

Humanitar əməkdaşlıqda diaspora strukturlarının rolu da əhəmiyyətlidir. Hər iki ölkədə yaşayan azərbaycanlı və türkiyəli icmalar mədəni körpü rolunu oynayır, cəmiyyətlərarası əlaqələrin güclənməsinə töhfə verir və iki dövlət arasında qeyri-rəsmi humanitar əlaqələrin genişlənməsini təmin edir. Dövlət səviyyəsində diaspora ilə iş qurumlarının fəaliyyətinin uyğunlaşdırılması isə bu sahədə koordinasiyanı daha da gücləndirir.

Humanitar əməkdaşlığın genişlənməsində TİKA, Yunus Emre İnstitutu, Maarif Vəqfi kimi qurumların rolu ayrıca qeyd edilməlidir. Bu təşkilatlar vasitəsilə təhsil proqramları, mədəni tədbirlər, humanitar layihələr həyata keçirilir və iki ölkə arasında "yumşaq güc" mexanizmləri gücləndirilir.

Nəticə etibarilə, Azərbaycan–Türkiyə humanitar əlaqələri sadəcə qardaşlıq münasibətləri kimi deyil, həm də geniş institusional bazaya əsaslanan strateji əməkdaşlıq modeli kimi qiymətləndirilməlidir. Gələcəkdə bu mexanizmlərin təkmilləşdirilməsi, şəffaflığın artırılması və multilateral layihələrin genişləndirilməsi humanitar sahədə daha dərin inteqrasiyaya imkan yaradacaq.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi. (2020). Azərbaycan–Türkiyə münasibətləri. Bakı
2. Türköne, M. (2018). Modern Turkish Foreign Policy and Azerbaijan. *Ankara: Bilgi Üniversitesi Yayınları.*
3. Əliyev, R. (2019). Diplomatiya və İkitərəfli Əməkdaşlıq. *Bakı: Qanun Nəşriyyatı.*
4. Dervişoğlu, B. (2017). Türkiye-Azerbaycan Kültürel İşbirliği. *İstanbul: Boğaziçi Yayınları.*
5. Məmmədov, Ş. (2016). Azərbaycan-Türkiyə Təhsil və Elm Əməkdaşlığı. *Bakı: Elm Nəşriyyatı.*
6. Kılıç, A. (2018). Academic Mobility Between Turkey and Azerbaijan. *Journal of Eurasian Studies*, Vol. 9, Issue 2, pp. 45–60.
7. Həsənov, T. (2017). Mədəni Diplomatiya və Azərbaycan-Türkiyə Əlaqələri. *Bakı: Nurlan Nəşriyyatı.*
8. Diasporla İş üzrə Dövlət Komitəsi. (2021). Azərbaycan–Türkiyə Diaspora Əməkdaşlığı. Bakı
9. Rəsmi səfirlik məlumatları. (2022). *Azərbaycan Respublikasının Türkiyədəki Səfirliyi*

## INSTITUTIONAL ARRANGEMENTS OF HUMANITARIAN COOPERATION BETWEEN AZERBAIJAN AND TURKEY

**R.M.Mamedov**

### SUMMARY

Humanitarian relations between Azerbaijan and Turkey have developed over the past thirty years within diverse and multifaceted institutional mechanisms. The structure established through interstate agreements, joint intergovernmental commissions, education and culture protocols, diaspora and aid agencies demonstrates that this cooperation is grounded not only in emotional and cultural ties but also in an official and legal institutional framework. This article analyzes the above mechanisms — diplomatic channels, inter-ministerial commissions, official documents in the fields of education and culture, the role of diaspora structures, and the coordinating functions of state institutions — based on scholarly sources and relevant official documents. The analysis shows that Azerbaijani–Turkish humanitarian cooperation is not only an expression of bilateral brotherhood values but also a sustainable and systematic governance model.

## ОРГАНИЗАЦИОННЫЕ МЕХАНИЗМЫ ГУМАНИТАРНОГО СОТРУДНИЧЕСТВА МЕЖДУ АЗЕРБАЙДЖАНОМ И ТУРЦИЕЙ

**Р.М.Мамедов**

### РЕЗЮМЕ

Гуманитарные отношения между Азербайджаном и Турцией за последние тридцать лет развивались в рамках многосторонних институциональных механиз-

мов. Структура, сформированная посредством межгосударственных соглашений, совместных межправительственных комиссий, протоколов в области образования и культуры, а также деятельности диаспорских и благотворительных агентств, показывает, что это сотрудничество основано не только на эмоциональной и культурной близости, но и на официальной, юридически закреплённой институциональной базе. В статье анализируются данные механизмы — дипломатические каналы, межведомственные комиссии, официальные документы в сфере образования и культуры, роль диаспорских структур и координационные функции государственных учреждений — на основе научных источников и соответствующих официальных материалов. Анализ показывает, что гуманитарное сотрудничество между Азербайджаном и Турцией является не только выражением двусторонних братских ценностей, но и устойчивой, системной моделью управления.

*Məqalə redaksiyaya 19 mart 2026 tarixində daxil olmuş, 24 mart 2026 tarixində isə çapa qəbul olunmuşdur.*

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2026 - № 66

UOT № 94(479.24)
https://doi.org/10.65806/1682-9123.2026.66.15

# URBAN GROWTH AND THE DEVELOPMENT OF TRADE CENTERS IN THE SAFAVID STATE DURING THE REIGN OF SHAH TAHMASP I

**F.A.Rustamzadeh**
Institute of History and Ethnology of Azerbaijan National Academy of Sciences
115 H.Javid Avenue, Baku, Azerbaijan
e-mail: ferhadrustemzade@gmail.com

***Açar sözlər:*** Şah I Təhmasib, Səfəvi dövləti, şəhər inkişafı, ticarət mərkəzləri, Təbriz, Qəzvin, ipək ticarəti

***Keywords:*** Shah Tahmasp I, Safavid state, urban development, trade centers, Tabriz, Qazvin, silk trade

***Ключевые слова:*** Шах Тахмасп I, государство Сефевидов, развитие городов, торговые центры, Тебриз, Казвин, торговля шелком

## Introduction

The reign of Shah Tahmasp I (1524–1576) occupies a crucial role in the economic and urban history of the Safavid state. Although this period is often studied through the lenses of dynastic consolidation, Ottoman-Safavid warfare, and the internal restructuring of Qizilbash power, it was also a formative stage in the development of urban centers and trade networks in sixteenth-century Iran. Under Tahmasp, the Safavid state did not yet achieve the commercial centralization associated with Shah Abbas I, but it did preserve and reorganize a network of cities whose political, fiscal, and mercantile importance would shape later Safavid prosperity. The growth of Tabriz, Qazvin, Ardabil, Shirvan, Herat, and other regional centers during this period demonstrates that urban development was closely connected to military strategy, court politics, regional integration, and long-distance trade [Newman, 2006].

At the beginning of Tahmasp's reign, Tabriz remained the principal political and commercial center of the Safavid state. Since the foundation of the dynasty in 1501, the city had served as the capital and as one of the major entrepôts linking Iran with Anatolia, the Caucasus, and northern trade routes. Its location made it a natural center for the exchange of silk, textiles, metalware, horses, dyes, and agricultural products. Tabriz was also an artisanal city with an important bazaar economy and a long pre-Safavid urban tradition. Yet its frontier location made it vulnerable. Repeated Ottoman invasions in the 1530s and 1540s undermined the city's political security and limited its ability to function as an unchallenged royal capital. The Ottoman campaign of 1534 and the renewed invasions of 1548 and 1553 highlighted the strategic weakness of maintaining the capital so close to the western war zone [Roemer, 1986].

These military pressures were decisive in the transfer of the capital from Tabriz to Qazvin in 1548. This move was one of the most important urban decisions of Tahmasp's reign. It was not simply an act of military retreat; rather, it represented a structural reorientation of the Safavid state. By moving the court eastward, Tahmasp sought greater

security for the dynasty, better control over the central provinces, and a more manageable relationship between the royal household, the bureaucracy, and the principal trade arteries of the interior. Qazvin had advantages that Tabriz lacked in the new strategic context: it was less exposed to Ottoman attack, better placed for communications with central Iran, and well situated to benefit from the movement of goods between the northwest, the Caspian zone, and the Iranian plateau [Savory, 1980].

The elevation of Qazvin to capital status stimulated its urban growth in several ways. The permanent presence of the court increased demand for housing, workshops, food supply, security infrastructure, and ceremonial architecture. Administrative offices, military households, and religious institutions followed the shah, and this shift drew merchants, craftsmen, and service groups into the city. Even if Qazvin did not yet become the fully monumental capital later represented by Isfahan, its transformation under Tahmasp marked an important stage in Safavid urbanization. Capital status changed the scale of the city's political economy: roads, caravan movement, court consumption, and fiscal administration all reinforced its urban functions. Qazvin thus emerged as a commercial and administrative center of first-rank importance by the mid-sixteenth century [Floor, 2000].

Urban development under Tahmasp was also tied to the broader territorial consolidation of the Safavid state. In 1538, Shah Tahmasp ended the rule of the Shirvanshahs and brought Shirvan under more direct Safavid control. This had important implications for the towns of the eastern Caucasus, especially the commercial centers linked to silk production and regional exchange. Shirvan was one of the principal silk-producing zones of the Safavid realm, and its incorporation strengthened the state's access to a commodity that would later become central to Safavid commercial policy. The integration of Shirvan also reinforced urban ties between the South Caucasus, the Caspian basin, and central Iran, making cities in the region more closely connected to Safavid political and fiscal structures [Roemer, 1986].

Among the cities that benefited from this wider integration were the urban centers associated with the silk routes, especially in Azerbaijan and the Caspian-connected zones. Silk was already an important export commodity under Tahmasp, even though the large-scale royal regulation of silk trade is better associated with later rulers. The economic significance of silk production helped sustain urban markets, caravan traffic, warehousing, brokerage, and customs revenue. Trade in raw silk and related goods linked provincial production zones to internal market towns and, beyond them, to routes leading toward the Ottoman Empire, the Caucasus, Muscovy, and eventually maritime networks in the south. The development of commercial centers in this period was therefore shaped not only by local urban consumption but also by the long-distance movement of high-value goods [Matthee, 1999].

The urban economy of Safavid Iran under Tahmasp rested on more than luxury exports. Internal trade was equally vital. Grain, livestock, salt, textiles, leather, metals, ceramics, and everyday consumer goods moved between town and countryside in patterns that sustained provincial urbanization. Safavid cities were fiscal, artisanal, and distributive centers. Bazaars functioned as nodal institutions within this system, connecting guild-like production, wholesale exchange, retail trade, credit practices, and taxation. The urban market was therefore one of the main interfaces between the state and the economy. Urban development during Tahmasp's reign must be understood in relation to this broader inter-

nal circulation, not solely in terms of international commerce [Fragner, 1986].

Ardabil retained a special place in this urban network. Although it was no longer the main political capital, it remained the spiritual center of the dynasty because of the Safavid shrine complex and the memory of Shaykh Safi al-Din. This gave the city a distinctive dual importance: symbolic and economic. Pilgrimage, endowments, court patronage, and the city's connection to the dynastic identity of the Safavids all enhanced its standing. Urban development in Ardabil cannot be measured only by commercial scale; its value also lay in its institutional and ideological role within the dynasty. Nevertheless, this symbolic centrality had material consequences, since shrine-centered urban life attracted artisans, religious personnel, merchants, and visitors, thereby sustaining local markets and service activity [Newman, 2006].

Herat and the eastern cities likewise remained important under Tahmasp, though their fortunes were strongly conditioned by conflict with the Uzbeks. Herat was one of the great cities of the eastern Iranian world and had long served as a center of artistic production, trade, and administrative activity. Under the Safavids it remained strategically and economically important because it connected Khurasan to Central Asian trade routes. However, warfare in the east made urban stability there more precarious than in some western and central regions. Even so, the persistence of Herat as a significant city under Tahmasp shows that the Safavid urban system was not limited to the northwest and center; it extended across a broad geography in which frontier cities continued to mediate trade and state presence despite recurring instability [Savory, 1980].

Mashhad also deserves attention as a growing urban center in Tahmasp's period. Its importance derived from both religion and geography. As a shrine city, it attracted devotional traffic and benefactions, while its eastern location connected it to the larger Khurasani commercial zone. Tahmasp's reign contributed to the consolidation of Twelver Shiʿism, and shrine cities consequently gained enhanced political and social significance. This did not make Mashhad the commercial equal of Tabriz or the administrative equivalent of Qazvin, but it did reinforce the city's urban vitality by combining pilgrimage, regional exchange, and state interest. In the Safavid context, shrine-centered urbanism and market activity were often intertwined rather than separate processes [Fragner, 1986].

The period between the transfer of the capital in 1548 and the Peace of Amasya in 1555 is especially significant for understanding the relation between war and urban development. The long Ottoman-Safavid struggle caused destruction, depopulation in some frontier areas, and repeated interruption of overland trade. At the same time, it pushed the Safavid state to adopt a more defensive and interior-oriented spatial strategy. The Peace of Amasya, signed on 29 May 1555, brought roughly two decades of relative stability to the western frontier. That peace did not eliminate all commercial challenges, but it improved the conditions for caravan movement, tax collection, and urban recovery in several parts of the empire. In this sense, 1555 may be treated as a turning point in the urban-economic history of Tahmasp's reign [Roemer, 1986].

After 1555, the relative reduction of military pressure favored the consolidation of internal markets and administrative routines. Urban centers benefited when roads became safer, predictable taxation was easier to enforce, and merchants could assess risk more reliably. In premodern conditions, security was itself a form of economic infrastructure. Tahmasp's achievement was not the creation of a fully integrated national market in the

modern sense, but the preservation of a politically coherent space within which cities could function as nodes of exchange. The strengthening of Qazvin, the stabilization of central routes, and the retention of major production zones under Safavid authority all contributed to this outcome [Floor, 1998].

Another major factor behind the development of urban trade centers was the Safavid state's growing fiscal interest in commerce. Customs dues, market taxes, and the monetized dimensions of trade mattered increasingly for state income. Cities were crucial because they concentrated taxable transactions, warehouses, caravanserais, and professional intermediaries. While Tahmasp's regime did not yet commercialize the silk trade to the same degree later seen under Shah Abbas I, the foundations of state interest in high-value trade were already visible. The state's concern with bullion, customs, and commercial access indicates that urban markets were central to fiscal policy as well as to social life [Floor & Clawson, 2000].

The issue of bullion is particularly important. Safavid Iran had limited domestic access to gold and silver and therefore relied significantly on inflows of precious metal generated by trade. This made exportable commodities and functioning trade centers all the more important. Urban development in commercial cities cannot be separated from the problem of money supply. If merchants brought silver into the Safavid realm through the exchange of silk, textiles, horses, and other commodities, then the prosperity of certain urban centers was directly linked to the broader monetary stability of the state. Trade centers were not passive spaces of exchange; they were part of the material basis of Safavid fiscal endurance [Floor & Clawson, 2000].

Caravan routes were equally central to the urban map of Tahmasp's reign. Cities flourished not in isolation but through connectivity. The routes linking Tabriz, Qazvin, Ardabil, Herat, Mashhad, and the Caspian-oriented zones made possible the circulation of goods, officials, pilgrims, and information. Caravanserais, road security, and the seasonal rhythms of transport all influenced which cities grew and which stagnated. Even before the more ambitious infrastructural developments of the later Safavid period, Tahmasp's reign demonstrates that control over routes and nodal towns was fundamental to statecraft. Urban growth and trade concentration were inseparable from the geography of movement [Floor, 2000].

The development of cities during Tahmasp's reign was also social. Urban centers drew together merchants, artisans, scholars, bureaucrats, soldiers, and religious personnel. The concentration of these groups made cities the primary arenas of Safavid social change. Political centralization altered the urban hierarchy; the movement of the court redirected patronage; warfare shifted commercial risk; and the strengthening of Shiʻi institutions reshaped the symbolic profile of major towns. Urban development, therefore, was not only quantitative growth in buildings or markets; it was the reorganization of the social and institutional life of cities within a more durable Safavid framework [Newman, 2006].

Yet Tahmasp's urban achievements should be assessed with nuance. His reign did not produce the fully developed urban-commercial system that became famous in the age of Shah Abbas I. Ports such as Bandar Abbas and the full redirection of silk toward maritime outlets belong largely to a later phase. Likewise, the monumental refashioning of a capital on the scale of Isfahan had not yet occurred. Still, to see Tahmasp's period merely as a prelude would be misleading. It was under Tahmasp that the state survived repeated crises, relocated its political center, integrated key production zones more firmly,

and preserved the urban-commercial skeleton on which later Safavid prosperity would depend [Matthee, 1999].

In conclusion, the reign of Shah Tahmasp I was a formative phase in the development of Safavid cities and trade centers. The most important urban process of the period was the reordering of the political and commercial geography of the empire: Tabriz remained a major mercantile city, but Qazvin rose to capital status after 1548; Shirvan's fuller incorporation after 1538 strengthened the state's connection to silk-producing zones; eastern cities such as Herat and Mashhad continued to mediate trade and authority despite military pressures; and the Peace of Amasya in 1555 created better conditions for urban recovery and internal exchange. Tahmasp's reign did not culminate in complete commercial centralization, but it laid essential foundations for it. By stabilizing the state, redirecting the capital, preserving major routes, and maintaining the urban institutions through which commerce and taxation flowed, Shah Tahmasp ensured that the Safavid state remained an urban and mercantile power even in an age of war and political restructuring [Roemer, 1986].

## References

1. Floor, Willem. (1998). A Fiscal History of Iran in the Safavid and Qajar Periods, 1500–1925. *New York: Bibliotheca Persica Press*, 573 p.
2. Floor, Willem. (2000). The Economy of Safavid Persia. *Wiesbaden: Reichert Verlag*, 376 p.
3. Floor, Willem; Clawson, Patrick. (2000). Safavid Iran's Search for Silver and Gold. *International Journal of Middle East Studies* 32, no. 3: 345-368.
4. Fragner, Bert G. (1986). Social and Internal Economic Affairs (from the Mid-Fourteenth Century to the End of the Safavid Period). In: Jackson, Peter; Lockhart, Laurence (eds.), *The Cambridge History of Iran*, Vol. 6, Cambridge: Cambridge University Press, pp. 491–567. Volume total: 1151 p.
5. Matthee, Rudi. (1999). The Politics of Trade in Safavid Iran: Silk for Silver, 1600–1730. Cambridge: *Cambridge University Press*, 290 p.
6. Newman, Andrew J. (2006). Safavid Iran: Rebirth of a Persian Empire. *London: I.B. Tauris*, 281 p.
7. Roemer, H.R. (1986). The Safavid Period. In: Jackson, Peter; Lockhart, Laurence (eds.), The Cambridge History of Iran, Vol. 6, Cambridge: *Cambridge University Press*, pp. 189-350. Volume total: 1151 p.
8. Savory, Roger. (1980). Iran under the Safavids. Cambridge: *Cambridge University Press*, 286 p.

## ŞAH I TƏHMASİBİN HAKİMİYYƏTİ DÖVRÜNDƏ SƏFƏVİ DÖVLƏTİNDƏ ŞƏHƏR VƏ TİCARƏT MƏRKƏZLƏRİNİN İNKİŞAFI

**F.A.Rüstəmzadə**

## XÜLASƏ

Məqalədə Şah I Təhmasibin hakimiyyəti dövründə Səfəvi dövlətində şəhər və ticarət mərkəzlərinin inkişafı araşdırılır. Göstərilir ki, bu dövr təkcə siyasi və hərbi hadisə-

lərlə deyil, həm də şəhər həyatının yenidən təşkili, ticarət yollarının qorunması və mühüm urban mərkəzlərin dövlət sistemində rolunun artması ilə səciyyələnib. Tədqiqatda Təbrizin XVI əsrin ilk yarısında Səfəvi dövlətinin əsas siyasi və ticarət mərkəzi kimi mövqeyi, lakin Osmanlı-Səfəvi müharibələri nəticəsində onun təhlükəsizliyinin zəifləməsi təhlil edilir.

## РАЗВИТИЕ ГОРОДОВ И ТОРГОВЫХ ЦЕНТРОВ В ГОСУДАРСТВЕ СЕФЕВИДОВ В ПЕРИОД ПРАВЛЕНИЯ ШАХА ТАХМАСПА I

**Ф.А.Рустамзаде**

### РЕЗЮМЕ

В статье исследуется развитие городов и торговых центров в государстве Сефевидов в период правления шаха Тахмаспа I. Показано, что данный период характеризовался не только политическими и военными событиями, но и перестройкой городской жизни, обеспечением безопасности торговых путей и возрастанием роли важнейших урбанистических центров в государственной системе. В исследовании анализируется положение Тебриза как главного политического и торгового центра государства Сефевидов в первой половине XVI века, а также ослабление его безопасности вследствие османо-сефевидских войн.

*Məqalə redaksiyaya 19 mart 2026 tarixində daxil olmuş, 24 mart 2026 tarixində isə çapa qəbul olunmuşdur.*

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2026 - № 66

UOT № 34
https://doi.org/10.65806/1682-9123.2026.66.16

# İNKASSO ÜZRƏ HESABLAŞMALARIN MÜLKİ-HÜQUQİ TƏNZİMLƏNMƏSİ

**Ü.Ç.Qasımlı**
Bakı Dövlət Universiteti
Bakı, Akademik Zahid Xəlilov küçəsi 23
e-mail: uzeirqasimli2001@gmail.com

***Açar sözlər:*** mülki hüquq, inkasso, nağdsiz hesablaşmalar, nağd hesablaşmalar, dövriyyə
***Keywords:*** civil law, collection, non-cash settlements, cash settlements, turnover
***Ключевые слова:*** гражданское право, инкассо, безналичные расчеты, наличные расчеты, оборот

## Giriş

Mülki hüquq münasibətlərində nağdsız ödənişlərin həyata keçirilməsinin bir növünü inkasso üzrə hesablaşmalar təşkil edir. Buna görə də nağdsız hesablaşmaların bu formasının hüquqi tənzimlənməsinin xüsusiyyətlərinin tədqiqi böyük əhəmiyyət kəsb edir. Bu məqsədlə, ilk növbədə inkasso üzrə hesablaşmalarda mülki-hüquqi öhdəliklərin anlayışını və növlərini müəyyən etmək olduqca zəruridir.

Hər şeydən əvvəl onu vurğulamaq lazımdır ki, qanun inkasso yolu ilə nağdsız hesablaşmaların həyata keçirilməsini ətraflı tənzimləyir (MM-nin 984-986-cı maddələri). Belə ki, MM-nin 984-cü maddəsinin 1-ci bəndi müəyyən edir ki, inkasso üzrə hesablaşmalar zamanı bank (emitent bank) müştərinin sərəncamı ilə ödəyicidən ödənişin və (və ya) ödəniş akseptinin alınması əməliyyatlarını müştərinin hesabına həyata keçirməyi öhdəsinə götürür. Emitent bank nəinki müştərinin sərəncamını yerinə yetirmək üçün müstəqil hərəkətlər etmək, həm də başqa bankı (icraçı bankı) cəlb etmək hüququna malikdir (MM-nin 984-cü maddəsinin 2-ci bəndi). Onu da xüsusi olaraq qeyd etmək lazımdır ki, xarici ticarət əlaqələrində inkasso üzrə nağdsız hesablaşmalar formasından geniş istifadə olunur [Tınel və başqaları, 2000].

BMT Nizamnaməsinə uyğun olaraq məşvərətçi statusa malik olan Beynəlxalq Ticarət Palatası [Schmitthoff's, 1990] İnkasso üzrə Unifikasiya edilmiş Qaydaları (UEQ) qəbul etmişdir (hazırda 1995-ci il redaksiyasında qüvvədədir) [ICC Uniform Rules for Collections]. Bu sənəd tövsiyə xarakterli olsa da, inkasso üzrə hesablaşmalar sahəsində beynəlxalq bank təcrübəsini əks etdirir [Schmitthoff's, 1990]. Bu qaydalar Azərbaycan Respublikasının mülki qanunvericiliyinə də təsir göstərmişdir [Göyüşov, 2002]. Belə ki, bu sahədə Azərbaycan Respublikasının mülki qanunvericiliyi bu UEQ-da təsbit edilmiş beynəlxalq bank təcrübəsinin standartlarını və adətlərini əks etdirir [Allahverdiyev, 2009].

İnkasso üzrə hesablaşmalar, ödəniş tapşırıqları və akkreditiv üzrə hesablaşmalar kimi, nağdsız hesablaşmaların formalarından birini təşkil edir.

Lakin inkasso üzrə hesablaşmalarla ödəniş tapşırığı üzrə hesablaşmalar və akkreditiv üzrə hesablaşmalar arasındakı əsas fərq ondan ibarətdir ki, emitent banka müvafiq bank əməliyyatının aparılmasını tapşırmış şəxs (hesablaşma sənədini təqdim etməklə)

vəsaitin ödəyicisi deyil, onun alıcısıdır.

Bank sifarişinin özünün mahiyyəti sifariş verən şəxsin hesabından silinmiş vəsaitin köçürülməsi və ya ödənişin icrası deyil. Bank sifarişinin özünün mahiyyəti ödəyicidən müvafiq ödənişin alınmasıdır.

İnkasso əməliyyatını həyata keçirərkən bankların (emitent bank və icraçı bank) yerinə yetirməli olduğu hərəkətlərin xarakterini nəzərə alaraq, nağdsız ödənişlərin bu forması hüquq ədəbiyyatında bəzən pul vəsaitlərinin debet köçürülməsi kimi də adlanır (məsələn, ödəniş tapşırıqları üzrə hesablaşmaları həyata keçirilərkən baş verən kredit köçürməsindən fərqli olaraq) [Yefimova, 2001; Кредитные организации в России, 2006]. Bu səbəbdən, mülki hüquqda inkasso üzrə hesablaşmaların xüsusiyyətlərinin tədqiqi olduqca aktual bir məsələdir.

## Əsas hissə

İnkasso üzrə nağdsız hesablaşmaların həyata keçirilməsinin subyekt tərkibi bir neçə iştirakçıdan ibarətdir. Onlara ödənişin alıcısını, emitent bankı, icraçı bankı və ödəyicini aid etmək olar.

1. Ödənişin alıcısı. Ödənişin alıcısı qismində ödəyicidən ödənişin alınmasına və ya ödənişin akseptinə yönəlmiş hərəkətləri kreditor hesabına yerinə yetirmək üçün emitent banka göstəriş verən şəxs çıxış edir.
2. Emitent bankı. Bu alıcıya xidmət göstərən bankdır. Alıcı belə banka ödənişin alınmasına və ya ödənişin akseptinə yönəlmiş zəruri hərəkətləri yerinə yetirməyi tapşırır.
3. İcraçı bank. İcraçı bank, bir qayda olaraq, alıcının ödəniş və ya ödənişin aksepti üzrə sərəncamlarını yerinə yetirilməsinə xidmət göstərən bankdır.
4. Ödəyici. Ödəyici qismində ona qarşı ödənişi alan tərəfindən verilmiş müvafiq sərəncam əsasında ödəniş tələbi haqqında və ya ödənişin aksept edilməsi haqqında tələbini təqdim edilməli olan şəxs çıxış edir.

Ümumi hüquq xarakteri daşıyan Mülki Məcəllə ilə yanaşı, inkasso üzrə hesablaşmaların hüquqi tənzimlənməsi xüsusi qanunvericiliyin predmeti də ola bilər. İnkasso üzrə hesablaşmaların xüsusi tənzimlənməsinin nümunəsi kimi 27 dekabr 2001-ci il tarixli "İcra icraatı haqqında" qanunu göstərmək olar ["İcra haqqında" Azərbaycan Respublikası Azərbaycan Respublikasının qanunu, 2002]. Bu qanuna uyğun olaraq, borclunun bankda və ya digər kredit təşkilatında, elektron pul təşkilatında hesabları və bu hesablarda pul vəsaitlərinin olması barədə məlumatı olan məhkəmə icraçısı məhkəmə qərarlarının və digər orqanların bankda və ya digər kredit təşkilatında pul vəsaitlərinin üzərinə həbs qoyulması barədə tələblərini əks etdirən icra vərəqəsinin icra orqanının rəhbəri tərəfindən təsdiq edilmiş surətini göndərir (qanunun 5-ci maddəsi). Bu halda borclunun hesablarına xidmət göstərən bank və ya digər kredit təşkilatı və ya elektron pul təşkilatı icra sənədini icra məmurundan aldığı gündən yeddi gün müddətində pul vəsaitlərinin üzərinə həbs qoyulması barədə icra sənədini yerinə yetirməyə borcludur. Və ya onlar borclunun hesablarında alıcının tələblərini təmin etmək üçün kifayət qədər vəsait olmadığına görə bu tələblərin tam və ya qismən yerinə yetirilməməsi barədə icra vərəqəsində qeyd etməlidirlər.

İnkasso ilə hesablaşmaların aparılması qaydası, həmçinin qanunla müəyyən edilmiş bank qaydaları və bank praktikasında tətbiq edilən işgüzar adətlərlə tənzimlənir (MM-nin 984-cü m. 2-ci bəndi) [Azərbaycan Respublikasının Mülki Məcəlləsi, 2000]. Lakin nəzərə almaq lazımdır ki, MM-nin 984-cü m. 5-ci bəndinə əsasən, yalnız MM ilə

tənzimlənməyən inkasso üzrə hesablaşmalarla bağlı münasibətlər bank qanunvericiliyi ilə tənzimlənir.

Belə ki, inkasso üzrə hesablaşmalar həm də Azərbaycan Respublikasının Mərkəzi Bankının (MB) 17 sentyabr 2013-cü il tarixli Təlimatı ilə tənzimlənir və onları nağdsız hesablaşmaların əsas formalarından birinə aid edirdi (Təlimatın 3.1.3-cü bəndi) [“Azərbaycan Respublikasında nağdsız hesablaşmalar və pul köçürmələri haqqında Təlimat”ın təsdiq edilməsi barədə 17 sentyabr 2013-cü il tarixli Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin Qərarı, 2013]. Hazırda inkasso sərəncamı üzrə hesablaşmalar Mülki Məcəllənin normaları ilə yanaşı, həmçinin “Ödəniş əməliyyatlarının aparılmasına və ödəniş alətlərinə dair Qayda”nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 2024-cü il 13 mart tarixli 12/3 nömrəli Qərarının 6-cı bəndi (Ödəniş əməliyyatlarının inkasso sərəncamları əsasında aparılması) ilə tənzimlənir [“Ödəniş əməliyyatlarının aparılmasına və ödəniş alətlərinə dair Qayda”nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 13 mart 2024-cü il 12/3 nömrəli Qərarı, 2024]. Banklar tərəfindən həyata keçirilən inkasso sərəncamları ilə bağlı istənilən əməliyyat iki məcburi mərhələdən ibarətdir.

1. Alıcı tərəfindən inkasso əməliyyatının aparılması haqqında sərəncamın, habelə müvafiq hesablaşmanın (ödəniş tələbləri, inkasso sərəncamları) və digər zəruri sənədlərin emitent banka təqdim edilməsi və sonuncu tərəfindən icraya qəbul edilməsi.

2. Ödəniş tələbinin və ya ödənişin akseptinin ödəyiciyə təqdim edilməsi, ondan icranın alınması və icra olunanı ödəniş alana (alıcıya) verilməsi.

Birinci mərhələdə pul vəsaitini alan (alıcı) ona xidmət göstərən banka (emitent banka) müvafiq ödəniş sənədlərini (ödəniş tələbləri və inkasso sərəncamları) ödəyicinin hesabına təqdim edir. Məsələn, icra icraatında icra məmuru emitent banka ödəyicinin hesabına aid müvafiq hesablaşma sənədlərini təqdim edir.

Emitent bank təqdim edilmiş sənədlərin müəyyən edilmiş formalara uyğunluğunu, bütün tələb olunan rekvizitlərin tam doldurulmasını, pul vəsaitini alanın (kreditorun) imzalarının və möhürünün hesab sahibinin imza nümunələri və möhür izi olan kartda göstərilən nümunələrə uyğunluğunu, ödəniş sənədlərinin bütün surətlərinin eyni olmasını yoxlayır. Hər hansı bir sənəd olmadıqda və ya sənədlər xarici görünüşünə görə inkasso sərəncamına uyğun gəlmədikdə, icraçı bank bu barədə ondan inkasso sərəncamını almış şəxsi dərhal məlumatlandırmalıdır. Göstərilən çatışmazlıqlar aradan qaldırılmadıqda, bank sənədləri icra etmədən geri qaytarmaq hüququna malikdir. Qəbul edilməmiş sənədlər inkasso üzrə təqdim edilmiş hesablaşma sənədlərinin reyestrindən çıxarılaraq alıcıya qaytarılır [“Ödəniş əməliyyatlarının aparılmasına və ödəniş alətlərinə dair Qayda”nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 13 mart 2024-cü il 12/3 nömrəli Qərarı, 2024].

Emitent bank tərəfindən inkasso üzrə hesablaşma sənədlərinin qəbulu onun belə sənədləri təyinat yerinə çatdırmaq öhdəliyininin yaranması deməkdir. Daha dəqiq desək, belə öhdəlik emitent-bankla hesab sahibi arasında bağlanmış bank hesabı müqaviləsindən yaranan bankın müqavilə öhdəliyinin tərkib elementlərindən birini təşkil edir. Belə bir bank hesabı müqaviləsi inkasso üzrə qəbul edilmiş hesablaşma sənədlərinin çatdırılması ilə bağlı xərclərin banka ödənilməsinin həm qaydasını, həm də şərtlərini müəyyən edir. İnkasso ilə hesablaşma əməliyyatlarının həyata keçirilməsinin ikinci mərhələsi hesablaşma sənədlərinin icraçı bank tərəfindən alınması ilə bağlıdır. Belə hesablaşma sənədləri ödəniş tələblərinin və inkasso tapşırıqlarının rekvizitlərinin tamlığına və düzgün doldurulmasına

nəzarət edən bankın jurnalında qeydiyyata alınır. Bundan əlavə, belə bank hesablaşma sənədlərinin bütün nüsxələrində emitent bankın məsul əməkdaşının möhürü və imzasını da yoxlayır. Bu tələblər pozulmaqla icra edilmiş hesablaşma sənədləri geri qaytarılmalıdır [“Ödəniş əməliyyatlarının aparılmasına və ödəniş alətlərinə dair Qayda”nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 13 mart 2024-cü il 12/3 nömrəli Qərarı, 2024]. Bu halda icraçı bankın qeydiyyat jurnalında müvafiq qeyd aparılır. Göstərilən tələblərə cavab verən hesablaşma sənədləri ödəniş (ödənişin aksepti) üçün icraçı bank tərəfindən təqdim edilməlidir.

Ödəniş və/və ya aksept alınmadıqda, icraçı bank ödənişin aparılmaması və ya aksept edilməməsinin səbəbləri barədə dərhal emitent banka məlumat verməyə borcludur. Emitent-bank bu barədə müştərini dərhal məlumatlandırmalı, ondan sonrakı hərəkətlərə dair göstərişlər tələb etməyə borcludur.

Qismən ödənişlər bank qaydaları ilə müəyyən edilmiş hallarda və ya inkasso sərəncamında xüsusi icazə olduqda qəbul edilə bilər [Göyüşov, 2002]. Belə ki, Mərkəzi Bankın 13 mart 2024-cü il tarixli Qərarına uyğun olaraq, inkasso sərəncamı qismən ödənilərkən icraçı bankın məsul şəxsi onun bankda saxlanılan nüsxəsinin müvafiq hissələrində qismən ödənişin tarixini və məbləğini, habelə ödənişin qalan məbləğini göstərir və öz imzası və möhürü ilə təsdiq edir.

İnkasso sərəncamı tam ödənildikdən sonra icraçı bankın məsul şəxsi icra vərəqində qeyd edir, bunu öz imzası və möhürü ilə təsdiq edir və bir nüsxəsini bankda saxlamaqla sənədi icraçıya qaytarır. Alınmış (inkasso edilmiş) məbləğlər icraçı bank tərəfindən dərhal emitent banka köçürülməlidir. Öz növbəsində emitent bank bu məbləğləri müştərinin (alıcının) hesabına köçürməlidir. İcraçı bank inkasso edilən məbləğlərdən ona ödənilməli olan mükafatı və apardığı xərclərin əvəzini tutmaq hüququna malikdir. Ödəniş və/və ya aksept alınmadıqda, icraçı bank ödənişin aparılmaması və ya aksept edilməməsinin səbəbləri barədə dərhal emitent banka məlumat verməyə borcludur. Emitent bank bu barədə müştəriyə dərhal məlumat verir və ondan sonrakı hərəkətlərə dair göstərişlər istəyir. Bank belə hərəkətlərə dair göstərişlər bank qaydaları ilə müəyyən edilmiş müddətdə və ya belə müddətlər göstərilmədikdə ağlabatan müddət ərzində alınmadıqda, icraçı bank sənədləri bank- emitentə qaytarmaq hüququna malikdir.

İnkasso ilə hesablaşmaların definisiyasini müəyyən etdikdən sonra nağdsız hesablaşmaların bu formasının hüquqi mahiyyətini də nəzərdən keçirmək lazımdır.

Müasir hüquq ədəbiyyatında belə bir fikir geniş yayılmışdır ki, inkasso ilə hesablaşmalar bir sıra müxtəlif mülki-hüquq əqdləri, o cümlədən tapşırıq müqavilələri, etibar edilmişin etibar edilməsi, pul vəsaitlərinin inkasso edilməsi, habelə birtərəfli əqdləri (aksept, hesabdan vəsaitlərin silinməsi və s.) ifadə edir [Yefimova, 2001; Кредитные организации в России, 2006]. Lakin bu yanaşma süni xarakter daşıyır, çünki bu, mahiyyətcə vahid olan hüquqi münasibətin parçalanması deməkdir. Axı nəzərə almaq lazımdır ki, inkasso hesablaşmalarında iştirakçıların bütün hərəkətləri bank hesabı müqaviləsi çərçivəsində həyata keçirilir. Bank hesabı müqaviləsinə uyğun olaraq emitent bank müştərinin hesab üzrə əməliyyatların aparılması, o cümlədən ödəyicidən ödənişin alınması və ya ödənişin aksepti barədə göstərişlərini yerinə yetirməlidir (984-cü maddənin 1-ci bəndi).

Bu halda, emitent bank müştərinin tapşırığını alaraq bank hesabı müqaviləsi üzrə öhdəliyini ya birbaşa (məsələn, ödəyiciyə xidmət göstərən bank olduğu vəziyyətdə) yerinə yetirir, ya da onun icrasını üçüncü şəxsə - icraçı banka həvalə edir (Mülki Məcəllənin 984-

cü maddəsinin 2-ci bəndi). Bu icraçı bank, bank hesabının ödəyicisi ilə bağlanmış müqaviləyə əsasən, müştərinin tapşırığı (ödəniş tələbləri və ya inkasso tapşırığı) əsasında onun hesabından pul vəsaitlərinin çıxarılmasına yönəldilmiş hərəkətlər etmək öhdəliyi daşıyır. Bu, məhkəmənin qərarı ilə müştərinin hesabından pul vəsaitlərinin silinməsi hallarına, habelə qanunla müəyyən edilmiş və ya bankla müştəri arasında bağlanmış müqavilədə nəzərdə tutulmuş hallara da tətbiq edilir. (MM-nin 964-cü maddəsi). Bu halda icraçı bank vəsaiti alan şəxslə heç bir müqavilə münasibətində olmur və onun nümayəndəsi kimi çıxış etmir. Belə yanaşma ödəniş tapşırıqlarının (inkasso tapşırıqlarının) yerinə yetirilməməsinə və ya lazımınca yerinə yetirilməməsinə görə məsuliyyətin müəyyən edilmiş hüquqi qaydasına tam uyğundur. Bu halda, bir qayda olaraq, belə məsuliyyət emitent bankın üzərinə düşür.

Lakin əgər müştərinin tapşırığının icra edilməməsi və ya lazımınca icra edilməməsi hesablaşma əməliyyatlarının həyata keçirilməsi qaydalarının icraçı bank tərəfindən pozulması ilə əlaqədar baş vermişdirsə, müştəri qarşısında mülki-hüquq məsuliyyət həmin bankın üzərinə qoyula bilər və qanun emitent bankın ümumi müəyyən edilmiş qaydada vurulmuş zərərin ödənilməsi tələbi ilə icraçı banka müraciət etmək imkanını nəzərdə tutur (984-cü maddənin 4-cü bəndi). İnkasso tapşırığı öz mahiyyətinə görə ödəniş sənədidir. Məhz bu sənədin əsasında pul vəsaitləri ödəyicilərin hesablarından mübahisəsiz qaydada silinir. Belə bir qayda qanunvericiliklə, o cümlədən icra sənədləri üzrə alınma halları daxil olmaqla müəyyən edilə bilər. Bundan əlavə, pul vəsaitlərinin silinməsinin mübahisəsiz qaydası mülki-hüquqi müqaviləsi üzrə də tətbiq edilir. Lakin bu şərtlə ki, belə bir müqavilə ilə ödəyiciyə xidmət göstərən banka ödəyicinin müvafiq sərəncamı olmadan onun hesabından vəsait silmək hüququ verilsin.

İnkasso tapşırığı xüsusi blankda tərtib edilir. O ödəyicinin özü tərəfindən doldurulur (bax "Ödəniş əməliyyatlarının həyata keçirilməsi və ödəniş alətlərindən istifadə Qaydaları"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 2024-cü il 13 mart tarixli 12/3 nömrəli Qərarına 3 nömrəli əlavəsinə) ["Ödəniş əməliyyatlarının aparılmasına və ödəniş alətlərinə dair Qayda"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 13 mart 2024-cü il 12/3 nömrəli Qərarı, 2024]. O, müəyyən istinadları özündə ehtiva etməlidir. Bunlar aşağıdakı istinadlar ola bilər:

- pul vəsaitinin mübahisəsiz alınmasını nəzərdə tutan müvafiq müvafiq qanuna və maddəyə istinad;
- icra vərəqəsinin verilmə tarixinə, onun nömrəsinə, icrası məcburi olan qərarın çıxarıldığı işin nömrəsinə, habelə belə qərarı qəbul etmiş orqanın adına istinad (bu halda icra vərəqəsinin əsli və ya onun dublikatı inkasso tapşırığına əlavə edilməlidir);
- əsas müqavilənin bağlanma tarixinə və nömrəsinə, habelə kreditorun ödəyicinin hesabından vəsaitin mübahisəsiz silinməsinə hüququnu nəzərdə tutan onun müvafiq bəndinə istinad.

Bu halda icraçı bankla ödəyici (hesab sahibi) arasında bağlanmış bank hesabı müqaviləsində və ya ona əlavə müqavilədə bankın müştərinin hesabından pul vəsaitlərinin mübahisəsiz şəkildə silinməsi şərti olmalıdır.

Bu halda ödəyici ödəyicinin hesabına inkasso sərəncamları verməyə səlahiyyətli müvafiq kreditor (pul vəsaiti alan, alıcı) haqqında məlumatı banka təqdim etməyə borcludur. Ödəyici, həmçinin banka ödənişlərin mübahisəsiz aparılmalı olduğu müqavilə öhdəliyi haqqında məlumat verməyə də borcludur. Bundan əlavə, ödəyici banka əsas mü-

qavilə (tarix, müqavilənin nömrəsi, kreditorun pul vəsaitlərinin mübahisəsiz silinməsi hüququnu nəzərdə tutan müqavilənin bəndi) haqqında məlumat verməyə borcludur.

İnkasso sərəncamlarının verildiyi yuxarıda göstərilən norma və qaydaların pozulması icraçı bank tərəfindən müvafiq inkasso tapşırıqlarının ödənilməsindən imtina etmək üçün əsas kimi çıxış edir. Ola bilər ki, hər hansı bir sənəd çatmasın. Yaxud sənədlərin xarici görünüşünə görə inkasso tapşırığına uyğun gəlmədiyi hallar olsun. Bu halda icraçı bank həmin uyğunsuzluqların aradan qaldırılması üçün banka belə inkasso tapşırığını vermiş konkret şəxsə dərhal məlumat verməlidir. Göstərilən çatışmazlıqlar aradan qaldırılmadıqda, bank sənədləri icra etmədən geri qaytarmaq hüququna malikdir (MM-in 985-ci mad. 1-ci b.). İnkasso ilə hesablaşmalar həyata keçirilərkən icraçı bank, inkasso əməliyyatının icrası üçün zəruri olan bankların qeydləri və yazıları istisna olmaqla, sənədləri onların alındığı formada ödəyiciyə təqdim etməyə borcludur.

Təqdim edildikdə ödənilməli olan sənədlər icraçı bank tərəfindən inkasso tapşırığı alındıqdan dərhal sonra ödəniş üçün təqdim edilməlidir.

Bununla belə, sənədlərin başqa müddətdə ödənilməsi də mümkündür. Bu halda icraçı bank ödəyicinin akseptini əldə etmək üçün inkasso tapşırığını aldıqdan sonra sənədləri dərhal aksептə təqdim etməyə borcludur. Və, həmçinin, ödəniş tələbi sənəddə göstərilən müddətdən gec olmayaraq edilməlidir. Onu da qeyd etmək lazımdır ki, qismən ödənişlərin edilməsi də mümkündür. Bununla belə, bu cür qismən ödənişlər yalnız bank qaydaları ilə birbaşa nəzərdə tutulduğu hallarda və ya inkasso tapşırığında xüsusi icazə olduqda qəbul edilə bilər.

İnkasso edilmiş pul vəsaiti icraçı bank tərəfindən dərhal emitent banka köçürülməlidir. Öz növbəsində emitent bank bu məbləğləri müştərinin hesabına köçürməlidir. Bu halda icraçı bank bu cür inkasso edilən məbləğlərdən ona düşən müvafiq mükafatı və aparılmış xərclərin əvəzini tutmaq hüququna malikdir.

Qanun icraçı bankın üzərinə ödəniş edilməməsi və ya qəbul edilməməsinin səbəbləri barədə emitent banka dərhal məlumat vermək öhdəliyi qoyur (MM-nin 986-cı mad. 1-ci b.). Bu məlumat emitent bank tərəfindən dərhal müştəriyə çatdırılmalıdır.
Müştəriyə ödəniş alınmamaqla əlaqədar özünün sonrakı addımlarını müstəqil şəkildə atmaq imkanı verilir (sənədləri geri çağırmaq və ödəyiciyə başqa qaydada vəsaitin alınması üçün tələb irəli sürmək; müəyyən edilmiş qaydalara uyğun olaraq ödəniş edilməsi üçün hesaba aid ödəniş tələbi irəli sürmək və s.).

Növbəti tədbirlər haqqında göstərişlərin bank qaydaları ilə müəyyən edilmiş müddətdə, belə müddət müəyyən edilmədikdə isə ağlabatan müddətdə alınmaması icraçı banka sənədləri icra etmədən emitent banka qaytarmaq hüququ verir.

Onu da qeyd etmək lazımdır ki, ödəyicinin hesabından vəsaitin icraçı bank tərəfindən silinməsi bir neçə əsaslara görə dayandırıla bilər. Bu, nəzarət funksiyalarını həyata keçirən dövlət qurumunun qərarı ola bilər. Bu, həm də pul məbləğinin alınmasının dayandırılması haqqında məhkəmə qərarının olması və ya qanunvericiliklə nəzərdə tutulmuş digər əsaslar ola bilər [Гражданское право, 2006].

Onu da nəzərə almaq lazımdır ki, nağd pul məbləğlərinin silinməsi prosesi bərpa olunduqda inkasso tapşırığının icrası onda göstərilən prioritet qrup, habelə müvafiq qrup daxilində ödəniş sənədinin qəbulunun təqvim qaydası saxlanılmaqla baş verir.

## Nəticə

Beləliklə, aparılan tədqiqata əsasən aşağıdakıları ümumiləşdirmək olar. İnkasso üzrə hesablaşmaların nizamlanması mülki-hüquqi tənzimlənməsinin özünəməxsus xüsusiyyətlərinə malikdir, bu da onları ümumilikdə həm nəzəri həm də praktiki baxımından nağdsız əməliyyatların həyata keçirilməsinin xüsusi forması kimi nəzərdən keçirməyə imkan verir. İnkasso üzrə hesablaşmaların nağdsız ödənişlərin digər hüquqi formalarından əsas fərqi ondan ibarətdir ki, bu formada nağdsız hesablaşmalar aparıldıqda, vəsaitin alıcısı kimi emitent banka birbaşa bank əməliyyatının aparılmasına dair göstəriş verən şəxs çıxış edir. Banka verilən sifarişin mahiyyəti isə ödəyicinin özündən müvafiq ödənişin alınmasından ibarətdir.

## Ədəbiyyat


1. Allahverdiyev, S.S. (2009). Azərbaycan Respublikasının mülki hüquq kursu. III cild. Xüsusi hissə. II nəşr. Bakı, *Digesta*, 1048 s.
2. "Azərbaycan Respublikasında nağdsız hesablaşmalar və pul köçürmələri haqqında Təlimat"ın təsdiq edilməsi barədə 17 sentyabr 2013-cü il tarixli Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin Qərarı: [Elektron resurs]. (2013). https://e-qanun.az/framework/27121#_ednref1
3. Azərbaycan Respublikasının Mülki Məcəlləsi. (2000). *Azərbaycan Respublikasının qanunvericilik toplusu*, № 4, maddə 250.
4. "İcra haqqında" Azərbaycan Respublikası Azərbaycan Respublikasının qanunu. (2002). *Azərbaycan Respublikasının Qanunvericilik Toplusu*, № 3, m. 114.
5. Göyüşov, R.A. (2002). Mülki hüquq. Xüsusi hissə. Dərs vəsaiti. Bakı, *Qanun*, 500 s.
6. "Ödəniş əməliyyatlarının aparılmasına və ödəniş alətlərinə dair Qayda"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 13 mart 2024-cü il 12/3 nömrəli Qərarı: [Elektron resurs]. (2024). https://e-qanun.az/framework/56659
7. Гражданское право: В 4 т. Том 4: Обязательственное право: учеб. (2006). [Отв. ред. Е.А. Суханов. - 3-е изд., М.: *Волтерс Клувер*, 816 с.
8. Ефимова, Л.Г. (2001). Банковские сделки: право и практика. М.: *НИМП*, 654 с.
9. Кредитные организации в России: правовой аспект. (2006). Отв. ред. – Павлодский Е.А. - М.: *Волтерс Клувер*, 624 с.
10. Тынель, А, Функ, Я., Хвалей, В. (2000). Курс международного торгового права. 2-е изд. - Минск. *Амалфея*, 704 с.
11. ICC Uniform Rules for Collections // ICC Switzerland [Electronic resource] / URL: https://www.icc-switzerland.ch/icc-practical-tools/publications/publication-categories/international-banking/icc-uniform-rules-for-collections-detail
12. Schmitthoff's C.M. (1990). Export trade: The law and practice of international trade. Ninth edition, London, *Stevens & Sons*, 798 p.

## CIVIL LAW REGULATION OF COLLECTION PAYMENTS

**U.Ch.Gasimly**

**SUMMARY**

This article examines current legal issues related to non-cash payments in the form of collection payments, which are an integral part of modern payment relations as a whole. The peculiarity of the use and application of various non-cash forms of settlement, including collection settlements, is that they offer significant advantages over cash settlements.

## ГРАЖДАНСКО-ПРАВОВОЕ РЕГУЛИРОВАНИЕ РАСЧЕТОВ ПО ИНКАССО

**У.Ч.Гасымлы**

**РЕЗЮМЕ**

В статье исследуются актуальные правовые вопросы осуществления безналичных расчетов в форме расчетов по инкассо, которые являются составной частью современных расчетных отношений в целом. Особенность использования и применения различных безналичных форм расчетов, в том числе и в форме расчетов по инкассо заключается в том, что они дают значительные преимущества по сравнению с осуществлением наличных расчетов.

*Məqalə redaksiyaya 19 mart 2026 tarixində daxil olmuş, 25 mart 2026 tarixində isə çapa qəbul olunmuşdur.*

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

**2026 - № 66**

UOT № 347.2
https://doi.org/10.65806/1682-9123.2026.66.17

# AZƏRBAYCAN RESPUBLİKASINDA VƏRƏSƏLİK HÜQUQUNUN KONSTİTUSİON-HÜQUQİ ƏSASLARI

**Ş.M.Yusifov**
Bakı Dövlət Universiteti
Bakı, Akademik Zahid Xəlilov küçəsi 23
e-mail: shukuryusifov@gmail.com

***Açar sözlər:*** vərəsəlik, mülkiyyət, miras əmlak, Konstitusiya, Konstitusiya Məhkəməsi
***Keywords:*** inheritance, property, inherited property, Constitution, Constitutional Court
***Ключевые слова:*** наследование, собственность, наследственное имущество, Конституция, Конституционный Суд

Mülkiyyət hüququnun hüquqi müdafiəsi milli və beynəlxalq səviyyələrdə həyata keçirilir. Milli səviyyədə bu cür müdafiə və tanınma Konstitusiya, qanun və ya məhkəmə qərarları ilə olursa, beynəlxalq səviyyədə bu müqavilə və ya protokol kimi çoxtərəfli sənədlərlə həyata keçirilir.

Mülkiyyət hüququnun konstitusionalizm hərəkətlərində önəmli bir yeri mövcuddur. Bu səbəblə də rəhbər ideoloji düşüncələrin nədən ibarət olmasından asılı olmayaraq, demək olar ki, bütün ölkələrin konstitusiyalarında və ya ona bərabər tutulan sənədlərində mülkiyyət hüququna istinadlara rast gəlinir. Mülkiyyət hüququ müasir konstitusiyaların müdafiə altına aldığı ən qədim hüquqlardan biridir.

Mülkiyyət hüququ konstitusiyalarda birbaşa və ya dolayı şəkildə nəzərdə tutula bilər. Mülkiyyətin bir hüquq olaraq açıq şəkildə təminat altına alınması hüququn birbaşa tanınması mənasına gəlir. Azərbaycan Respublikasının müstəqillik əldə etdikdən sonra qəbul edilmiş 1995-ci il tarixli Konstitusiyasında da mülkiyyət və mülkiyyət hüququ ilə bağlı birbaşa şəkildə iki norma nəzərdə tutulmuşdur.

Belə ki, Azərbaycan Respublikası Konstitusiyasının (*bundan sonra – AR Konstitusiyası*) 13-cü maddəsinə görə, mülkiyyət hüququ toxunulmaz hesab edilir və dövlət tərəfindən qorunur. Konstitusiyaya əsasən mülkiyyət dövlət, xüsusi və bələdiyyə formalarında mövcud ola bilər. Bununla yanaşı, mülkiyyət hüququndan istifadə edilməsi insan və vətəndaş hüquq və azadlıqlarına, cəmiyyətin və dövlətin maraqlarına, eləcə də şəxsin ləyaqətinə zidd olmamalıdır (AR Konstitusiyası, 1995). Göründüyü kimi, sözügedən maddə Azərbaycan Respublikasında mülkiyyətin toxunulmaz olduğunu, onun növlərini və mülkiyyətdən nələr əleyhinə istifadə etməyin yolverilməz olduğunu göstərir və mülkiyyətə əsasən bir hüquq kimi deyil, iqtisadi bir kateqoriya kimi yanaşır.

AR Konstitusiyasının 29-cu maddəsi isə mülkiyyət hüququ ilə bağlı tənzimləməni nəzərdə tutur və AR Konstitusiyasının ilkin qəbul edilmiş mətnində sonradan edilmiş əlavə və dəyişiklikləri də əhatə edir. Bu kontekstdə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun (*bundan sonra – AR KMP*) 7 sentyabr 2017-ci il tarixli Qərarında da ifadə olnur ki, mülkiyyət hüququ ayrılmaz və bölünməz hesab edilən əsas insan və vətəndaş hüquqlarından biri olaraq xüsusi hüquqi təminatla əhatə olunur. Belə ki,

bu təminat mülki hüquq münasibətlərinin iştirakçılarına həm hüquqi bərabərlik, həm də mülkiyyətin toxunulmazlığı prinsipləri əsasında əmlak müstəqilliyi və sərbəst iradələri ilə öz mülkiyyət hüquqlarını reallaşdırmaq imkanı verir. Eyni zamanda, həmin hüququn pozulması hallarında onun məhkəmə müdafiəsi ilə təmin olunması da bu təminatın ayrılmaz tərkib hissəsi kimi çıxış edir (AR KMP, 2017)

Mülkiyyət hüququ ilə bağlı ilkin başlanğıcları nəzərdə tutan AR Konstitusiyasının 29-cu maddəsinin I-III hissələri qəbul edildikləri məzmunda da öz mövcudluqlarını davam etdirirlər. Həmin hissələrin ümumiləşdirilmiş şəkildə əsas məzmunu ondan ibarətdir ki, hər bir şəxsin mülkiyyət hüququ tanınır və mülkiyyət formaları arasında hər hansı üstünlük müəyyən edilmir. Mülkiyyət hüququ, xüsusilə də, xüsusi mülkiyyət, qanunvericiliklə etibarlı şəkildə qorunur. Hər kəs həm daşınar, həm də daşınmaz əmlaka malik olmaq imkanına malikdir. Mülkiyyət hüququnun məzmunu isə mülkiyyətçinin əmlaka təkbaşına və ya digər şəxslərlə birlikdə sahiblik etməsi (sahiblik hüququ), ondan istifadə etməsi (istifadə hüququ) və onun hüquqi taleyini müəyyənləşdirməsi (sərəncam vermə hüququ) kimi 3 əsas səlahiyyətin məcmusundan ibarət olur (AR Konstitusiyası, 1995).

AR Konstitusiyasının 29-cu maddəsinin hazırda qüvvədə olan məzmunu ilə IV hissəsində isə qeyd olunur ki, şəxsin mülkiyyət hüququndan məhrum edilməsi yalnız məhkəmə qərarı əsasında mümkündür. Eyni zamanda, əmlakın tam şəkildə müsadirə edilməsi isə hüquqi baxımdan istisna edilir. Dövlət ehtiyacları naminə mülkiyyətin alınmasına gəldikdə isə bu, yalnız əvvəlcədən onun dəyərinə uyğun ədalətli kompensasiyanın ödənilməsi şərti ilə mümkün hesab olunur. (AR Konstitusiyası, 1995) 2009-cu ildə ölkəmizdə keçirilən referenduma qədər isə bu hissədə yalnız dövlət ehtiyacları üçün deyil, həm də ictimai ehtiyaclar üçün mülkiyyətin yalnız qabaqcadan onun dəyərini ödəmək şərti ilə özgəninkiləşdirilməsinə yol veriləcəyi nəzərdə tutulurdu. Lakin sonradan xüsusi mülkiyyətin müdafiəsi siyasəti çərçivəsində bu siyahıdan ictimai ehtiyaclar çıxarılmışdır.

Bununla belə, Azərbaycan Respublikası Mülki Məcəlləsinin (bundan sonra – AR MM) 203.5-ci maddəsinin mətni hələ də Konstitusiyadakı sözügedən dəyişikliyə uyğunlaşdırılmamışdır. Belə ki, maddənin mətnində qeyd olunur ki, dövlətin və cəmiyyət ehtiyacları üçün fiziki və hüquqi şəxslərə mülkiyyət hüququ ilə məxsus olan əmlakın özgəninkiləşdirilməsi AR Konstitusiyasının 29-cu maddəsinin IV hissəsinə əsasən həyata keçirilir (AR MM, 2000). Göründüyü kimi, AR Konstitusiyasının 29-cu maddəsinin IV hissəsindən xüsusi mülkiyyətdə olan əmlakın cəmiyyətin (başqa sözlə ictimai) ehtiyacları üçün özgəninkiləşdirilməsinə dair ifadə çıxarılmış olsa da, bu dəyişiklik hələ ki öz əksini AR MM-in 203.5-ci maddəsinin mətnində tapmamışdır. Bu baxımdan hesab edirik ki, sözügedən maddəyə düzəliş edilərək, onun mətninin AR Konstitusiyasının 29-cu maddəsinin IV hissəsinə uyğunlaşdırılması daha məqsədəuyğun olardı.

Ölkəmizdə 2016-cı ildə keçirilmiş sonuncu referendum zamanı isə AR Konstitusiyasının 29-cu maddəsinin V və VI hissələrinə sosial yönümlü yeni müddəalar əlavə edilmiş, bununla da xüsusi mülkiyyətin həm də sosial mahiyyətinə toxunulmuşdur. Həmin maddələrin məzmununa görə, xüsusi mülkiyyət sosial öhdəliklərə səbəb olmaqla yanaşı, sosial ədalətin təmin edilməsi, habelə torpaqlardan səmərəli istifadə edilməsi məqsədi ilə torpaq üzərində mülkiyyət hüququ yalnız qanun əsasında məhdudlaşdırıla bilər (AR Konstitusiyası, 1995).

Yuxarıda göstərilən AR Konstitusiyasının 13-cü və 29-cu maddələrinin müvafiq hissələri mülkiyyət kateqoriyasının və mülkiyyət hüququnun müxtəlif aspektlərini özündə nəzərdə tutsa da, AR Konstitusiyasının 29-cu maddəsinin VII hissəsində birbaşa olaraq mülkiyyət hüququnun əsas təminat formalarından biri kimi vərəsəlik münasibətləri təsbit edilmişdir. Həmin müddəaya görə, vərəsəlik hüququna dövlət tərəfindən təminat verilir (AR Konstitusiyası, 1995). Azərbaycan Respublikasında vərəsəlik hüququnun konstitusion əsası kimi də məhz AR Konstitusiyasının 29-cu maddəsinin VII hissəsi çıxış edir. Məhz həmin təminatın məntiqi davamı olaraq AR MM-də qanun üzrə və vəsiyyət üzrə vərəsəlik münasibətləri tənzimlənmiş, vərəsələrin hüquqlarının, eləcə də kreditorların mənafelərinin müdafiəsinə yönəlmiş normalar təsbit edilmişdir. Bunun əsasında mülki qanunvericilik təkcə vərəsəlik hüququnun mahiyyətini deyil, həm də bu hüququn əsaslarını açıqlamış, həmçinin bu hüququn həyata keçirilməsinə təminatlar nəzərdə tutmuşdur.

AR KMP da 14 oktyabr 2022-ci il tarixli Qərarında sözügedən müddəa ilə bağlı qeyd etmişdir ki, AR Konstitusiyasının 29-cu maddəsinin VII hissəsi ilə təsbit olunan vərəsəlik hüququ subyektiv hüquq kimi iki istiqamətdə təzahür edir: bir tərəfdən şəxsin öz əmlakı üzərində sərəncam verərək vəsiyyət etməsi və miras qoyması imkanını, digər tərəfdən isə vərəsənin həmin mirası qəbul edərək ona sahib olması hüququnu əhatə edir. Bu hüquqa Konstitusiya səviyyəsində təminat verilməsi isə xüsusi mülkiyyətin toxunulmazlığı prinsipindən irəli gələn məntiqi nəticə kimi çıxış edir və nəticə etibarilə mülkiyyət hüququnun davamlı olmasının, habelə istənilən məhdudiyyətlərdən azad şəkildə həyata keçrilməsinin təmin olunmasına yönəlir (AR KMP, 2022).

Göründüyü kimi, AR KMP da AR Konstitusiyasının 29-cu maddəsinin VII hissəsində vərəsəlik hüququna dövlət təminatının verilməsini xüsusi mülkiyyət hüququnun və onun toxunulmazlığı prinsipinin davamı kimi qəbul etmiş, bununla da ölmüş şəxsin əmlakı üzərində qeyri-müəyyən vəziyyətin yaranmasının hüquqi olmadığını qəbul etmişdir.

Ümumiləşdirilmiş formada ifadə edildikdə, vərəsəlik hüququ əsas əmlak hüquqlarından biri kimi mülkiyyətin müvəqqəti xarakter daşımadığını, əksinə davamlılığını təmin edir və bu baxımdan miras qoyanın maraqları çərçivəsində əmlakın onun vəfatından sonra vərəsələrə keçməsini nəzərdə tutur. Eyni zamanda, qanun və ya vəsiyyət üzrə vərəsələr üçün həmin əmlakı vərəsəlik qaydasında əldə etmək imkanı yaradır. Bu iki element yalnız qarşılıqlı şəkildə tamamlandıqda və birgə mövcud olduqda vərəsəlik hüququnun konstitusion məzmununu formalaşdıran əsas tərkib elementləri kimi çıxış edir. Bununla bağlı AR KMP-nin yanaşmasına əsasən ümumiləşdirilmiş şəkildə qeyd edilə bilər ki, Konstitusiya vərəsəlik hüququnu mülkiyyət hüququnun davamı və onun xüsusi təzahürü kimi qiymətləndirdiyindən, hər iki hüquq eyni maddə tərkibində konstitusion təminat altına alınmışdır. Həm mülkiyyət hüququ, həm də onun davamı olan vərəsəlik hüququ cəmiyyətin inkişafında mühüm rol oynayan əsas institutlar sırasında çıxış edir. Eyni zamanda, bu hüquqların, o cümlədən vərəsəlik hüququnun həyata keçirilməsi sahəvi qanunvericilik vasitəsilə konkretləşdirilir və tənzimlənir. Konstitusion təminat yalnız hüququn tanınması ilə məhdudlaşmır, həm də miras qoyanın əmlakının vərəsələrə keçməsini təmin edən effektiv hüquqi mexanizmin mövcudluğunu zəruri edir. Belə mexanizmin olmaması vərəsəlik hüququna verilən konstitusion təminatı formal xarakterə çevirə bilər. Bu baxımdan, həmin tənzimləmənin əsas şərti müvafiq hüquq normalarının Konstitusiyaya uyğunluğunun təmin edilməsidir. Bu tələb isə AR Konstitusi-

yasının 149-cu maddəsinin III hissəsindən irəli gəlir və qanunların Konstitusiyaya zidd olmaması prinsipini təsbit edir (AR KMP, 2023).

Vərəsəlik hüququ mülki dövriyyənin subyektləri olan fiziki şəxslərin vəfatı və ya ölmüş elan edilməsi hallarında onların sağlığında iştirak etdikləri hüquqi münasibətlərdən doğan hüquq və vəzifələrin aradan qalxmamasının qarşısını alır. Bu isə həmin hüquq və öhdəliklərin vərəsələr tərəfindən davam etdirilməsi üçün zəruri hüquqi əsas yaradır. Nəticə etibarilə, mülki dövriyyənin ardıcıllığı və fasiləsizliyi təmin olunur, eyni zamanda hüquqi müəyyənlik və hüquqi etimad prinsipləri qorunur.

Bu baxımdan vərəsəliyə ölən şəxsin hüquq və öhdəliklərinin bir və ya bir neçə şəxsə ötürülməsi şəklində ümumi anlayış vermək mümkündür. Fərdin xüsusi mülkiyyət hüququnu tanıyan bütün toplumlar mülkiyyətçinin ölməsindən sonra ondan miras qalmış əmlakın bölüşdürülməsi üçün müəyyən qaydalara ehtiyac duymaqdadır.

Şəxsi azadlığa və sərbəstliyə əsaslanan ictimai qaydanın əsas elementlərindən biri kimi vərəsəlik hüququ tarixi inkişaf prosesində uzun müddət boyunca mülkiyyət hüququndan müstəqil ayrıca bir hüquq olaraq nəzərə alınmamışdır. Vərəsəlik hüququna konstitusional təminat verilməsi də ancaq müasir konstitusiyalarla birlikdə baş tutmuşdur (Önder, 2024).

Hər bir cəmiyyət milli xarakterinə uyğun olaraq öz tarixi ehtiyaclarına uyğun bir şəkildə vərəsəlik hüququnu fərqli şəkillərdə tənzimləmişdir. Vərəsəlik hüququnun tənzimlənməsi Con Stüard Mill üçün də olduqca əhəmiyyətli bir məsələ olmuş, o bildirmişdir ki, vərəsəlik hüququ o qədər əhəmiyyətli bir sahədir ki, müqavilə hüququ və işçilərin hüquqi statusu ilə bərabər əhəmiyyətə malikdir (Halliday, 2018).

Kənd təsərrüfatına əsaslanan cəmiyyət quruluşunda şəxslərin əmlakı ailə tərəfindən formalaşdırılmaqda idi və bu quruluş içərisində də vərəsəlik hüququ ailənin əmlakı içərisində nəsildən-nəsilə keçməkdə idi. Həmin dövr üçün vərəsəlik hüququnun əsas funksiyası əmlakı ailə içərisində qoruyub saxlamaq və sərvətin dağılmasına mane olmaq idi (Serozan, 2015). Ailə quruluşunun dəyişməsi ilə fərdi xüsusi mülkiyyət anlayışı ön plana keçmiş, bu vəziyyətin vərəsəlik hüququna təsiri ölüm halı üçün iradə ifadəsinin sərbəstliyinin ön plana çıxması şəklində özünü göstərmişdir. AR Konstitusiyasının da əsas götürülməsi ilə əsas hüquqların üçüncü şəxslərə təsiri ortaya çıxmış, bunun vərəsəlik hüququ üzərində də önəmli bir təsiri olmuşdur. Vərəsəlik hüququ xüsusilə də bərabərlik prinsipi ilə də məzmun baxımından zənginləşmişdir (Önder, 2024).

Zaman keçdikcə cəmiyyətin dəyişməsi ilə də dəyişikliyə uğrayan vərəsəlik hüququ müasir dövrdə bir çox beynəlxalq sənəddə və konstitusiyalarda təminat altına alınmışdır. Məsələn, "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Konvensiyanın 5-ci maddəsində hər kəsin irqi ayrı-seçkiliyə məruz qalmadan vərəsəlik hüququna malik olması təminat altına alınmışdır (Council of Europe, n.d.). Və yaxud Almaniya Federativ Respublikasının AR Konstitusiyasının 14-cü maddəsində mülkiyyət və vərəsəlik hüququnun təminat alındığı təsbit edilmişdir (Federal Republic of Germany, n.d.).

AR KMP-nin 22 aprel 2014-cü il tarixli qərarındakı yanaşmaya görə, vərəsəlik institutu şəxslərə təminat verir ki, onların sağlığında əldə etdikləri əmlak və digər maddi dəyərlər, bu dəyərlərlə bağlı öhdəliklərlə birlikdə, vəfatlarından sonra öz iradələrinə uyğun olaraq müəyyən etdikləri şəxslərə, belə iradə ifadə olunmadıqda isə qanunvericiliklə nəzərdə tutulmuş vərəsələrə keçir (AR KMP, 2014).

Obyektiv mənada yanaşdıqda vərəsəlik hüququ – bu, vəfat etmiş şəxsin əmlakının və həmin əmlakla bağlı hüquq və vəzifələrinin (öhdəliklərinin) qanun əsasında və ya və-

siyyət üzrə digər şəxslərə keçməsi qaydalarını müəyyən edən (tənzim edən) hüquq normalarının sisteminə deyilir.

Vərəsəlik hüququ mülki hüququn ən böyük yarımsahələrindən biri hesab olunur və aşağıdakı prinsiplərə əsaslanır:

– universal hüquq varisliyi;
– vəsiyyət azadlığı;
– ailə-təminat;
– məcburi vərəsələrin hüquq və maraqlarının təmin olunması;
– vərəsəliyə çağırılan şəxslərin azad seçimi;
– miras qoyanın və vərəsələrin hüquq və maraqlarının, hüquq qaydalarının və mənəviyyatın mühafizəsi.

Bu prinsiplər qarşılıqlı şəkildə bir-birini tamamlayır və hər biri digərinin təmininə xidmət edir. Eyni zamanda onlar müəyyən maraqlar nəzərə alınmaqla qanunvericilikdə nəzərdə tutulmuş qayda daxilində və hədlərdə məhdudlaşdırıla bilər (AR KMP, 2021).

AR KMP-nin 20 oktyabr 2011-ci il tarixli qərarında vurğulanır ki, vərəsəlik hüququnun tanındığı ölkələrin hüquq sistemlərində bu institut əsasən iki fərqli yanaşma əsasında formalaşır: fərdiyyətə üstünlük verən prinsip (fərdilik prinsipi) və ailənin təminatını əsas götürən prinsip (ailə-təminat prinsipi). Birinci yanaşma mülkiyyətçinin iradəsini ön plana çıxarır və mirasın taleyinin tam şəkildə miras qoyanın istəyinə bağlı olduğunu qəbul edir. Digər tərəfdən, ailə-təminat prinsipi cəmiyyətin əsas elementi hesab edilən ailə institutunun maraqlarını üstün tutur və ailə üzvlərinin hüquqlarını digər şəxslərlə müqayisədə daha yüksək səviyyədə qorumağa yönəlir. Bu prinsipə uyğun olaraq, miras qoyanla yaxın qohumluq əlaqəsində olan şəxslər – yəni uşaqlar, ər-arvad və valideynlər miras qoyanın iradəsindən asılı olmayaraq, mirasdan qanunla müəyyən edilmiş məcburi pay əldə etmək hüququna malikdirlər. (AR KMP, 2011).

AR KMP 8 yanvar 2021-ci il tarixli qərarında əvvəlki hüquqi mövqeyini daha da genişləndirərək qeyd etmişdir ki, ailə-təminat prinsipi məhz cəmiyyətin əsas dayağı sayılan ailə üzvlərinin maraqlarının digər şəxslərin maraqları ilə müqayisədə üstün tutulmasını ifadə edir. Bu yanaşmaya görə, mülkiyyətçiyə sağlığında məxsus olmuş əmlakın (tam və ya qismən) iqtisadi faydası onun vəfatından sonra ilk növbədə yaxın ailə üzvlərinə yönəlməlidir. Eyni zamanda vurğulanır ki, şəxs öz əmlakı üzərində sərbəst sərəncam vermək hüququna malik olsa da, bu azadlıq onun övladları və digər yaxın qohumları qarşısında müəyyən məsuliyyət daşımasını istisna etmir. Həmin məsuliyyətin hüquqi təminatı isə vərəsəlik hüququnda nəzərdə tutulmuş məcburi pay institutu vasitəsilə həyata keçirilir. Beləliklə, qanunvericilik bu institutu təsbit etməklə ailə münasibətlərinin qorunmasına xidmət edir və miras qoyanın düşünülməmiş qərarları nəticəsində digər ailə üzvlərinin mənafelərinə zərər vurulmasının qarşısını almağa yönəlir (AR KMP, 2021). Bu kontekstdə, AR MM-in 1193-cü maddəsi vasitəsilə mirasda məcburi pay mexanizmi tətbiq olunaraq birinci növbə üzrə qanuni vərəsələrin hüquqları miras qoyanın ölümə bağlı sərəncamları qarşısında hüquqi müdafiə altına alınır və onun bu sərəncamlarla ən yaxın ailə üzvlərini tamamilə vərəsəlik hüququndan kənarlaşdırmasının qarşısı alınır (AR KMP, 2024). Başqa sözlə, Konstitusiyada nəzərdə tutulmuş dövlətin vərəsəlik hüququna təminat verməsi çərçivəsində ölən şəxsin ən yaxın ailə üzvlərinin vərəsəlik hüquqlarının müdafiəsi üçün zəruri tənzimləmə aparılmışdır.

Qeyd olunanlardan da göründüyü kimi, Azərbaycan Respublikasında vərəsəlik hüquq münasibətləri ailə-təminat və fərdilik prinsiplərinin bərabər həcmdə tanınması yolu

ilə tənzimlənir və qanunvericilik miras qoyan şəxsdən miras qalmış əmlakın yarısının məcburi pay hüququ ilə məhdudlaşdığını, digər yarısına münasibətdə isə miras qoyan şəxsin əgər iradə ifadəsi mövcuddursa, həmin iradə ifadəsinin nəzərə alınacağı təsbit edilmişdir.

Son dövrlərdə AR KMP vərəsələrin vərəsəlik hüquqlarının təmin edilməsi istiqamətində çox ciddi addımlar atmış, vərəsəlik hüquqlarının aradan qalxmasına səbəb olan və konstitusion hüquqlara uyğunluq təşkil etməyən bir sıra normaların və formalaşmış məhkəmə təcrübəsinin kökündən dəyişməsinə nail ola bilmişdir. Bu cür normalar içərisində xüsusilə də mirasın qəbul edilməsinin müddətdən asılı olduğunu nəzərdə tutan AR MM-in 1246-cı maddəsi mühüm yer tuturdu və həmin norma mirasın açıldığı gündən altı ay keçdikdən sonra mirasın qəbul edilməsinin yolverilməz olmasına dair qayda nəzərdə tuturdu.

AR KMP hələ 14 oktyabr 2022-ci il tarixli Qərarında MM-in 1246-cı maddəsi ilə müəyyən olunmuş müddətin xarakteri və mahiyyəti ilə bağlı qeyd etmişdir ki, qanunvericinin müəyyən etdiyi bu müddətin vərəsəlik hüququnun yaranmasını şərtləndirən və ötürülməsi ilə bu hüququn xitamına səbəb olan müddət (kəsici müddət) kimi qiymətləndirilməsi yolverilməzdir. Belə ki, vərəsəlik hüququ miras qoyanın ölümü və ya ölmüş elan edilməsi nəticəsində mirasın açılması ilə yaranır, həmin gündən miras əmlakı təşkil edən hüquq və öhdəliklər vərəsələrin əmlakının müvafiq olaraq aktiv və passivinə daxil olmuş olur. Odur ki, mirasın açılması ilə artıq yaranmış olan vərəsəlik hüququnun, vərəsə statusunun prosedur xarakterli tələblərin (notariat qaydasında rəsmiləşdirilmənin) müəyyən müddət çərçivəsində həyata keçirilməməsi əsası ilə xitam olunması Konstitusiya ilə təminat verilən mülkiyyət və vərəsəlik hüquqlarının pozulmasına səbəb olar (AR KMP, 2022).

AR KMP 14 oktyabr 2022-ci il tarixli qərarında AR MM-in 1246-cı maddəsində nəzərdə tutulan müddətin hüquqi təbiətinə münasibət bildirərək vurğulamışdır ki, həmin müddətin vərəsəlik hüququnun yaranmasını şərtləndirən və ya onun ötürülməsi nəticəsində bu hüququ aradan qaldıran kəsici müddət kimi qiymətləndirilməsi düzgün deyil. Qərarda izah olunur ki, vərəsəlik hüququ miras qoyanın ölümü və ya ölmüş elan edilməsi ilə mirasın açıldığı andan etibarən meydana gəlir və elə həmin andan mirasın tərkibinə daxil olan hüquq və vəzifələr vərəsələrin əmlakına müvafiq olaraq aktiv və passiv kimi daxil olur. Bu baxımdan, artıq yaranmış vərəsəlik hüququnun yalnız formal-prosedur xarakterli tələblərin, məsələn, notariat qaydasında rəsmiləşdirmənin müəyyən edilmiş müddətdə yerinə yetirilməməsinə görə xitam edilməsi qəbuledilməzdir. Belə yanaşma Konstitusiya ilə qorunan mülkiyyət və vərəsəlik hüquqlarının pozulmasına gətirib çıxara bilər (AR KMP, 2022).

Göründüyü kimi, artıq bu yanaşma ilə AR KMP AR MM-in 1246-cı maddəsini hələ qüvvədən düşmüş hesab etməsə də, faktiki olaraq həmin normanı hər hansı bir funksiyası olmayan bir müddəaya çevirmişdir. Həqiqətən də, o zamana qədər məhkəmə təcrübəsində belə bir mövqe mövcud idi ki, MM-in 1246-cı maddəsində nəzərdə tutulmuş altı aylıq müddət kəsici müddətdir. Bildiyimiz kimi, kəsici müddətin ötürülməsi bu müddətin aid olduğu haqqın aradan qalxması nəticəsini əmələ gətirir (Süleymanlı, 2019). Bu baxımdan Konstitusiya ilə təminat altına alınmış və əslində mülkiyyət hüququnun bir uzantısı olan vərəsəlik hüququnun mirasın formal və ya qeyri-formal yolla qəbulu üçün nəzərdə tutulmuş altı aylıq müddətin keçməsi əsası ilə xitam olunması AR Konstitusiyası-nın 29-cu maddəsinin VII hissəsi ilə nəzərdə tutulmuş vərəsəlik hüququna olan dövlət tə-

minatını mənasızlaşdırardı.

AR KMP 14 oktyabr 2022-ci il tarixli qərarında Milli Məclisə müraciət edərək AR MM-də mirasın qəbulu və ondan imtina ilə bağlı normaların həmin qərarda ifadə olunmuş hüquqi mövqelər nəzərə alınmaqla təkmilləşdirilməsini məqsədəuyğun hesab etmişdir. Lakin sonrakı dövrdə qanunvericilik səviyyəsində bu istiqamətdə hər hansı dəyişiklik aparılmamış, nəticədə məhkəmə təcrübəsində müvafiq məsələlər üzrə qeyri-müəyyənliklər qalmaqda davam etmişdir. Yaranmış bu vəziyyətlə əlaqədar olaraq Azərbaycan Respublikasının Ali Məhkəməsi tərəfindən Konstitusiya Məhkəməsinə sorğu göndərilmişdir. Sorğuda əsaslandırılmışdır ki, qanunvericilikdə bir tərəfdən, mirası qəbul etməklə bağlı açıq iradə bildirməyən (susan) vərəsənin payının ayrılması nəzərdə tutulur, digər tərəfdən isə belə vərəsənin payının digər vərəsələrə, hətta yeganə vərəsə olduğu halda növbəti dərəcəli vərəsələrə keçməsi mümkün sayılır. Bununla yanaşı, hakimlər arasında fikir ayrılığı da müşahidə olunur. Belə ki, Konstitusiya Məhkəməsinin qeyd olunan qərarında ifadə edilmiş hüquqi mövqelərin müəyyən edilmiş müddət ərzində mirasdan imtina etməyən vərəsənin bu hərəkətsizliyinin mirası qəbul etməsi kimi qiymətləndirilməsi üçün kifayət qədər əsas yaradıb-yaratmaması məsələsində vahid yanaşma formalaşmamışdır.

Nəzəri ədəbiyyatlarda bu barədə qeyd olunur ki, ölüm faktının baş verməsi ilə miras əmlakın keçməsi eyni vaxtda baş verir və miras qoyanın ölümü ilə birlikdə miras əmlakın vərəsələrə keçməsi də reallaşır. Hüquq və öhdəliklərin vərəsəyə keçməsi ilə miras qoyandan ayrılması arasında hər hansı bir zaman aralığı mövcud deyil. Ölüm hüquqi faktının baş verməsi ilə birlikdə ötürülməsi mümkün olan hüquq münasibətləri qanuna əsasən (*ipso iure*) vərəsələrə keçir və vərəsələrin qəbuluna zərurət yoxdur (Antalya, 2019). Miras qoyana münasibətdə bu keçidin xüsusiyyəti hər hüquq və öhdəlik üçün qanunvericilikdə nəzərdə tutulmuş ötürülmə şərtlərinə bağlı olmamasıdır. Sahiblik də daxil olmaqla bütün hüquqların və hər növ öhdəliklərin vərəsəyə keçməsi tək bir fakt, yəni miras qoyanın ölümü kifayət edir. Məsələn, miras əmlakın tərkibinə daxil olan daşınmaz əşyaya mülkiyyət hüququ hər hansı ayrıca əməliyyata ehtiyac görülmədən vərəsəyə keçir. Başqa sözlə, miras qoyanın ölməsi və ya ölmüş elan edilməsi ilə miras açılacağından həmin gündə vərəsələrin də vərəsəlik hüquqları meydana gəlmiş olacaqdır. Yəni onların vərəsəliyi mirasın açılması ilə meydana gəlir. Təsadüfi deyildir ki, AR MM-in 1145-ci maddəsində də təsbit olunmuşdur ki, miras fiziki şəxsin ölümü və ya məhkəmə tərəfindən ölmüş elan edilməsi ilə açılır.

Türkiyə Respublikasının Mülki Məcəlləsinin 599-cu maddəsində də bənzər mövqe müəyyən edilmişdir. Həmin maddəyə görə, vərəsələr miras qoyanın ölümü ilə miras əmlakı bir bütün (tam) olaraq qanuna əsasən əldə edirlər. Qanunda nəzərdə tutulmuş istisna hallar nəzərə alınmaqla, vərəsələr miras qoyanın əşya hüquqlarını, tələblərini, digər əmlak hüquqlarını, daşınar və daşınmaz əşyalar üzərindəki sahibliklərini birbaşa olaraq qazanırlar və miras qoyanın öhdəliklərinə görə şəxsən məsuliyyət daşıyırlar (Türk Medeni Kanunu, 2001). Buradan biz Azərbaycan Respublikasının mülki qanunvericiliyi ilə oxşar olan iki prinsipin Türkiyə qanunvericiliyində də qəbul edildiyinin şahidi oluruq: 1) miras əmlakın avtomatik olaraq qəbul edilməsi (mirasın öz-özünə keçməsi); 2) universal hüquq varisliyi.

Fiziki şəxsin ölməsi ilə hər hansı əlavə şərt və ya əməliyyata ehtiyac duyulmadan ölmüş şəxsin əmlakının vərəsələrə keçməsi nəzəri ədəbiyyatlarda mirasın keçməsi prinsipi deyilir və bu prinsipə görə miras qoyanın əmlakı ailəsinə və ya idarə ifadəsinə uyğun ola-

raq seçəcəyi şəxslərə keçir (Önder, 2024). Bu prinsipin məqsədi ilkin olaraq dövlətin ölən şəxsin əmlakına yiyələnməsinin və əmlakın hüquqi müqəddəratının qeyri-müəyyən olmasının qarşısını almaqdan ibarətdir.

Belə ki, miras əmlakın avtomatik olaraq qəbul edilməsi (mirasın öz-özünə keçməsi) prinsipi vərəsəyə bir tərəfdən miras əmlakı hər hansı bir iradə ifadə etməsinə və ya hər hansı orqana müraciət etməsinə ehtiyac olmadan əldə etməsi imkanını verir, digər tərəfdən də, miras əmlakın bir an belə olsun sahibsiz qalmasının qarşısını almağa xidmət edir. Başqa sözlə, miras qoyanın ölümü ilə miras əmlaka daxil olan bütün hüquq və öhdəliklər *ipso iure* (avtomatik olaraq, öz-özünə) və *ipso morte* (ölüm anında) vərəsələrə keçir (Karataş, 2015).

Vərəsəlik hüququnda miras əmlakın avtomatik keçməsi prinsipi German hüququna aid bir prinsipdir. Roma hüququ və Anqlo-sakson hüquq sistemində miras əmlakın əldə edilməsi vərəsənin mirasın qəbuluna yönəlmiş bir iradə ifadəsinə tabe tutulmuşdur. Roma hüququnda bu prinsip "gözləyən miras (*hereditas iacens*)" olaraq adlandırılırdı. Miras əmlakın birbaşa olaraq vərəsələr tərəfindən əldə edilməyib, müvafiq iradə ifadəsinə tabe tutulduğu bu sistem hazırda da bir sıra ölkələrdə öz mövcudluğunu qorumaqdadır (Karataş, 2015). Bununla belə, Türkiyə, Almaniya, İsveçrə kimi ölkələrin miras qanunvericilikləri mirasın ölüm anında vərəsəyə qanundan ötrü birbaşa keçməsi prinsipi üzərində dayanır (Yusifov, 2023).

Azərbaycan hüququnda da hazırda mirasın keçməsi prinsipi qəbul edilmişdir. Ölən şəxsin bütün əmlakının birbaşa dövlətə və ya inzibati hüququn hüquqi şəxslərinə keçməsini nəzərdə tutan bir tənzimləmə aparılması bu baxımdan AR Konstitusiyasının 29-cu maddəsinin VII hissəsi ilə uyğunsuzluq təşkil edəcəkdir. Konstitusiya hər kəsin mülkiyyət hüququna malik olduğunu müəyyən etmiş, onun ilkin istiqamətlərini müəyyən etmiş, həmin hüququn daha geniş çərçivədə tənzimlənməsi səlahiyyətini qanunverici orqana vermişdir. Lakin qanunverici orqan da mülkiyyət hüququnun çərçivələrini təyin edərkən Konstitusiyaya uyğun davranmaq məcburiyyətindədir. AR Konstitusiyasının 13-cü və 29-cu maddələrində xüsusi mülkiyyətin müdafiə olunması qəbul edildiyindən xüsusi mülkiyyətin əsasına zərbə vuracaq tənzimləmələrin aparılması mümkün deyil.

Mirasın keçməsi prinsipi fərdlərin xüsusi mülkiyyət əldə edə bilmə imkanının davamıdır. Bu baxımdan da mirasın keçməsi prinsipinin konstitusional əsası AR Konstitusiyasının 29-cu maddəsində təsbit olunmuş mülkiyyət hüququdur. AR Konstitusiyasının 29-cu maddəsində hər kəsin mülkiyyət hüququna malik olduğu ifadə edilmiş, xüsusi mülkiyyətin müdafiəsinə daha çox diqqət ayrılmışdır.

AR KMP baxılan məsələ üzrə mövqeyini formalaşdıraraq 26 dekabr 2023-cü il tarixli qərarında qeyd etmişdir ki, vərəsəlik hüququnun xüsusi müddətlə məhdudlaşdırılması hüquqi müəyyənlik və mütənasiblik prinsipləri ilə uzlaşmır. Belə bir tənzimləmə mülkiyyət və vərəsəlik hüquqlarının pozulması kimi qiymətləndirildiyindən, AR MM-in 1246-cı maddəsinin AR Konstitusiyasının 29-cu maddəsinin VII hissəsinə və 71-ci maddəsinin II hissəsinə uyğun olmadığı nəticəsinə gəlinmişdir (AR KMP, 2023).

Oxşar hüquqi yanaşma Türkiyə Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən də 17 mart 2011-ci il tarixli qərarda ifadə olunmuşdur. Həmin qərarda göstərilmişdir ki, mülkiyyət hüququ ilə bağlı sənəddə adı qeyd edilən daşınmaz əmlakın sahibi vəfat etdikdə, bu əmlak üzərində hüquq birbaşa onun vərəsələrinə keçir. Vərəsələr bu hüququ miras qoyanın ölüm anından etibarən əldə edir və onun dövlət qeydiyyatına alınmasına lüzum yoxdur. Bununla yanaşı, vurğulanır ki, mülkiyyət hüququnun əsas xüsu-

siyyətlərindən biri onun müddətlə məhdudlaşmamasıdır. Bu baxımdan, vərəsələrin daşınmaz üzərində davam edən mülkiyyət hüququ həm həmin əmlakdan faktiki istifadə etmək, həm də istifadə etməmək hüququnu özündə birləşdirir (Türkiye Cumhuriyeti Anayasa Mahkemesi, 2011).

Bununla belə, fiziki şəxsin ölməsi ilə eyni anda onun miras əmlakı da vərəsələrə keçsə də, yuxarıda da qeyd olunduğu kimi, bu cür keçmə universal hüquq varisliyi üzrə baş tutduğundan, ölmüş şəxsin hüquqları ilə yanaşı, öhdəlikləri də vərəsələrə keçir. Bu baxımdan vərəsələrin ölmüş şəxsin miras əmlakını qəbul etməkdən imtinası üçün də şərait yaradılması zəruridir ki, vərəsəlik hüquq münasibətlərinə daxil olması vərəsəni gözlənilməz hüquqi yüklülüklərin borclusuna çevirməsin. Qeyd edilən məsuliyyətin vərəsələr üçün meydana gətirəcəyi çətinliklərin, həmçinin şəxslərin iradələrindən kənar şəkildə vərəsə olmasının qarşısını almaq məqsədilə qanunverici tərəfindən mirasdan imtina hüququ nəzərdə tutulmuşdur.

Bu baxımdan qeyd edə bilərik ki, miras qoyan fiziki şəxsin ölməsi ilə yaranan vərəsəlik hüquq münasibətləri həmin şəxsin vərəsəsinin mirasdan imtina etməsi anınadək davam edir. Mirasın açılması ilə vərəsə statusu əldə etmiş şəxs isə bu statusdan imtina etmək qərarına gələrsə, bununla bağlı iradə ifadəsini AR MM-in 1256-cı maddəsinə müvafiq olaraq, vərəsəliyə çağırıldığını bildiyi və ya bilməli olduğu gündən üç ay ərzində ifadə etməlidir. AR KMP da bununla bağlı vurğulamışdır ki, mirasdan imtina şəxsin olduqca mühüm konstitusiya hüququndan imtina etməsilə əlaqədar iradə ifadəsi olduğundan, qanunverici bu iradə ifadəsinin məhz xüsusi formada, notariat ofisində rəsmiləşdirilməli olmasını imperativ qaydada müəyyən etmişdir (AR KMP, 2023). O.G.Antalya da bununla bağlı haqlı olaraq bildirmişdir ki, vərəsələrin vərəsə statusunu miras qoyanın ölməsi ilə birlikdə avtomatik olaraq və hər hansı ayrıca hüquqi əməliyyata ehtiyac olmadan əldə etmələri müvəqqəti qəbuldur. Vərəsələrin vərəsəlik statusunu əldə etmələri mirasdan imtina etməmələri ləğvedici şərti ilə əlaqələndirilmişdir (Antalya, 2019). Başqa sözlə, buradakı vərəsəlik hüququna xitam verən ləğvedici şərt vərəsələrin miras əmlakdan imtina etdiklərini bəyan etmələridir. Bununla da miras əmlak heç bir an sahibsiz qalmır və miras əmlaka daxil olan dəyərlər hüquqi mövcudiyyətlərini davamlı olaraq qoruyub saxlayır (Gürbüz, 2023).

İmtina müddəti ərzində mirası qəbul etmələri və ya bu müddət ərzində vərəsələrin mirasdan imtina etməsi ilə bağlı bəyanla çıxış etməməsi halında müvəqqəti vərəsəlik halı sona çatmaqla, miras vərəsələr tərəfindən qəti olaraq əldə edilir. Bu baxımdan vərəsələrin mirasdan imtinaya yönəlmiş iradə ifadələri xitam verən xarakterdə olan formalaşdırıcı bir bəyan kimi çıxış edir.

Bildiyimiz kimi, formalaşdırıcı haqlara kəsici müddətlər tətbiq edildiyindən mirasdan imtina üçün MM-in 1256-cı maddəsində də nəzərdə tutulmuş 3 aylıq müddət kəsici müddət olaraq qiymətləndirilməlidir. Bu isə o deməkdir ki, vərəsə mirasdan müəyyən edilmiş müddət ərzində imtina etməzsə, mirasdan imtina üçün nəzərdə tutulmuş müddət keçdikdən sonra imtina hüququ aradan qalxan vərəsə qəti vərəsə hesab ediləcək və onun miras əmlaka dair hüquq sahibliyi qətilik qazanacaqdır (Akbay, 2022).

Bu baxımdan təqdirəlayiq haldır ki, AR KMP da əvvəllər formalaşmış yanlış məhkəmə təcrübəsini kökündən dəyişərək 26 dekabr 2023-cü il tarixli Qərarında qeyd etmişdir ki, qanunla müəyyən edilən müddətdə mirasdan imtina etməyən vərəsə mirası qəbul etmiş vərəsə hesab edilməlidir və vərəsələr arasında miras əmlakın bölüşdürülməsi AR MM-nin 1301-ci maddəsinə uyğun şəkildə həyata keçirilməlidir (AR KMP, 2023). Bu

mövqe praktikada mövcud olan bir çox qeyri-müəyyənlikləri aradan qaldırmış, artıq kreditorların tələblərini irəli sürmələri üçün ölmüş şəxsdən miras qalmış əmlakı hər hansı bir vərəsənin qəbul etməsini gözləmələrinə ehtiyac qalmamasına şərait yaratmışdır.

Mirasdan imtina üçün nəzərdə tutulmuş müddət həm kreditorlar, həm də vərəsələr baxımından mühüm hüquqi əhəmiyyət daşıyır. Belə ki, bu müddət kreditorlara mirasdan imtina edilib-edilmədiyini, əgər imtina baş veribsə, borclu vərəsələrin konkret kimlərdən ibarət olduğunu müəyyənləşdirməyə və müvafiq qaydada iddia hüquqlarını həyata keçirməyə imkan verir. Eyni zamanda, borclu vərəsələr üçün də bu müddət xüsusi əhəmiyyət kəsb edir. Çünki onun vasitəsilə miras paylarının dəqiq bölgüsü aparılır, kreditorlar qarşısında məsuliyyətin həcmi aydınlaşır və şəxslərin uzun müddət davam edən məhkəmə mübahisələri riski altında qalmasının qarşısı alınır. Bu səbəbdən, mirasdan imtina institutu ümumilikdə mülki dövriyyənin iştirakçılarının hüquqlarının qorunmasına xidmət edir və həm AR Konstitusiyasının, həm də mülki qanunvericiliyin əsas prinsipləri ilə daha uyğun hesab olunur. (AR KMP, 2023).

Qeyd olunan mövqelərin AR KMP-nin qərarlarında ardıcıl şəkildə gözlənilməsi özünü bizim də rəyçi kimi çıxış etdiyimiz 19 iyun 2025-ci il tarixli Qərarda da göstərmişdir. Həmin Qərarda yuxarıda göstərilən yanaşma müdafiə olunaraq vurğulanmışdır ki, borclunun ölümü halında AR MM-in 427-ci maddəsi ilə müəyyənləşdirilmiş icra müddəti ərzində öhdəlik icra edilməzsə, AR MM-in 377.2 və 377.3-cü maddələri ilə nəzərdə tutulmuş müddətdən etibarən kreditorun hüquq varisliyi prinsipinə əsasən borclunun vərəsələrinə qarşı iddia qaldırmaq hüququ yaranmış olur. Müqavilələrdən yaranan öhdəliklər üzrə iddia müddətlərinin mirasdan imtina üçün qanunvericiliklə müəyyənləşdirilmiş 3 aylıq (məhkəmə qaydasında uzadıldıqda isə ən çoxu 5 aylıq) müddətlərə münasibətdə uzun olması nəzərə alınarsa, kreditor borcluya, onun ölümü halında isə mirasdan imtina etməmiş vərəsələrinə qarşı iddia qaldırmaq üçün kifayət qədər zamana malik olur (AR KMP, 2025).

Bu mövqedən çıxış edən AR KMP müqavilələrdən yaranan öhdəliklər üzrə borclunun ölümü ilə öhdəlikdə tərəfin dəyişməsinin iddia müddətinin axımının dayandırılmasına və ya kəsilməsinə səbəb olmadığına dair nəticəyə gəlmiş, bununla da fiziki şəxsin ölməsi halında onun kreditorlarının qeyri-müəyyən vəziyyətlə qarşı-qarşıya qalmasının önünə keçmiş, iddia müddətinin ötürülməsinə səbəb olmayacaq şəkildə daha qısa zaman kəsiyini nəzərdə tutan mirasdan imtina müddəti çərçivəsində imtina ilə bağlı iradə ifadəsi ilə çıxış etməmiş vərəsələrin kreditor qarşısında məsuliyyət daşıyacağını müəyyən etmişdir. Buradan belə nəticəyə gəlmək mümkündür ki, AR Konstitusiyasının 29-cu maddəsinin VII hissəsində nəzərdə tutulmuş vərəsəlik hüququna dövlət təminatı yalnız vərəsələrin hüquqi mənafelərini qorumağa xidmət etməklə kifayətlənməyib, həm də ölmüş şəxsin kreditorlarının tələblərinin təmin edilməsi baxımından müvafiq hüquqi mexanizmlər müəyyən edir.

Qeyd olunanları ümumiləşdirərək bu nəticəyə gəlmək mümkündür ki, Azərbaycan Respublikasında vərəsəlik hüquq münasibətlərinin konstitusion-hüquqi əsaslarını AR Konstitusiyasının 13-cü və 29-cu maddələri, xüsusilə də 29-cu maddənin VII hissəsi təşkil edir və mülki qanunvericilikdə nəzərdə tutulmuş obyektiv mənada vərəsəlik hüququnu formalaşdıran müvafiq hüquq normaları məhz həmin konstitusion-hüquqi əsasdan irəli gələrək təsbit olunur. AR MM-in müxtəlif normalarının sözügedən konstitusion-hüquqi əsaslara uyğun şəkildə tətbiq olunması və şərh edilməsində isə AR KMP-nin xüsusi rolu mövcuddur.

## Ədəbiyyat

1. Azərbaycan Respublikası. (1995). Azərbaycan Respublikasının Konstitusiyası. https://e-qanun.az/framework/897
2. Azərbaycan Respublikası. (2000). Azərbaycan Respublikasının Mülki Məcəlləsi. https://e-qanun.az/framework/46944
3. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumu. (2022). "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1246, 1248 və 1268.2-ci maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair" qərar. https://constcourt.gov.az/az/decision/1319
4. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumu. (2023). "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1246 və 1273-1-ci maddələrinin Azərbaycan Respublikası Konstitusiyasının 29-cu maddəsinin VII hissəsinə uyğunluğunun yoxlanılmasına dair" qərar. https://constcourt.gov.az/az/decision/1407
5. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumu. (2014). "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1194-cü maddəsinin şərh edilməsinə dair" qərar. https://constcourt.gov.az/az/decision/283
6. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumu. (2021). "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1193 və 1200-cü maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair" qərar. https://constcourt.gov.az/az/decision/1200
7. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumu. (2011). "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1193-cü maddəsinin Azərbaycan Respublikası Konstitusiyasının 13-cü maddəsinin I və II hissələrinə, 29-cu maddəsinin I, II və III hissələrinə uyğunluğunun yoxlanılmasına dair" qərar. https://constcourt.gov.az/az/decision/219
8. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumu. (2025). "Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsi baxımından müqavilə öhdəlikləri üzrə iddia müddətinin axımının başlanması anına münasibətdə Azərbaycan Respublikası Mülki Məcəlləsinin 377-ci maddəsinin şərh edilməsinə dair" qərar. https://www.constcourt.gov.az/az/decision/1471
9. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumu. (2024). "Azərbaycan Respublikası Konstitusiyasının 17-ci maddəsinin I hissəsi, 29-cu maddəsinin I və VII hissələri baxımından Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1193 və 1194-cü maddələrinin həmin Məcəllənin 372, 373, 1166, 1202.2 və 1255-ci maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair" qərar. https://constcourt.gov.az/az/decision/1433
10. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumu. (2017). "V. Quliyevin şikayəti üzrə Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının 7 mart 2017-ci il tarixli qərarının Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair" qərar. https://www.constcourt.gov.az/az/decision/375
11. Süleymanlı, S. (2019). Mülki hüququn əsasları. *AMADE Group Yayınları*
12. Yusifov, Ş.M. (2023). Mirasın qəbulu və onun əsas xüsusiyyətləri. *Bakı Universitetinin Xəbərləri. Sosial-siyasi elmlər seriyası*, (2), 102–111
13. Akbay, B.C. (2022). Mirasın iradi reddi (Mirasın gerçek reddi). *Yıldırım Beyazıt Hukuk Dergisi*, (2), 873–926
14. Antalya, O.G. (2019). Miras hukuku. *Seçkin Yayıncılık*
15. Gürbüz, E.C. (2023). Dijital varlıkların miras yoluyla intikali. *Marmara Üniversitesi Hukuk Fakültesi Hukuk Araştırmaları Dergisi*, 29(1), 840–875

16. Karataş, A.E.U. (2015). Türk miras hukukunda mirasın kazanılmasında halefiyet türleri ve Türk milletlerarası özel hukukundaki yansımaları. *İstanbul Üniversitesi Hukuk Fakültesi Mecmuası*, 73(2), 357–390
17. Önder, E. (2024). Anayasa Mahkemesi kararları ışığında miras hakkı. *Legal Yayıncılık.*
18. Serozan, R. (2015). Miras hukukunun gelişim süreci: Sosyo-ekonomik planda ve hukuk politikasında yaşanan dəyişikliklər və bu dəyişikliklərin miras hüququnun inkişafı üzərində təsirləri. *İstanbul Üniversitesi Hukuk Fakültesi Mecmuası*, 73(1), 531–560
19. Halliday, D. (2018). The inheritance of wealth: Justice, equality, and the right to bequeath. *Oxford University Press*
20. Türkiye Cumhuriyeti Anayasa Mahkemesi. (2011). Karar No: 2011-52. https://normkararlarbilgibankasi.anayasa.gov.tr/Dosyalar/Kararlar/KararPDF/2011-52-nrm.pdf
21. Council of Europe. (n.d.). Compass: Manual for human rights education with young people. https://www.coe.int/az/web/compass/148
22. Federal Republic of Germany. (n.d.). Basic Law for the Federal Republic of Germany. https://www.gesetze-im-internet.de/englisch_gg/englisch_gg.html
23. Türkiye Cumhuriyeti. (2001). Türk Medeni Kanunu (No. 4721). https://www.mevzuat.gov.tr/mevzuat?MevzuatNo=4721&MevzuatTur=1&MevzuatTertip=5

## CONSTITUTIONAL AND LEGAL FOUNDATIONS OF INHERITANCE LAW IN THE REPUBLIC OF AZERBAIJAN

**Sh.M.Yusifov**

### SUMMARY

This article deals with the constitutional and legal foundations of inheritance law in the Republic of Azerbaijan. Based on Part VII of Article 29 of the Constitution of the Republic of Azerbaijan, the author determines which guarantees of the right of inheritance are provided by the state. Also, the author extensively examines the legal positions formulated by the Plenum of the Constitutional Court of the Republic of Azerbaijan regarding the inheritance law and states the views expressed in doctrinal sources concerning contentious issues.

## КОНСТИТУЦИОННО-ПРАВОВЫЕ ОСНОВЫ НАСЛЕДСТВЕННОГО ПРАВА В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ

**Ш.М.Юсифов**

### РЕЗЮМЕ

В статье исследованы конституционно-правовые основы наследственного права в Азербайджанской Республике. Автор, исходя из части VII статьи 29 Консти-

туции Азербайджанской Республики, определяет, какие гарантии наследственного права предусмотрены государством. Также подробно рассмотрены правовые позиции, сформулированные Пленумом Конституционного Суда Азербайджанской Республики в связи с наследственным правом и приведены мнения, содержащиеся в доктринальных источниках по спорным вопросам.

*Məqalə redaksiyaya 31 mart 2026 tarixində daxil olmuş, 1 aprel 2026 tarixində isə çapa qəbul olunmuşdur.*

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2026 - № 66

UOT № 94
https://doi.org/10.65806/1682-9123.2026.66.18

# SƏLCUQLAR DÖVRÜNDƏ AZƏRBAYCANIN SOSİAL-MƏDƏNİ HƏYATI: TÜRKİYƏ TARİXŞÜNASLIĞINDA KONSEPTUAL YANAŞMALAR

**Z.N.Baydarov**
AMEA Tarix və Etnologiya İnstitutu
Bakı, H.Cavid prospekti 115
e-mail: zeynaddin.b@gmail.com

***Açar sözlər:*** Səlcuqlar dövrü, şəhər mədəniyyəti, türk-islam sintezi, orta əsr şəhərləri
***Keywords:*** Seljuk period, urban culture, Turkic-Islamic synthesis, medieval cities
***Ключевые слова:*** эпоха сельджуков, городская культура, тюркско-исламский синтез, средневековые города

## Giriş

XI–XII əsrlər Azərbaycan tarixində mühüm siyasi, sosial və mədəni dəyişikliklərin baş verdiyi dövrlərdən biri kimi səciyyələnir. Bu dövrdə Yaxın və Orta Şərqdə siyasi proseslərin gedişi ilə əlaqədar olaraq Səlcuqlar dövlətinin meydana çıxması və regionda siyasi hakimiyyətinin möhkəmlənməsi Azərbaycan ərazisinin geniş türk-islam dünyasının mühüm siyasi və mədəni məkanlarından birinə çevrilməsinə səbəb olmuşdur. Səlcuqların hakimiyyəti dövründə regionda müəyyən siyasi sabitliyin təmin olunması və dövlət idarəçiliyinin mərkəzləşməsi iqtisadi, sosial və mədəni həyatın inkişafı üçün əlverişli şərait yaratmışdır (Kafesoğlu, 2011). Səlcuqlar dövründə Azərbaycanın sosial-mədəni həyatı yalnız siyasi hakimiyyətin dəyişməsi ilə məhdudlaşmırdı. Bu dövrdə şəhərlərin inkişafı, ticarət yollarının genişlənməsi, sənətkarlığın və iqtisadi fəaliyyətin artması, eləcə də elmi və dini təhsil mühitinin formalaşması regionun sosial strukturunda mühüm dəyişikliklərə səbəb olmuşdur. Xüsusilə Təbriz, Gəncə, Naxçıvan və digər şəhərlərin inkişafı Azərbaycanın iqtisadi və mədəni həyatında mühüm rol oynamışdır. Bu şəhərlər yalnız ticarət və sənətkarlıq mərkəzləri deyil, həm də elmi və mədəni fəaliyyətin inkişaf etdiyi mühüm mərkəzlər kimi çıxış etmişdir (Köymen, 1958).

Səlcuqlar dövründə baş verən sosial və mədəni proseslərin öyrənilməsi Azərbaycan tarixşünaslığında mühüm istiqamətlərdən biri hesab olunur. Bununla yanaşı, bu dövrün müxtəlif aspektləri Türkiyə tarixşünaslığında da geniş şəkildə araşdırılmışdır. Türk tarixçiləri Səlcuqlar dövlətinin siyasi və inzibati strukturu ilə yanaşı, onun sosial və mədəni inkişaf proseslərinə göstərdiyi təsiri də geniş şəkildə tədqiq etmişlər. Onların əsərlərində Səlcuqlar dövrü türk-islam sivilizasiyasının inkişaf mərhələlərindən biri kimi qiymətləndirilir və bu dövrdə regionun sosial və mədəni həyatında baş verən dəyişikliklər xüsusi diqqət mərkəzində saxlanılır.

Türkiyə tarixşünaslığında Səlcuqlar dövrünün sosial-mədəni həyatı müxtəlif nəzəri yanaşmalar çərçivəsində izah olunur. Bu yanaşmalar arasında xüsusilə türk-islam sintezi konsepsiyası mühüm yer tutur. Həmin konsepsiyaya görə, Səlcuqlar dövründə türk siyasi ənənələri ilə islam mədəniyyətinin qarşılıqlı təsiri nəticəsində yeni sosial və mədəni mühit formalaşmışdır. Bu mühitdə həm türk etnik elementlərinin möhkəmlənməsi, həm də islam

dini institutlarının inkişafı paralel şəkildə baş vermişdir (Solmaz, 1999). Eyni zamanda Türkiyə tarixşünaslığında Səlcuqlar dövründə şəhər mədəniyyətinin inkişafı, elmi və dini təhsil mühitinin formalaşması, həmçinin etnik və sosial proseslərin regionun sosial strukturuna təsiri kimi məsələlər geniş şəkildə araşdırılır. Türk tarixçilərinin əsərlərində bu dövr yalnız siyasi tarix çərçivəsində deyil, həm də geniş sosial və mədəni transformasiya mərhələsi kimi qiymətləndirilir. Beləliklə, Səlcuqlar dövründə Azərbaycanın sosial-mədəni həyatının Türkiyə tarixşünaslığında necə qiymətləndirildiyini araşdırmaq orta əsr Azərbaycan tarixinin öyrənilməsi baxımından mühüm elmi əhəmiyyət kəsb edir. Bu baxımdan məqalənin əsas məqsədi Türkiyə tarixşünaslığında Səlcuqlar dövründə Azərbaycanın sosial-mədəni həyatına dair mövcud elmi yanaşmaları təhlil etmək və bu yanaşmaların əsas xüsusiyyətlərini müəyyənləşdirməkdir.

## Səlcuqlar dövründə Azərbaycanın sosial-mədəni inkişafı: Türkiyə tarixşünaslığında elmi yanaşmalar və qiymətləndirmələr

Səlcuqlar dövrü Azərbaycan tarixində yalnız siyasi dəyişikliklərlə deyil, həm də sosial və mədəni həyatın inkişafı ilə səciyyələnən mühüm mərhələ hesab olunur. XI–XII əsrlərdə regionda baş verən siyasi proseslər Azərbaycanın iqtisadi və mədəni həyatına da mühüm təsir göstərmiş, şəhər həyatının inkişafına, ticarət əlaqələrinin genişlənməsinə və elmi mühitin formalaşmasına əlverişli şərait yaratmışdır. Türkiyə tarixşünaslığında bu dövrün sosial-mədəni inkişafı müxtəlif elmi yanaşmalar çərçivəsində araşdırılır və Səlcuqlar dövrü türk-islam sivilizasiyasının formalaşması və inkişafında mühüm mərhələ kimi qiymətləndirilir. Türkiyə tarixçilərinin əsərlərində Səlcuqlar dövründə Azərbaycanın sosial-mədəni həyatının inkişafı ilk növbədə şəhər mədəniyyətinin genişlənməsi ilə əlaqələndirilir (Sümer, 1999). XI–XII əsrlərdə Təbriz, Gəncə, Naxçıvan, Bərdə və digər şəhərlər regionun iqtisadi və mədəni həyatında mühüm rol oynayan mərkəzlərə çevrilmişdir. Bu şəhərlərdə ticarət və sənətkarlığın inkişafı ilə yanaşı, elmi və mədəni fəaliyyət də canlanmışdır. Türk tarixçilərinin fikrincə, şəhərlərin inkişafı regionun sosial strukturunda mühüm dəyişikliklərə səbəb olmuş və yeni iqtisadi münasibətlərin formalaşmasına şərait yaratmışdır (Sevim & Merçil, 1995). Şəhərlərin inkişafı yalnız iqtisadi həyatın genişlənməsi ilə məhdudlaşmırdı; eyni zamanda bu şəhərlər müxtəlif mədəni və intellektual fəaliyyətlərin mərkəzləri kimi də fəaliyyət göstərirdi.

Türkiyə tarixşünaslığında Səlcuqlar dövründə şəhərlərin inkişafı məsələsi həm də urbanizasiya proseslərinin genişlənməsi kontekstində araşdırılır. Türk tarixçiləri qeyd edirlər ki, Səlcuqlar dövründə şəhərlərin inkişafı ticarət yollarının genişlənməsi və regionlararası iqtisadi əlaqələrin güclənməsi ilə sıx bağlı idi. Bu dövrdə Azərbaycan ərazisi Şərq ilə Qərbi birləşdirən mühüm ticarət yolları üzərində yerləşdiyindən şəhərlərin iqtisadi və sosial əhəmiyyəti daha da artmışdır. Bu baxımdan Səlcuqlar dövründə Azərbaycanın şəhərləri yalnız regional iqtisadi mərkəzlər deyil, həm də beynəlxalq ticarət əlaqələrinin inkişafında mühüm rol oynayan mərkəzlər kimi çıxış etmişdir (Гусейн-Заде, 2010).

Türkiyə tarixşünaslığında Səlcuqlar dövrünün sosial-mədəni inkişafını izah edən əsas nəzəri yanaşmalardan biri türk-islam sintezi konsepsiyasıdır. Bu yanaşmaya görə, Səlcuqlar dövründə türk siyasi ənənələri ilə islam mədəniyyəti arasında qarşılıqlı təsir nəticəsində yeni sosial və mədəni mühit formalaşmışdır. Türk tarixçiləri qeyd edirlər ki, Səlcuqlar dövlətinin siyasi hakimiyyəti türk etnik elementlərinin regionda möhkəmlənmə-sinə şərait yaratmış, eyni zamanda islam dini institutlarının fəaliyyətinin genişlənməsi so-

sial həyatın təşkilində mühüm rol oynamışdır (Soofizadeh, 2023). Bu baxımdan Səlcuqlar dövrü türk və islam mədəni ənənələrinin qarşılıqlı təsiri nəticəsində yeni mədəni mühitin formalaşdığı bir mərhələ kimi qiymətləndirilir. Türkiyə tarixçiləri Səlcuqlar dövründə elmi və təhsil mühitinin inkişafına da xüsusi diqqət yetirirlər. Bu dövrdə mədrəsələrin fəaliyyətinin genişlənməsi və dini-elmi təhsilin inkişafı regionun intellektual həyatına mühüm təsir göstərmişdir. Mədrəsələr yalnız dini təhsil ocaqları deyil, eyni zamanda müxtəlif elmi sahələr üzrə biliklərin öyrənildiyi mərkəzlər kimi fəaliyyət göstərmişdir. Bu baxımdan türk tarixçiləri Səlcuqlar dövründə elmi fəaliyyətin canlanmasını regionun sosial və mədəni inkişafının mühüm göstəricilərindən biri kimi qiymətləndirirlər (Güneş, 2009).

Eyni zamanda Səlcuqlar dövründə ədəbiyyat və mədəniyyət sahəsində də müəyyən inkişaf müşahidə olunmuşdur. Bu dövrdə ərəb və fars dilləri ilə yanaşı türk dilinin də mədəni və ictimai həyatdakı rolu tədricən artmağa başlamışdır. Türk tarixçiləri qeyd edirlər ki, Səlcuqlar dövründə formalaşan mədəni mühit müxtəlif etnik və mədəni elementlərin qarşılıqlı təsiri nəticəsində inkişaf etmişdir. Bu baxımdan həmin dövrün mədəni həyatını yalnız bir etnik və ya dini elementin təsiri ilə izah etmək mümkün deyil (Aksoy, 2024). Türkiyə tarixşünaslığında Səlcuqlar dövründə etnik proseslər və türkləşmə məsələləri də geniş şəkildə araşdırılır. Bir çox tədqiqatçılar bu dövrdə türk tayfalarının regiona köç etməsinin Azərbaycanın etnik strukturunda mühüm dəyişikliklərə səbəb olduğunu qeyd edirlər. Onların fikrincə, bu proses nəticəsində türk etnik elementi regionun sosial həyatında daha mühüm rol oynamağa başlamışdır. Bununla yanaşı türk tarixçiləri bu prosesin yerli mədəniyyətlə qarşılıqlı təsir şəraitində baş verdiyini də vurğulayırlar (Keleş, 2025). Müasir Türkiyə tarixşünaslığında isə Səlcuqlar dövrünün sosial-mədəni inkişafı daha geniş kontekstdə qiymətləndirilir. Müasir tədqiqatlarda bu dövr yalnız siyasi hakimiyyətin möhkəmlənməsi mərhələsi kimi deyil, həm də regionun sosial və mədəni həyatında baş verən kompleks dəyişikliklərin dövrü kimi səciyyələndirilir. Türk tarixçiləri qeyd edirlər ki, Səlcuqlar dövründə formalaşan sosial və mədəni mühit sonrakı dövrlərdə regionun inkişafına mühüm təsir göstərmişdir (Məmmədova, 2021).

Beləliklə, Türkiyə tarixşünaslığında Səlcuqlar dövründə Azərbaycanın sosial-mədəni həyatı müxtəlif elmi yanaşmalar çərçivəsində təhlil olunur. Bu yanaşmaların əksəriyyətində şəhər mədəniyyətinin inkişafı, elmi və dini təhsil mühitinin formalaşması, etnik proseslər və türk-islam mədəni əlaqələrinin güclənməsi kimi məsələlər əsas yer tutur. Bu isə göstərir ki, Səlcuqlar dövrü Azərbaycanın sosial və mədəni inkişafında mühüm mərhələ kimi qiymətləndirilir və regionun orta əsr tarixində xüsusi əhəmiyyətə malikdir.

## Nəticə

Aparılan təhlil göstərir ki, Türkiyə tarixşünaslığında Səlcuqlar dövründə Azərbaycanın sosial-mədəni həyatı müxtəlif elmi yanaşmalar çərçivəsində araşdırılmış və bu dövr regionun tarixində mühüm inkişaf mərhələsi kimi qiymətləndirilmişdir. Türk tarixçilərinin əsərlərində Səlcuqlar dövrü yalnız siyasi hadisələrin ardıcıllığı kimi deyil, həm də geniş sosial və mədəni transformasiya mərhələsi kimi təqdim olunur. Bu yanaşma həmin dövrün yalnız dövlət idarəçiliyi və siyasi proseslər baxımından deyil, eyni zamanda sosial münasibətlər, iqtisadi fəaliyyət və mədəni həyat kontekstində də mühüm əhəmiyyət kəsb etdiyini göstərir. Türkiyə tarixşünaslığında Səlcuqlar dövrünün sosial-mədəni inkişafı əsasən şəhər həyatının genişlənməsi, ticarət və sənətkarlığın inkişafı, elmi və təhsil mühiti-

nin formalaşması, eləcə də dini institutların fəaliyyətinin güclənməsi kimi amillərlə izah olunur. Bu yanaşmalara görə, XI–XII əsrlərdə Azərbaycanın bir sıra şəhərləri regionun mühüm iqtisadi və mədəni mərkəzlərinə çevrilmiş və bu şəhərlərdə formalaşan sosial mühit regionun ümumi inkişafına mühüm təsir göstərmişdir. Şəhərlərin inkişafı yalnız iqtisadi həyatın genişlənməsi ilə məhdudlaşmamış, eyni zamanda elmi və mədəni fəaliyyətin canlanmasına da səbəb olmuşdur.

Türkiyə tarixçilərinin əsərlərində xüsusi vurğulanan məsələlərdən biri də Səlcuqlar dövründə türk-islam mədəni əlaqələrinin güclənməsi və bu əlaqələrin regionun sosial-mədəni həyatına təsiridir. Türk tarixşünaslığında geniş yayılmış yanaşmalardan birinə görə, Səlcuqlar dövründə türk siyasi ənənələri ilə islam mədəniyyəti arasında qarşılıqlı təsir nəticəsində yeni sosial və mədəni mühit formalaşmışdır. Bu mühitdə həm türk etnik elementlərinin mövqeyi möhkəmlənmiş, həm də islam dini institutlarının sosial həyatın təşkilində rolu artmışdır. Bu baxımdan Səlcuqlar dövrü türk-islam sivilizasiyasının inkişafında mühüm mərhələ kimi qiymətləndirilir. Eyni zamanda Türkiyə tarixşünaslığında Səlcuqlar dövründə etnik və sosial proseslərin regionun sosial strukturuna təsiri məsələsi də xüsusi diqqət mərkəzində saxlanılır. Bir sıra türk tarixçiləri bu dövrdə türk tayfalarının regiona köç etməsinin Azərbaycanın etnik və sosial strukturunda müəyyən dəyişikliklərə səbəb olduğunu qeyd edir və bu prosesi regionun mədəni inkişafı ilə əlaqələndirirlər. Bununla yanaşı müasir tədqiqatlarda bu proseslərin yalnız etnik dəyişikliklər kimi deyil, həm də müxtəlif mədəni və sosial elementlərin qarşılıqlı təsiri nəticəsində formalaşan kompleks proseslər kimi qiymətləndirilməsi diqqəti cəlb edir. Türkiyə tarixşünaslığında Səlcuqlar dövrünün sosial-mədəni həyatının tədqiqi göstərir ki, bu dövr Azərbaycanın orta əsr tarixində mühüm transformasiya mərhələlərindən biri olmuşdur. Bu dövrdə formalaşan sosial və mədəni mühit sonrakı əsrlərdə regionun inkişafına mühüm təsir göstərmiş və Azərbaycanın türk-islam dünyasının mühüm mədəni məkanlarından biri kimi formalaşmasında mühüm rol oynamışdır.

Beləliklə, Türkiyə tarixşünaslığında aparılan tədqiqatlar göstərir ki, Səlcuqlar dövründə Azərbaycanın sosial-mədəni həyatı regionun orta əsr tarixində mühüm yer tutur və bu dövr yalnız siyasi tarix baxımından deyil, həm də sosial və mədəni inkişaf prosesləri baxımından xüsusi əhəmiyyətə malikdir. Bu baxımdan Səlcuqlar dövrünün sosial-mədəni tarixinin gələcəkdə daha geniş mənbə bazası və müqayisəli tarixşünaslıq yanaşmaları əsasında araşdırılması Azərbaycanın orta əsrlər tarixinin daha dərindən öyrənilməsinə mühüm töhfə verə bilər.

## Ədəbiyyat

1. Aksoy, H. (2024). Selçuklu yönetiminde Erdebil: Kafkasya'ya açılan kapı. *Selçuklu Araştırmaları Dergisi*, 21, s. 45–68.

2. Məmmədova A. (2021). Erken Ortaçağ'da Güney Kafkasya'nın Türk Toplumu veya Güney Kafkasya'nın Erken Ortaçağ Tarihine Yeni Bir Bakış. *XVIII Türk Tarih Kongresi Bildirileri*, 10, s. 97-116.

3. Güneş U. (2009). Türk dış politikasında Güney Kafkasya bölgesindeki güç mücadeleleri ve Büyük Kafkasya Kalkınma Girişimi. *Ufuk Üniversitesi Sosyal Bilimler Enstitüsü*, Yüksek Lisans Tezi, 202 s.

4. Kafesoğlu, İ. (2011). Prof. Osman Turan, Selçuklular Tarihi ve İslam-Türk Medeniyeti. Ankara, 1965. *Tarih Dergisi*, 15(20), s. 171-187.

5. Solmaz, S. (2025). Tuğrul Bey'den Melikşah'a Selçukluların Kafkasya ile ilişkileri. *Selçuklu Araştırmaları Dergisi* (SEMA), Özel Sayı, s. 140–154.
6. Soofizadeh, A. (2023). Büyük Selçuklular Döneminde Azerbaycan. *Selçuk Üniversitesi Selçuklu Araştırmaları Dergisi,* 18, s. 53-72.
7. Köymen, M.A. (1958). Büyük Selçuklu İmparatorluğu'nun Kuruluşu. *Ankara Üniversitesi Dil Ve Tarih-Coğrafya Fakültesi Dergisi*, 16(3-4), 1-42.
8. Sevim, A., Merçil, E. (1995). Selçuklu devletleri tarihi, siyaset, teşkilat ve kültür. Ankara: *Türk Tarih Kurumu Basımevi*, 599 s.
9. Sümer, F. (1999). Oğuzlar (Türkmenler). İstanbul: *Türk Dünyası Araştırmaları Vakfı Yayınları,* 484 s.
10. Гусейн-Заде Р.А. (2010). Кавказ и Сельджуки. Баку: *Кавказ*. 272 s.
11. Keleş, N. (2019). Büyük Selçuklular devrinde şehirlerin idaresi. *MSGSÜ Sosyal Bilimler Dergisi,* 3(20), s. 292–311.

## THE SOCIO-CULTURAL LIFE OF AZERBAIJAN DURING THE SELJUK PERIOD: CONCEPTUAL APPROACHES IN TURKISH HISTORIOGRAPHY

**Z.N.Baydarov**

### SUMMARY

This article examines the socio-cultural life of Azerbaijan during the Seljuk period through the perspective of Turkish historiography. The primary aim of the study is to identify the conceptual approaches used by Turkish historians in interpreting the social and cultural development of the region during the Seljuk era. For this purpose, the works of leading representatives of Turkish historiography are analyzed and their interpretations of the socio-cultural dynamics of Azerbaijan in the Seljuk period are systematized.

## СОЦИАЛЬНО-КУЛЬТУРНАЯ ЖИЗНЬ АЗЕРБАЙДЖАНА В ЭПОХУ СЕЛЬДЖУКОВ: КОНЦЕПТУАЛЬНЫЕ ПОДХОДЫ В ТУРЕЦКОЙ ИСТОРИОГРАФИИ

**З.Н.Байдаров**

### РЕЗЮМЕ

В статье анализируется социально-культурная жизнь Азербайджана в сельджукский период через призму турецкой историографии. Основной целью исследования является выявление концептуальных подходов, используемых турецкими историками при интерпретации социального и культурного развития региона в XI–XII веках. С этой целью анализируются труды ведущих представителей турецкой исторической науки, а также систематизируются их взгляды на социально-культурные процессы, происходившие в Азербайджане в период сельджуков.

*Məqalə redaksiyaya 3 aprel 2026 tarixində daxil olmuş, 4 aprel 2026 tarixində isə çapa qəbul olunmuşdur.*

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

**2026 - № 66**

UOT № 342.92
https://doi.org/10.65806/1682-9123.2026.66.19

# ELEKTRON HÖKUMƏTİN FORMALAŞMASI ÜZRƏ İNNOVATİV FƏALİYYƏTİN HÜQUQİ ASPEKTLƏRİ

**H.B.Hacıyev**
Bakı Dövlət Universiteti
Bakı, Akademik Zahid Xəlilov küçəsi 23
e-mail: h.hajiyev@hotmail.com

***Açar sözlər:*** elektron hökumət, informasiya cəmiyyəti, qanunvericilik, innovasiya, təhlükəsizlik
***Keywords:*** e-government, information society, legislation, innovation, safety
***Ключевые слова:*** электронное правительство, информационное общество, законодательство, инновации, безопасность

Mütərəqqi bəşəriyyət hər bir ölkədə hamı üçün layiqli iş imkanlarının reallaşdırıldığı, demokratiyanın, yaxşı idarəetmənin, qanunun aliliyinin, milli və beynəlxalq səviyyələrdə əlverişli mühitin, davamlı və inklüziv iqtisadi artımın, sosial inkişafın olduğu, ətraf mühitin qorunduğu, yoxsulluq və aclığın aradan qaldırıldığı bir dünya qurmaq arzusundadır. Təsadüfi deyil ki, BMT-yə üzv olan dövlətlərin dövlət və hökumət başçıları tərəfindən 25 sentyabr 2015-ci il tarixdə "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik" adlı qətnamə qəbul edilmişdir. Rifah və bütövlükdə planet üçün fəaliyyət planı sayılan bu sənəddə insanların daha geniş azadlıq şəraitində dünyada sülhün möhkəmləndirilməsi hədəflənmiş, yoxsulluğun bütün forma və ölçülərinin ən böyük qlobal problemlərdən biri olduğu göstərilmiş və onun aradan qaldırılması davamlı inkişafın təmin edilməsinin vacib şərtlərindən biri sayılmışdır. Qətnamədə yoxsulluq, aclıq, xəstəlik və ehtiyacdan azad bir dünya yaratmağa yönəlmiş 17 davamlı inkişaf məqsədi və 169 hədəf müəyyən edilmişdir (Transforming our world, 2015). Qeyd olunan sənəd daha dinc və inklüziv cəmiyyətlərin qurulmasını nəzərdə tutur və həmin məqsədlərə çatmaq üçün istiqamətləri, vasitələri müəyyən edir. Bu baxımdan seçilmiş məqsəd və hədəflər bir-birilə sıx bağlıdır və özündə çoxsaylı kəsişən elementləri birləşdirir.

Lakin nəzərə almaq lazımdır ki, dünyada sülh və təhlükəsizlik olmadan davamlı inkişafa nail olmaq mümkün deyil. Eyni zamanda, davamlı inkişaf olmadan sülh və təhlükəsizlik həmişə təhdid altında olur. İnsan hüquqlarının etibarlı müdafiəsinə, qanunun aliliyinə, yaxşı idarəetməyə əsaslanan, şəffaf, effektiv və hesabatlı institutlara malik cəmiyyətlərin qurulması xeyli dərəcədə vacibdir. Zorakılığ, qeyri-sabitlik, ədalətsizlik, bərabərsizlik, korrupsiya ilə yanaşı zəif idarəetmə də təhdidlər sırasında nəzərdən keçirilir. "2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik" adlı sənəddə hədəflərdən biri də sabit infrastrukturun, inklüzivliyin yaradılması və davamlı sənayeləşmənin və innovasiyanın təşviq edilməsidir. Azərbaycanda bu istiqamətdə öhdəliklərin yerinə yetirilməsi dövlət siyasətinin ayrılmaz hissəsidir. Bu çərçivədə Azərbaycan hökuməti Dayanıqlı İnkişaf üzrə Milli Koordinasiya Şurası yaratmış və müvafiq olaraq yerli və beynəlxalq təşkilatlarla ikitərəfli və çoxtərəfli əməkdaşlıq qur-

muşdur. Bundan əlavə, sosial, iqtisadi və ətraf mühit sahələrini əhatə edən dövlət proqramları, strategiyaları, fəaliyyət planları Gündəliyin məqsəd və vəzifələrinə uyğunlaşdırılmışdır.

"2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik" sənədinə əsasən ölkələrdən vaxtaşırı tələb olunan hesabatlardan biri də innovasiyaların tətbiqi və elektron hökumətin inkişaf sahəsində uyğunlaşmaqların təmin edilməsidir. BMT açıqlığı, hökumətin vətəndaşlar qarşısında hesabatlılığını artırmaq üçün dövlət resurslarından daha səmərəli istifadəsinin stimullaşdırılmasını təşviq edir və bu sahədə monitorinqin aparılması üçün açıq hökumətə ehtiyacın olduğunu xüsusi vurğulayır. Hesab edilir ki, məqsədlərə yalnız dövlət və özəl sektorlar sosial, iqtisadi və ekoloji sahələrdə hərtərəfli və balanslı yanaşma tətbiq edilməklə nail olmaq mümkündür. Bundan ötrü bütün səviyyələrdə inteqrasiya, institusional koordinasiya və əlaqəli qərar qəbul etmə, hökumətin səmərəliliyinin, şəffaflığının və hesabatlılığının artırılması üçün keyfiyyətli xidmətlərə universal çıxışın təmin edilməsi vacib sayılır. Müasir elektron və mobil xidmətlərdən istifadə edərək, elektron hökumət dövlət xidmətlərinin ən səmərəli, əlçatan və məsuliyyətli şəkildə göstərilməsini təmin etməyə, vətəndaşların qərar qəbuletmədə iştirakını artırmağa və dövlət qurumlarının şəffaflığını və hesabatlılığını artırmağa imkan verir.

Elektron hökumət (böyük verilənlərin analitikası da daxil olmaqla) siyasi inteqrasiyanın həyata keçirilməsi üçün bir vasitə kimi xidmət edir. O, hökumətlərə siyasət inteqrasiyası üçün zəruri olan bir sıra elementlər təqdim edir və mürəkkəb problemlərin daha yaxşı başa düşülməsini asanlaşdırır. Bundan əlavə, elektron hökumət təcrid olunmuş hökumətlərin inteqrasiyasını asanlaşdırır, dövlət orqanlarının təşkilati strukturunda və koordinasiyasında dəyişikliklərə səbəb olur. Elektron hökumətdə istifadə olunan avtomatlaşdırılmış sistemlər müəyyən səviyyədə standartlaşdırma, konvergensiya və qarşılıqlı fəaliyyət tələb edir ki, bu texnoloji inteqrasiya daha sonra təkmilləşdirilmiş qurumlararası inteqrasiyaya keçirilə bilər (Акаткин, 2017).

Ümumiyyətlə, bu proses xeyli dərəcədə elektron idarəetmə sisteminə innovativ texnologiyaların tətbiqindən asılıdır. Bəs innovativ texnologiyalar dedikdə, nə başa düşülür? İnnovasiya" termini latın dilində "innovato" sozundən olub, yenilənmə və yaxşılaşma deməkdir. Bu termin elmi tədqiqatlarda XIX əsrlərdə meydana gəlib. Bir iqtisadi kateqoriya kimi"innovasiya" terminini ilk dəfə elmə gətirən Avstriya alimi Jozef Şumpeter olmuşdur. O, 1911-ci ildə nəşr etdirdiyi"İqtisadi inkişaf nəzəriyyəsi" əsərində ilk dəfə"iqtisadi inkişafda yeni kombinasiyalar" məsələsinə baxmışdır. J.Şumpeter iqtisadi inkişafda innovasiya prosesini şərh etmiş və yeni kombinasiyalar dedikdə, məhz innovasiyanı nəzərdə tutmuşdur. J.Şumpeter, inkişafda aşağıdakı 5 dəyişikliyi muəyyən etmişdir:

1. İstehsalda yeni texnikadan, texnoloji proseslərdən, yaxud bazarlardan istifadə edilməsi;
2. Yeni xususiyyətli məhsulun tətbiqi;
3. Yeni xammaldan istifadə edilməsi;
4. İstehsalın təşkilinin və onun maddi-texniki təminatının dəyişməsi;
5. Bazarın yeni təchizat formasının yaranması.

İnnovasiya fəaliyyətinin nəticəsi yeni və ya təkmilləşdirilmiş məhsul (iş, xidmət), texnoloji proses, həmcinin ictimai munasibətlərin muxtəlif sahələrində təşkilati-texniki, maliyyə-iqtisadi və digər həllər hesab edilir. İstehsalatda elmi-texniki tərəqqinin nailiy-

yətləri məhz innovasiyalar formasında yayılır (Musayev, 2014).

İƏİT-də Elm və Texnologiya Göstəriciləri üzrə Milli Ekspertlərin İşçi Qrupu (NESTI) fəaliyyət göstərir. Həmin ekspertlər qrupunun İƏİT-dən əvvəl fəaliyyəti mövcud olmuşdur. Onun tarixi İƏİT Frascati Təlimatının ilk nəşrinə (1963-cü il) səbəb olan ekspertlərin ilk görüşünə (1957-ci il) qədər gedib uzanır. Frascati Təlimatı elmi-tədqiqat və inkişaf (T&İ) ilə bağlı məlumatların toplanması və şərhi ilə məşğul olmuşdur. Zaman keçdikcə NESTI "Frascati" təlimatlar ailəsini ərsəyə gətirmişdir ki, (İƏİT 2002: 16), onlardan biri də innovasiya ilə bağlı Oslo Təlimatıdır. İlk Oslo Təlimatı Nordic Sənaye İnkişafı Fondunun dəstəyi ilə hazırlanmış və 1989-cu ilin noyabrında NESTI-yə təqdim edilmişdir. Bu sənəd 1990-cı ildə nəzərdən keçirilmiş və 1991-ci ildə təsdiq olunmaq üçün Elmi və Texnoloji Siyasət Komitəsinə (CSTP) göndərilmişdir. 1992-ci ildə təsdiq olunmuş Təlimatdan (OECD 1992a) ilk dəfə Avropa Birliyinin İnnovasiya Sorğusunu (CIS) idarə etmək üçün istifadə edilmişdir. Oslo təlimatlarında innovasiyaya verilmiş bütün anlayışlar bazarla əlaqəni tələb edir (Handbook of Innovation).

Son onillikdə qlobal dövlət idarəetmə təcrübəsi sürətlə rəqəmsallaşma və innovasiya istiqamətinə yönəlmişdir. Elektron hökumət (e-Government) modeli yalnız dövlət xidmətlərinin optimallaşdırılması üçün deyil, həm də iqtisadi inkişaf və vətəndaş məmnunluğunun artırılması üçün strateji vasitə hesab olunur (United Nations, 2024). Müasir dövrdə elektron hökumət institutu dövlət idarəçiliyinin texnoloji modernləşməsi ilə yanaşı, hüquqi və iqtisadi münasibətlərin yenidən formalaşmasına səbəb olan strateji inkişaf modelinə çevrilmişdir. Bu modelin mərkəzində innovasiya dayanır. İnnovasiya elektron hökumətin yalnız texniki imkanlarını genişləndirmir, eyni zamanda, onun hüquqi legitimliyini və iqtisadi səmərəliliyini təmin edən əsas mexanizm kimi çıxış edir.

Hüquqi baxımdan innovasiyanın tətbiqi ilə bağlı bir sıra çağırışlar mövcuddur:

1) məlumatların qorunması və kiber təhlükəsizlik standartları;

2) alqoritmik qərarvermənin şəffaflığı;

3) əhatəli qanunvericilik tənzimlənməsinin təmin edilməsi.

Rəqəmsal xidmətlərin genişlənməsi, süni intellekt, avtomatlaşdırılmış qərarvermə və böyük verilənlər kimi yeni texnologiyaların tətbiqi normativ-hüquqi bazanın daim yenilənməsini və texnoloji təhlükəsizlik standartlarının inkişafını zəruri edir. Başqa sözlə, yeni texnologiyaların tətbiqi eyni zamanda müvafiq hüquqi adaptasiyanı tələb edir. İqtisadi aspektdən rəqəmsal xidmətlərə çıxışda bərabərsizlik problemləri mövcud ola bilər. Məntəqələrarası infrasturkturun fərqliliyi, vətəndaşların rəqəmsal bacarıqlarının dəyişkənliyi sosial və iqtisadi bərabərsizlik risklərini artırır. Rəqəmsal xidmətlərin genişlənməsi də sosial və iqtisadi bərabərsizlik riskini gücləndirə bilər. Başqa sözlə, rəqəmsal bacarıqların bərabər səviyyədə olmaması və regional infrastrukturlar arasındakı fərqlər innovasiya proseslərinin bərabər yayılmasına maneə törədə bilər. Belə halda qanunvericilik və iqtisadi siyasətlər müvafiq rəqəmsal strategiyalar ilə dəstəklənməlidir.

Elektron hökumətin inkişafı biznes üçün xərcləri və prosedurları azaldaraq iqtisadi mühitin rəqabət qabiliyyətini gücləndirir. Ətraflı araşdırmalar göstərir ki, onlayn lisenziyalaşdırma, qeydiyyat, vergi xidmətləri və digər prosedurlar sadələşdirildikcə iqtisadiyyat sürətli texnoloji uyğundurmalara uyğunlaşır və ölkənin innovasiya potensialını artırır. Mövcud vəziyyət elmi ictimaiyyətdən mümkün inkişaf variantlarının hərtərəfli təhlilini aparmağı və qlobal tendensiyaları nəzərə alaraq, elektron hökumətin

inkişafına hərtərəfli, sistemli yanaşmaya əsaslanan elmi cəhətdən əsaslandırılmış təkliflər hazırlamağı tələb edir. Elektron hökumətin davamlı inkişafında maraqlı olan ölkələr, heç şübhəsiz, dünya reytinqlərində liderlik iddiasını irəli sürməklə yanaşı, vətəndaşlar və bizneslə qarşılıqlı əlaqələrdə də əhəmiyyətli üstünlüklər qazanacaqlar.

Azərbaycan Respublikası Prezidentinin hələ 11 avqust 2010-cu il tarixli 1056 nomrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı uzrə 2010-2012-ci illər ucun Dovlət Proqramı"nda "Elektron Azərbaycan" informasiya cəmiyyətinin qurulması istiqamətində vahid elmi-texniki və innovasiya siyasətinin həyata kecirilməsi əsas məqsəd kimi qoyulmuşdur. Proqramda innovasiya fəaliyyəti infrastrukturunun inkişaf etdirilməsi, o cumlədən texnoparklar, texnoloji inkubatorlar şəbəkəsinin genişləndirilməsi nəzərdə tutulmuşdur. Qeyd olunanlardan əlavə dunyanın qabaqcıl olkələrinin innovasiya sahəsində təcrubəsi də muhum əhəmiyyət daşıyır.

Müasir dövrdə qlobal dövlət idarəetmə təcrübəsi sürətlə rəqəmsallaşma və innovasiya istiqamətinə yönəlmişdir. Elektron hökumət (e-Government) modeli yalnız dövlət xidmətlərinin optimallaşdırılması üçün deyil, həm də iqtisadi inkişaf və vətəndaş məmnunluğunun artırılması üçün strateji vasitə hesab olunur. Azərbaycan Respublikası bu trendlərə qoşularaq son illərdə elektron hökumət infrastrukturunu gücləndirmiş, həm hüquqi, həm də iqtisadi sahədə innovasiyaların tətbiqinə önəm vermişdir. Elektron hökumətin inkişafı kontekstində innovasiya fəaliyyəti dövlətin normativ funksiyası ilə iqtisadi resursların idarə olunması arasında qarşılıqlı əlaqəni gücləndirir. Bu baxımdan innovasiyanın elektron hökumətdə rolu məsələsi hüquqi dövlət prinsipləri və iqtisadi rasionallıq prizmasından kompleks şəkildə qiymətləndirilməlidir.

## Ədəbiyyat

1. Musayev, A.F. (2014). İnnovasiya iqtisadiyyatı və vergi stimullaşdırması. Bakı, *"Azərbaycan Universiteti" nəşriyyatı*, 2014. -184 s.
2. Акаткин, Ю.М. (2016). Современное развитие электронного правительства России в контексте мировых тенденции. *Информационное общество*, №3, с.11-23.
3. Handbook of Innovation Indicators and Measurement / https://www.e-elgar.com/shop/usd/handbook-of-innovation-indicators-and-measurement-9780857933645.html
4. Transforming our world: the 2030 Agenda for Sustainable Development / https://sdgs.un.org/2030agenda
5. United Nations. (2024). E-Government Survey 2024. *United Nations Department of Economic and Social Affairs*. https://publicadministration.un.org/egovkb/en-us/Reports/UN-E-Government-Survey-2024

## LEGAL ASPECTS OF INNOVATIVE ACTIVITIES ON THE FORMATION OF ELECTRONIC GOVERNMENT

**H.B.Hajiyev**

**SUMMARY**

This article examines innovative technologies used in e-government and analyzes the issues of their legal regulation.

## ПРАВОВЫЕ АСПЕКТЫ ИННОВАЦИОННОЙ ДЕЯТЕЛЬНОСТИ ПО ФОРМИРОВАНИЮ ЭЛЕКТРОННОГО ПРАВИТЕЛЬСТВА

**Г.Б.Гаджиев**

**РЕЗЮМЕ**

В статье рассматриваются инновационные технологии, используемые в электронном правительстве, и анализируются вопросы их правового регулирования.

*Məqalə redaksiyaya 6 aprel 2026 tarixində daxil olmuş, 7 aprel 2026 tarixində isə çapa qəbul olunmuşdur.*

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2026 - № 66

UOT № 94(479. 24)
https://doi.org/10.65806/1682-9123.2026.66.20

# İRƏVAN BÖLGƏSİNDƏ DİNİ-MEMARLIQ ABİDƏLƏRİ ETNO-KONFESSİONAL MƏSƏLƏLƏRİN TƏZAHÜRÜ KİMİ

**Ə.S.Babazadə**
Bakı Dövlət Universiteti
Bakı, Akademik Z.Xəlilov küçəsi 23
e-mail: babazade.9923@mail.ru

***Açar sözlər:*** İrəvan, memarlıq, məscid, qala, mədəniyyət
***Keywords:*** Yerevan, architecture, mosque, fortress, culture
***Ключевые слова:*** Ереван, архитектура, мечеть, крепость, культура

## Giriş

XIX əsrin əvvəllərindən etibarən Azərbaycanın bir çox bölgələrinə qonşu dövlətlər iddia irəli sürür və bu əraziləri mübahisəli olaraq səciyyələndirməyə çalışırlar. Azərbaycanın belə bölgələrindən biri də Qərbi Azərbaycan torpaqlarıdır. Bu iddiaların üzərindən xətt çəkmək üçün mənbələrdə və tarixi ədəbiyyatda kifayət qədər təkzibolunmaz məlumatlar mövcuddur və bunları elmi dövriyyəyə cəlb etməklə bölgənin tarixi mənzərəsini aydınlaşdırmaq mümkündür. İrəvan bölgəsinin tarixən mövcud olan dini-memarlıq abidələri isə bu baxımdan unikallığı ilə seçilir və Azərbaycan türklərinin mədəni irsinin əsas daşıyıcıları kimi tarixşünaslıqda silinməz izlər buraxır.

## İrəvan bölgəsinin müdafiə tikililəri

Aparılan araşdırmalardan aydın olur ki, İrəvan bölgəsində, xüsusilə də İrəvan şəhərində yüzlərlə memarlıq abidələri mövcud olmuşdur. Bu memarlıq abidələrinin bir qismi müdafiə məqsədilə hələ qədim dövrlərdə, bir qismi isə orta əsrlər dövrü və İrəvan xanlığı dövründə tikilmişdir. Bundan başqa, İrəvan xanlığı ərazisində müdafiə istehkamları da inşa edilmişdi. İbadət yerlərinin inşasında məscidlərin tikilməsi də əsas yer tuturdu.

İrəvan bölgəsində müdafiə məqsədilə tikilmiş, memarlıq kompleksi kimi tarixi mənbələrdə adları xüsusi qeyd edilən İrəvan və Sərdarabad qalalarından bu gün əsər-əlamət qalmamışdır. Şah İsmayılın göstərişi ilə 1510-1517-ci illərdə tikilən (Onullahi, 1995) İrəvan qalası aramsız müharibələr nəticəsində dəfələrlə dağılsa da, xanlıq dövründə yenidən bərpa olunmuşdur. XIX əsrin əvvəllərində İrəvan qalasının ruslar tərəfindən işğalından sonra qala kvadrat formada təxminən 7 hektar sahəni əhatə edirdi. İkicərgəli qala divarlarının uzunluğu 4.5 km idi (Qarayev, 2024).

İrəvan xanlığının ərazisində mövcud olan memarlıq abidələrindən biri də Sərdarabad qalası idi. Sərdarabad qalası 1815-1817-ci illərdə İrəvan xanı Hüseynqulu xan tərəfindən inşa edilmişdi. Fransalı mühəndislərin iştirakı ilə tikilən qala ikiqat divar, möhkəm qüllələr və darvazadan ibarət idi (Əmrahov, 2022).

İrəvan ərazisində ecazkar memarlıq nümunələrindən biri də Sərdar sarayı (Xan sarayı) idi. Xan sarayı Zəngi çayının sahilindəki uçurumun kənarında tikilmişdi (Шопен,

1852). Yeni Xan sarayı İrəvan xanı Hüseynəli xanın hakimiyyəti dövründə (1764-1783) görkəmli Azərbaycan memarı Mirzə Cəfər Xoylu tərəfindən inşa edilmişdir. Sarayın əsas hissəsi olan Güzgülü salon və Yay Köşkü 1791-ci ildə Hüseynəli xanın oğlu Məhəmməd xan tərəfindən əlavə etdirilmiş və beləliklə, abidə memarlıq baxımından monumental saray binası kimi təkmilləşmiş və tamamlanmışdır (Kərimov, 1995).

## İrəvan bölgəsində müqəddəs ocaqlar

İrəvan bölgəsində xalq tərəfindən ziyarətgaha çevrilmiş çoxlu sufi alim, şeyx, mövlana məzarları, pirlər və müqəddəs ocaqlar da var idi. Quberniyanın ərazisində 2 ziyarət dağı var idi. Bunlardan biri Göyçə gölü hövzəsində, digəri isə İrəvan yaxınlığında yerləşirdi (Шопен, 1852). İlin bütün fəsillərində əhali həmin dağlara ziyarətə gələr, nəzir-niyaz verər, qurban kəsərdi. İrəvan şəhərinin özündə içərisində qara daş olan pir var idi. Həmin pir Həzrət Abbas piri adlanırdı.

İrəvan quberniyasının ərazisindəki müqəddəs ocaqlardan biri də Dərələyəzin Ələyəz kəndindəki Əxi Təvəkkül məqbərəsi idi. 1543-cü ildə tikilmiş bu məqbərənin və onun ətrafındakı tikililərin yalnız özülləri qalmışdır (Немат, 2001).

İrəvan quberniyasının ərazisində mövcud olmuş müqəddəs ocaqlardan biri də məşhur Miskin Abdal ocağı idi. Göyçə aşıq məktəbinin banisi olan Miskin Abdal qızılbaşların rumlu soy birləşməsinə daxil olan Miskinli tayfasının ən nüfuzlu başçılarından olmuşdur (Немат, 2001).

## İrəvan bölgəsində məscidlər

İrəvan bölgəsinin memarlıq nümunələri içərisində məscidlər də xüsusi yer tutur. Bu məscidlərin bir hissəsi Çuxursəd bəylərbəyliyi dövründə, bəziləri İrəvan xanlığı dövründə, bəziləri isə İrəvan quberniyası dövründə tikilmiş və öz varlığını XX əsrin əvvəllərinə kimi qoruyub saxlamışdır. Rusiya imperiyasının İrəvan xanlığını işğal etməsi ərəfəsində təkcə İrəvan şəhərində 8 məscid mövcud olmuşdur. İ.İ.Şopenin verdiyi məlumata görə, həmin məscidlərdən 2-si qalanın içərisində, 6-sı-Zal xan, Novruzəli xan, Sərtip xan, Hüseynəli xan, Hacı İnamverdi, Hacı Cəfər bəy məscidləri isə qaladan bayırda yerləşirdi (Əmrahov, 2022). Məscidlərin içərisində ən möhtəşəmi və Azərbaycan memarlığının nadir incilərindən olan Hüseynəli xan məscidi, yaxud Göy Məscid idi. Divarları göy rəngli kaşı ilə üzləndiyi üçün bu məscid Göy məscid adlanırdı. Bundan başqa, İ.Şopen şəhərdə bərbad vəziyyətdə olan bir neçə məscidin olmasını qeyd edir. O, hər bir məscidin mədrəsəsinin olduğunu da vurğulayır (Шопен, 1852).

İrəvandakı Zal xan, yaxud Şəhər məscidi və Novruzəli məscidləri bir-birinə bənzəyirdi və Göy məsciddən kiçik idi. Digər üç məscid isə XVII-XVIII əsrlərdə inşa edilmişdi.

Rəcəb paşa məscidi 1725-ci ildə, Abbas Mirzə məscidi isə Hüseynqulu xanın dövründə, XIX əsrin əvvəllərində inşa edilmişdi (İrəvan xanlığı, 2010). İkimərtəbəli binası və çoxlu hücrələri olan Zal xan məscidi indiki İrəvan mehmanxanasının yanında yerləşirdi. İkinci dünya müharibəsindən sonra məscidin təyinatı dəyişdirilmişdir. Hazırda həmin binada Rəssamlar evinin sərgi salonu yerləşir.

1724-cü ildə İrəvan Osmanlı qoşunları tərəfindən tutulduqdan sonra türk sərkərdəsi Rəcəb paşa şəhəri abadlaşdırmaq üçün bir sıra tədbirlər həyata keçirdi. Onun göstərişi ilə 1725-ci ildə qalada yeni məscid tikildi, onun şərəfinə Rəcəb Paşa məscidi adlandırıldı. O, mükəmməl paralelepiped və sferik günbəz formasına malik olub, şərq üslubunda həndəsi

ornamentlərlə bəzədilmişdi. Rusiya İrəvanı işğal etdikdən sonra 1827-ci il oktyabrın 1-də Rəcəb Paşa məscidinin günbəzindən aypara və ulduz götürülərək, onların yerinə xaç və kilsə zəngi qoyuldu. Beləliklə, Rəcəb Paşa məscidi pravoslav kilsəsinə çevrildi. Sonradan onun xarici görünüşündə dəyişikliklər edildi: fasadına silindrik sütunlar əlavə edildi və dam örtüldü və bununla da, məscid xristian məbədi görkəmi aldı (Qarayev, 2016).

İrəvan şəhərində hər biri nadir memarlıq abidələri olan 8 hamam da var idi. İ.İ.Şopen yazır ki, bunlar Şəhər hamamı, Şeyxülislam hamamı, Mehdi bəy hamamı, Hacı bəyim hamamı, Təpəbaşı hamamı, Hacı Əli hamamı, Hacı Fətəli hamamı və Kərim bəy hamamı idi (Шопен, 1852).

1853-cü il məlumatlarına görə, İrəvan quberniyasının aşağıdakı şəhər və qəzalarında məscidlər var idi. İrəvan qəzasında (say dəqiq göstərilməyib), İrəvan şəhərində 7 məscid, Naxçıvan qəzasında 117 məscid, Naxçıvan şəhərində 3 məscid, Ordubad qəzasında 62 məscid, Ordubad şəhərində 5 məscid var idi (Əmrahov, 2022). Göründüyü kimi, 1853-cü il məlumatlarında İrəvan quberniyası üzrə məscidlərin sayı ümumi şəkildə verilir, sünni və şiə məscidləri bölgüsü göstərilmir. Digər tərəfdən, Rusiya işğalından az sonra kameral təsvir aparan İ.Şopen İrəvan şəhərində 8 məscid olduğunu göstərdiyi halda, 1853-cü il məlumatlarında bu say 7 olaraq qeyd edilmişdi. Qeyd edək ki, bu uyğunsuzluq Naxçıvan şəhəri haqqında məlumatlarda da özünü göstərir. Naxçıvan şəhər məktəbinin inspektoru K.A.Nikitinin 1881-ci il tarixli məlumatına görə, Naxçıvan şəhərində 4 məscid var idi. Bu məscidlər sadə Asiya memarlığı üslubunda inşa edilmişdi (Военно-статистическое обозрение Российской империи, 1853).

İrəvan xanlığı, o cümlədən xanlığın mərkəzi İrəvan şəhəri özünün karvansaraları, qalaları, məscidləri, binaları və digər memarlıq abidələri ilə zəngin idi.

İrəvan şəhərində yaşayış evlərindən başqa, çoxsaylı ictimai binalar da tikilmişdi. İrəvan bölgəsinin nadir incilərindən biri də günümüzədək gəlib çatan Göy məsciddir. İrəvan şəhərində Hacı Hüseynəli xan və ya Göy məscid kimi tanınan dini abidənin tikintisinə İrəvan xanı Hacı Hüseynəli xanın göstərişi ilə 1760-cı ildə başlamış, inşaat işləri 1765-ci ildə başa çatdırılmışdır. Göy məscid uzunluğu 87 metr, eni 58 metr olan dördkünc bir ərazidə yerləşib. Onun böyük minarəsi və geniş həyəti var idi (İrəvan xanlığı, 2010).

Göy məscid adı ilə məşhur olması onun kərpicinin göy rəngli kaşı ilə üzlənməsi ilə bağlıdır. İrəvan xanı Hacı Hüseynəli xan tərəfindən inşa etdirilən bu məscid həyətində fəvvarəli daş çarhovuzun və ətrafında sıx kölgəli ağacların olması ilə seçilirdi (Qarayev, 2016).

Mənbələr yazır ki, Göy məscid iki ayrı korpusdan, qış və yay korpuslarından ibarət idi. Qış korpusu kompleksin cənubunda, yay korpusu isə şimalında inşa edilmiş, onlar mədrəsə ilə əhatə olunmuşdu. Məscidin çox geniş həyətində çinar və qovaq ağacları var idi.

İrəvandakı mərkəzi örtülü bazarla üzbəüz yerləşən məscid öz kompozisiyası və əsas ibadətxanasının formasına görə 1616-cı ildə Şah Abbas dövründə Gəncədə inşa edilən Cümə məscidinə bənzəyirdi. Təkcə Göy məsciddə deyil, İrəvandakı bütün məscidlərdə ibadət etməsi üçün ayrıca qadın və kişi zalları var idi ki, onlar da bir-birindən dəhliz, ya da pərdə ilə ayrılırdı. İbadət zallarının tavanı və divarları adətən gül rəsmləri ilə bəzədilirdi. Məscidlərin divarlarından və sütunlardan kəşmir parçadan güllər düzəldilib asılırdı (İrəvan xanlığı, 2010).

İrəvan memarlıq abidələrinə həsəd aparan erməni tarixçilərinin özləri də İrəvandakı Göy məscidi vəsf etmişlər. Bu baxımdan erməni tarixçisi Tadevos Hakopyanın "İrəvanın tarixi (1500-1800)" əsərində qeyd edilən məlumatlar diqqəti cəlb edir. Müəllif əsərində Üçmüəzzin kilsəsinin yepiskopu Hovhanes Şahxatunyansa istinadən yazır: "Məscidin minarəsinin və günbəzinin bir hissəsi mavi saxsılarla üzlənmişdir. Əsas tikililər məscidin ərazisinin cənub və şimal tərəflərində idi. Yan tərəflərdə isə yardımçı tikililər və hücrələr yerləşirdi. Məscidin həyətində ətrafına sal daşlar döşənmiş və ağaclar əkilmiş bir balaca hovuz inşa edilmişdi. Məscidin üç qapısı olmuşdur. İki kiçik qapı şimal və şərq istiqamətinə, böyük giriş qapısı isə cənuba baxırdı. Məscid binası cənub səmtində yerləşirdi. Bina bir-biri ilə bağlı üç zaldan ibarət idi. Məscidin günbəzi digər iki kiçik zaldan hündür olan böyük zalın üzərində idi. Sadə görkəmli zalların yalnız həyətə baxan pəncərələri şəbəkə üslubunda işlənilmiş və rəngli şüşələrlə bəzədilmişdi. Həyətin şimal hissəsində kiçik bir ibadətxana da var idi. Məscidin minarəsi çox gözəl idi və İrəvanın tikililəri arasında ən hündürü olduğundan şəhərin hər yerindən görünürdü. Müəzzin onun başına çıxaraq hər gün müsəlmanları ibadətə çağırırdı. Məscidin cənub portalının üzərindəki kitabədə Hüseynəli xanın adı və tikilmə tarixi həkk olunmuşdu."(İrəvan xanlığı, 2010)

Şərq memarlığı üslubunda inşa edilmiş Göy məscid Avropalı səyyah və tarixçilərin diqqətini cəlb etmiş, müxtəlif vaxtlarda İrəvana səyahət edən tədqiqatçıların da gündəliyində yer almışdı. Bu baxımdan Britaniyalı səyyahın qeydləri maraq doğurur. 1893-1894-cü illərdə və 1898-ci ildə İrəvanda səfərdə olmuş məşhur Britaniya səyyahı və coğrafiyaşünası Henri Linç səfərləri haqqında 1901-ci ildə Londonda çap etdirdiyi kitabında şəhərin tatar (azərbaycanlı) məhəlləsindəki Göy caminin, Hacı Nəsrullah (bu məscidin adı digər mənbələrdə Hacı Novruzəli bəy məscidi kimi çəkilir) bəy məscidinin və Şəhər camisinin adlarını çəkir. Göy məscid haqqında ətraflı məlumat verən Linç, onun minarələrinin, həyətindəki hovuzun və fasadının foto şəkillərini kitaba daxil etmişdir (İrəvan xanlığı, 2010).

1833-cü ildə fransız geoloqu, arxeoloqu və təbiətşünası Frederik Dübua de Montpere Qafqaza və Krıma səyahət etmiş, 1839-cu ildə Parisdə özünün "Qafqaz ətrafında səyahət" əsərini nəşr etdirmişdir. Bu əsərin 3-cü cildində İrəvan qalası və Göy Moğol qalasının ətraflı təsviri verilmişdir. Onun əsas girişdən Sərdar məscidini və Göy məscidi təsvir edən rəsmləri hər iki məscidin əzəmətini və memarlıq mükəmməlliyini əyani şəkildə nümayiş etdirir. Bu rəsmlər atlasların üçüncü hissəsində dərc edilmişdir (Frederic Dubois de Montpereux, 1839).

Aparılan araşdırmalar göstərir ki, 1864-cü ildə rus qoşunları İrəvan qalasından hərbi istehkam kimi istifadəni dayandırdıqdan sonra qalanın daxilindəki tarixi-memarlıq abidələri, o cümlədən Sərdar məscidi və ya Abbas Mirzə məscidi xeyli dağıntıya məruz qaldı. XX əsrin əvvəllərində isə Türkiyədən gələn erməni qaçqınlar Sərdar məscidində yerləşdirildi. Sovet dövründə Sərdar məscidi hissə-hissə söküldü, yerində isə yaşayış binaları tikildi (Frederic Dubois de Montpereux, 1839).

## Nəticə

Beləliklə, dövrün mənbələrinin və tarixi ədəbiyyat məlumatlarının müqayisəli şəkildə araşdırılması açıq şəkildə göstərir ki, Azərbaycan İrəvan bölgəsində hələ qədim zamanlardan çoxsaylı memarlıq abidələri tikilmiş, onların bəziləri müharibələrin gedişində dağıntılara məruz qalmış, bəziləri isə öz varlığını bu günə kimi davam etdirmişdir. Bu me-

marlıq abidələri içərisində müdafiə tikililəri, dini abidələr, məscidlər, ziyarətgahlar xüsusilə seçilmişdir. Tarixçilərin, memarların bu abidələr üzərində apardığı çoxsaylı araşdırmalar, eyni zamanda bu abidələrin tikinti üslubu, xüsusilə şərq memarlıq üslubunda tikilməsi haqqında fikir və mülahizələri, memarlıq abidələrinin üzərindəki yazılar, epiqrafik məlumatlar bölgənin etno-konfessional mənzərəsini aydınlaşdırmağa kifayət qədər imkan verir. Bütün bunlar birmənalı şəkildə bu abidələrin böyük əksəriyyətinin Azərbaycan türklərinə məxsusluğunu göstərir. Bu abidələrin üzərində zorakı dəyişikliklər isə yalnız XIX əsrin əvvəllərindən diqqəti cəlb edir. Rusiya imperiyasının Cənubi Qafqaz ərazilərini ələ keçirməsindən sonra Azərbaycanın bir çox bölgələrində, o cümlədən Qərbi Azərbaycan ərazilərində məqsədli şəkildə gəlmə etnosların yerləşdirilməsi memarlıq nümunələrinin də soyqırıma məruz qalmasına gətirib çıxarmışdır. Bununla belə təkzibolunmaz faktlar Azərbaycan türk kimliyini bu abidələrin üzərindən silib atmasına imkan verməmişdir.

## Ədəbiyyat


1. Bayramlı, Z. (2006). Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə sistemi. Bakı, *ADPU*, 258 s.
2. Əmrahov, Z. (2022). İrəvan quberniyasının tarixi. 1850-1917-ci illər. Bakı: *Nurlar*, 368 s.
3. İrəvan xanlığı (2010). Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. Bakı: *Azərbaycan,* 620 s.
4. Kərimov, K. (1995). İrəvan sərdarının sarayı // *Yeni fikir qəzeti*, 18 oktyabr, №5.
5. Qarayev, E. (2024). Qərbi Azərbaycan. XIX yüzilliyin II yarısı-XX yüzilliyin əvvəllərində. Bakı, *Füyuzat*, 564 s.
6. Qarayev, E. (2016). Azərbaycanın İrəvan bölgəsinin tarixindən (XVII yüzilliyin sonu-XIX yüzilliyin ortalarında). Bakı: *Mütərcim*, 544.
7. Onullahi, S. (1995). Çuxursəd-İrəvan Səfəvilər dövründə // *Elturan jurnalı*, 1995, №1-2, s. 16-19.
8. Şabıyev, B. (2018). Azərbaycan Səfəvi dövlətinin İrəvan vilayəti. Bakı, *Avropa,* 456 s.
9. Военно-статистическое обозрение Российской империи. 1837-1854 (1853). Том 16. Кавказский край. Эриванская губерния. СПб.
10. Немат, М. (2001). Эпиграфические памятники Азербайджана, Баку.
11. Шопен, И. И. (1852). Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи. В *Типографии Императорской Академии Наук*. СПб.
12. Frederic Dubois de Montpereux (1839). Voyage autour du Caucase, chez les tcherkesses et les abkhases, en Georgie, en Armenie et en Crimee. Volume III, Paris.

## RELIGIOUS AND ARCHITECTURAL MONUMENTS IN YEREVAN REGION AS A MANIFESTATION OF ETHNIC AND CONFESSIONAL PROBLEMS

**A.S.Babazadeh**

**SUMMARY**

This article is an overview of religious and architectural monuments with ethno-confessional peculiarities that existed in the Yerevan region. Various historical sources and scientific literature materials have been used during the study, the history of the regional cultural landscape has been highlighted.

## РЕЛИГИОЗНЫЕ И АРХИТЕКТУРНЫЕ ПАМЯТНИКИ ЕРЕВАНСКОГО РЕГИОНА КАК ПРОЯВЛЕНИЕ ЭТНО-КОНФЕССИОНАЛЬНЫХ ПРОБЛЕМ

**А.С.Бабазаде**

**РЕЗЮМЕ**

В статье представлен обзор религиозных и архитектурных памятников с этноконфессиональными особенностями, существовавшими в Ереванском регионе. В ходе исследования изучены различные исторические источники и материалы научной литературы, определены особенности формирования историко-культурного ландшафта региона.

*Məqalə redaksiyaya 13 aprel 2026 tarixində daxil olmuş, 14 aprel 2026 tarixində isə çapa qəbul olunmuşdur.*

# MEMARLIQ VƏ DİZAYN ELMLƏRİ BÖLMƏSİ

# SECTION OF ARCHITECTURE AND DESIGN

**ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ**
**THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY**

**2026 - № 66**

UOT № 747
https://doi.org/10.65806/1682-9123.2026.66.21

# MÜASİR İCTİMAİ MƏKANLARDA İNTERYER DİZAYNI

**X.A.Məmmədova**
Odlar Yurdu Universiteti
Bakı, K.Rəhimov küçəsi 13
e-mail: khnmzr23@gmail.com

***Açar sözlər:*** interyer dizaynı, ictimai məkanlar, istifadəçi məmnuniyyəti, memarlıq, işıqlandırma
***Keywords:*** interior design, public spaces, user satisfaction, architecture, lighting
***Ключевые слова:*** дизайн интерьера, общественные пространства, удовлетворенность пользователя, архитектура, освещение

## Giriş

Müasir dövrdə ictimai məkanlar insan həyatının ayrılmaz hissəsinə çevrilib və onların funksionallığı, estetik görünüşü və istifadə rahatlığı cəmiyyətin sosial və mədəni inkişafını əks etdirir. İctimai məkanlar – parklar, kitabxanalar, kafelər, ticarət mərkəzləri, ofislər və digər geniş istifadə sahələri – insanların gündəlik həyatında qarşılıqlı əlaqə, istirahət və fəaliyyət üçün vacib yerlərdir. Bu səbəbdən belə məkanların dizaynı yalnız vizual cəlbediciliklə kifayətlənməməli, həm də istifadəçilərin rahatlığını, funksionallığını və ergonomik tələbləri nəzərə almalıdır.

Müasir interyer dizaynı insan mərkəzli olmalı və məkanın müxtəlif istifadəçilər üçün əlverişli olmasını təmin etməlidir. Məkanın planlaşdırılması, oturacaq və avadanlıqların düzgün yerləşdirilməsi, işıqlandırma və dekorativ elementlərin uyğun seçimi istifadəçilərin fəaliyyətini asanlaşdırır və onların məmnuniyyətini artırır. Bundan əlavə, estetik və funksional elementlərin balanslaşdırılması məkanın vizual və funksional keyfiyyətini eyni səviyyədə təmin edir, həmçinin müasir memarlıq prinsiplərinə uyğun bir mühit yaradır.

Bu baxımdan, müasir ictimai məkanlarda interyer dizaynı təkcə gözəl görünüş yaratmaq deyil, həm də istifadəçilərin rahatlığı və fəaliyyət səmərəliliyini təmin etmək kimi əsas məqsədləri özündə birləşdirir. Belə yanaşma həm memarlıq, həm də dizayn sahəsində yeni tələblərə cavab verir və ictimai məkanların insanların sosial və psixoloji ehtiyaclarını qarşılayan funksional və estetik mühit kimi formalaşmasına xidmət edir (Vischer, 2007).

Müasir ictimai məkanlarda interyer dizaynı bir neçə əsas istiqamətdə inkişaf edir. İlk növbədə komfort və funksionallıq dizaynın prioritetləri kimi çıxış edir. İstifadəçilər məkanlarda həm fəaliyyət göstərmək, həm də istirahət etmək imkanına malik olmalıdırlar. Bu məqsədlə oturacaqların, masaların və digər avadanlıqların düzgün yerləşdirilməsi, hərəkət üçün kifayət qədər sahə ayrılması və mühitin əlçatan olması vacibdir. Bu yanaşma yalnız fiziki rahatlığı deyil, həm də istifadəçilərin fəaliyyətlərinin effektivliyini artırır.

İkinci aspekt estetik və vizual cəlbedicilikdir. İnsanlar üçün cəlbedici mühit həm ruh halına təsir edir, həm də məkanın istifadəsini daha xoş edir. Bu baxımdan rəng seçimi, materialların keyfiyyəti, işıqlandırma və dekorativ elementlər dizaynın vacib hissələrinə

çevrilir. İşıqlandırma yalnız məkanı görmək üçün deyil, həm də atmosfer yaratmaq, diqqəti müəyyən sahələrə yönəltmək üçün istifadə olunur. Dekorativ və estetik elementlər isə məkanın özünəməxsus üslubunu formalaşdırır və istifadəçilərin məkanla emosional əlaqəsini gücləndirir.

Üçüncü aspekt fəaliyyət və sosial qarşılıqlı əlaqələr üçün uyğun mühitin yaradılmasıdır. İctimai məkanlar insanları bir araya gətirən, sosiallaşmağa və ünsiyyət qurmağa imkan verən yerlərdir. Bu baxımdan dizaynerlər istifadəçi axınını, qrup və fərdi fəaliyyət sahələrini, həmçinin məkanın çoxfunksiyalılığını nəzərə almalıdırlar. Müxtəlif yaş qrupları, fərqli fəaliyyət növləri və istifadəçilərin ehtiyacları dizaynın planlaşdırılmasında mühüm rol oynayır (Kim & de Dear, 2012).

Nəticə etibarilə, müasir ictimai məkanlarda interyer dizaynı komfort, funksionallıq, estetik cəlbedicilik və istifadəçi məmnuniyyətinin kompleks birləşməsindən ibarətdir. Bu yanaşma yalnız vizual gözəlliyi təmin etməklə kifayətlənmir, həm də insanların məkandan maksimum fayda əldə etməsinə, fəaliyyətlərini rahat və səmərəli şəkildə yerinə yetirməsinə xidmət edir.

## Əsas hissə

Müasir ictimai məkanlarda interyer dizaynının əsas məqsədi yalnız vizual estetik yaratmaq deyil, həm də istifadəçilərin rahatlığını və məkanın funksionallığını maksimum səviyyəyə çıxarmaqdır. Bu məqsədə nail olmaq üçün dizaynerlər məkanın planlaşdırılmasında bir neçə mühüm prinsipi nəzərə alırlar.

### 1. Məkanın funksional planlaşdırılması

İctimai məkanlarda fəaliyyətin rahat təşkili üçün hər sahə müəyyən məqsəd üçün ayrılır. Məsələn, kafelərdə oturma zonaları, keçid yolları və xidmət sahələri aydın şəkildə ayrılmalıdır. Kitabxanalar, ticarət mərkəzləri və ofislərdə isə fəaliyyət növünə uyğun zonaların yaradılması istifadəçilərin rahat hərəkətini və səmərəli işləməsini təmin edir. Məkanın çoxfunksiyalılığı da bu prinsiplərin vacib hissəsidir, çünki müasir ictimai məkanlarda fərqli qruplar və fərdi istifadəçilər eyni anda fəaliyyət göstərir.

### 2. İstifadəçi məmnuniyyətinə yönəlmiş dizayn

Müasir dizayn yanaşması insanların məkana olan münasibətini və komfortunu əsas götürür. İstifadəçilərin ehtiyacları nəzərə alınaraq oturacaqlar, masalar və digər avadanlıqlar düzgün yerləşdirilir, kifayət qədər hərəkət sahəsi təmin olunur və məkanın əlçatanlığı artırılır. Bu yanaşma istifadəçilərin məkanla emosional əlaqəsini gücləndirir və onların təcrübəsini pozitiv edir.

### 3. Estetik elementlərin rolu

İctimai məkanlarda rəng seçimi, materialların keyfiyyəti, işıqlandırma və dekorativ elementlər məkana vizual cəlbedicilik gətirir. İşıqlandırma məkanı həm praktik, həm də emosional baxımdan əlverişli edir; dekorativ elementlər və estetik detallar isə məkana unikal üslub qazandırır. Beləliklə, dizayn həm funksional, həm də estetik tələbləri balanslaşdırır.

### 4. Sosial qarşılıqlı əlaqənin təşkili

İctimai məkanların əsas funksiyalarından biri insanların bir araya gəlməsi, sosial-

laşması və ünsiyyət qurmasıdır. Bu baxımdan interyer dizaynı sosial qarşılıqlı əlaqəni dəstəkləməlidir. Məsələn, kafelərdə və ictimai mərkəzlərdə qrup fəaliyyətləri üçün uyğun sahələr yaradılmalı, həmçinin fərdi fəaliyyət üçün rahat zonalar təmin olunmalıdır. Bu yanaşma məkanın müxtəlif istifadəçi qrupları üçün əlçatan və faydalı olmasını təmin edir (Frontczak & Wargocki, 2011).

5. Müasir memarlıq və dizayn prinsiplərinə uyğunluq

Müasir ictimai məkanlarda interyer dizaynı yalnız funksionallığı və estetikliyi təmin etmir, həm də müasir memarlıq prinsiplərinə uyğun olaraq məkanın davamlı, əlçatan və istifadəçi dostu olmasını təmin edir. Məkanın forması, materialların seçimi və vizual harmoniyası bu prinsiplərə uyğun olmalıdır.

Beləliklə, müasir ictimai məkanlarda interyer dizaynı komfort, funksionallıq, estetik cəlbedicilik və sosial qarşılıqlı əlaqə prinsiplərinə əsaslanaraq, məkanı həm vizual cəhətdən cəlbedici, həm də istifadəyə rahat bir mühit halına gətirir. Bu yanaşma məkanda insanların rahat fəaliyyət göstərməsini, sosial əlaqələr qurmasını və məkan təcrübəsini maksimal dərəcədə artırır.

## Tədqiqat metodları

Müasir ictimai məkanlarda interyer dizaynının rahatlıq və istifadə imkanlarını öyrənmək üçün müxtəlif üsullardan istifadə olunur. Bu üsullar məkanın funksionallığını, komfortunu və estetik görünüşünü qiymətləndirməyə imkan verir.

Müşahidə ilə istifadəçilərin məkan daxilində hərəkətləri, oturma yerlərindən və fəaliyyət sahələrindən istifadəsi birbaşa izlənir. Tədqiqatçılar bu üsulla insanların məkana münasibətini, hansı sahələrdən daha çox istifadə etdiklərini və sosial qarşılıqlı əlaqələrini müəyyən edə bilirlər. Müşahidə həm açıq, həm də sistemli şəkildə aparıla bilər və istifadəçilərin davranış nümunələrini təhlil etməyə kömək edir.

Sorğu və anketlər istifadəçilərin məkanla bağlı fikirlərini toplamaq üçün geniş tətbiq olunur. Bu üsul vasitəsilə insanlar rahatlıq, funksionallıq, işıqlandırma, dekorativ elementlər və ümumi məmnuniyyət barədə məlumat verirlər. Toplanmış məlumatlar sadə statistik üsullarla təhlil edilir, nəticələr qrafiklər və cədvəllərlə göstərilir, istifadəçilərin təcrübəsi qiymətləndirilir.

Vizuallıq və fototəhlil məkanın estetik xüsusiyyətlərini öyrənməyə imkan verir. Bu üsulla rənglərin uyğunluğu, işıqlandırma səviyyəsi, materialların keyfiyyəti və dekorativ elementlərin məkanın ümumi görünüşünə təsiri qiymətləndirilir. Fototəhlil həm dizaynerlər, həm də tədqiqatçılar üçün vizual məlumat bazası rolunu oynayır.

Ekspert qiymətləndirməsi məkanın funksionallığını, rahatlığını və estetik cəlbediciliyini təhlil etmək üçün istifadə olunur. Interyer dizaynı üzrə peşəkarlar məkanı qiymətləndirir, istifadəçilərin ehtiyaclarını nəzərə alır və mövcud problemləri müəyyən edirlər. Bu üsul həm layihələndirmə mərhələsində, həm də mövcud məkanların təkmilləşdirilməsində əhəmiyyətlidir.

Analiz və təhlil toplanmış məlumatların daha dərindən öyrənilməsinə imkan verir. Sorğu və müşahidə nəticələri təhlil edilərək istifadəçi davranışları, rahatlıq səviyyəsi və məmnuniyyət göstəriciləri müəyyən edilir. Bu nəticələr dizayn qərarlarının düzgün və əsaslı olmasına kömək edir.

Fərqli ictimai məkanların öyrənilməsi geniş istifadə olunan digər üsuldur. Müxtəlif şəhərlərdəki kafelər, kitabxanalar, ticarət mərkəzləri və ofislər təhlil edilir. Uğurlu dizayn

nümunələri müəyyən olunur, yaxşı tərəflər seçilir və gələcək layihələrdə tətbiq olunur.

Bu metodların birlikdə tətbiqi məkanın həm rahat, həm funksional, həm də estetik baxımdan yüksək səviyyədə olmasını təmin edir. Hər bir üsul istifadəçi təcrübəsini anlamağa və interyer dizaynını insanların ehtiyaclarına uyğunlaşdırmağa kömək edir (Goyal et al., 2015).

Müasir ictimai məkanlarda interyer dizaynı insanların gündəlik həyatında önəmli rol oynayır və onun funksionallığı, komfortu, estetik görünüşü və istifadə imkanları insanların məkanla münasibətini birbaşa təsir edir. Yaxşı dizayn edilmiş ictimai məkan istifadəçilərə rahat hərəkət etmək, fəaliyyət göstərmək və sosial qarşılıqlı əlaqələr qurmaq imkanı verir. Məkanın düzgün planlaşdırılması, oturacaqların, masaların və digər avadanlıqların yerləşdirilməsi, işıqlandırma və dekorativ elementlərin seçimi məkana həm vizual cəlbedicilik, həm də funksional uyğunluq qazandırır.

Tədqiqatlar göstərir ki, müasir interyer dizaynı yalnız estetik görünüşlə məhdudlaşmır. İstifadəçilərin davranışlarını müşahidə etmək, sorğu və anketlər aparmaq, fototəhlil və vizual müşahidələr keçirmək, ekspert rəylərini öyrənmək və real məkan nümunələrini araşdırmaq dizaynın effektivliyini qiymətləndirməyə imkan verir. Bu üsullar məkanın rahatlığını və istifadəyə əlverişliliyini artırmaq üçün elmi əsaslarla qərarlar qəbul etməyə kömək edir.

Müasir ictimai məkanlarda dizaynın əsas prinsiplərindən biri istifadəçi mərkəzli yanaşmadır. Məkan insanların ehtiyaclarına uyğun olmalı, fəaliyyətlərini asanlaşdırmalı və sosial qarşılıqlı əlaqələrini dəstəkləməlidir. Eyni zamanda estetik elementlər məkana vizual gözəllik qatır və istifadəçilərin məkanda qalmaq istəklərini artırır. İşıqlandırma, rəng harmoniyası və dekorativ elementlərin balanslı tətbiqi həm vizual, həm də funksional tələbləri qarşılamağa imkan verir.

Beləliklə, müasir ictimai məkanlarda interyer dizaynı yalnız gözəl görünmək üçün deyil, həm də istifadəçilərin rahat və səmərəli fəaliyyət göstərməsi üçün nəzərdə tutulur. Yaxşı planlaşdırılmış və estetik baxımdan cəlbedici məkan insanların məkana münasibətini pozitiv edir, sosial fəaliyyətlərini dəstəkləyir və ümumi məmnuniyyət səviyyəsini artırır (Martinez-Lera et al., 2012).

Nəticədə, interyer dizaynı ictimai məkanlarda insanların həyat keyfiyyətini artıran, funksionallığı təmin edən, sosial qarşılıqlı əlaqələri dəstəkləyən və məkana estetik dəyər gətirən əsas amil kimi qiymətləndirilir. Müasir dizayn yanaşmaları göstərir ki, məkanın həm komfortlu, həm funksional, həm də gözəl olması tədqiqat və planlaşdırmanın kompleks yanaşmasını tələb edir.

## Nəticə

Müasir ictimai məkanlarda interyer dizaynının inkişafında əsas məqsəd istifadəçi təcrübəsini maksimum dərəcədə yaxşılaşdırmaqdır. Məkan yalnız gözəl görünmək üçün deyil, həm də insanların müxtəlif fəaliyyətlərini rahat və səmərəli şəkildə yerinə yetirə bilməsi üçün qurulmalıdır. Bu baxımdan dizayn prosesində məkanın funksionallığı, komfortu, əlçatanlığı və estetik görünüşü eyni dərəcədə önəm daşıyır.

Tədqiqatlar göstərir ki, məkanın funksional planlaşdırılması istifadəçilərin hərəkətini və fəaliyyətini asanlaşdırır. Məsələn, oturacaqların, masaların və digər avadanlıqların düzgün yerləşdirilməsi insanların həm tək, həm də qrup şəklində fəaliyyət göstərməsini təmin edir. Hərəkət üçün kifayət qədər sahə ayrılması və giriş-çıxışların rahat təşkili məkanı daha əlverişli edir. Bu, həm də sosial qarşılıqlı əlaqələrin güclənməsinə yar-

dımçı olur.

Tədqiqat nəticələri estetik elementlərin rolunu da göstərir. Rəng seçimi, işıqlandırma, materialların keyfiyyəti və dekorativ detallar məkanın vizual cəlbediciliyini artırır və istifadəçilərin məkanda qalmaq istəyini gücləndirir. İşıqlandırma yalnız məkanı görmək üçün deyil, həm də atmosfer yaratmaq və diqqəti müəyyən sahələrə yönəltmək üçün tətbiq olunur. Dekorativ elementlər məkanın özünəməxsus üslubunu formalaşdırır və istifadəçilərin emosional təcrübəsini zənginləşdirir.

İctimai məkanların sosial funksiyasını araşdıran tədqiqatlar göstərir ki, insanlar məkanlarda qarşılıqlı əlaqə qurur, sosiallaşır və birgə fəaliyyət göstərirlər. Buna görə dizayn istifadəçilərin müxtəlif ehtiyaclarını nəzərə almalı, fərdi fəaliyyət üçün zonalar yaratmalı və qrup fəaliyyətləri üçün uyğun sahələr təmin etməlidir. Müxtəlif yaş qrupları və fəaliyyət növləri nəzərə alınmalı, məkanın çoxfunksiyalılığı təmin edilməlidir.

Tədqiqat metodlarının tətbiqi dizaynın səmərəliliyini artırır. Müşahidə, sorğu, fototəhlil və ekspert rəyləri vasitəsilə məkanın rahatlığı, funksionallığı və estetik keyfiyyəti qiymətləndirilir. Real məkan nümunələrinin öyrənilməsi və uğurlu dizayn nümunələrinin seçilməsi isə gələcək layihələr üçün əsaslı tövsiyələr hazırlamağa imkan verir.

Beləliklə, müasir ictimai məkanlarda interyer dizaynı kompleks və çoxsahəli tədqiqat yanaşmasını tələb edir. Məkan həm komfortlu, həm funksional, həm estetik, həm də sosial qarşılıqlı əlaqələr üçün əlverişli olmalıdır. Bu yanaşma insanların məkana münasibətini pozitiv edir, onların fəaliyyətini asanlaşdırır və ümumi məmnuniyyətini artırır. Nəticədə interyer dizaynı yalnız vizual gözəllik yaratmaqla kifayətlənmir, həm də ictimai məkanların tədqiqat nəticələrinə əsaslanan, istifadəçi təcrübəsini zənginləşdirən və sosial-funksional tələblərə cavab verən əsas amil kimi çıxış edir.

**Ədəbiyyat**


1. Kim, J., & de Dear, R. (2012). Nonlinear relationships between individual IEQ factors and overall workspace satisfaction. *Building and Environment*, Vol. 49, pp. 33–40.
2. Frontczak, M., & Wargocki, P. (2011). Literature survey on how different factors influence human comfort in indoor environments. *Building and Environment*, Vol. 46, No. 4, pp. 922–937.
3. Vischer, J.C. (2007). The effects of the physical environment on job performance. *Building Research & Information*, Vol. 35, No. 2, pp. 175–187.
4. Goyal, S., Barooah, P. & Middelkoop, T. (2015). Experimental study of occupancy-based control of HVAC zones. *Applied Energy,* Vol. 140, pp. 75–84.
5. Martinez-Lera, P., Hallez, R., Bériot, H. & Schram, C. (2012). Computation of sound in a simplified HVAC duct based on aerodynamic pressure. In *18th AIAA/CEAS Aeroacoustics Conference* (33rd AIAA Aeroacoustics Conference), pp. 2070.

## INTERIOR DESIGN IN MODERN PUBLIC SPACES

**H.A.Mamedova**

**SUMMARY**

This work deals with the problems of interior design in modern public spaces. Proper space planning and ergonomic arrangement facilitate users' movement and activities, increasing their satisfaction, while the lighting, decoration and aesthetic elements enhance the visual appeal of the space maintaining a balance with functional requirements, the author claims.

## ДИЗАЙН ИНТЕРЬЕРА В СОВРЕМЕННЫХ ОБЩЕСТВЕННЫХ ПРОСТРАНСТВАХ

**Х.А.Мамедова**

**РЕЗЮМЕ**

Статья посвящена проблемам дизайна интерьера в современных общественных пространствах. По мнению автора, правильное планирование пространства и эргономичное расположение облегчают передвижение и деятельность пользователей, повышая их удовлетворенность, а освещение, декор и эстетические элементы усиливают визуальную привлекательность пространства, обеспечивая баланс с функциональными требованиями.

*Məqalə redaksiyaya 1 aprel 2026 tarixində daxil olmuş, 14 aprel 2026 tarixində isə çapa qəbul olunmuşdur.*

# M Ü N D Ə R İ C A T

## R İ Y A Z İ Y Y A T, İ N F O R M A T İ K A V Ə T E X N İ K İ E L M L Ə R B Ö L M Ə S İ

**K.N.Mamedzadeh.** Development and validation of a digital twin for a wastewater treatment bioreactor using hybrid intelligent models…………………………………………… 6
**N.İ.Əliyev.** IoT əsaslı ağıllı ev sistemlərinin qurulması və üstünlükləri.............................. 13
**T.T.Sufanzadə.** Enerji sistemlərində zaman sıralarında statistik və kontekstual anomaliyaların çoxsəviyyəli təsnifatı.......................................................................................... 18

## İ Q T İ S A D İ Y Y A T, T U R İ Z M V Ə A Q R A R E L M L Ə R B Ö L M Ə S İ

**J.A.Aliyev.** Economic innovation and development in Middle East countries.................... 26
**N.F.Əliyev.** Dövlət idarəçiliyinin effektivliyinin artırılmasında maliyyə nəzarətinin rolu və inkişaf metodları....................................................................................................... 33
**E.Y.Məmmədov, S.B.Cəlilova.** Gələcəyin bankçılıq strategiyaları: marketinqin innovativ təsiri ilə yeni iqtisadi perspektivlər.................................................................................. 40
**A.E.Həsənova, T.V.Baloğlanova, M.M.Mehdiyev.** Aqrar sahədə rəqəmsal iqtisadiyyatın formalaşması və inkişaf prioritetləri.............................................................................. 45
**A.İ.Yusifov, E.H.Mahmudov, H.S.İsmayılov.** Aqrar sahədə “ağıllı” texnologiyalar və investisiya cəlbediciliyinin yüksəldilməsi........................................................................ 50

## T İ B B, P S İ X O L O G İ Y A V Ə T Ə B İ Ə T E L M L Ə R İ B Ö L M Ə S İ

**М.А.Агаева.** Преждевременное усыхание субтропических плодовых культур……... 56
**T.F.Qurbanova.** Qan parazitlərinin sahibin eritrositlərinə göstərdiyi morfoloji təsir (müxtəlif reptililərin misalında)............................................................................................ 62

## H Ü Q U Q, T A R İ X V Ə S İ Y A S İ E L M L Ə R B Ö L M Ə S İ

**E.X.Mansurov.** Mülki hüquqda zaminlik institutu: hüquqi təbiəti və bəzi aspektləri.......... 72
**T.B.Hacıbəyli.** Adam oğurluğu cinayətinə görə məsuliyyətin beynəlxalq və milli hüquqi aspektləri.................................................................................................................... 79
**S.M.Quliyev.** 2025-ci il 8 avqust Vaşinqton razılaşması və Zəngəzur dəhlizinin beynəlxalq kontekstdə mövqeyinin artması.............................................................................. 86
**R.M.Məmmədov.** Azərbaycan və Türkiyə arasında humanitar əməkdaşlığın təşkilati mexanizmləri................................................................................................................. 92
**F.A.Rustamzadeh.** Urban growth and the development of trade centers in the Safavid state during the reign of Shah Tahmasp I.......................................................................... 99
**Ü.Ç.Qasımlı.** İnkasso üzrə hesablaşmaların mülki-hüquqi tənzimlənməsi.......................... 105
**Ş.M.Yusifov.** Azərbaycan Respublikasında vərəsəlik hüququnun konstitusion-hüquqi əsasları.................................................................................................................... 113
**Z.N.Baydarov.** Səlcuqlar dövründə Azərbaycanın sosial-mədəni həyatı: Türkiyə tarixşünaslığında konseptual yanaşmalar............................................................................. 126
**H.B.Hacıyev.** Elektron hökumətin formalaşması üzrə innovativ fəaliyyətin hüquqi aspektləri.................................................................................................................. 131

**Ə.S.Babazadə.** İrəvan bölgəsində dini-memarlıq abidələri etno-konfessional məsələlərin təzahürü kimi........................................................................................................ 136

M E M A R L I Q  V Ə  D İ Z A Y N  E L M L Ə R İ  B Ö L M Ə S İ

**X.A.Məmmədova.** Müasir ictimai məkanlarda interyer dizaynı........................................... 144

# CONTENTS

## SECTION OF MATHEMATICS, INFORMATICS AND TECHNICAL SCIENCES


**K.N.Mamedzadeh.** Development and validation of a digital twin for a wastewater treatment bioreactor using hybrid intelligent models……………………………….………...…… 6

**N.I.Aliyev.** Construction of IoT-based smart home systems and their benefits (*in Azeri*)…. 13

**T.T.Sufanzadeh.** Multi-level classification of statistical and contextual anomalies in energy system time series (*in Azeri*)……………………………………………………….. 18


## SECTION OF ECONOMICS, TOURISM AND AGRARIAN SCIENCES


**J.A.Aliyev.** Economic innovation and development in Middle East countries..................... 26

**N.F.Aliyev.** The role of financial control in increased efficiency of public administration and the methods of its development (*in Azeri*)…………………………………………….. 33

**E.Y.Mamedov, S.B.Jalilova.** Future banking strategies: new economic perspectives under the influence of innovative marketing (*in Azeri*)……………………………………….. 40

**A.E.Hasanova, T.V.Baloghlanova, M.M.Mehdiyev.** Formation of digital economy in agricultural sector and development priorities (*in Azeri*)…………………………………... 45

**A.I.Yusifov, E.H.Mahmudov, H.S.Ismayilov.** "Smart" technologies and enhancing investment attractiveness in the agrarian sector (*in Azeri*)…………………………………… 50


## SECTION OF MEDICINE, PSYCHOLOGY AND NATURAL SCIENCES


**M.A.Agayeva.** Premature drying of subtropical fruit crops (*in Russian*)………………….. 56

**T.F.Gurbanova.** Morphological changes in host erythrocytes caused by blood parasites (a comparative study in different reptiles) (*in Azeri*)…………………………………………. 62


## SECTION OF LAW, HISTORY AND POLITICAL SCIENCE


**E.Kh.Mansurov.** The institution of suretyship in civil law: its legal nature and some aspects (*in Azeri*)………………………………………………………………………… 72

**T.B.Hajibeyli.** International and national legal aspects of liability for kidnapping (*in Azeri*)…………………………………………………………………………........ 79

**S.M.Guliyev.** The August 8, 2025 Washington agreement and the growing international significance of the Zangezur corridor (*in Azeri*)…………………………………………… 86

**R.M.Mamedov.** Institutional arrangements of humanitarian cooperation between Azerbaijan and Turkey (*in Azeri*)………………………………………………………... 92

**F.A.Rustamzadeh.** Urban growth and the development of trade centers in the Safavid state during the reign of Shah Tahmasp I......................................................................... 99

**U.Ch.Gasimly.** Civil law regulation of collection payments (*in Azeri*)…………………… 105

**Sh.M.Yusifov.** Constitutional and legal foundations of inheritance law in the Republic of Azerbaijan (*in Azeri*)……………………………………………………..……… 113

**Z.N.Baydarov.** The socio-cultural life of Azerbaijan during the Seljuk period: conceptual approaches in Turkish historiography (*in Azeri*)…………………….......................... 126

**H.B.Hajiyev.** Legal aspects of innovative activities on the formation of electronic government (*in Azeri*)........................................................................................................ 131
**A.S.Babazadeh.** Religious and architectural monuments in Yerevan region as a manifestation of ethnic and confessional problems (*in Azeri*)........................................... 136

SECTION OF ARCHITECTURE AND DESIGN

**H.A.Mamedova.** Interior design in modern public spaces (*in Azeri*).......................... 144

# “ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ” JURNALINA TƏQDİM OLUNAN MƏQALƏLƏRİN TƏRTİBAT QAYDALARI

1. Jurnalda nəşr olunmaq üçün təqdim olunan məqalə ilk öncə plagiat yoxlanışına, daha sonra isə 2 gizli rəyə göndərilir. Hər iki rəyçidən məqalə ilə bağlı müsbət rəy gələrsə, məqalə redaksiya heyəti tərəfindən nəzərdən keçirilir və jurnalın tələblərinə tam cavab verdiyi təqdirdə məqalə çapa qəbul olunur.

2. Jurnala təqdim olunan məqalənin strukturu ümumdünya miqyasında elmi məqalələrə şamil edilən tələblərə cavab verməlidir. Yəni, məqalədə toxunulan problem ümumi şəkildə müəyyənləşdirilməli, onun mühüm elmi və praktiki məsələlərlə olan əlaqəsi göstərilməli, müəllifin bu problem üzrə istinad etdiyi ən son işlərin təhlili verilməli, məqalənin həsr olunduğu problemin həll olunmamış hissələri, habelə alınan nəticələr və onların perspektivləri göstərilməlidir.

3. Mövzusunun səthi və tezissayağı olduğu, elmi baxımdan kifayət qədər əsaslandırılmadığı məqalələr qəbul edilmir.

4. Məqalənin başlığı qısa olmalı, məzmunu əks etdirməli və 100 işarədən artıq olmamalıdır. Məqaləyə üç dildə (Azərbaycan, ingilis və rus dillərində) açar sözlər və UOT indeksi əlavə olunmalıdır (UOT indeksinin dəqiqliyinə görə redaksiya heyəti məsuliyyət daşımır). Azərbaycan dilində təqdim olunan məqalənin sonunda ingilis və rus dillərində, ingilis dilində təqdim olunan məqalənin sonunda Azərbaycan və rus dillərində, rus dilində təqdim olunan məqalənin sonunda Azərbaycan və ingilis dillərində eyni məzmunlu xülasələr verilməlidir.

5. Məqalə elektron variantda journal@oyu.edu.az ünvanına göndərilməlidir.

6. Məqalədə digər mənbələrə edilən istinadlarda və istifadə olunan ədəbiyyat siyahısının hazırlanmasında APA standartları rəhbər tutulmalıdır (bax https://oyu.edu.az/uploads/elmi%20jurnal%20tertibat.pdf).

7. Məqalənin mətni Microsoft Word proqramında Times New Roman şrifti ilə yığılmalıdır. Şriftin ölçüsü 12, sətirlərarası interval 1 olmalıdır. Sol və sağ tərəfdən məsafə 2,8 sm, yuxarı və aşağıdan isə 3 sm olmalıdır. Birinci sətirdəki boşluq 1,25 sm, düstur, rəsm və cədvəllərdə interval məsafələri (yuxarı və aşağıdan) 6 punkt olmalıdır. Şəkillər (rəsmlər) 11 ölçülü rəsmaltı yazılarla müşayiət olunmalı və mətnə skan edilmiş şəkildə (yəni skannerdən keçirilmiş şəkildə) daxil edilməlidir. Cədvəllərdə şriftin ölçüsü 11 olmalıdır. Düsturlar Word Equation redaktorunda yığılmalıdır.

8. Təqdim olunun məqalə 5-15 səhifə həcmində olmalıdır. Həcmi 15 səhifəni aşan məqalə yalnız redaksiya heyətinin razılığı ilə qəbul olunur. Mətnin qrammatik cəhətdən düzgünlüyü müəllif tərəfindən yoxlanılmalıdır.

9. Qoşma səhifədə müəllifin adı, soyadı, atasının adı, elmi dərəcəsi (varsa), iş yeri, iş yerinin ünvanı, müəllifin e-mail ünvanı və əlaqə telefonları göstərilməli, habelə əlyazmanın əvvəllər heç bir elmi nəşrdə dərc olunmadığı və elmin hansı sahəsinə aid olduğu qeyd olunmalıdır.

*əlaqə telefonu: (+994 55) 465 85 27*
*email: journal@oyu.edu.az*
*ünvan: Bakı AZ1072, Koroğlu Rəhimov küçəsi 13, Odlar Yurdu Universiteti, Ümumi şöbə*
*http://www.journal.oyu.edu.az*

## GUIDE FOR AUTHORS

1. Every newly submitted article is first checked for plagiarism, and then sent to two anonymous reviewers. If positively assessed by both reviewers, the article is then considered by the editorial staff and, in case of full compliance with journal guidelines, the article is accepted for publication.
2. The contents of an article must meet generally accepted international scientific norms. The aim and the purpose of the article as well as its feasibility must be clearly indicated. It should deal with innovative ideas, developments, directions, misdirections, areas which need to be explored, future outlook, prior errors, problems, personnel, funding, or trends in the chosen field.
3. The manuscript with incomplete coverage of the subject will not be accepted.
4. The title of the article must be concise not to exceed 100 characters and be in full conformity with the contents. The article should include keywords and subject index (UDC). Also, an abstract is required consisting of 50-100 words.
5. Authors are advised to submit their articles electronically to journal@oyu.edu.az.
6. APA citation style should be used for in-text citations and reference list (see https://oyu.edu.az/uploads/elmi%20jurnal%20tertibat.pdf).
7. Microsoft Word is the only preferred input program. The font used should be Times New Roman of 12 points. Text must be single spaced with 2.8 cm left/right margins and 3 cm top/bottom margins. Figures must be scanned and captioned in 11-points Times New Roman. Formulas should be input using Word Equation. And tabular data should be input using 11-points Times New Roman.
8. Authors are encouraged to submit articles ranging from 5-15 pages (including appendixes, references, figures and tables). Sanction of editorial board is required for the acceptance of manuscripts exceeding 15 pages. The author should check the text for grammar.
9. Each article should include title, name, patronymic, current affiliation, postal address, e-mail and phone numbers of the author who should also provide a written evidence that the presented manuscript has been never published before. Also, the author must indicate the field of science to which his (her) manuscript belongs.

*Tel.: (+994 55) 465 85 27*
*email: journal@oyu.edu.az*
*Postal Address: General Department, Odlar Yurdu University, 13 K.Rahimov St., Baku AZ1072, Azerbaijan*
*http://www.journal.oyu.edu.az*

## ПРАВИЛА ДЛЯ АВТОРОВ

1. Каждая новая статья, поступившая в редакцию, сперва отправляется на проверку на плагиат, а потом пересылается двум независимым рецензентам для экспертной оценки. Если мнение обоих рецензентов о статье положительно, статья рассматривается редколлегией журнала и, в случае полного соответствия требованиям журнала, статья принимается к публикации.
2. Структура представляемой в журнал статьи должна отвечать общемировым требованиям к научным статьям. То есть, статья должна включать определение проблемы в общем виде, её связь с важными научными и практическими задачами; анализ последних достижений и публикаций по данной проблеме, на которые опирается автор; выделение нерешённых частей проблемы, которым посвящается данная статья; формирование целей статьи (постановка задачи); содержание основного исследования с полным обоснованием полученных научных результатов; выводы из проведенного исследования и перспективы в данном направлении.
3. Рукопись, в которой материал изложен поверхностно, тезисно, без достаточного научного обоснования - не принимается.
4. Заголовок должен быть кратким, отражать содержание статьи и не превышать 100 знаков. Статья должна содержать ключевые слова на трёх языках (азербайджанском, английском и русском) и индекс УДК. Если язык статьи – азербайджанский, в конце приводятся идентичные по содержанию резюме на английском и русском языках. Аналогично, англоязычная статья сопровождается азербайджанским и русским, а русскоязычная – азербайджанским и английским резюме (идентичного содержания).
5. Рукопись присылается в редакцию журнала в электронном варианте по адресу journal@oyu.edu.az.
6. Для внутритекстовых ссылок и списка литературы должен быть использован стиль APA (см. https://oyu.edu.az/uploads/elmi%20jurnal%20tertibat.pdf).
7. Текст статьи должен быть набран в программе Microsoft Word шрифтом Times New Roman 12 размера с одиночным междустрочным интервалом. Верхние и нижние поля – 3 см, левые и правые – 2.8 см. Отступы: первой строки (абзац) – 1,25 см, интервалы (выше и ниже) от формул, рисунков, таблиц – 6 п.т. Рисунки и фото сопровождаются подрисуночными текстами в шрифте Times New Roman 11 размера и вставляются в текст в отсканированном виде. Формулы набираются в редакторе Word Equation с полуторным междустрочным интервалом.
8. Объём представляемой статьи должен быть в пределах 5-15 страниц. Статьи большего объема принимаются только по согласованию с редколлегией журнала. Текст должен быть проверен на грамматические ошибки, вычитан и просмотрен автором.
9. На отдельной странице указываются фамилии, инициалы автора, учёная степень (если имеется), место работы, почтовый адрес места работы, а также электронный адрес и контактные телефоны автора. В сопроводительном письме следует указать, что рукопись ранее нигде не публиковалась. Также необходимо указать принадлежность статьи к той или иной научной сфере.

*контактный телефон редакции: (+994 55) 465 85 27*
*email: journal@oyu.edu.az*
*адрес: Баку AZ1072, ул.Кёроглу Рахимова 13, Университет Одлар Юрду, Общий отдел*
*http://www.journal.oyu.edu.az*

Jurnal Azərbaycan Respublikası Mətbuat və İnformasiya
Nazirliyində qeydiyyatdan keçmişdir

This Journal is registered at the Ministry of Press
and Information of the Republic of Azerbaijan

********

Odlar Yurdu Universitetinin poliqrafiya mərkəzində çap olunmuşdur

Printed in Odlar Yurdu University Publishing Center

********

Lisenziya №138
10 fevral 1999-cu il

License No. 138
February 10, 1999

---

Yığılmağa verilmişdir: 15.05.2026. Çapa imzalanmışdır: 20.05.2026
Formatı: 60x84 1/8. Həcmi: 20 ç.v. Ofset çap üsulu. Tiraj: 100

Sent for print: 15.05.2026. Authorized for printing: 20.05.2026
Format: 60x84 1/8. Volume: 20 p.l. Offset printing. 100 copies